## YENİYETMƏLƏR ÜÇÜN

# YOL

# AZUQƏSİ

***Nasir Mukari***

***Əqidə üsulları, əxlaq və***
**Ayətullah-üzma Musəvi Ərdəbilinin**
***fətvalarına əsasən din hökmləri***

# Əqidə üsulları, əxlaq və Ayətullah-üzma Musəvi Ərdəbilinin fətvalarına əsasən din hökmləri

**Kitabın adı /** Yeniyetmələr üçün yol azuqəsi
**Müəllif /** Nasir Mukari

**Website:** www.ardebili.org
**E – Mail: mousavi@ardebili.org**

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi **DK 470/B** saylı 30 sentyabr 2011-ci il tarixli məktubu ilə kitabın çap olunmasına razılıq verilmişdir.*




***BİSMİLLAHİR RƏHMANİR RƏHİM***

***İnsanlıq və təkamül yolunda agahlıq və mərifətlə addım atmaq istəyən əziz yeniyetmələrə, eləcə də, bu günün və sabahın ümidi olan uşaqların, yeniyetmələrin və gənclərin mənəvi təkamülü üçün öz səylərini əsirgəməyənlərə, xüsusi ilə sevgili övladların təlim-tərbiyəsində güzəşt, fədakarlıq, agahlıq, canıyananlıq və mehribanlıqla çalışan ata-analara təqdim olunur.***

# Oxuculara

*Varlıq aləmini cana gətirən,*
*Dillərdə hikmətli sözlər bitirən,*
*Xəta örtən, əl tutan, bağışlayan*
*Böyük, qadir Xudavəndin adından.*[1]

İmam Sadiq (ə) buyurur: "Batil düşüncə sahibləri sizin gənc nəslin sorağına gəlməmiş onlara hədis (və dini maarif) öyrədin."[2]

İnsan kiçik həcmində böyük dünya xülasələşmiş mürəkkəb bir varlıqdır. O əvvəla bu təbiət aləminə məxsus cism, maddədən pay almışdır. İkincisi, onun varlığında maddi aləmdən üstün nəfs və ruh mövcuddur. Üçüncüsü, insan ağıl və şüura malikdir, üstün bir düşüncə sahibidir. Allahın bu şərafətli məxluqu təkcə öz maddi cismində xülasələşməmişdir, uca ruhani mərtəbələrə malikdir. İnsanın ruhi ehtiyaclarının da çeşidli mərtəbələri vardır. O, Allahdan yardım diləmək, səmimi təlaşlar, ciddi əzm və iradə ilə mövcud ehtiyacları aradan qaldırmaq üçün addım atmalıdır. Mövzunun aydınlaşması üçün münasib olar ki, müxtəsər şəkildə insan vücudunun müxtəlif mərhələlərini nəzərdən keçirək. Uyğun mərhələlər bunlardır:

1. İnsan vücudunun ən ali mərhələsi olan təfəkkür və düşüncə mərhələsi; insan düşüncəli bir mövcuddur, hər bir məsələni özü üçün müəyyənləşdirir, daxilindəki həqiqət təşnəsini söndürmək üçün qarşıya çıxan suallara cavab axtarır. İnsan varlıq aləminin Xaliqi, yaranışın başlanğıcı və sonu, öz varlığı, aqibəti və bu kimi mövzular barədə düşünür. İnsanın

*1. Sədi, "Bustan", kitabının müqəddiməsi, s. 33*
*2. Hürr Amili, "Vəsailuş-şiə", Alul-beyt çapı, c. 17, s. 331, hədis 14*

dünyagörüşü və əqidə əsasları ilə bağlı suallara cavab tapmağa kömək edən iki elm var: fəlsəfə və kəlam elmləri.

2. İnsan vücudunun orta mərhələsi hisslər, istəklər və meyillər mərhələsidir. Aydın məsələdir ki, insanın çeşidli əxlaqi meyilləri və sifətləri var. Məsələn, qəzəb kimi hisslər ifrata, məhəbbət kimi hisslər təfritə meyillidir. Deməк, insan nəfs istəkləri arasında tarazlıq yaradacaq, onu orta yola yönəldəcək bir vasitəyə ehtiyaclıdır. Çünki ifrat və təfrit kimi meyillər bütün sifət və ruhiyyələrə münasibətdə zərərli və təhlükəlidir. İnsan vücudunun bu mərhələsində əxlaq elminin mühüm rolu var. Əxlaq elmi insana sifətlər və ruhiyyələr arasında tarazlıq yaratmaq istiqamətində addım atmağı öyrədir.

3. İnsan vücudunun ən aşağı mərhələsi bədən üzvləri mərhələsidir; İslam dininin insan üçün müəyyənləşdirdiyi bəzi vəzifələr onun bədən üzvlərinə aiddir. Məsələn, insan Allaha yaxınlaşmaq üçün namaz qılmalıdır. Namazın isə müqəddimələri var. Məsələn, namaz qılmaqdan ötrü dəstəmaz almaq və ya zəruri olduqda qüsl verməк lazımdır. Bəs namaz necə qılınmalıdır? Dəstəmaz və ya qüsldə bədən üzvləri hansı həddə yuyulmalıdır? Bu məqamda fiqh və əhkam elmi insanın köməyinə gəlir, bu sahədəki mövcud sualları cavablandırır.

İnsan vücudundakı uyğun üç mərhələni və cəmiyyətimizin böyük bir hissəsinin gənclərdən təşkil olunduğunu nəzərə alsaq, yazıçılar və mədəniyyət sahəsində xidmət göstərən insanlardan bu nəslin istedadlarının çiçəklənməsi və onların İslam maarifi ilə tanış olması üçün ciddi və səmimi təlaşlar gözləməliyik. Gənc nəsil bu məmləkətin gələcəyidir. Onların düşüncə və mənəvi ehtiyaclarının məntiqi və sadə bir dillə aradan qaldırılması üçün səy göstərilməlidir.

Bu məqsədlə müəllif əziz yeniyetmələrin İslam maarifinin əsasları ilə tanışlığı və onların bu sahədə ehtiyaclarının cavablandırılması üçün əqidələr, əxlaq və əhkam hissələrindən ibarət hazırkı kitabı tərtib etmişdir.

Öncə də belə bir kitab hazırlanıb oxuculara təqdim olunmuşdu. Böyük ustad cənab Ayətullah-üzma Musəvi Ərdəbilinin baxışları və fətvaları əsasında tərtib olunmuş hazırkı kitab isə başqa bir üslubda hazırlanaraq əziz yeniyetmələrin ixtiyarına verilir.

Bu məcmuənin hazırlanmasında öz həmkarlığını və tövsiyələrini əsirgəməmiş əzizlərə, xüsusilə cənab Məcid Mərdaniyə zəhmətlərinə görə təşəkkür edirik.

Ümid edirik ki, Allah-taala bu əsəri insaniyyət və kamillik yolunda gənc nəsil üçün yol azuqəsi buyursun, onlara tövfiq və yardım əta etsin ki, öz mütaliələri ilə insaniyyət nemətindən bəhrələnsinlər, öz gələcəklərini qurmaq üçün İslam elmləri və maarifindən faydalansınlar.

Hicri-şəmsi 1386-cı il, (2007 m), payız
Qum, Nasir Mukari

*Birinci hissə*

# Əqidə əsasları və dini inanclar

# Birinci fəsil

## *Dinlə tanışlıq*

Din insanların bu dünyada yaxşı yaşayış və axirət evində əbədi səadəti üçün Allah tərəfindən təqdim olunmuş kamil proqramdır. Şübhəsiz ki, insanların hidayəti (doğru yola sövqü) və xoşbəxtliyi üçün ən kamil proqram İslam peyğəmbəri (s) vasitəsilə hədiyyə olunmuşdur. Bu proqram insanı varlıq aləminin həqiqətləri ilə tanış edir.

Din və Allaha iman problemlərlə qarşılaşmış insan üçün ən etibarlı sığınacaqdır. İnsana izzət və böyüklük verən din və imandır. İslamın dini proqramlarından daha yaxşı və daha çox istifadə etmək istiqamətində ilk addım bu proqramlarla kamil şəkildə tanış olmaqdır.

İslam dini elm və təhsilə xüsusi əhəmiyyət verir. Hər bir müsəlman dindarlıqla yanaşı agah və mərifət sahibi olmalıdır. Qurani-məcid qısa və mənalı bir cümlədə buyurur: “Kor və cahil insan görən və agah insanla birdirmi?!”[1]

İmam Sadiq (ə) buyurur: “Dini məsələlərin dərkində dərinə varın. Dində dərinliyə varmayan və onu anlamaq üçün çalışmayan kəs bədəvi ərəblər kimi qalacaq.”[2]

**Sual:** Elm və təhsil dedikdə yalnız dini məsələləri öyrənməkmi nəzərdə tutulur? İslamda digər elmlərə yer

---

*1. Surə 6, “Ənam”, ayə 50*
*2. Məclisi, “Biharul-ənvar”, Beyrut çapı, c. 1, s. 215, hədis 19*

verilmirmi? Məsələn, dində astronomiya, geologiya, botanika, zoologiya kimi elmlər dəyərləndirilirmi?

**Cavab:** İnsanın hidayət və qurtuluşunda rol oynayan, onun İslam baxımından maddi və mənəvi ehtiyaclarının ödənməsinə kömək olan istənilən bir elm İslam dinində dəyərləndirilir. Olsun ki, həzrət Peyğəmbərin (s) nəql edəcəyimiz buyuruğu uyğun nöqtəni təsdiqləsin. Həzrət (s) buyurur: “Çində olsa belə elm öyrənin.”[1] Çin əhlinin müsəlman olmamasından belə bir qənaətə gəlmək olar ki, bəşəriyyət üçün faydalı istənilən bir elm və bilik dəyərlidir. Dini elmlər də, digər elmlər də bu qəbildəndir. İnsanı təkamül yoluna, özü və ətrafı ilə daha artıq tanışlığa yönəldən, onu Allaha yaxınlaşdıran istənilən bir bilik İslamda diqqət mərkəzindədir. Çünki İslam dini bəşəriyyətin hidayəti və onun Allaha doğru hərəkəti üçün göndərilmişdir.

Allah-taala Qurani-məciddə “Fatir” surəsinin ilk ayələrindən başlayaraq varlıq aləmində baş verən hadisələrdən danışır. Bütün bu hadisələr onları vücuda gətirən yaradanın varlığını göstərir. İnsanın yaranışı, gecə və gündüzün yerdəyişməsi, yağış yağması, çeşidli meyvələrin yetişməsi, növbənöv heyvanların varlığı kimi mövzular varlıq aləminin yaradıcısından söz açır. Ayələrin davamında buyurulur: “Həqiqətən, bəndələr arasında alimlər Allahdan qorxur.”[2] Aydın olur ki, varlıq aləmində baş verənlərdən xəbərdar insanlar Allahın nəzərincə alimlər zümrəsindədirlər. Əlbəttə ki, insan cəmiyyət üçün zərərli, bədbinlik yaradan, faydasız elmlərə təşviq olunmur. Uyğun biliklər dini şəxsiyyətlərin nəzərdə tutduqları elm dairəsindən kənardır.

---

*1. “Vəsailuş-şiə”, c. 27, s. 27, hədis 20*
*2. Surə 35, “Fatir”, ayə 28*

# İkinci fəsil

## *Dinin əsasları (üsuli-din) və dini inancların gücləndirilməsi*

“Oxuculara” adlı söhbətdə qeyd etdiyimiz kimi, insandakı ən üstün mərhələ təfəkkür və düşüncə mərhələsidir. İnsan təfəkkür və düşüncə sahibidir. O düşünür: Mən kiməm? Nə üçün dünyaya gəlmişəm? Varlıq aləmini kim yaradıb? Bu aləm hansı məqsədə doğru hərəkətdədir. Aqibətim nə olacaq? İnsan əbəsmi yaradılıb? Bu dünyada hansısa vəzifələrim varmı?

*Yox yarpağım, yox gülüm,*
*Nə meyvəm, nə də kölgəm,*
*Heyrətdəyəm, Xudaya,*
*Niyə yaranmışam mən?*

Bu düşüncəli varlıq öz suallarına qənaətbəxş cavab tapanadək heyrətdə və başını itirmiş vəziyyətdə qalacaq. Hər bir məslək və məzhəbdə istər-istəməz varlıq aləmi ilə bağlı baxışlar var. Bu baxışlar həlledicidir və uyğun məktəbin düşüncə əsası sayılır. Hər bir məktəb varlıq aləminə münasibətləri əsasında öz ardıcıllarının suallarını cavablandırır. Bu sayağı baxış və qənaətlər “dünyagörüşü” adlanır. Hər bir məzhəb və dində onun əsasını təşkil edən dünya görüşləri mövcuddur. Bu dünyagörüşü puça çıxdıqda məzhəbin əsasları

viran qalır. İslam dinində onun əsasını təşkil edən bünövrə məsələlər, həm də bu bünövrədən rişələnmiş ikinci qrup məsələlər mövcuddur. İslam dininin əsaslarından, bünövrə məsələlərindən hər bir müsəlman yetərincə xəbərdar olmalı, həmin əsaslara dəlillər əsasında inanmalıdır. Bu əsaslar istər şiə, istər sünni, bütün müsəlmanlar tərəfindən qəbul olunur və "tövhid", "nübüvvət", "məad" mövzularından ibarətdir.

Amma biz şiələr həmin üç əsasdan əlavə "ədl" (ədalət) və "imamət" kimi daha iki əsasa inanclıyıq.

Sünni məzhəbindən olanlar ədalət prinsipinə (əsasına) biz şiələr əhəmiyyət verdiyimiz qədər əhəmiyyət vermirlər. Onlardan bir çoxlarının ədalət məsələsinə münasibəti biz şiələrin münasibətindən fərqlənir. İmamət prinsipi də bizim anladığımız mənada (qarşıda bu barədə ətraflı danışacağıq) yalnız biz şiələrin inanclarındandır.

İslamda haqqında danışılan əsaslardan əlavə məsələlər də var. Bu məsələlər "fürui-din" (dinin budaqları) adlanır. Füruidin on mövzudan ibarətdir: Namaz, oruc, xüms, zəkat, Həcc, cihad, əmr be məruf (yaxşılığa dəvət), nəhy əz münkər (pisliyə qadağa), təvəlla (Allah dostları ilə dostluq), təbərra (Allah düşmənləri ilə düşmənçilik).

Üsulidinlə füruidin arasında ən mühüm fərq bundan ibarətdir ki, üsulidinə dəlillər əsasında inanmaq lazımdır. Hər bir insan varlıq aləmində baş verənlər haqqında düşünməli, ağıl və fitrətinə müraciət etməklə düzgün etiqad üçün müqəddimə hazırlamalıdır. Başqa sözlə, üsulidin təqlid yox, təhqiq olunası, araşdırılası mövzulardan ibarətdir. Amma füruidin bölməsində insan mütəxəssisə müraciət etmək, təqlidlə uyğun vəzifələrini yerinə yetirə bilər. Məsələn, insan namazın qunutunda türkcə dua oxuya bilərmi? Gəlincik (dələkimilər fəsiləsindən olan məməli heyvan) və ya pinqivin əti yemək halaldırmı? İnsan uyğun hallarda mərcə alim və fiqhi məsələlərdə mütəxəssisə müraciət etməklə vəzifəsini öyrənə bilər. Amma varlıq aləminin yaradıcısı olan Allahın mövcud olub-olmaması

məsələsi, yaradanın bir və ya çox olması kimi suallara cavab tapmaq üçün araşdırma aparmaq, varlıq aləmi ilə bağlı mütaliələr etmək lazımdır. Uyğun mövzulara yalnız dəlillər əsasında inanmaq olar.

## *Dini inancların gücləndirilməsi yolları*

Müsəlman fərd əqidə əsasları və dini prinsiplərə inamını o qədər gücləndirməlidir ki, uyğun sahədə müxaliflər tərəfindən hücuma məruz qaldıqda müqavimət göstərib, qəti dəlillərlə əqidəsini müdafiə edə bilsin.

Söhbətin bu əsnasında dini inancları möhkəmləndirmək yollarından bəzilərini nəzərdən keçirsək münasib olar:

Birinci yol varlıq aləmi və onda baş verən hadisələr haqqında dərindən düşünməkdir. İnsan öncə özünü tanımağa cəhd etməlidir. O öz zatında mövcud olan qüvvələri yetərincə tanımalı, öz mürəkkəb zahiri quruluşunu, yəni cismini nəzərdən keçirməli, ruhundakı tutumları, vicdan və fitrətini dəyərləndirməlidir. Bu halda insan rahatlıqla varlıq aləminin yaradıcısına inanır. Həzrət Peyğəmbər (s) uyğun mövzu ilə bağlı buyurur: "Özünü tanıyan hər kəs, şübhəsiz, Rəbbini tanıyacaq."[1]

Qurani-məcid müxtəlif məqamlarda insanların varlıq nizamına diqqətinə xüsusi əhəmiyyət verir. Bir məqamda buyurulur: "Məgər dəvənin quruluşuna baxmırlar ki, necə yaradılıb? Səmalar necə yüksəldilib, dağlar necə qərar verilib, yer necə açılıb və hamarlanıb?" [2] Başqa bir məqamda buyurulur: "Həqiqətən, yerin və göyün yaranışında möminlər üçün, sizin yaranışınızda və Allahın yer üzünə yaydığı canlıların yaranışında inananlar üçün, gecə-gündüzün gediş-gəlişində, onlar arasındakı fərqdə, Allahın səmadan nazil etdiyi

*1. "Biharul-ənvar", c. 2, s. 32, hədis 22*
*2. Surə 88, "Ğaşiə", ayələr 17-20*

və ölü torpağı diriltdiyi ruzidə (yağışda), küləklərin əsməsində düşüncə sahibləri üçün nişanələr var.”[1]

İkinci yol varlıq aləmi və ondakı mövcudlar haqqında yazılmış müxtəlif kitabların mütaliəsidir. İnsan botanika, astronomiya, zoologiya kimi müxtəlif sahələrlə bağlı elmi kitabları mütaliə etməklə ətrafı ilə tanışlıq üçün faydalı məlumatlar əldə edə bilər. Uyğun mövcudlar və məxluqlar, hər bir varlığa hakim olan qanunlar barədə düşünməklə bütün bunları ərsəyə gətirmiş qeybi qüvvəyə inanmaq mümkündür.

Bu baxımdan etiqad əsasları mövzusunda yazılmış kitabların da mütaliəsi faydalıdır. Uyğun kitablarda əqidə əsaslarının sübutu üçün dəlillər göstərilir. Kəlam və fəlsəfə kitabları nümunə göstərilə bilər. Hər bir insan öz düşüncəsi tutumunda bu kitablardan faydalanıb üsulidin sahəsində öz inanclarını möhkəmləndirə bilər.

Üçüncü yol etiqad əsasları sahəsində nəzər sahibi olan alimlər və mütəfəkkirlərlə üzbəüz söhbətdir. İnsan bu yolla öz etiqadındakı zəif nöqtələri müəyyənləşdirib onların islahı istiqamətində addım ata bilər.

Dördüncü yol uyğun ehtiyacların aradan qaldırılması üçün Allahdan yardım və hidayət diləməkdir. İnsan Allahla daha artıq rabitədə olduqca ona daha da yaxınlaşır, onu daha yaxşı tanıyır və şübhələri aradan qalxır.

*Məşuq aşiqinə salmasa nəzər,*
*Aşiqin səyləri gedəsi hədər.*

İnsanın etiqadlarının güclənməsində və əbədi səadətində Allah zikrinin böyük təsiri var.

**Sual:** Əgər bütün insanlar ömrünü etiqad əsasları ilə bağlı mütaliə və araşdırmaya sərf etsələr, cəmiyyət iflic olar, kimsə

---

*1. Surə 45, “Casiyə”, ayələr 3-5*

başqa bir işə vaxt ayıra bilməz. Bu nöqtə nəzərə alınarsa, etiqad əsaslarında təqlid yolu ilə getməyən insan nə etməlidir?

**Cavab:** Məqsədimiz bu deyildi ki, hamı kəlam alimi (mütəkəllim) və ya filosof olmalıdır. Sadəcə, bildirmək istədik ki, insanın imanı şüar səviyyəsində qalmamalı, kiçik bir şübhə ilə rastlaşan zaman puça çıxmamalıdır. Bu işi hamı bacarar. İnsan ətrafında baş verən kiçik bir hadisəni araşdırmaqla öz etiqadının düzgünlüyünü anlaya bilər. Əl çarxı ilə ip əyirən qoca qarının əhvalatını nümunə göstərə bilərik. Uyğun hadisə deyilənləri təsdiqləyir. Bir şəxs ondan Allahını necə tanıdığı barədə soruşur. Qoca qarı əlini çarxdan çəkir və çarx dayanır. Qarı deyir: "Hətta bu kiçik və sadə çarx hərəkət üçün mən qoca qarının köməyinə möhtacdır. Necə ola bilər ki, əzəmətli varlıq aləmi qadir yaradana möhtac olmasın?!"

## Üçüncü fəsil

## *Allahın varlığı aydın bir həqiqətdir*

Hər bir hadisə və yaranmışın qurub-yaradana ehtiyaclı olduğu aydın bir həqiqətdir. Bir hadisə baş verən kimi hamı onun səbəbini axtarır. Hətta az yaşlı körpə bir insan dünyasını dəyişəndə gözlərini dolandırıb onu izləyir. İstənilən birimiz rəqəmsal bir qurğu və ya kompyuter gördükdə əmin oluruq ki, bütün bunların mahir bir yaradıcısı var. Əgər bir şəxs kompyuterin öz-özünə, təsadüfən yarandığını bildirsə, dərhal düşünürük ki, həmin şəxsin ağlı yoxdur. İnsan gözəl bir tablo gördükdə dərhal onun yaradıcısı ilə maraqlanır, bu işin hansı rəssamın fırçasından yarandığını soruşur.

Əgər yaşadığımız dünyada hər şeyin bir yaradanı varsa, əzəmətli varlıq aləmi də yaradıcısız ola bilməz. Kim inanar ki, zirvələri buludları yarıb keçmiş dağlar, əzəmətli dənizlər və okeanlar, say-hesabsız ulduzlar və nəhayətsiz kəhkəşanlar, insanı heyrətə gətirən atmosfer qatları, növbənöv bitkilər, həşəratlar, dördayaqlılar, sürünənlər və quşlar, nəhayət insanın özü təsadüfən, xaliqsiz ərsəyə gəlmişdir? Əşya və mövcudların insanı heyran qoyan zərif nöqtələri, onlar arasındakı qarşılıqlı rabitlər qüdrətli bir yaradanın varlığına növbəti dəlildir.

İnsanın yaranışına nəzər salın! Körpə dünyaya gələnədək onun anasının sinəsində süd olmur. Amma körpə dünyaya gələn

kimi onun rahatlıqla qidalanması üçün ananın sinəsində süd yaranır. Körpə elə bir həddə çatır ki, ana südü onun orqanizminin ehtiyaclarını təmin etmir. Həmin vaxt körpənin dişləri çıxır və bu dişlər dəyirman tək müxtəlif qidaları üyüdür. Bir müddət sonra həmin körpəyə deyilsə ki, sən və sənin yaşadığın dünya təsadüfi yaranıb, deyilənləri qəbul edərmi? Axı o öz gözləri ilə müşahidə edib ki, qışda bir qar adam düzəltməkdən ötəri neçə uşaq bir yerə toplanır, hərə bir iş görür. Axı o necə inanar ki, qar adamı bir neçə nəfər çalışıb düzəldirsə, hərəkət edən şüurlu insan yaradıcısız olsun? Bəli, haraya baxsaq varlıq aləmindəki əşya və mövcudların istənilən birini diqqətlə nəzərdən keçirsək, hikmət və qüdrət sahibi olan Allahın əsərlərini müşahidə edərik.

*Səhraya baxıram yad edir səni,*
*Dəniz də oxuyur həmin nəğməni.*
*Baxdığım dağlar da, düzənliklər də*
*Təkrar-təkrar söylər həmin kəlməni.*[1]

## *Allaha iman fitri tələbdir*

Tarix boyu bütün cəmiyyətlərdə Allaha etiqad mövcud olmuşdur. Qeyd olunduğu kimi, yaradanın varlığına iman insanlar üçün aydın bir həqiqətdir. Düşüncə sahibi olan hər bir şəxsin ağlı bu həqiqəti təsdiqləyir. İstənilən bir şəxs dünyanın istənilən bir guşəsində istənilən bir vaxt uzaqdan tüstü görərsə orada od olduğunu təsdiqləyər. Yerdə ayaq izləri gördükdə hamı qəbul edir ki, buradan kimsə ötüb keçib. Bəli, gördüyümüz əsərlər yaradıcıdan danışır. Əslində Allaha etiqad fitri, zati, insanın içindən qaynaqlanan bir həqiqətdir. İstənilən bir şəxsin vicdan və fitrəti zülmün pisliyini, ədalətin yaxşılığını təsdiqlədiyi kimi varlıq aləminin yaradıcısını da qəbul edir. Bəli, qədim dövrlərdən insanlar Allahın varlığına inanmışlar.

---

*1. Baba Tahir, şerlər divanı, dübeytlərin birinci hissəsi*

Hər bir fərd öz Rəbbini soraqlayır. Əslində bütpərəstlik özü də Allahın varlığına etiqaddan danışır. Sadəcə bütpərəstlər varlıq aləminin yaradıcısını tanımaqda səhvə yol vermişlər. Bir çox bütpərəstlər bütləri yaradan kimi yox, şəfaətçi, Allahla öz aralarında vasitə kimi qəbul etmişlər. Bu həqiqəti Quran da təsdiqləyir.[1]

## *Allahın inkar edilməsi amilləri*

**Sual:** Əgər allahpərəstlik fitri bir istəkdirsə və hər bir fərdin batinində mövcuddursa, nə üçün bir çoxları Allahı inkar edir, Onun varlığına inanmırlar?

**Cavab:** Bəzən insanın fitrəti üzərinə qəflət pərdəsi çəkilir və o Allahın varlığından qəflətdə qalır. Bəzən də inadkarlıq, eqoistlik, məsuliyyətdən qaçmaq istəyi Allahın inkarına səbəb olur.[2] Bəzən də insanlar Allahın qəbulunu, Onun varlığının etirafını öz şəxsi mənafelərinə zidd sayırlar.

Fitrətləri qəflət pərdəsi ilə örtülmüş həmin insanlar bəzən problemlərlə, böyük hadisələrlə, təhlükələrlə qarşılaşdıqda bu pərdə kənara çəkilir, özlərindən xəbərsiz bir nöqtəyə üz tutub yardım diləyirlər. Əgər təyyarəçi elan etsə ki, bir neçə dəqiqə sonra təyyarə süquta uğrayacaq, təhlükəli an yaxınlaşdıqca sərnişinlər bu vaxtadək biganə qaldıqları əsrarəngiz bir nöqtəyə ümid bağlayar, təhlükədən qurtuluş üçün yardım diləyərlər. Elə ki təhlükə sovuşdu, qəflət pərdəsi yerinə qayıdar. Qurani-kərimdə buyurulur: “Onlar gəmiyə mindikləri vaxt tam ixlasla Allahı çağırır, Allah onları xilas etdikdə, sahilə çıxıb yenidən ona şərik qoşurlar.”[3]

Bəli, varlıq aləmindəki bütün zərrələr bir hal (batin) dili ilə fəryad çəkib öz xaliqindən danışır. Onların səsini eşitmək üçün bir an düşünmək lazımdır.

---

*1. Bax: Surə 10, “Yunus”, ayə 18*
*2. Bax: Surə 27, “Nəml”, ayə 14*
*3. Surə 29, “Ənkəbut”, ayə 65*

*Varlıqda hər nə var qəlbə işarə,*
*Qəlbi yox etiraf etməyən kəsin.*
*Gördüyün hər şəkil şəhadət verir,*
*Düşünməyən özü şəkildir yəqin.*[1]

Amma dünyaya qərq olduqlarından vicdanları qəflət pərdəsi ilə örtülənlər təbiətin işarələrini dərk etməkdən məhrumdurlar.

*Nə vaxt olmadın ki, axtaram Səni?*
*Hər vaxt aşkarsan, könül həmdəmi.*
*Qeybə çəkilmədin gözüm araya,*
*Üzbəüzdə gördüm baxdım haraya.*
*Yüz min cilvə ilə səhnədəsən Sən,*
*Yüz min gözlə Səni seyr edirəm mən.*[2]

---

1. *Sədi, moizələr kulliyatı, farsca qəsidələr, Baharın vəsfi*
2. *Füruği Bəstami, şerlər divanı*

# Dördüncü fəsil

## *Allahın sifətləri*

Mövcudları daha yaxşı tanıma yollarından biri də onların sifətlərini bəyan etməkdir. Məsələn, bu vaxtadək kompyuter görməmiş, onun adını birinci dəfə eşitmiş insanı onunla tanış etmək üçün kompyuterin xüsusiyyətlərini, sifətlərini sadalayırıq. Məsələn, deyirik ki, komyuter çox böyük sürətlə hesabat aparır, çox böyük yaddaşı var, çox az yer tutur...

Allah-taala ilə daha yaxşı və daha artıq tanış olmaq üçün onun xüsusiyyətləri və sifətlərindən xəbərdar olmalıyıq. Allahın sifətləri ümumi şəkildə iki qrupa bölünür:

### *1. Allahın sübuti sifətləri və ya camal sifətləri*

Allahın sübuti sifətləri dedikdə Onun dirilik, yeganəlik, qüdrət, elm, agahlıq, eşitmə, görmə, bağışlama kimi mövcud sifətləri nəzərdə tutulur.

Biz "Allah eşidən və görəndir" dedikdə nəzərdə tutmuruq ki, Onun da insanlar kimi qulaqları və gözləri var. Əgər Allah görəndir deyiriksə, Onun bütün görünənlərdən tam xəbərdarlığı nəzərdə tutulur. Allah eşidəndir deyiriksə, Onun bütün eşidilənlərdən tam xəbərdarlığı ifadə olunur. Bütün əşyalar Onun

hüzurundadır. Allahın agahlıq və elmi üçün göz və qulaq kimi vasitələrə ehtiyacı yoxdur. İmam Sadiq (ə) bu barədə buyurur: “Allah eşitmə və görmə üzvləri olmadan eşidilənləri və görünənləri əhatə edir, onlardan xəbərdardır.”[1]

Eşitmə və görmənin mahiyyəti əşyanın aşkarlığı, məxfi qalmamasıdır. Hiss üzvlərinin iştirakı olmadan əşya barədə xəbər tutulursa, bu elə eşitmə və görmə kimidir. Elə biz insanlar da göz və qulaqlar olmadan əşyaları görüb, səsləri eşidə bilsəydik, bunu görmə və eşitmə sayardıq. Biz insanlar adətən yuxuda qulaq və gözlərimizin iştirakı olmadan həm eşidir, həm də görürük.

## *2. Səlbi sifətlər və ya cəlal sifətləri*

Səlbi sifətlər dedikdə Allahda olmayan, Ona aid edilməyən sifətlər nəzərdə tutulur. Bu qəbil sifətlər Allaha aid edildikdə inkar olunmalıdır. Çünki bu sifətlər öz sahibinin zəifliyini göstərir. Cisim olmaq, möhtac olmaq, zalımlıq, şəriklik səlbi sifətlərə nümunə ola bilər.

## *Allah başdan-başa kamil vücuddur*

**Sual:** Nə üçün biz insanlar Allahın vücudunun dərinliyinə, onun sifətlərinə vara bilmirik?

**Cavab:** Çünki Allah-taala başdan-başa kamil bir vücuddur. Onun zatı və sifətləri nəhayətsizdir. Biz insanlar naqisik, düşüncəmiz məhduddur. Məhdud bir varlıq nəhayətsiz bir varlığı layiqincə tanıya biməz. Dəryanın suyunu bir stəkana süzmək mümkün olmadığı kimi qeyri-məhdud bir varlığı da dərk etmək olmaz. Digər bir tərəfdən, vücudunun bütün səciyyələri məlum olan bir varlığı Allah saymaq olmaz. Belə bir varlıq artıq insanın təfəkküründə məhdud bir şəkildə yerləşmişdir və onun Allahlıq səlahiyyəti yoxdur. Belə bir məbud saxta və təxəyyül məhsuludur. Hansı ki Allah-taala

---

*1. “Biharul-ənvar”, c. 4, s. 70, hədis 15*

məhdudluq kimi bir sifətdən uzaq və pakdır. Bəli, naqis insan Allahı kamil vəsf etmək gücündə deyil. Hər halda ağılın dərk edəcəyi bir həddə Allahın əzəməti haqqında düşünmək, Onun sifət və kamilliklərinə diqqət yetirmək lazımdır ki, qəlb alim mənadan sirab olsun.

*Mahalsa Ceyhunun suyunu çəkək,*
*Susuzluq həddində qədəhə tökək.*[1]

**Sual:** Nə üçün bütün kamal sifətləri Allaha aid edilir? Allahda bəzi kamilliklərin olmaması nə üçün qəbahətdir?

**Cavab:** Bunun iki dəlili var:

1. Hər birimiz müşahidə edirik ki, varlıq aləmindəki əşya və məxluqların kamilliyi və müsbət nöqtələri var. Varlıqlar yaranışda Allaha möhtac olduqları kimi, kamillikdə də, camal sifətlərinin əldə olunmasında da ona ehtiyaclıdırlar. Bütün varlıqlar yaradana möhtacdır. Özü kamil olmayan varlıq yaratdıqlarına bir bu qədər kamillik əta edə bilməz. Məsələn, su nəm olmasa başqa əşyanı nəmləndirə bilməz. Yağda yağlılıq olmasa, başqa əşyaları necə yağlayar?!

*Özü yaranışa möhtac olan kəs*
*Mümkünmü varlığa verə bir nəfəs?!*[2]

2. Əgər Allahın zatı kamil olmasaydı, məhdudluq və ehtiyaca məhkum idi və öz ehtiyaclarını aradan qaldırmaq üçün başqalarına üz tutmalı idi. Bu səciyyələrə malik varlıqda məbudluq səlahiyyəti yoxdur.

Mövzunun aydınlaşması üçün Allahın səlbi sifətlərindən birini nəzərdən keçirməyə ehtiyac var:

"Tövhid" ("İxlas") surəsində buyurulur: "Allah ehtiyacsızdır." Başqalarının ehtiyacını aradan qaldırmaq

---

*1. "Ceyhun" çay adıdır; Mövlana Rumi, "Məsnəviye-mənəvi", 6-cı dəftər, külliyat*
*2.Cami, "həft urəng", "Sobhətul-əbrar", dördüncü əqd, say 23*

əzmində olan varlıq özü möhtac olmamalıdır. Əgər o özü möhtacdırsa, onda məbudluq səlahiyyəti yoxdur. Kimsədən ehtiyacsız Allah isə cisim ola bilməz. Cisim olmayan varlığı müşahidə etməyimiz mümkünsüzdür. Hər bir cismin məkana ehtiyacı var. Əgər Allahın məkanı olsaydı, belə qəbul etməliydik ki, Allah məkansız mövcud ola bilməz! Bundan əlavə hər bir cisim ayrı-ayrı hissələrdən təşkil olunmuşdur, başqa sözlə mürəkkəbdir. Mürəkkəb varlıq mövcud olmaq üçün bütün üzvlərinə ehtiyaclıdır. Əgər Allah cisim olsaydı Onun bütün üzvləri bir-birinə ehtiyaclı olardı. Yenə də onu ehtiyaclı qəbul etmək lazım gələrdi. Amma Allahın cisim olmadığı sübuta yetdikdən sonra Onun gözə görünmədiyi də aşkarlanır. Çünki göz yalnız cismi görə bilir. Hər halda pak qəlb gözü ilə Allaha yaxınlaşmaq, Onu tapmaq mükündür. Amma belə bir görüş zahiri gözlə görmək mənasında deyil.

**Sual:** Əgər Allah cisim deyilsə və məkana ehtiyac duymursa, nə üçün Onun evi var və Kəbəni "Allah evi" adlandırırıq?

**Cavab:** Məscidləri və Kəbəni "Allah evi" adlandırmağımızın səbəbi bu məkanların təkallahçılıq mərkəzi olması, həmin məkanlarda dini vəzifələrin yerinə yetirilməsidir. Məscidlərdə və Kəbədə yalnız Allaha ibadət olunur. Bu məqamı həmin yerlərə Allah-taala əta etmişdir. Bəzi günlər də "Əyyamullah", yəni Allahın günləri adlandırılır. Bu o demək deyil ki, Allah üçün hansısa zaman ayrılmışdır və zamanın Allaha təsiri var. Sadəcə həmin günlərdə dini əzəmətləndirən, onun daha da yayılmasına səbəb olan hadisələr baş vermişdir.

**Sual:** Əgər Allahın xüsusi bir məkanı yoxdursa, nə üçün dua zamanı əllərimizi göyə açırıq?

**Cavab:** Əllərin yuxarıya qaldırılmasının müxtəlif səbəbləri var. Məsələn, biz əlimizi səmaya açmaqla öz acizliyimizi göstərir, möhtac bir varlıq təəssüratı yaradırıq. Bu işimizdə uca bir mənəvi məqamdan kömək diləyirik. Səma əzəmət və ucalıq göstəricisi

olduğundan əllərimizi yuxarı qaldırırıq. Digər bir tərəfdən, insanın mühüm ehtiyaclarından olan yağış, günəş işığı və digər yağıntılar səmadan nazil olur. İnsan onun bu qəbil ehtiyaclarının səmadan nazil olduğunu görür və əllərini səmaya doğru açır.

# Beşinci fəsil

## *Allahın misilsizliyi*

Allahın sifətlərindən biri də Onun yeganəliyi, birliyidir. Allahın yeganəliyi dedikdə Onun şərikinin olmaması, varlıq aləminin yaranışı və idarə olmasında kimsənin köməyinə möhtac olmaması nəzərdə tutulur. İslam Peyğəmbərinin (s) bəşəriyyət üçün qurtuluş zəmanəti olan əsas şüarlarından biri Allahdan qeyri məbudların inkarı və Onun yeganəliyinin təsbitidir: "Qulu la ilahə illəllah tuflihu".[1] Yəni söyləyin ki, yeganə Allahdan savayı məbud yoxdur və xilas olun. Səmavi kitab olan Quran istənilən bir münasibətlə bu şüar üzərində dayanır və Allah-taalanın yeganəliyini bəyan edir. Allahın yeganəliyini sübut etməyin müxtəlif yolları var.

### *Birinci yol:*

### *Varlıq aləmində mövcud olan nizam*

Varlıq aləminin ayrı-ayrı hissələri arasında mövcud olan tamlıq və uyğunluq Allahın yeganəliyini təsdiqləyən aydın bir dəlildir. Zəifliklər və qüdrətlər, hücumlar və müdafiələr amansızlıqlar və mərhəmətlər, ehtiyaclar və imkanlar insanı heyrətə gətirəcək şəkildə çulğaşmışdır. Körpənin zəifliyi ata-

---

*1. "Biharul-ənvar", c. 18, s. 202, hədis, 32*

ananın qüdrəti ilə, meteorların hücumu yerin cazibəsi ilə dəf olunur. İnsanın tənəffüsü zamanı yaranan karbon qazı bitkilərdən ayrılan oksigenlə zərərsizləşdirilir. Bütün bunlar Allahın yeganəliyini göstərən nümunələrdir. Eyni bir qələmdən çıxmış varlıq kitabının mütaliəsi ilə insan onun müəllifinin yeganəliyinə əmin olur. Əgər bu kitabın müəllifi birdən artıq olsaydı həmin kitabda uyğunsuzluqlar yaranar, ziddiyyətlər özünü göstərərdi. Əlbəttə ki, nəzərdə tutduğumuz uyğunsuzluqları adi insanlar müəyyənləşdirə bilməz. Amma mütəxəssislər və mahir ustadlar belə bir ziddiyyəti qeydə alası idi. Bəli, bu varlıq kitabını açırıq. Varlıq aləminin hər guşəsinin mütaliəsi ilə müəyyən sahə mütəxəssisləri məşğuldur. Onlar bu aləmə hakim olan vahid nizama şəhadət verirlər. Onlar bildirirlər ki, varlıq aləmi vahid bir plan əsasında qurulmuşdur. Ona hakim qanunlar o qədər ümumi və yığcamdır ki, kiçik bir məxluqu yetərincə tədqiq edib böyük qanunlar kəşf etmək mümkündür. Varlıq aləmi saysız vərəqləri olan kitab kimidir. Onun hər vərəqini, bəlkə də hər sətrini minlərlə alim mütaliə edir. Onlar yekdil olaraq həmin kitabın sətrləri arasındakı tamlığa şəhadət verirlər.

Bu əzəmətli və ayrı-ayrı nöqtələri arasında uyğunluq olan aləmin iki yaradıcısı olsaydı uyğun rabitə və tamlıq mövcud olardımı? İmam Sadiqin (ə) yaxınlarından olan Hişam ibn Həkəm deyir: İmamdan Allahın yeganəliyinə dəlil istədim. Həzrət buyurdu: “Varlıq aləminin ayrı-ayrı hissələri arasındakı bağlılıq və uyğunluq, eləcə də yaranmışların tamlığı və kamilliyi yaradanın yeganəliyini göstərir.[1] İmam Sadiq (ə) daha sonra belə bir ayəni yada salır: “Əgər göydə və yerdə Allahdan savayı məbudlar olsaydı onlarda ziddiyyət və fəsad yaranardı.”[2]

---

*1. “Biharul-ənvar”, c. 3, s. 229, hədis 19*
*2. Surə 21, “Ənbiya”, ayə 22*

## *İkinci yol:*

## *Peyğəmbərlərin təkallahçılığı və onların yeganə Allaha doğru çağırışı*

Bütün peyğəmbərlər insanları bir Allaha doğru və təkallahçılığa dəvət etmişlər. Əgər digər bir məbud olsaydı, o da özünə doğru çağırış üçün peyğəmbərlər göndərərdi. "Nəhcül-bəlağə"də nəql olunur ki, Əli ibn Əbu Talib öz oğlu imam Həsənə (ə) tövsiyəsi zamanı buyurur: "Bil, ey oğlum! Əgər Allahın şəriki olsaydı, yol göstərmək üçün onun da peyğəmbərləri gələrdi, varlıq aləmində onun da hakimlik əlamətlərini görərdin, əməllərini və sifətlərini tanıyardın. Amma bil ki, Allah yeganədir."[1]

**Sual:** Ola bilməzmi ki, başqa məbudlar da olsun, amma peyğəmbər göndərməsinlər?

**Cavab:** Necə ola bilər ki, yaradan öz yaratdığına münasibətdə bir bu qədər biganə qala?! Mümkündürmü ki, xaliq öz məxluqunun səadəti üçün ilahi rəhbər və bələdçi göndərməyə?! İnşaallah peyğəmbərlik (nübüvvət) mövzusunda söhbətimiz zamanı peyğəmbərlik məsələsinin zəruriliyindən danışacağıq.

## *Üçüncü yol:*

## *Əqli dəlillər*

Sadə bir dəlillərlə varlıq aləminin yaradıcısının yeganəliyini anlamaq olar. Əgər xaliq iki və ya daha artıq olsaydı, məsələn Mars planetinin yaranışına iki münasibət mümkün idi:

a) Həmin yaradanlardan hər biri təklikdə və ayrıca onu yaratmalı idi. Öncə bir xaliq, sonra ikinci xaliq, daha sonra

---

*1. "Nəhcül-bəlağə", məktublar hissəsi, məktub 31, s. 300*

üçüncü... Belə ki, Mars bir neçə dəfə yaranmalı idi. Əlbəttə ki, belə bir təsəvvür kökündən yanlışdır. İstənilən bir mövcud yalnız bir dəfə yaradılır. Bir şeyi bir xaliq yaradardısa, ikincisinin yaratmasına ehtiyac qalmazdı.

b) Əgər çoxsaylı yaradanların əl-ələ verib Marsı yaratdığını fərz etsək, belə bir sual yaranar ki, onlar təklikdə bu işi görməyə qadir deyildilərmi? Əgər desək qadir deyildilər, məlum olar ki, onlar bir-birlərinə möhtacdırlar. Hansı ki, varlıq aləminin yaradıcısı ehtiyacsız olmalıdır. Bir tanrının o birinə möhtaclığı məntiqi deyil. Əgər tanrılar təklikdə bu işi görə bildikləri halda o birindən kömək alırlarsa belə bir köməyin dəlili olmalıdır. Mümkündürmü ki, tanrılardan biri daha az qüvvə sərf etmək məqsədi ilə və ya o biri tanrıların müxalifətinin qarşısını almaq üçün həmkarlıq etsin? Bütün bunlar məbudluq məqamı ilə bir araya sığmır. Möhtac bir varlıq varlıq aləminin xaliqi ola bilməz!

**Sual:** Ola bilməzmi ki, yaradanlar varlıq aləmindəki işləri öz aralarında bölələr? Məsələn, biri Marsı yarada, digəri yeri?

**Cavab:** Əgər tanrılardan biri Marsı yaratsa və ikincisi onu məhv etmək qərarına gəlsə, birinci tanrı öz yaratdığını müdafiə etməlidir. Əgər ikinci tanrı öz məqsədini həyata keçirə bilmirsə, demək, acizdir və tanrılıq məqamına layiq deyil. Əgər birinci tanrı öz yaratdığını müdafiə etməyə qadir deyilsə, o özü acizdir və tanrılıq səlahiyyətindən uzaqdır.

## *Yeganə Allaha etiqadın faydaları və tə'sirləri*

Allahın yeganəliyinə etiqadın varlıq aləmi üçün bir sıra faydaları var. Onlardan bəzilərini nəzərdən keçirək:

1. Yeganə Allaha etiqad insanlarda məsuliyyət yaradır. Yeganə Allaha inanan şəxs öz əməllərinə görə cavabdehlik hiss edir. Çünki o bütün əməllərindən xəbərdar məbuda inanır. Bu səbəbdən çalışır ki, pis işlərdən çəkinsin, xeyir əməllərə önəm

versin. Beləcə, yeganə məbuda etiqadlı cəmiyyətlərdə insanlar çirkin işlərdən uzaq olur, xeyirxahlığa çalışır.

2. Yeganə Allaha inananlar onu şəriksiz səbəbkar sayır, ondan qeyrilərini aciz bilir. Təkallahçı insan yalnız bir olan Allahdan kömək diləyir. Gündəlik namazlarımızda "Həmd" surəsində "yalnız Səndən yardım diləyirik" cümləsini dəfələrlə təkrarlayırıq. Mömin insan istənilən bir çətinliyə düşdüyü zaman yeganə Allahdan yardım diləyir.

3. Tövhid etiqadlı insan Allahdan qeyrilərinə əyilmir, onlara pərəstiş etmir. Təkallahçı şəxs yalnız yeganə Allaha ibadət edir. Müvəhhid (təkallahçı) namaz qılanların şüarlarından biri budur: "Yalnız Sənə pərəstiş edirik".

# Altıncı fəsil

## *Allahın ədaləti*

Ötən fəsillərdə qeyd etdik ki, bütün kamilliklər və gözəlliklər Allaha məxsusdur. Allahın bu qəbil sifətlərindən biri ədalətdir. Ədl (ədalət) prinsipi şiə məzhəbinin əsaslarından sayılır. Sünnə əhlindən olan bəzi qruplar ədalət sifətini Allah üçün sabit qəbul etmirlər. Onların nəzərincə, Allah müti bəndəni cəhənnəmə, günahkar bəndəni behiştə apara bilər və bu iş zülm olsa da, qəbahət deyil.

Amma şiələrin və "mötəzilə" adlanan sünnə əhlinin nəzərincə, Allah kimsəyə zülm etməz, qəbahətli iş görməz. Allahın bütün işləri hikmət və məsləhətə əsaslanır. Allah xeyir əməl sahiblərini mükafatsız qoymur, günahı olmadan cəhənnəmə aparmır. Çünki zülm istənilən bir şəxs tərəfindən qəbahətli və çirkindir. İmam Sadiq (ə) buyurur: "Allah-taala günahsız insanları günahkarların əvəzinə sorğuya çəkməz, atalarının günahına xatir övladları cəzalandırmaz."[1]

### *Allahın zülmdən uzaqlığının dəlili*

Allahın ədalətinin sübutu üçün iki dəlil göstərə bilərik:

1. Zülmə yol verən fərdin bir neçə məqsədi ola bilər: insan öz işinin pisliyini anlamadan bir başqasına sitəm qıla bilər.

---

*1. "Biharul-ənvar", c. 10, s. 227, hədis, 1*

Başqa bir səbəb insanı möhtaclıqdan zülmə əl açmasıdır. Məsələn, bir şəxs zülm etməklə arzusuna çatır. Başqa bir səbəb intiqam almaq istəyi və ya həvəsbazlıq ola bilər. Zülmə yol verən insan bu məqsədlərdən birini izləməlidir. Amma aləmlərin Rəbbi alim, ehtiyacsız, hikmət sahibi və bağışlayan olduğundan zülmə yol verə bilməz. Allah nadanlıqdan, möhtaclıqdan, intiqamçılıqdan, boş işlərdən uzaqdır.

2. İstənilən bir fərd öz ağlı ilə dərk edir ki, zülm pis işdir. Allahın peyğəmbərləri və seçilmişləri də insanları zülmdən çəkindirmişlər. Allah özü də zülmə qadağa qoyur. Qurani-kərimdə bir çox ayələr həqiqəti təsdiqləyir: "Allah zalımları sevməz"[1]; "Biz sitəmkarlar üçün ağrılı əzab hazırlamışıq"[2]. Allahın qadağa qoyduğu və bütün düşüncə sahiblərinin bəyənmədiyi bir işə yol verməsi necə mümkündür?!

## *İnsanların fərqli durumu Allahın ədalətsizliyini göstərmir*

**Sual:** İnsanlardan bir hissəsi yoxsul, bir tikə çörəyə möhtac, digər bir hissəsi varlı və imkanlıdır. Bir qrup insan sağlamdır, başqaları xəstəlikdən əziyyət çəkir. Kimlərinsə yaddaşı güclüdür, kimlərsə huşsuzdur. Bəzilərində nadanlıq, bəzilərində agahlıq müşahidə olunur. Zahiri baxımdan kimlərsə gözəl, kimlərsə çirkindir. İnsanlar dərisinin rənginə görə də fərqlənir. Bütün bu fərqlər Allahın ədalətini şübhə altına almırmı?

**Cavab:** Əvvəla, bir çox fərdi və ictimai fərqlərin səbəbkarı insan özüdür. Bəzən o ixtiyarında olanlarla kifayətlənməyib başqalarının əlində olana göz dikir və nəticədə yoxsullar və varlılar kimi iki qütb yaranır. Varlılıq və yoxsulluq, elm və cəhalət, sağlamlıq və xəstəlik kimi bir çox fərqlərin səbəbkarı insanların aşkar və ya gizli zülmkarlığıdır.

---

*1. Surə 3, "Ali-İmran", ayə 57*
*2. Surə 25, "Fürqan", ayə 37*

Digər bir tərəfdən, Allah-taala bu fərqləri aradan qaldırmaq üçün insanların öhdəsində müəyyən vəzifələr qoyur. Məsələn, hər bir imkanlı müsəlman xüms-zəkat ödəməlidir. İslamda yoxsullara əl tutmaqla bağlı ciddi tapşırıqların mövcudluğu bu dinin ayrıseçkiliyə mənfi münasibətdə olduğunu göstərir. İslam bir qrupun yoxsulluq içində əziyyət çəkməsini, digər bir qrupun eyş-işrət içində yaşamasını normal saymır. İmam Sadiq (ə) buyurur: "Əgər insanlar mallarının zəkatını versəydilər, yoxsul müsəlman tapılmazdı." [1] Həzrət (ə) buyurur: "Allahın zəkat ünvanında vacib etdiyi məbləğ yoxsulların ehtiyacını aradan qaldıra bilər. Əgər Allah bu miqdarı kafi bilməsəydi, varlıların öhdəsində daha böyük miqdar ödənc qoyardı."[2]

Demək, bir çox fərqlərin səbəbi insanın öz ətrafındakıların haqqını qəsb etməsidir. Müəyyən fərqlər də insanların səhlənkarlığından yaranır. Düzgün qidalanmamaq, təmizliyin gözlənilməməsi insanı inkişafdan saxlayır. Bəzilərinin var-yoxu qəsb olunduğundan onlar sağlamlığını və təmizliyini qoruya bilmir, bir çox istedadlarını işə salmaqdan məhrum olur. Bəli, bir çox fərqlər insanların oyanışı, zülm qarşısında müqaviməti ilə aradan qalxa bilər. Bu yolla təbəqələr arası fərqlər aradan götürülər, ictimai ədalət bərpa olar. İslam və Quran insanlar arasındakı ayrıseçkiliyi heç vəchlə qəbul etmir.

Uyğun fərqlərin bir qismi isə insanın yaranış zərurətlərindəndir. Bir cəmiyyətdə kamil ictimai ədalət olsa belə, onun fərdləri fabrik məhsulu tək eyni olmayacaq. İlahi nemətlər insanlar arasında bölünmüşdür, hər fərdin bu nemətlərdən öz payı var. Az insanlar tapılar ki, bütün nemətlərə malik olsun. Bəli, biri güclüdür, digəri düşüncəlidir, başqa biri şer təbinə malikdir... Ən mühümü cəmiyyətin bu istedadları kəşf edib bəhrələnməsidir. Cəmiyyət eynən insan orqanizmi kimi fərqli hissələrə və istedadlara ehtiyaclıdır. İnsan orqanizmi müxtəlif

---

*1. "Vəsailuş-şiə", c. 9, s. 12, hədis 6*
*2. Həmin mənbə, s. 10, hədis 2*

toxumalardan təşkil olunmuşdur və bütün bədənin bu baxımdan eyniyyəti mümkünsüzdür. Göz hüceyrələri zərif, sümük hüceyrələri qabadır. Kamil bir cəmiyyətin formalaşması üçün çeşidli istedadlara və zövqlərə ehtiyac var. Hərə aldığı pay müqabilində vəzifə daşıyır. Əlbəttə ki, cəmiyyətin hansısa bir zümrəsi məhrumiyyət içində yaşamamalı, xidmətlər dəyərləndirilməli, kimsə alçaldılmamalıdır. Bədən hüceyrələri fərqli olmasına baxmayaraq qida, hava və digər nemətlərdən bəhrələnir. Ədalət dedikdə hər şeyin öz yerində olması nəzərdə tutulur. Əgər bədən hüceyrələri eyni olsaydı, ədalət və hikmətdən danışmağa dəyməzdi. Demək, insanların forma, ruh və cisim baxımından fərqi zülm yox, təbii və zəruri gerçəklikdir. Əslində, bu fərqlər Allahın hikmətindən qaynaqlanır. Bütün bunları nəzərə alsaq, bir mövcudun insan, digərinin heyvan, o birinin həşərat yaradılması nöqsan tutulmamalıdır.

# Yeddinci fəsil

## *Peyğəmbərlik (nübüvvət)*

Əqidə əsaslarından ikincisi bütün müsəlmanlar tərəfindən qəbul olunan peyğəmbərlik məsələsidir. Peyğəmbərlər Allah tərəfindən bəşəriyyətin doğru yola çağırışı, hidayəti üçün seçilmiş insanlardır. İnsanın yaranışında məqsəd bu deyil ki, o dünya həyatına qədəm qoyub nemətlərdən bəhrələnsin və dünya ilə vidalaşsın. İnsanın əsas yaranış məqsədi təkamül, axirət aləmində uca məqama çatmaqdır. Belə bir məqsədə proqramsız və təlim-tərbiyəsiz yetişmək mümkün deyil. Bəs bu qanunları kim tənzimləməlidir? Cavab aydındır: Bu proqram bəşəriyyətin ruhi, fiziki və hissi səciyyələrindən tam xəbərdar olan şəxs tərəfindən müəyyənləşə bilər. İnsanı yetərincə tanıyan, onun haqqında ətraflı məlumata malik olan yalnız onun yaradanı, onu vücuda gətirəndir. İnsan üçün Allahdan savayı kim qanun müəyyənləşdirərsə, bir müddət sonra həmin qanunlarda nöqsan tapılar. Xüsusi ilə, qanun çıxaranların şəxsi mənafeləri onlara tərəfsiz qanunlar tənzimləməyə imkan vermir. Onlar heç vəchlə öz mənafelərinə və yaxınlarının mənafelərinə göz yuma bilmirlər. Bütün bəşəriyyətə eyni gözlə baxmaq insanın işi deyil.

Bəs Allah tərəfindən tənzimlənmiş qanunlar bəşəriyyətə hansı vasitələrlə çatdırılmalıdır? Məhz bu məqamda insanlar arasında ən üstün, ən ləyaqətli, günah və xətadan uzaq olan peyğəmbərlərə ehtiyac yaranır. Onlar Allahın hökm və

göstərişlərini vəhy vasitəsi ilə qəbul edib xalqa bəyan edirlər. Vəhy dedikdə peyğəmbərlə aləmlər Rəbbi arasındakı xüsusi bir rabitə, təmas nəzərdə tutulur. Vəhy zamanı peyğəmbər batin gözü ilə varlıq həqiqətlərini hiss edir, batin qulağı ilə qeybi buyuruqları dinləyir.

Peyğəmbərlərin ən mühüm səciyyələrindən biri budur ki, onlar ilahi qanunlara əməldə öncüldürlər. Yəni peyğəmbərlər Allahın qanunlarını insanlara bəyan etməklə yanaşı bu qanunlara riayət etməkdə əməli nümunədirlər.

## *Peyğəmbərlərin səciyyələri*

Peyğəmbərlərdə ümumi şəkildə iki səciyyə qeyd etmək olar:

1. Peyğəmbərlər günah və xətadan uzaqdırlar, yəni məsumdurlar. Bir fərdin cəmiyyətə və ümmətə nümunə olması, eləcə də insanların qeyri-müəyyən vəziyyətdən qurtuluşu üçün həmin şəxsin öz bəyan etdiyi qanunlara hamıdan üstün şəkildə əməl etməsi zəruridir. Yalnız bu halda həmin şəxs ətrafdakıların etimadını qazana bilər. Düşünməməliyik ki, peyğəmbərlərin məsumluğu, günahdan uzaqlığı sırf Allaha aid olan işdir və bu sahədə onların öz fəallığı yoxdur. Peyğəmbərlərin günahdan sığortalanması dedikdə onların ilahi təlimlər vasitəsi ilə agahlıq əldə etməsi və bu yolla büdrəməyə yol verməməsi nəzərdə tutulur. Məsələn, öz labaratoriyasında apardığı təcrübələr nəticəsində bir suyun öldürücü mikroblara malik olduğunu müəyyənləşdirən həkim heç vaxt həmin sudan içməz. Onun su ilə bağlı bilikləri həmin sudan istifadə etməsinə icazə vermir.

Bir çox günahların səbəbi həmin günahların sonundan xəbərsizlikdən qaynaqlanır. Allah-taala öz peyğəmbərlərinə elm və bilik öyrətməklə onları günahdan qorumuşdur. Peyğəmbərlərə belə bir lütf olunmasının səbəbi onların üzərinə qoyulmuş ağır məsuliyyətdir. Peyğəmbərlər bütün həmnövlərindən ağır bir yüklə yüklənmişlər.

2. Öncə deyilənlərdən aydın olur ki, peyğəmbərlərin xüsusiyyətlərindən biri də onların dünya və axirət səadəti üçün zəruri olan qanun və hökmlərdən xəbərdarlığıdır. Onlar bəşəriyyəti xoşbəxtlik yolundan xəbərdar etmək üçün bu yolu tanımalıdırlar. Peyğəmbərlərin elmi Allahın müəyyənləşdirdiyi çərçivədədir. Peyğəmbərlər ilahi elmi çatdıra bilmələri üçün xüsusi bir ağıl və düşüncəyə malik olmalıdırlar. Başqa sözlə, peyğəmbərlər hikmət və düşüncə sahibləridir.

## *Peyğəmbərləri tanımaq yolları*

Peyğəmbərlik iddiasında olan insan doğru deyib-demədiyini müəyyənləşdirmək üçün müxtəlif yollar var. Həmin yollardan bəzilərini nəzərdən keçirək:

1-ci yol: Hər bir peyğəmbər ondan öncə peyğəmbərliyi sübuta yetmiş digər peyğəmbər tərəfindən təsdiq olunmalıdır. Peyğəmbər səhnəyə qədəm qoymamışdan öncə əvvəlki peyğəmbər onun xüsusiyyətlərini bəyan etməlidir. Növbəti peyğəmbərin qəbulu üçün ətrafındakıları hazırlamaq hər bir peyğəmbərin vəzifəsi olmuşdur. Necə ki, həzrət İsa İslam peyğəmbərini (s) təsdiqləmişdir. [1] Eyni zamanda növbəti peyğəmbərlər özlərindən əvvəlki peyğəmbərlərin buyuruqlarını təsdiqləyir.

2-ci yol: Peyğəmbər dediklərinin doğru olduğunu sübuta yetirmək üçün möcüzə göstərməlidir. “Möcüzə” dedikdə qeyri-adi iş nəzərdə tutulur. Peyğəmbər təbii vasitələrdən istifadə etmədən başqalarının bacarmadığı qeyri-adi işləri bacarmalıdır. Həzrət Musanın əsasının əjdahaya çevrilməsi, həzrət İsanın ölüləri diriltməsi, həzrət İbrahim üçün odun soyuması, həzrət Salehin dağın köksündən dəvə çıxarması, həzrət Süleymanın küləklər və cinlər üzərində hakimiyyəti, İslam peyğəmbərinin (s) heç vaxt dəyişməyəcək Quranı gətirməsi uyğun möcüzələrə misal ola bilər.

---

*1. Surə 61, “Səff”, ayə 6*

Hər bir peyğəmbər öz dövrünün ən çox inkişaf etmiş sahəsində möcüzəyə malik olmuşdur. Bu yolla onların qeyb aləmi ilə əlaqəsi sübuta yetmişdir. Mütəxəssis olduqları sahədə qeyri-adi işləri müşahidə edən alimlər peyğəmbərlərə təslim olmuş, onların doğru dediyini təsdiqləmişlər. Uyğun nöqtə imam Rizadan (ə) nəql olunmuş hədisdə gözəl bəyan olunur. Ondan möcüzələrin bir-birindən fərqlənməsi barədə soruşulduqda həzrət buyurur: "Həzrət Musanın dövründə sehrbazlar və cadugərlər, həzrət İsanın dövründə həkimlər, İslam peyğəmbərinin (s) dövründə natiqlər və şairlər öz sahələrində çox inkişaf etmişdilər. Həzrət Musa öz möcüzəsi ilə sehrbazları, həzrət İsa xəstələrə şəfa verməsi ilə həkimləri, İslam peyğəmbəri (s) Quranın əsrarəngiz üslubu ilə şairləri məğlub etdi."[1]

3-cü yol: Peyğəmbərlik iddiasında olanların danışıq və rəftarlarına bir qədər diqqət yetirək. Nə üçün həqiqi peyğəmbərlər heç vaxt maddi mənfəət fikrində olmur, mükafat və dünya malı istəmir, məqam və şöhrət ummur? Onlar hətta doğru yola çağırdıqlarından təşəkkür də gözləmirlər. Həqiqi peyğəmbərlər mənfəət axtaran yalançı peyğəmbərlərin əksinə olaraq yalnız Allahın razılığı barədə düşünürlər.

4-cü yol: Peyğəmbərlərin qanun və hökmlərini araşdırdıqda, onları dünyəvi qanunlarla müqayisə etdikdə onların həqiqətən də peyğəmbər olduğu aydınlaşır. Şübhəsiz ki, dördüncü yol elm və düşüncə sahiblərinə məxsusdur və sadə insanlar bu yoldan istifadə etmək imkanında deyillər.

## *İlahi peyğəmbərlərin sayı*

Quranda 26 peyğəmbərin adı dəqiq göstərilir. Bu adları nəzərdən keçirək: Adəm, Nuh, İdris, Saleh, Hud, İbrahim, İsmail, İshaq, Yusuf, Lut, Yaqub, Musa, Harun, Şüeyb, Zəkəriyya, Yəhya, İsa, Davud, Süleyman, İlyas, Yəsə, Zülkifl,

---

*1. "Biharul-ənvar", c. 11, s. 70, 71, hədis 1*

Əyyub, Yunis, Üzeyr və Məhəmməd (s). Nəzərə almalıyıq ki, Quranda Şəmuyel, Ərmiya, Xızr, Yuşə kimi başqa peyğəmbərlərə də işarə olunmuş, amma onların adı aydın şəkildə zikr edilməmişdir.[1]

İlahi peyğəmbərlərin ümumi sayı ilə bağlı müxtəlif rəvayətlər nəql olunmuşdur. Əksər rəvayətlərdə onların 124 min nəfər olduğu bildirilir.[2] Bir qrup rəvayətlərdə isə Allah tərəfindən 144 min peyğəmbər göndərildiyi bildirilir.[3]

Bəzi rəvayətlərdə nəql olunur ki, həzrət Peyğəmbər (s) Əbuzərin peyğəmbərlərin və səmavi kitabların sayı ilə bağlı sualına belə cavab vermişdir: "Allahın 320 min peyğəmbəri, 124 kitabı olmuşdur." Sonra Əbuzər peyğəmbərlər arasında ilahi tapşırıqları bəyan etməyə vəzifəli rəsulların sayı haqqında soruşmuşdur. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Peyğəmbərlərin üç yüzündən çoxu rəsul olmuşdur."[4]

## *Peyğəmbərlərin məqamı*

**Sual:** Bütün peyğəmbərlər məqam və vəzifə baxımından eyni olmuşlarmı?

**Cavab:** Quran ayələrindəki işarələrdən və rəvayətlərdəki müxtəlif təbirlərdən aydın olur ki, Allah tərəfindən göndərilən elçilərin müxtəlif məqamları olmuşdur:

1. Peyğəmbərlik məqamı: Bu məqamda olanlar Allah tərəfindən ilahi hökmü vəhy vasitəsi ilə qəbul edirlər. Bu sayağı məqama malik olan peyğəmbərlər "nəbiyy" adlanır. Demək, "nəbiyy" dedikdə vəhy nazil olan şəxs nəzərdə tutulur.

2. Risalət məqamı: Bu məqam sahibi vəhyi xalqa çatdırmağa, onu təbliğ edib yaymağa vəzifəlidir. Cəmiyyəti maarifləndirmək bu məqama malik olanların işidir. Böyük

---

*1. Bax: Surə 2, "Bəqərə", ayələr 247, 259; Surə 18, "Kəhf", ayələr 60-65*
*2. "Biharul-ənvar", c. 11, s. 30, hədis 21, eləcə də s. 41, hədis 43*
*3. "Biharul-ənvar", c. 16, s. 352, hədis 35*
*4. "Biharul-ənvar", c. 11, s. 60, hədis 68*

təlaşlarla xalqı Allaha doğru dəvət edən, mədəni bir inqilab üçün çalışan peyğəmbərlər "rəsul" adlandırılmış və risalət məqamına malik olmuşlar.

3. İmamət məqamı: İmamət məqamı dedikdə xalqa rəhbərlik, öncüllük məqamı nəzərdə tutulur. İlahi hökumətin təşkili, Allah hökmlərinin işə salınması üçün qüdrət əldə edilməsi imamın vəzifələridir. Başqa sözlə, imam ilahi göstərişləri yerinə yetirməyə borcludur. Hansı ki rəsulun vəzifəsi yalnız bu göstərişləri bəyan etməkdir.

İslam peyğəmbəri (s) kimi bəzi peyğəmbərlər hər üç məqama malik olmuşlar. Bəzi peyğəmbərlərdə yalnız nəbiyy, bir başqalarında nəbiyy və risalət məqamları olmuşdur.

Peyğəmbərlər arasında "ülul-əzm" adlandırılanlar var. "Əzim" dedikdə möhkəm iradə nəzərdə tutulur. Yeni şəriət və ayin gətirmiş peyğəmbərlər "ülul-əzm" peyğəmbərlərdir. Onlar bir çox problemlərlə üzləşmiş, uyğun çətinlikləri adlamaq üçün böyük iradəyə ehtiyaclı olmuşlar.[1]

Beş peyğəmbər ülul-əzm peyğəmbər sayılır: Həzrət Nuh, həzrət İbrahim, həzrət Musa (Tövrat sahibi), həzrət İsa (İncil sahibi), həzrət Məhəmməd (s) (Quran sahibi).[2]

---

*1. "Biharul-ənvar", c. 11, s. 34, 35, hədis 28, 29, 30*
*2. "Biharul-ənvar", s. 33, hədis 26*

# Səkkizinci fəsil

## *İslam peyğəmbəri (s)*

İslam Peyğəmbəri (s) göndərilməzdən (məbus olmamış) dünya əhalisi, xüsusi ilə ərəblər dəhşətli azğınlıq içində idilər. Qaragünlük, bədbəxtçilik, cəhalət və nadanlıq, müxtəlif mənəvi çirkinliklər həmin əsrdə bütün dünyanı bürümüşdü. Mövcud şəraitin çətinliyi gizli deyildi. Nəhayət, Allah-taala insanlara minnət qoyulası dəyərə malik böyük nemətini əta etdi, əziz Peyğəmbəri (s) göndərdi. Peyğəmbər (s) insanların ehtiyaclarını yetərincə dərk etmək, onların problemlərini dərindən yaşamaq üçün mələklərdən yox, bəşər nəslindən seçildi. Peyğəmbərlik məqamına yüksəldilmiş həzrət Məhəmmədin qarşısında üç mühüm proqram dayanırdı:

1. Peyğəmbər Allahın ayələrini xalqa bəyan edir, ilahi kəlamları onların nəzərinə çatdırırdı.
2. Peyğəmbər əxlaqi fəzilətləri və insani dəyərləri canlandırır, insanları tərbiyə edir, onları şirk və batil əqidələr çirkabından paklayırdı. Bu yolla insanlar ilahi kitab təlimlərinin, hikmət və biliklərin qəbuluna hazırlanırdı.
3. Cəhalət ruhi azğınlığın kökü olduğundan Peyğəmbər (s) insanlara hikmət və bilik öyrədirdi.[1]

Əziz Peyğəmbər (s) öz proqramının icrasına "Ümmül-Qüradan" yəni Hicazın mədəniyyət mərkəzi olan Məkkədən başladı. Onun ilkin vəzifəsi öz yaxınlarını doğru yola dəvət etmək idi. Peyğəmbər bu yolla İslamın ilkin **özülünü**

---

*1. Bax: Surə 3, "Ali-İmran", ayə 164*

möhkəmləndirməli idi. Yalnız bundan sonra başqalarını dəvət etmək olardı. İslamın dayaqları möhkəmləndirildikdən sonra Peyğəmbərə (s) bəşəriyyətə xəbərdarlıq etmək, insanları doğru yola çağırmaq əmr olundu. Bu məqsədlə dünyanın tanınmış başçılarına məktublar yazıldı, kəsralar və qeysərlər İslama dəvət edildi.

Həqiqətən də, İslam peyğəmbərinin (s) vücudu Allah tərəfindən aləmlərə rəhmət və nemət göndərilmişdi. Çünki Peyğəmbər (s) bəşəriyyəti xilas edəcək ayinləri yaymağa vəzifəli idi. Bu ayinlərdən faydalanmayanlar özləri təqsirkardır. Kimlərinsə İslam ayinlərindən üz çevirməsi bu dinin cahanşümulluğunu şübhə altına almır. Dünyanın əksər nöqtələrindən müharibə ocaqlarının alovlandığı, cəhalətin, əxlaqi pozğunluğun, xəyanətin, istismarın, ayrıseçkiliyin və minlərlə başqa azğınlığın zirvə həddə çatdığı dünyamızda "rəhmətun lil aləmin" yəni aləmlərə rəhmət ifadəsinin məfhumu özünü daha aydın göstərir. İslam ayinlərinə əməl olunarsa dünyadakı bədbəxtliklərə və azğınlıqlara son qoyular, insanlar dünya və axirət xoşbəxtliyi əldə edər. Bundan böyük mərhəmətmi olar?!

*Sənin kimi arxası*
*olan ümmətə nə qəm?*
*Nuhun gəmisi varsa,*
*qorxu yoxdur dənizdən*[1].

Peyğəmbərin (s) bütün təlaşları bəşəriyyətin öz Rəbbinə doğru hidayətinə, sövqünə yönəlmişdi. Peyğəmbər (s) öz işi müqabilində heç bir muzd, mükafat istəmirdi. Həzrət (s) insanların hidayətini özü üçün mükafat sayırdı. Bəli, ümmətin hidayəti Peyğəmbər (s) üçün ən böyük mənəvi mükafat idi.

---

1. *"Gülüstan", müqəddimə*

## *İslam Peyğəmbərinin (s) həyatından səhifələr*

Həzrət Məhəmməd (s) Fil əshabı əhvalatı baş verən il rəbiül-əvvəl ayının 17-də Məkkə şəhərində dünyaya göz açdı. Həmin il Yəmən hakimi Əbrəhə böyük bir qoşunla, döyüş filləri ilə Kəbəni dağıtmaq üçün Məkkəyə üz tutdu. Amma onlar Allahın əzabına düçar oldular, quşların havadan yağdırdığı daşla məhv edildilər.

Həzrət Məhəmmədin atasının adı Abdullah, anasının adı Amənə idi. Həzrət Məhəmməd (s) dünyaya gəlməmiş atası dünyasını dəyişdi və babası Əbdül-Müttəlib onu himayəyə götürdü. Altı il sonra il anası Amənə vəfat etdi. Həzrət Məhəmməd (s) səkkiz yaşında ikən babası Əbdül-Müttəlibi itirdi. Həmin vaxtdan əmisi Əbu-Talibin himayəsində yaşadı. Həzrət 25 yaşında ikən xanım Xədicə ilə evləndi.

Uşaq yaşlarından ədəbli və doğruçu olan Peyğəmbəri (s) bu xasiyyətlərinə görə "Məhəmməd Əmin" çağırırdılar. Həzrət (s) peyğəmbərliyə qədərki 40 illik ömründə sədaqət və alicənablıqla ömür sürdü. O heç vaxt yalan danışmadı, kimsəyə xəyanət etmədi, zülmə yol vermədi. Hər il bir müddət Həra dağına gedir, Allahın qüdrət nişanələri haqqında düşünür, Ona pərəstiş edirdi. Nəhayət, 40 yaşında, rəcəb ayının 27-də peyğəmbərlik məqamına yüksəldi. Bu məqama çatdıqdan sonra 13 il Məkkədə yaşadı və həmin 13 ildə insanları gizli və aşkar şəkildə allahpərəstliyə, İslam ayinlərinə dəvət etdi. Həmin müddət ərzində Məkkə müşrikləri Peyğəmbərə (s) və müsəlmanlara olmazın işgəncələrini verdilər. Belə ki, həzrət Peyğəmbər (s) sonradan "Mədinətun-nəbiyy" adlanan Yəsrib şəhərinə hicrət etməli oldu. Mədinədə cahanşümul İslam dövlətinin bünövrəsi qoyuldu. Həzrət Məhəmməd 10 il Mədinədə yaşadı, insanların hidayət və tərbiyəsi ilə məşğul oldu. Həmin illər ərzində acılı-şirinli müxtəlif hadisələr baş verdi. 10 il ərzində aparılan müharibələrdə qələbələr qazanıldı.

Peyğəmbər (s) 63 il şərəfli bir ömür sürdükdən sonra hicri 11-ci il, səfər ayının 28-də dünya ilə vidalaşdı və əbədiyyətə qatıldı.

Peyğəmbər (s) bütün müvəffəqiyyətlərini Allahın yardımı ilə əldə etsə də, bu müvəffəqiyyətlərin ən mühüm səbəbi həzrətin cazibəli əxlaqı idi. Peyğəmbərdə o qədər gözəl sifətlər vardı ki, ən qatı düşmənlər də ondan təsirlənir, ona təslim olurdular. Ətrafındakı insanlar Peyğəmbəri (s) böyük məhəbbətlə sevirdi. Əgər desək ki, İslam peyğəmbərinin (s) möcüzələrindən biri onun gözəl əxlaqı olub, yanılmarıq. İmam Hüseyn (ə) cəddi Peyğəmbərin (s) bəzi xüsusiyyətlərini nəql edir. Həzrət buyurur: "Peyğəmbər (s) öz yaxınları ilə daim xoşrəftar, gülərüz, mülayim idi. O heç vaxt kobudluğa, laqeydliyə, sərtliyə, acıdanışığa, eyb axtarmağa, mədhiyyəçiliyə, yaltaqlığa yol verməzdi. Kimsə ondan ümidini üzməmişdi. Qapısına gələn əliboş qayıtmazdı. Üç şeydən daim çəkinərdi: höcətkeşlik, çoxdanışmaq, özünə aid olmayan işə qatışmaq. Xalqa münasibətdə üç rəftara yol verməzdi: Kimsəni danlamaz, gizli eybləri soraqlamaz, yalnız savaba ümid etdikdə danışardı. Danışığı o qədər nüfuzlu idi ki, söhbəti zamanı hamı susardı. Tanımayan bir şəxs onunla kobud danışdıqda həzrət səbr edərdi. Yaxınlarına tapşırardı ki, ehtiyacı olana əta etsinlər. Kimsə sözünü başa çatdırmamış onun danışığını kəsməzdi."[1]

Bəli, insanları Allaha bəndəliyə dəvət edən Peyğəmbər (s) hamıdan artıq ibadət edərdi. Bir işə qadağa qoymazdan öncə özü həmin işdən çəkinərdi. Onu incidənlərə nəsihət verər, təhqir edənlərə bağışlanma diləyərdi. Onun başına daş yağdırdılar, od əllədilər. Amma Peyğəmbər (s) beləl期ərinə dua edirdi. O çox təvazökar idi. Quru yerdə əyləşər, həmin vəziyyətdə xörək yeyər, ev işlərini özü yerinə yetirərdi. Bəzən qonaqlar üçün qapını özü açardı. Qoyunu özü sağar, xidmətçi əl dəyirmanını işlədərkən yorulduqda ona kömək edərdi. Heç vaxt dünya işlərinə görə qəzəblənməz, yalnız Allah yolunda nigarançılıq keçirərdi. Yoxsullar, kasıb təbəqə ilə bir süfrədə

---

*1. "Biharul-ənvar", c. 16, s. 148-153, hədis 4*

əyləşər, saleh və elmli insanlara ehtiram göstərərdi. Yemək və geyimdə özü ilə xidmətçilər arasında fərq qoymazdı. Qarşılaşdığı adama salam verər, əyləşdiyi məclisdə zikr edər, çox vaxt üzü qibləyə əyləşərdi. Kimsə ona ehtiyac duyduqda tələsik köməyə gedərdi. Qonağa ehtiram göstərər, bəzən öz əbasını qonağın altına sərərdi. Bir gün bir şəxs həzrət Peyğəmbər (s) ilə görüşdə onun əzəmətindən lərzəyə gəldi. Həzrət (s) buyurdu: "Nə üçün məndən qorxursan, mən ki, padşah deyiləm?"

Doğrudan da, İslam peyğəmbəri (s) bəşəriyyət üçün kamil əxlaq və insanlıq nümunəsi idi. Həzrət (s) özü buyururdu: "Mən əxlaqi fəzilətləri kamilləşdirib zirvə nöqtəsinə çatdırmaq üçün peyğəmbər göndərilmişəm." [1] Bundan da böyük güzəşt və alicənablıq nə ola bilər ki, cinayətkar müşriklər uzun illər İslam və Peyğəmbərin (s) ziddinə mübarizə apardıqdan sonra Məkkə fəth olunan zaman hər şeyə göz yumulur və ümumi əfv elan edilir! Bəli, elə bu səbəbdən Allah-taala buyurur: "Həqiqətən, sən böyük əxlaq sahibisən."[2]

Əziz Peyğəmbər (s) özünü sadə insanlardan ayırmaz, hətta bəzən onlarla zarafat edərdi. Onun böyük ruhu və təvazökarlığını bir hadisə ilə yada salmağımız yaxşı olar. Bir gün bir qadın pərişan halda həzrətin (s) yanına gəlir. O, həzrət Peyğəmbərə (s) öz ərindən şikayətlənir. Həzrət buyurur: "Sənin ərin gözündə ağ olan şəxs deyilmi?" Qadın deyir: "And olsun Allaha ki, yox. Onun nə eybi varsa da, belə bir eybi yoxdur." Həzrət (s) gülümsəyib buyurur: "Mən ona eyb tutmadım. Bütün insanların gözündə ağ var və hamının gözünün ağı qarasından çoxdur." Qadın da ətrafdakılarla birgə gülümsəyir və qəm-qüssəsini unudur.

---

*1. "Biharul-ənvar", c. 16, s. 210; Beyhəqi, "Əssunənul-kubra", c. 10, s. 192*
*2. Surə 68, "Qələm", ayə 4*

## *Həzrət Məhəmmədin (s) peyğəmbərliyini tanımaq yolları*

**Sual:** Peyğəmbərləri tanımaq üçün müəyyənləşmiş yollar İslam peyğəmbərinə (s) münasibətdə də öz gücündə qalırmı?

**Cavab:** Bəli. Bu yollardan biri öncəki peyğəmbərlərin növbəti peyğəmbərlə bağlı müjdə və təsdiqləridir. Həzrət İsa öncədən İslam peyğəmbərinin (s) gəlişi ilə bağlı müjdə verir və onun adını "Əhməd" kimi qeyd edir. Bu müjdə Quranda da nəql olunmuşdur.[1]

Digər bir yol möcüzələrlə tanışlıqdır. İslam peyğəmbəri (s) haqqı qəbul etmək fikrində olmayan inadkarların möcüzə istəyinə müsbət cavab vermirdi. Amma Allah tərəfindən gəlişini təsdiqləyən möcüzə istənildikdə bu yönümdə addım atırdı. Səmada ayın ikiyə parçalanması həzrət Peyğəmbərin (s) möcüzələrindən biridir. Amma onun əsil möcüzəsi öz dövrünə uyğun olan əbədi bir möcüzədir. Bu Qurani-kərimdir. Öncəki peyğəmbərlərin möcüzələrinin danışan dili yox idi. Həmin möcüzələr yalnız peyğəmbərlərin iştirakı ilə baş tuturdu. Amma Quran elə bir möcüzədir ki, təqdimatçıya ehtiyac duymur. İslam peyğəmbərinin (s) vəfatından əsrlərcə ötməsinə baxmayaraq Quran onun həyatında olduğu kimi öz gücündədir. Bu səmavi kitab həm din, həm möcüzə, həm qanun, həm də sənətdir. Əgər öncəki peyğəmbərlərin möcüzələri xüsusi bir məkan və zamanda baş tuturdusa, İslam peyğəmbərinin (s) möcüzəsi üçün bu məhdudiyyətlər yoxdur. Həzrət İsanın beşikdə danışması, ölüləri diriltməsi hansısa bir zaman və məkanda baş vermişdir. Quranın ecazı isə zaman və məkana sığmır, 1400 il bundan öncə Hicaz zülmətində təcəlla etdiyi şəkildə bu gün də aləmi işıqlandırır. Əksinə, zaman ötdükcə, elmi biliklər artıqdca Qurandan daha çox istifadə edilir.

---

*1. Bax: Surə 61, "Səff", ayə 6*

Mühüm nöqtələrdən biri budur ki, öncəki peyğəmbərlərin möcüzələri maddi xarakter daşımışdır. Xəstələrə şəfa verilməsi, həzrət Musanın əsası bu qəbildəndir. Amma adi hərf və sözlərdən təşkil olunmuş Quran insan ruhuna nüfuz edir, ona daxili bir sığal çəkir. Bu möcüzənin müqabil tərəfi beyinlər və düşüncələrdir. Aydın məsələdir ki, mənəvi möcüzələr maddi möcüzələrdən üstündür. Əsrlərdir ki, Quran onun ilahiliyinə şübhə edənləri mübarizə meydanına çağırır, şəkkahlardan özündəki kimi surələr və ayələr tələb edir. Bu günədək kimsə Quranın mübarizə çağırışına cavab verməmişdir. Hansı ki, Məkkə və Mədinədə müsəlmanlara qarşı hər fürsətdən istifadə edən məsihilər və yəhudilər olmuşdur. Müsəlmanlar arasındakı münafiqlər də bu qəbildəndir. Onlar İslamın məhvi yolunda heç nədən çəkinməmişlər. Bütün bunlara baxmayaraq Quranla mübarizə meydanına çıxan olmamış, əksinə onun ayələrini dinləyənlər, hətta yəhudi və məsihi alimləri arasında İslamı qəbul edənlər olmuşdur.

İnsanı təəccübləndirən budur ki, bu kitabı gətirən şəxs "ummiy", yəni dərs oxumamış biridir.

*Məktəbdən, yazıdan uzaq o insan*
*Yüz-yüz müdərrisə öyrətmiş kəlam.*[1]

Tarix boyu Quranla mübarizə meydanına çıxanlar çox az olmuşdur. Onlardan biri Yəmamə əhlindən olan Musəyləmə Kəzzab olmuşdur. Bu şəxs hicri XI və ya XII əsrdə peyğəmbərlik iddiası etmişdir. O Quranla mübarizəyə qalxaraq daha çox əyləncə xarakteri daşıyan ayələr uydurmuşdur. Bu şəxs öz saxta ayələrini hər vəchlə Quran ayələri kimi ahəngdar etməyə çalışmışdır. Nəticədə gülünc bir məzmun alınmışdır: "Ey qurbağanın qızı

1. *Hafizin divanı, qəzəllər, sayı 167*

qurbağa; istədiyini çağır; yarın sudadır, yarın quruda, nə suyu bulandırırsan, nə də kimsənin su içməsinə mane olursan.”[1]

Hər ötən gün Quranın əzəmətini dünya əhli üçün daha da aydınlaşdırır. Məhşur qərb tarixçisi Vil Dorant Quranı belə vəsf edir: “Quran insanlarda elə bir izzət, ədalət, təqva yaradıb ki, dünyanın heç bir nöqtəsində onun oxşarı yoxdur.”[2]

---

*1. İbn Kəsir, “Əl bidayə vən nihayə”, c. 6, s. 359; Təbəri, “Tarixul-uməm vəl muluk”, c. 2, s. 506*
*2. “Təfsiri-nümunə”, c. 1, s. 137, 138*

# Doqquzuncu fəsil

## *Son şəriət*

"Din" sözü lüğət baxımından "mükafat", eləcə də "əmrə itaət" mənalarını bildirir. Terminoloji baxımdan "din" dedikdə əqidələr, qanunlar və qaydalar məcmusu nəzərdə tutulur. İnsan bu məcmuə sayəsində dünya və axirət xoşbəxtliyi əldə edib, fərdi və ictimai, əxlaqi və tərbiyəvi baxımdan doğru yolu tuta bilər.

"İslam" dedikdə əslində təslimçilik və itaət mənası nəzərdə tutulur. İlahi baxımdan həqiqi ayin Allahın əmrlərinə təslim olmaqdır. Dinin ruhu bütün dövrlərdə həqiqət qarşısında təslimçilikdən ibarət olmuşdur. İslam peyğəmbərinin (s) ayinləri təslimçiliyin ən ali nümunəsi olduğundan "İslam" adlandırılmışdır. Əlbəttə ki, İslamın tövhid, nübüvvət və məada etiqada çağırışı yeni bir çağırış deyildi. Bütün səmavi dinlər eyni dəvətlə çıxış etmişdir. Bəli, bəşəriyyətin ictimai və mədəni inkişafı ilə əməli hökmlər də təkmilləşmişdir. Bu hökmlər İslamın gəlişi ilə son təkamül həddinə çatmışdır. Amma bütün din və məzhəblərdə əqidə əsasları və əxlaq prinsipləri eynidir.

### *İslam Peyğəmbəri (s) son peyğəmbərdir*

Ötən fəsildə qeyd etdik ki, İslam ayinləri cahanşümul xarakterlidir. Bu ayinlər hansısa məntəqə, hansısa millət və

qövm üçün nəzərdə tutulmayıb. Bu dinin məfhumları o qədər əhatəlidir ki, zaman ötdükcə aktuallığını itirmir. Bəli, İslam dini əbədi bir dindir. Bu münasibətlə İslam peyğəmbəri (s) "xatəmun-nəbiyyin", yəni son peyğəmbər adlandırılır. [1] "Xatəm" dedikdə bir işi sona çatdıran vasitə nəzərdə tutulur. Bu söz son mənasını bildirən "xətm" kökündən götürülmüşdür. Möhür yazının sonunda vurulduğundan möhürləyən vasitə xatəm adlandırılır. Üzüyə də "xatəm" deyirlər. Çünki qədim vaxtlar möhür kimi istifadə olunan yazılı üzüklərdən istifadə olunurdu. İslam Peyğəmbəri (s) öz dəvətini genişləndirib, qüdrət sahibi olan padşah və sultanları İslama çağırmaq qərarına gəldiyi vaxt onun üçün bir üzük hazırlandı və bu üzüyün üzərində "Muhəmmədən rəsulullah" sözləri yazılmışdı. Həzrət yazılmış məktubları bu üzüklə möhürləyirdi. Bəli, Quranda qeyd olunmuş "xatəmun-nəbiyyin" ifadəsi İslam peyğəmbərinin (s) son peyğəmbər olduğunu göstərir. Bəziləri köklü şəkildə yanılaraq bu ifadəni başqa bir şəkildə açıqlayırlar. Guya İslam peyğəmbəri (s) peyğəmbərlərin üzüyü və onların zinəti məqamında olduğundan belə adlandırılmışdır. Əlbəttə ki, belə bir fikir cəfəngiyatdır.

İslam Peyğəmbərinin (s) son peyğəmbər olması bütün müsəlmanlar tərəfindən yekdilliklə qəbul olunmuşdur. Quranın bir çox ayələrində uyğun nöqtəyə işarə olunur. Ayələrdən birində buyurulur: "Məhəmməd sizlərdən heç birinizin atası deyil, amma Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur." [2] Uyğun müddəanı təsdiqləyən bir çox rəvayətlər mövcuddur. Həzrət Peyğəmbər və məsumlardan nəql olunmuş uyğun rəvayətlərdə Peyğəmbərin (s) son peyğəmbər olması qətiyyətlə vurğulanır. Həmin rəvayətlərdən birini yada salırıq: Həzrət Peyğəmbər (s) «Mənzələt» hədisində həzrət Əliyə (s) buyurur: "Harun Musa

---

*1. Bax: Surə 33, "Əhzab", ayə 40*
*2. Həmin mənbə*

üçün necə idisə, sən də mənim üçün eləsən. Sadəcə məndən sonra peyğəmbər olmayacaq.”[1]

**Sual:** İnsan təkamülünün dayanacağı yoxdur. Bugünki insanlar qədim insanlardan çox-çox irəlidədirlər. Bəs necə olur ki, təkamül yolunda irəliləyən insan yeni peyğəmbərlərdən məhrum qalır?

**Cavab:** Düşüncə və mədəniyyət baxımından inkişaf etmiş insan son Peyğəmbərin (s) üsul və təlimatlarından ardıcıl şəkildə istifadə etməklə öz yoluna davam edə bilər. Bu yolda yeni şəriətə ehtiyac yoxdur. Məsələn, tələbə hər təhsil mərhələsində bir ustada ehtiyac duyur. Amma onun üçün elə bir məqam var ki, özü nəzər sahibi olur və ustada ehtiyac duymur. O öz araşdırmalarında yalnız keçmiş ustadlardan öyrəndiklərinə istinad edir. Beləcə, hər bir şəxs Allahın göndərdiyi son Peyğəmbər (s) vasitəsi ilə verilmiş proqramlar əsasında təkamül yolunu davam etdirə bilər. Əlbəttə ki, burada yalnız yeni şəriət nəzərdə tutulur. İmamət və rəhbərlik məsələsində isə münasibət fərqlidir. İnsan təkamül yolunda daim rəhbərə ehtiyaclıdır. Bu səbəbdən də peyğəmbərlik silsiləsinin başa çatması imamət silsiləsinin başa çatması kimi anlaşılmamalıdır. İnşaallah, imamət mövzusundakı söhbətlərimizdə uyğun nöqtələrə toxunacağıq.

## ***İslamın ümumi prinsipləri bütün dövrlərlə bağlı suallara cavab verir***

**Sual:** İnsanın ehtiyacları daim dəyişir. Hansı ki, İslam qanunları keçmiş dövrlərə aiddir. Keçmiş dövrlər üçün nəzərdə tutulmuş qanunlar gələcək insanların dəyişən ehtiyaclarına necə cavab verə bilər?

**Cavab:** Əgər İslamın bütün göstərişləri cüzi və konkret olsaydı, xüsusi işlər və şəxslər üçün nəzərdə tutulsaydı, deyilən

---

*1. “Biharul-ənvar”, c. 5, s. 69; “Əl sunənul-kubra”, c. 9, s. 40; Müttəqi Hindi, “Kənzul-ummal”, c. 11, s. 599*

irad yerli görünərdi. Hansı ki, İslam dini ümumi prinsiplərə və əhatəli qanunlara malikdir. Bu qanunlar hər bir əsrin ehtiyaclarına cavab verir. İslamda "ictihad" mövzusu vardır. İctihad dedikdə ümumi qanunlardan dövrün ehtiyaclarına cavab verəcək cüzi qanunların çıxarılması nəzərdə tutulur. Müctəhid Quran və hədislərdən istifadə etməklə müasir insanın vəzifələrini müəyyənləşdirən şəxsdir.

# Onuncu fəsil

## *Məad və ya qiyamət*

Üsulidinin 3-cü bəndi məada, yəni ölümdən sonrakı həyata etiqaddır. Digər əsaslar kimi bu əsas da bütün müsəlmanlar tərəfindən qəbul olunur. İnsan dünya həyatı ilə vidalaşdıqdan sonra axirət aləmində sorğuya çəkilir, əməllərinin mükafat və ya cəzasını alır. Uyğun prinsiplə bütün ilahi dinlərdə tanış olmaq mümkündür. Etiqad əsaslarında axirət inancı nəzərdə tutulmamış din ilahi din adlandırılmamalıdır.

Bütün peyğəmbərlər və səmavi kitablar məad mövzusunu yekdilliklə təsdiqləyir. Bəli, insanın həyatı ölümlə başa çatmır, dünya ilə vidalaşan insan öz həyatının digər bir mərhələsinə qədəm qoyur. İnsan həmin mərhələdə öz xeyir və ya çirkin əməllərinin əvəzini alır.

### *Məadın dəlilləri*

Axirət inancının bütün dinlərdə təsbit olunması onun fitri bir həqiqət olduğunu göstərir. Fitrətə uyğun olmayan bir mövzunun tarix boyu insanların etiqadında yer alması inandırıcı görünmür. Bəli, axirət inancı fitrətə əsaslanır. Bu səbəbdən də insan bəzən həyatının ölümlə başa çatmadığını hiss edir. O inanır ki, ölüm son halqa yox, əbədi həyata açılmış bir qapıdır. Bütün bu nöqtələri nəzərə alsaq məadın sübutuna

ehtiyac qalmaz. Amma mövzunu aydınlaşdırmaq üçün iki dəlil göstəririk:

***a) Hikmət dəlili***

Əgər ölümdən sonra başqa bir həyat olmadığını düşünsək, bu dünya həyatı puç və mənasız görünər. Təsəvvür edin ki, ana bətnindəki körpə üçün yalnız həmin bətndəki həyat mövcuddur. Bu körpənin doğulmayacağını düşünsək, onun bətndəki həyatı mənasız olar.

Varlıq aləmi əzəmət baxımından geniş, nəzm baxımından misilsizdir. Bu dünyanın sirləri o qədər çoxdur ki, böyük alimlər öz biliklərini həmin sirlərə münasibətdə böyük bir kitabın səhifəsi saymışlar. Dünyanın ən kiçik varlığında onun ən böyük varlığında olan nizam mövcuddur. Tanıdığımız mövcudlar arasında ən kamil və ən alisi insandır. İnsan öz kiçik ömründə böyük çətinliklərlə rastlaşır. Problemlərlə ötən uşaqlıq dövrünü tufanlarla müşayiət olunan gənclik dövrü əvəz edir. İnsan gənclik yollarında addımlarını möhkəmləndirməmiş qocalıq onun sorağına gəlir. Axı necə ola bilər ki, bir neçə günlük problemli həyata xatir varlıq aləmi kimi böyük bir nizam qurulsun. Doğurdanmı insanın həyatı bir müddət qidalanma və bir neçə dəst libas dəyişməklə başa çatır? Bu halda onun həyatı mənasız olmazmı? Heç ağıl sahibi də belə bir puç məqsədlə əzəmətli nizam qurarmı?

Əzəmətli varlıq aləminin nəzərdən keçirilməsi insanda belə bir qənaət yaradır ki, dünya həyatı daha əzəmətli bir həyat üçün müqəddimədir. Həmin həyat dünya həyatından fərqli olaraq əbədidir. Yalnız əbədi bir həyat düşüncə sahibi olan insanın yaranışını mənalandıra bilər. Məadı, ölümdən sonrakı həyatı qəbul etməyənlər əslində bu dünya həyatını puç sayırlar. Hətta bəziləri intihar, dünya həyatından qurtuluşla öyünürlər! Amma Allaha, Allahın sonsuz hikmətinə iman gətirənlər bu dünya həyatını əbədi axirət həyatı üçün müqəddimə sayırlar.

Qurani-məcid qısa və mənalı bir cümlədə buyurur: “Güman edirsiniz ki, sizi boş yerə yaratmışıq, Bizə doğru qayıtmayacaqsınız?!”[1]

***b) Ədalət dəlili***

Varlıq aləmindəki nizama diqqət yetirdikdə aydın olur ki, hər şey hesablanmış, hər şey öz yerində qərar verilmişdir. Digər bir tərəfdən, bu nizamın yaradıcısı ədalətlidir. O öz ayələrində də insanları ədalətə çağırır. Bu məqsədlə peyğəmbərlər göndərilir, insanlar xeyir və sülhə dəvət olunur, şər fəsaddan çəkindirilir. Bu arada bir qrup insan bütün varlığı ilə Allaha təslim olur, din və insanlıq yolundan çıxmır, bulaşıqlıqlardan uzaq dayanır. Belələri hətta bütün dünyanı alıb müqabilində qarışqanı incitməklə razılaşmazlar. Başqa bir qrup isə çirkaba batmışdır, ətrafındakıların haqqını tapdayır, elə yaşayır ki, sanki Allah tərəfindən qanun göndərilməmişdir. Bəziləri insanları öldürməkdən, oda çəkməkdən ləzzət alır. Bu qəbil insanlar üçün günahsızların qanı iştaha yaradır, məzlumların ah-naləsi ən gözəl musiqidir! Məgər bu iki qrupun sonda eyni aqibətə düçar olması Allahın ədalətinə uyğundurmu? Şübhəsiz ki, yox! Allah hüzurunda bu iki zümrə bir-birindən fərqləndiriləsidir. Digər bir tərəfdən, bu iki qrupdan olanlar dünya həyatında öz əməllərinin əvəzini tam almamışlar. Demək, ikinci bir dünya olmalıdır və həmin dünyada salehlər mükafatını, günahkarlar cəzasını kamil şəkildə görməlidir. Həmin dünya axirət dünyası, qiyamət və məaddır.

Bu barədə Qurani-kərimdə buyurulur: “Hamınızın qayıdışı ona doğrudur. Allah haqq bir vəd verib. O yaranışa başladı, sonra onu geri döndərər. İman gətirib saleh işlər görənləri ədalətlə mükafatlandırar. Kafirlər üçün yol verdikləri küfrə görə yandırıcı içki və ağrılı əzab hazırlanmışdır.”[2]

---

*1. Surə 23, “Muminun”, ayə 115*

*2. Surə 10, “Yunis”, ayə 4*

## *Qurani-məciddə məad*

Qurani-məciddə peyğəmbər təlimlərinin əsas mövzusu olan tövhid mövzusundan sonra məad və onun tərbiyəvi təsirləri mövzusuna yer verilir. Bu mövzu allahşünaslıq mövzusu istisna olmaqla daha çox ayə əhatə edən mövzudur. Həmin böyük gün Qurani-kərimdə müxtəlif adlarla adlandırılmışdır. Bu adlardan hər biri həmin gündə baş verəcək hadisələrdən birini işıqlandırır. Hər bir adda hansısa sirr var. O böyük günün ən böyük adlarından biri "yəvmül-qiyamə", yəni qiyamət günüdür. Bu ad insanların böyük oyanışından, bütün bəndələrin ayağa qalxmasından danışır. Qiyamət gününün başqa adları da var. Peşimançılıq günü mənasını bildirən "yəvmul-həsrə" və "yəvmun-nədamə" adları, ayrılıq günü mənasını bildirən "yəvmül-fəraq" adı, hesab və sorğu-sual günü mənasını bildirən "yəvmul-muhasibə" və "yəvmül məsələ" adları, cəza günü mənasını bildirən "yəvmuddin", "yəvmul-fəsl" və "yəvmul-hukm" adları misal göstərilə bilər. Yaxşı olar ki, insan qəflət yuxusundan oyanmaq, şeytani nəfs istəklərinin cilovunu qırmaq üçün bir müddət bu adlar haqqında düşünsün. Yaxşı olar ki, elə bu dünyadaca ədalət sahibi olan Allah hüzurundakı vəziyyətimizi yada salıb addım ataq. Qurani-kərimdə məad mövzusunda söhbətlər bəzən dəlilləri açıqlayır, bəzən də insanı lərzəyə gətirən ifadələrlə müşayiət olunur. Bu ayələrdəki sadiqanə təbirlər eynən dəlillər kimi, insan ruhunun dərinliyinə nüfuz edir. Dəlillərdən danışılarkən daha çox belə bir nöqtəyə toxunulur ki, qiyamətdə insanların oyanışı mümkün bir işdir. Müxaliflər məadın mümkünsüzlüyünü iddia edirdilər. Onların nəzərincə çürüyüb torpağa qatışmış cisim yenidən bərpa ola bilməzdi. Quran bu mövzuda qaranlıq nöqtələri müxtəlif istiqamətlərdən işıqlandırır və məadın mümkünsüzlüyünü rədd edir. Ayələrdə oxuyuruq: "Sizi başlanğıcda yaratdığı kimi başqa bir dünyaya qaytarar."[1] Bəzən ölümdən, bitkilərin həyatından və qiyamət səhnələrindən elə

---

*1. Surə 7, "Əraf", ayə 29*

danışılır ki, insan həmin səhnələri zehnində canlandırır. Ayələrdə buyurulur: “Biz səmadan bərəkətli su endirdik. Onun vasitəsi ilə yaşıl bağlar, dənlər cücərtdik... Onun vasitəsi ilə ölü torpağı diriltdik. Qiyamət də bu sayağıdır.”[1]

## *Məadın inkar olunmasının səbəbləri*

Məadın, insanın qiyamət səhnəsinə qayıdışının bəziləri tərəfindən inkar edilməsinin müəyyən səbəbləri var. Həmin səbəblərdən bəzilərini nəzərdən keçirək:

1. Bəziləri məsuliyyətdən qaçmaq üçün bəhanə axtarırlar. Onlar öz ətrafındakılara zülm edir, onların haqqını tapdayır, fitnə-fəsad törədirlər. Axirət inancı insanın günaha doğru azad addım atmasına mane olur. Bu qəbil insanlar öz yolunu açmaq, çirkin işlərə mane olacaq səbəbləri aradan qaldırmaq üçün qiyaməti inkar edirlər. Qurani-məcid buyurur: “İnsan düşünür ki, onun sümüklərini bir yerə toplamayacayıq? Biz onun barmağının bəndlərini yenidən yaratmağa qadirik. İnsan məada şəkk etmir. O sadəcə azad olmaq istəyir. İstəyir ki, ömrünün sonunadək günah iş görsün. Buna görə də soruşur ki, qiyamət nə vaxt olacaq?”[2]

2. Bəzən insanın yetərincə agah olmaması, Allahın qüdrətindən xəbərsizliyi onun məadı inkar etməsinə səbəb olur. Təfsir kitablarında bildirilir ki, bir şəxs çürümüş sümük parçasını əlinə alıb düşündü ki, bu yolla Peyğəmbərlə (s) mübarizəyə qalxacaq, onun məadla bağlı sözlərini batil edəcək. Həmin şəxs Peyğəmbərin (s) görüşünə gəldi. Əlindəki sümük parçasını ovub yerə tökdü və dedi: “Bu çürümüş sümüyü kim dirildə bilər?!” Həmin məqamda Allah hazırkı ayələri nazil etdi: “O (həmin şəxsə işarədir) öz yaranışını unudub bizə misal çəkdi. Dedi ki, bu sümükləri kim dirildə bilər, axı onlar

---

*1. Surə 50, “Qaf”, ayələr 9-11*
*2. Surə 75, “Qiyamə”, ayələr 3-6*

çürüyüb? De ki, onları həmin şəxs dirildəcək ki, başlanğıcda yaratmışdı. O hər məxluqdan agahdır."[1]

3. Məadın inkarının digər bir səbəbi dini təbliğat vəzifəsini öhdəsinə götürənlərin ləyaqətsiz rəftarlarıdır. Cəmiyyətin dini baxımdan məlumatlandırılmasına vəzifəli bəzi insanlar zahirdə özünü dindar göstərsə də, əməlləri sözləri ilə bir araya sığmır. Onların riyakarlığı bir çoxlarını məada münasibətdə tərəddüdə salır. Məsələn, insanlar bütün fikir-zikri dünya malı və məqam əldə etmək olan din alimi gördükdə düşünürlər ki, əgər qiyamət haqq olsaydı, bu şəxs belə rəftar etməzdi. Bəli, riyakar alimin sözlərindən çoxları belə qənaətə gəlir ki, həmin alimin dedikləri düz olsaydı, özü əməl edərdi. Məadın inkarının başqa bir səbəbi xürafi söhbətlərdir. Qiyamətlə bağlı məntiqsiz bir söz danışıldıqda bu sözlər nəinki insanların etiqadını artırmır, əksinə mənfi təsir göstərir və bir çoxlarını dindən uzaqlaşdırır.

Zəruri bir nöqtə: Şübhəsiz ki, düşüncəli müsəlmanlar başqalarının yersiz əməllərinə, alimlərin riyakarlığına xatir öz etiqadlarından əl çəkmirlər. Qiyamət günü kimsədən bu qəbil üzürlər qəbul olunmayacaq.

## *Məada etiqadın faydaları və təsirləri*

Məada etiqad, ölümdən sonrakı həyatın yada salınması insan həyatının bütün məqamlarına müsbət təsir göstərir. Bu iman və xatırlama səbəbindən insan öz vəzifələrini yerinə yetirməyə daha çox çalışır. O inanır ki, zərrəcə əməli nəzərdən qaçmır, yaxşı və pis bütün addımları qeydə alınır. Bəli, Allah-taala dəqiq hesab aparır, insanın gizli və aşkar əməllərini qeydə alır. Məad etiqadı insana əbədiyyət vəd edir. Əbədiyyətə inanclı insan axirət həyatının qurulması üçün çalışır. Onun üçün ölüm başqa bir həyata atılan addımdır. Axirətə inanclı insanlar zülm-sitəmdən çəkinir, günaha yol vermir. Onlar əmindirlər ki, bütün əməllərinə görə cavab verəcəklər. Məada inanan fərd dini

---

*1. Surə 36, "Yasin", ayələr 78, 79*

vəzifələrini üstün şəkildə yerinə yetirir, ehtiyaclılara yardımını əsirgəmir.

Əgər cəmiyyətdə məada etiqad ruhu hakim olarsa günah, cinayət, ayrıseçkilik, möhtəkirlik, ədalətsizlik, yoxsulluq göstəriciləri əhəmiyyətli həddə aşağı düşər. Hazırda əksər cəmiyyətlərdə uyğun problemlər mövcuddur və onların günbəgün artımı göz qabağındadır. Bunun əsas səbəbi insanların axirətə, hesab-kitaba etiqadsızlığıdır. Qurani-kərim bu barədə buyurur: "Qiyaməti daim inkar edən şəxsi gördünmü? O həmin şəxsdir ki, yetimi qəzəblə qovub, başqalarını miskinə təam verməyə təşviq etmir..."[1]

Qiyaməti qəbul etməyən insan o qədər alçalır ki, öz miskin imkanları sonsuz qüdrət sahibi olan Allaha qarşı çıxır. Firon və fironkimiləri deyilənlərə aşkar misal ola bilər.

## *Bərzəx, dünya və axirət arası aləm*

**Sual:** Dünya və axirət arasında başqa bir aləm varmı?

**Cavab:** Quran ayələri və məsumların buyuruqlarından belə bir qənaətə gəlmək olur ki, bu dünya ilə axirət dünyası arasında bərzəx adlanan bir aləm var. Bərzəx dedikdə iki şey arasında vasitə nəzərdə tutulur. Qurani-kərimdə qiyamət və axirət dünyası haqqında danışıldığı qədər Bərzəx haqqında danışılmır. Bu səbəbdən də bərzəx aləminin xüsusiyyətləri bir o qədər aydın deyil. Amma əldə olan məlumatlardan aydınlaşır ki, Firon və onun kimi zalım kafirlər bərzəx aləmində əzab çəkəsi, şəhidlər kimi yüksək məqamlı möminlər həmin aləmdə nemətə çatasıdır. Həzrət Peyğəmbər (s) buyurur: "Qəbir behişt bağlarından bir bağ və ya cəhənnəm quyularından bir quyudur."[2]

---

*1. Surə 107, "Maun", ayələr 1-3*
*2. "Biharul-ənvar", c. 6, s. 205; "Kənzul-ummal", c. 15, s. 546, say 42109*

# On birinci fəsil

## *İmamət və müsəlmanlara rəhbərlik*

Biz şiələrin əsas inanclarından biri də imamətdir. İmamət dedikdə insanlara dini və dünyəvi işlərdə rəhbərlik nəzərdə tutulur. Ötən söhbətlərdə peyğəmbərlik, risalət və imamət arasındakı fərqlərdən danışıldı. Qeyd edildi ki, imamət peyğəmbərlik və risalət məqamından yüksək bir məqamdır. Dini məqsədlərin həyata keçirilməsi, tərbiyəvi proqramların icrası imamın vəzifəsidir. Bu iş istər ədalətli hökumətin təşkili, istərsə də bu hökumətsiz həyata keçməlidir. Qeyd etdik ki, əziz Peyğəmbərin (s) üç məqamı olmuşdur: peyğəmbərlik, rəsulluq və imamlıq. Həzrət İbrahim də bir sıra sınaqlardan sonra, yəqin, kamal və peyğəmbərlik mərhələlərini keçib imamət məqamına nail olmuşdur.[1]

### *İmama ehtiyacın dəlilləri*

Əziz Peyğəmbərdən (s) sonra imamın vücudu müsəlmanların zəruri ehtiyaclarındandır. Bu ehtiyacın bəzi dəlillərini nəzərdən keçirək:

1. Nə qədər ki, həzrət Peyğəmbər (s) sağ idi, müsəlmanlara müdiriyyət və rəhbərlik edirdi. Peyğəmbər (s) ilahi səfir olmaqla yanaşı, həm də hakim sayılırdı. Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra müsəlmanlar problemlə üzləşdilər. Hərəkətdən

---

*1. Bax: Surə 2, "Bəqərə", ayə 124*

dayanmış İslam cərəyanı imama ehtiyaclı idi. İmam Peyğəmbərin (s) məqsədlərini izləməli idi. Əks təqdirdə Peyğəmbərin (s) zəhmətləri puça çıxardı.

2. Peyğəmbər (s) müsəlmanlara nəbiyy və hakim olmaqla yanaşı ilahi bir müəllim idi. O ehtiyac duyulan həqiqətləri açıqlayır, insanları məlumatlandırırdı. Peyğəmbərdən (s) sonra bu yolu davam etdirəsi bir şəxsə ehtiyac vardı. İslam Peyğəmbəri (s) dinin ümumi qanunlarını tam şəkildə çatdırmışdısa da, bu külliyyatın izahına, xalqın suallarını cavablandırmağa ehtiyac vardı. Quran həqiqətləri, şəriət hökmləri insanlara Peyğəmbər səviyyəsində təqdim olunmalı idi.

İmam həm də cəmiyyəti səadətə doğru aparmağa vəzifəlidir. İnsan vücudunda ağıl başqa üzvlərə yol göstərdiyi kimi, imam da cəmiyyətdə fərdlərə yol göstərir. İmam Baqirdən (ə) nəql olunmuş rəvayətdə buyurulduğu kimi, vilayət və imamət İslamın beşinci və mühüm sütunu sayılır. İmam (ə) buyurur: “İslamın beş sütunu var: Namaz, zəkat, oruc, Həcc, vilayət (məsum rəhbərə itaət)”.

Tarix sübuta yetirib ki, ləyaqətli rəhbər sayəsində əzəmətə çatan bir millət ləyaqətsiz bir rəhbərin ucbatından süquta uğrayır. Həmin milləti zəlalət içində görəndə inanmaq olmur ki, bir vaxt o millətlər cərgəsində öndə dayanıb. Cahil ərəblər Məhəmməd (s) adlı ilahi rəhbərin zühuru ilə qısa bir vaxtda inkişaf edib dünyada tanındılar. Bəli, hər bir dövr üçün bəşəriyyətə xilaskar rəhbər təyin edən Allahdır. İcraçı olmadan səadət proqramı həyata keçmir. İnsanların həqiqi rəhbəri tanıması isə çox mühümdür. Çünki azğın rəhbərlərin caynağından qurtulmaq olduqca çətindir.

Əbu Əli Sina deyir: “İnsana kiprik və qaş yaratmaqla onun ən kiçik ehtiyaclarını ödəyən hikmət sahibi olan Allahın onların ən böyük ehtiyaclarından olan həqiqi rəhbər ehtiyacına göz yumması, onları rəhbərsiz və təbiyəçisiz qoyması məntiqi deyil.”

## *İmamın imtiyazları və xüsusiyyətləri*

İmamın da peyğəmbər kimi imtiyazları olmalıdır ki, insanların dini və dünyəvi işlərinə rəhbərlik edə bilsin. İmama imtiyaz verən bəzi şərt və səciyyələri nəzərdən keçirək.

1. İmam məsum, istənilən bir günahdan uzaq, xətaya yol verməyən bir şəxs olmalıdır. Çünki özü çirkaba batmış şəxs başqalarını çirkabdan qurtara bilməz.

2. İmam Allahın sonsuz elmindən faydalanmalıdır ki, İslam həqiqətlərini müsəlmanlara olduğu kimi çatdırsın. Əks təqdirdə onun dedikləri şübhə doğurar, insanlar əsil İslam maarifindən xəbərsiz qalar.

3. İmam ya peyğəmbər, ya da məsum tərəfindən həmin məqama təyin olunmalıdır. Çünki peyğəmbər və məsumlardan savayı kimsə fərdin həqiqi məqamını təyin edə bilməz.

Eləcə də nəql olunmuş xəbərlərdən və hədislərdən aydın olur ki, məsum imamların da peyğəmbərlər kimi möcüzələri olmuşdur. Onlar zərurət yarandıqda öz imamət və məsumluq məqamlarının sübutu üçün qeyri-adi işlər görmüşlər. Əlbəttə ki, biz şiə imamlarına aid edilən bütün möcüzələrin düzgünlüyünü iddia etmirik. Deyilənlərdən aydın oldu ki, peyğəmbərlə imam arasında aşağıdakı fərqlər var: peyğəmbər dinin təsisçisidir, vəhy yolu ilə şəriət hökmlərini qəbul etmişdir. İmam isə hökmləri hifz edib onu yerinə yetirən şəxsdir.

**Sual:** Həzrət Peyğəmbərin (s) özündən sonra canişin təyin etməsi zəruri idimi? Biz şiələrin imamları Peyğəmbər (s) tərəfindənmi təyin olunmuşdur?

**Cavab:** Aydındır ki, ictimai məqama malik olan, cəmiyyətə rəhbərliyi öhdəsinə götürmüş hər bir şəxs səfərə çıxdıqda öz yerinə canişin təyin edir və cəmiyyəti başlı-başına buraxmır. Həzrət Musa ilahi ayələrin qəbulu üçün bir neçə günlük qövmündən uzaqlaşdığı vaxt qardaşı Harunu özünə canişin təyin etdi. Həzrət Peyğəmbər (s) də öz növbəsində bu nöqtəyə lazımınca diqqət yetirmişdir. Savaşlar zamanı hansı

məntəqə fəth olunurdusa Peyğəmbər (s) dərhal oraya hakim təyin edirdi. Müharibə vaxtı qoşunla birlikdə şəhərdən çıxdıqda cəmiyyətin idarə olunması üçün Mədinədə canişinini qoyurdu. Necə ola bilər ki, həzrət Peyğəmbər (s) öz vəfatından sonra ilahi qanun və hökmlərin icrası üçün canişin təyin etməmiş olsun?! Məsum imamı xalqa tanıtdırmaq peyğəmbərin labüd vəzifələrindəndir. Əks təqdirdə dini təbliğ prosesi yarımçıq qalmış olardı. Əqli və nəqli dəlillər əsasında biz şiələr inanırıq ki, həzrət Peyğəmbər (s) özündən sonra üçün ardıcıl şəkildə on iki canişin təyin etmişdir.

## *İmam Əli (ə) Peyğəmbərin (s) ilk canişinidir*

Bizim əqidəmizcə və əldə olan sənədlərə əsasən İslam peyğəmbəri (s) müxtəlif vaxtlarda həzrət Əlinin (ə) canişinliyini bəyan etmişdir. Bu məqamlardan bəzilərini nəzərdən keçirək:

1. Qədire-Xum hədisi məhşur bir hədisdir. Həzrət Peyğəmbər (s) həmin gün həccətül-vidadan, yəni son Həcdən qayıdarkən Qədir-Xum adlı məntəqədə dayanmış və cəmiyyəti bir yerə toplayaraq buyurmuşdur: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.”[1]

2. Uyğun mövzunu təsdiqləyən digər bir hədis «Mənzələt» hədisidir. Həzrət Peyğəmbər (s) dəfələrlə, ayrı-ayrı məqamlarda həzrət Əlinin (ə) məqamı haqqında bəyanat vermişdir. Peyğəmbər (s) buyurur ki, Harun Musa üçün necə idisə, Əli (ə) də mənim üçün elədir. Bu məqamlardan biri həzrət Peyğəmbərin (s) Təbuk savaşına gedərkən Mədinədən xaric olduğu vaxta təsadüf edir. Həmin vaxt Peyğəmbər (s) öz yerində Əlini (ə) oturdur. Həzrət Əli (ə) soruşur: “Ya Rəsuləllah! Məni uşaqların və qadınların arasında qoyur, səninlə cihada getməyə icazə vermirsən?!”

---

*1. “Vəsailuş-şiə”, c. 5, s. 58, hədis 12; “Müsnədi-Əhməd”, c. 1, s. 84; “Kənzul-ummal”, c. 11, s. 608-610*

Peyğəmbər (s) buyurur: "İstəmirsənmi ki, Harun Musa üçün necə idisə, sən də mənim üçün həmin məqamda olasan? Bir fərqlə ki, məndən sonra peyğəmbər olmayacaq!"[1]

3. Həzrət Peyğəmbər (s) besətin əvvəllərində həzrət Əli (ə) haqqında belə buyurur: "Bu şəxs mənim sizin aranızdakı qardaşım və canişinimdir. Ona itaət edin, onun dediklərini dinləyin." Təfsirçilər bildirirlər ki, Peyğəmbərə (s) Allah tərəfindən qohumlarını ilahi əzabla qorxutmaq əmr olunanda Peyğəmbər (s) 15 yaşa çatmamış Əliyə (ə) qonaqlar üçün xörək hazırlamağı tapşırdı. Sonra Əbdül-Müttəlibin 40 övladı dəvət edildi. Peyğəmbər (s) öz risalətini bəyan etdi. Peyğəmbərin (s) əmisi Əbu-Ləhəb öz yersiz sözləri ilə məclisi bir-birinə vurdu. Həzrət Peyğəmbər (s) ikinci dəfə məclis qurdu. Süfrə yığışdıqdan sonra öz peyğəmbərliyini elan etdi və buyurdu: "Mənim qardaşım və canişinim olmaq üçün hansınız mənə arxa durursunuz? Həmin vaxt yalnız Əli (ə) ayağa qalxdı. Peyğəmbər (s) öz sözlərini bir daha təkrarladı. Yenə də Əlidən (ə) başqa müsbət cavab verən olmadı. Peyğəmbər (s) öz sözlərini üçüncü dəfə təkrarlayanda da yalnız Əli (ə) razılığını bildirdi. Sonra Peyğəmbər (s) Əli (ə) ilə bağlı yuxarıda qeyd etdiyimiz sözləri buyurdu.[2]

4. Uyğun mövzuda növbəti hədis «Səqəleyn» hədisidir. Həzrət Peyğəmbər (s) ömrünün son günlərində insanlara müraciətlə buyurdu: "Ey insanlar, mən sizin aranızdan gedir və sizin üçün iki ağır əmanət qoyuram: Quran və əhli beytim. Nə qədər ki, onlara sarılıb bu iki yadigarıma itaət edirsiniz, yolunuzu azmayacaqsınız."[3]

---

*1. "Biharul-ənvar", c. 5, s. 69; "Əssunənul-kubra", c. 9, s. 40; "Kənzul-ummal", c. 11, s. 599, say 32881*

*2. "Biharul-ənvar", c. 18, s. 191, 192, hədis 27; İbn Əbül Hədid, "Şərhi-Nəhcül-bəlağə", c. 13, s. 210, 211; "Kənzul-ummal", c. 13, s. 131-133, say 36419*

*3. "Vəsailuş-şiə", c. 47, s. 33, 34, hədis 9; "Kənzul-ummal", c. 1, s. 185-187*

## *Dini rəhbərlərin həyatından*

Qeyd etdiyimiz kimi biz şiələrin əqidəsincə Peyğəmbərin (s) vəfatından sonra onun on iki canişini olmuşdur. Həmin canişinləri ardıcıllıqla yada salaq:

### *1. İmam Əli (ə)*

Həzrət Əli (ə) Fil əshabı hadisəsindən 30 il sonra rəcəb ayının 13-də Kəbə evində dünyaya göz açmışdır. Həzrət Məhəmməd (s) peyğəmbərlik məqamına çatanda həzrət Əlinin (ə) 10 yaşı vardı. Həzrət Əli (ə) həzrət Məhəmmədin 23 illik peyğəmbərliyi dövründə daim onun yanında olmuşdur. Onun atasının adı Əbu-Talib (ə), anasının adı Fatimə olmuşdur. Həzrət Əli (ə) Peyğəmbərin (s) qızı Fatimə ilə ailə həyatı qurmuş və bu izdivacdan dörd övlad dünyaya gəlmişdir: İmam Həsən (ə), imam Hüseyn (ə), Zeynəbi-Kubra, Ümmü Gülsüm. Peyğəmbər (s) dünyasını dəyişdikdən 3-ay sonra Həzrət Əlinin (ə) fədakar xanımı həzrət Fatimə (s.ə.) 18 yaşında ikən dünyasını dəyişmişdir. Həzrət Peyğəmbər (s) qızı Fatiməni (s.ə.) xüsusi bir məhəbbətlə sevirdi. Həzrət buyurur: "Fatimə mənim tənimin parasıdır. Onu sevindirən məni sevindirir, onu incidən məni incidir. Fatimə mənim üçün ən əziz insandır."[1] Bəzi rəvayətlərdə nəql olunur ki, həzrət Peyğəmbər (s) belə buyurmuşdur: "Allah Fatimənin (s.ə.) qəzəbinə görə qəzəblənir, onun razılığına görə razı qalır."[2]

Xanım Fatimə (s.ə.) bütün varlığı ilə Əmirəl-möminin Əli ibn Əbu Talibin (ə) vilayət, imamət məqamını müdafiəyə qalxmışdı. Xanım elə bu yolda da canını fəda etdi. Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra həzrət Əli (ə) iyirmi beş il evdə oturdu. Hicri 35-ci ildə xalq müsəlmanların rəhbəri kimi həzrət Əliyə (ə) beyət etdilər. Həzrət Əli (ə) beş ilə xəlifəlik etdi. Hicri 40-cı ilin ramazan ayında 63 yaşlı Əmirəl-möminin (ə) Kufə

---

*1. "Biharul-ənvar", c. 43, s. 23, hədis 17; "Kənzul-ummal", c. 12, s. 107-112*

*2. "Biharul-ənvar", c. 43, s. 19, hədis 2-4; "Kənzul-ummal", c. 12, s. 111*

məscidində şəhadətə çatdı. İmamın pak məqbərəsi İraqın Nəcəf şəhərindədir. Həzrət Əlinin (ə) ləqəbi “Əmirəl-möminin”, künyəsi (nəsil vasitəsi ilə çağırışı) Əbül-Həsən” olmuşdur. Bərəkətli “Nəhcül bəlağə” məcmuəsi həzrət Əlinin (ə) buyuruqları, məktubları və hikmətli sözlərindən tərtib olunmuşdur. Kitabın tərtibçisi Seyid Rəzidir.

***2. İmam Həsən (ə)***

İmam Həsən hicri 3-cü il, mübarək ramazan ayının ortalarında dünyaya göz açdı. Onun atası həzrət Əli (ə), anası xanım Fatimə (s.ə.) idi. İmam Həsən (ə) ailənin ilk övladı idi. İmamın məşhur ləqəbi “Müctəba”, künyəsi “Əbu Məhəmməd” olmuşdur. O uşaqlıq dövrünün 7 ilini Peyğəmbərin (s) yanında keçirmişdir. Sonra 30 il atası həzrət Əli (ə) ilə yaşamışdır. 37 yaşında imamət məqamına çatmış və 10 il təhlükə dolu bir həyat yaşadıqdan sonra hicri 50-ci il 47 yaşında şəhid olmuşdur. Ölümünün səbəbi ona verilən zəhər idi. İmam Həsən (ə) Mədinə şəhərində Bəqi qəbristanlığında torpağa tapşırılmışdır.

***3. İmam Hüseyn (ə)***

İmam Hüseyn (ə) hicri 4-cü il şəban ayının 3-də dünyaya göz açmışdır. O 46 yaşınadək qardaşı imam Həsənlə (ə) yaşamışdır. Hicri 50-ci ildə imam Həsən (ə) dünyasını dəyişdikdən sonra İmam Hüseyn (ə) 47 yaşında imamət məqamına yüksəlmişdir. Hicri 60-cı ildə Kufə əhlinin dəvəti ilə Yezid hökuməti ilə mübarizə üçün öncə Mədinədən Məkkəyə getmiş, sonra Kufəyə üz tutmuşdur. Amma Kufə əhli imama yardım fikrindən daşınmış və imam öz azsaylı ətrafı ilə Kərbəla torpağında Yezid qoşunu tərəfindən mühasirəyə alınmışdır. Hicri 61-ci il məhərrəm ayının 10-da (aşura günü) imam öz yaxınları ilə şəhadətə çatmışdır. İmam Hüseynin (ə) məqbərəsi Kərbəla şəhərindədir. Onun ləqəbi “Seyyidüş-şühəda”, künyəsi “Əbu Əbdüllah” olmuşdur.

### *4. İmam Əli ibn Hüseyn (ə) (Zeynülabidin, Səccad)*

İmam Səccad (ə) hicri 36 və ya 38-ci ildə cəmadiül-əvvəl ayının 5-i və ya 15-də Mədinə şəhərində dünyaya göz açmışdır. Onun atası imam Hüseyn (ə), anası müəyyən məlumatlara əsasən Şəhrəbanu olmuşdur. İmam Səccad (ə) hicri 61-ci ildə atası şəhadətə çatdıqdan sonra imamət məqamına yüksəlmişdir. İmam abid, zahid və uzaqgörən bir rəhbər olmuşdur. İmam çox səcdə qıldığından "səccad", çox ibadət etdiyindən "Zeynülabidin" ləqəbləri ilə tanınmışdır. Onun künyəsi Əbu Muhəmməddir. Mənalı dualarla zəngin "Səhifeyi-səccadiyə" məcmuəsi imam Səccaddan (ə) qalmış yadigardır. İmam Səccad (ə) hicri 95-ci il, məhərrəm ayının 25-də 57 və ya 59 yaşında Bəni-Üməyyə hökuməti tərəfindən zəhərlənmiş və şəhadətə çatmışdır. İmamın qəbri Mədinə şəhərində Bəqi qəbristanlığındadır.

### *5. İmam Məhəmməd ibn Əli (ə)*

### *(İmam Məhəmməd Baqir)*

Onun adı Məhəmməd, ləqəbi Baqirul-ülum olmuşdur. Baqirul-ülum dedikdə elmləri yaran mənası anlaşılır. İmamın künyəsi Əbu Cəfər idi. Onun atası imam Səccad (ə), anası imam Həsən Müctəbanın (ə) qızı Fatimə olmuşdur. İmam hicri 57-ci il rəcəb ayının əvvəlində Mədinə şəhərində dünyaya göz açmışdır. O hicri 95-ci ildə, 38 yaşında imamət məqamına çatmışdır. İmamın ömrünün sonlarında Bəni-üməyyə rejimi zəiflədiyindən o bu fürsətdən istifadə edərək İslam maarifi və hökmlərini təbliğ etmiş, şagirdlər yetirmişdir. İmam Məhəmməd Baqir (ə) hicri 114-cü il zil-hiccə ayının 7-də 57 yaşında şəhadətə çatmış və Mədinə şəhərinin Bəqi qəbristanlığında torpağa tapşırılmışdır.

### *6. İmam Cəfər ibn Məhəmməd (ə)*

### *(İmam Cəfər Sadiq)*

İmamın adı Cəfər ləqəbi Sadiq, künyəsi Əbu Əbdüllah olmuşdur. Onun atası imam Baqir (ə), anası dövrünün pəhrizkar

qadınlarından sayılan Ümmü Fərvə olmuşdur. İmam hicri 83-cü il rəbiül-əvvəl ayının 17-də Mədinə şəhərində doğulmuşdur. O 32 yaşında imamət məqamına yüksəlmişdir. Bütün ömrünü insanların təlim-tərbiyəsinə sərf edib minlərlə şagird yetişdirmişdir. İslam elmlərinin qapılarını müsəlmanların üzünə açmışdır. Belə ki, imamdan hədis nəql edənlərin sayı dörd min nəfərə çatır. Həmin insanlardan bir çoxu ali elm məqamına çatmışdır. Kimya elminin banisi Cabir ibn Həyyan, kəlam və əqidə üsulları alimi Hişam ibn Həkəm imamın yetirmələrindəndir. İmam bəni Abbas xəlifələrindən olan Mənsur Dəvaniqi tərəfindən zəhərlənmiş, hicri 148-ci il şəvval ayının 25-də 65 yaşında dünyasını dəyişmişdir. İmam Cəfər Sadiq (ə) imamlar arasında ən çox ömür sürəndir. Bu səbəbdən ona "Şeyxül-əimmə" ləqəbi verilmişdir. İmam Sadiq (ə) Bəqi qəbristanlığında, atası imam Baqir (ə), babası imam Səccad (ə), babasının əmisi imam Həsənin (ə) yanında dəfn olunmuşdur.

***7. İmam Musa ibn Cəfər (ə) (imam Kazim)***

Onun adı Musa, məşhur ləqəbi Kazim ("qəzəbini udan"), künyəsi Əbül Həsən olmuşdur. Atası imam Sadiq (ə), anası Həmidədir. İmamın anası elmi məqama malik olmuşdur. O imam Sadiqin (ə) göstərişi ilə qadınlara dini maarif və əhkam öyrətmişdir. İmam Kazim hicri 128-ci il səfər ayının 7-də Məkkə və Mədinə arasındakı Əbva məntəqəsində dünyaya göz açmışdır. O 21 yaşında imamət məqamına çatmışdır. İmam Kazim (ə) öz şərəfli ömrünün bir hissəsini həbsxanada keçirmişdir. Nəhayət, hicri 183-cü il rəcəb ayının 25-də 55 yaşında Bağdad həbsxanasında Bəni Abbas məmurları tərəfindən zəhərlənmiş və şəhadət dərəcəsinə çatmışdır. İmam Bağdad şəhərində sonradan Kazimeyn adlandırılan Qüreyş qəbristanlığında dəfn olunmuşdur.

***8. İmam Əli ibn Musa (ə) (İmam Riza)***

Onun adı Əli, ləqəbi Riza, künyəsi Əbül-Həsən olmuşdur. İmam hicri 148-ci il zilqədə ayının 11-də Mədinə şəhərində dünyaya göz açmışdır. Onun atası imam Kazim (ə), anası dövrünün pəhrizkar qadınlarından olan Nəcmə olmuşdur. İmam

hicri 183-cü ildə 35 yaşında ikən imamət məqamına çatmışdır. O Bəni Abbas padşahlarından olan Məmunun israrı ilə Xorasana gəlmiş, vəliəhdliyi qəbul etməyə məcbur olmuşdur. Məmun Abbasi xalqın imama məhəbbətindən xoflanaraq onu zəhərləmişdir. İmam hicri 203-cü il səfər ayının axırlarında 55 yaşında Xorasanın Məşhəd şəhərində torpağa tapşırılmışdır.

***9. İmam Məhəmməd ibn Əli (ə)***

***(İmam Məhəmməd Təqi, Cavad)***

İmam Cavad hicri 195-ci il rəcəb ayının 10-da Mədinə yaxınlığındakı Sirya məntəqəsində dünyaya göz açmışdır. Adı Məhəmməd, Cavad və Təqi məşhur ləqəbləridir. Künyəsi Əbu Cəfər olmuşdur. Atası imam Riza (ə) anası Səbikədir. İmam hicri 203-cü ildə atasının şəhadətindən sonra 8 yaşında ikən imamət məqamına çatmışdır. İmamət Allah tərəfindən verilən məqam olduğundan onun yaşla heç bir əlaqəsi yoxdur. İmam hicri 220-ci ildə zilqədə ayının son günü 25 yaşında ikən Mötəsim Abbasi tərəfindən zəhərlənmiş və şəhadətə çatmışdır. O Bağdadın Kazimeyn məntəqəsində babası Musa ibn Cəfərin (ə) yanında dəfn olunmuşdur. Şiə imamları arasında ən az ömür sürən imam Cavaddır.

***10. İmam Əli ibn Məhəmməd (ə)***

***(İmam Əliyyən Nəqi, Hadi)***

İmamın adı Əli, ən məşhur ləqəbləri Nəqi və Hadi, künyəsi Əbül Həsən olmuşdur. Atası imam Cavad (ə), anası Səyyidə və ya Səmanədir. İmam hicri 213-cü il zilhiccə ayının 15-də dünyaya göz açmış, atasının şəhadətindən sonra 7 yaşında ikən şəhadət məqamına çatmışdır. İmam imamət dövrünün böyük hissəsini Samirra şəhərində Bəni Abbas hökumətinin nəzarəti altında keçirmişdir. Nəhayət rejim tərəfindən zəhərlənmiş və hicri 254-cü il rəcəb ayının 3-də 41 yaşında ikən dünyasını dəyişmişdir. İmam Samirra şəhərində torpağa tapşırılmışdır.

### *11. İmam Həsən ibn Əli (ə) (İmam Həsən Əskəri)*

Bu imam hicri 232-ci il rəbiüs-sani ayında Mədinədə dünyaya göz açmışdır. Atası Əliyyən Nəqi (ə), anası Səlil və ya Hədisdir. İmam Həsən Əskəri (ə) 22 yaşında imamət məqamına çatmışdır. Hicri 260-cı il rəbiül-əvvəl ayının 8-də eynən məsum ataları kimi sitəmkar rejim tərəfindən zəhərlənmiş və şəhadətə çatmışdır. İmam Samirra şəhərində atası ilə yanaşı dəfn olunmuşdur. İmam Həsən Əskəri (ə) Bəni Abbas hökumətinin göstərişi ilə 4 yaşında olarkən atası ilə birlikdə Mədinədən İraqın Samirra şəhərinə köçürülmüşdür. Onlar həmin şəhərdə nəzarət altında saxlanılmışlar. İmam Bəni Abbas qoşununun nəzarəti altında saxlandığından “Əskəri” ləqəbi ilə çağırılmışdır. “Əskər” dedikdə ərəb dilində qoşun mənası nəzərdə tutulur. İmam dəyərli ömrünün bir hissəsini həbsxanada keçirmişdir.

### *12. İmam Mehdi (ə.c.)*

İmam Mehdi (ə.c.) hicri 255 və ya 256-cı il şəban ayının ortaları Samirra şəhərində dünyaya göz açmışdır. Ona Peyğəmbərin (s) adı qoyulmuşdur. Mehdi, Qaim, Sahibəz-zəman, İmami əsr, Höccət imamın ləqəblərindəndir. Onun atası İmam Həsən Əskəri (ə), anası Nərcis olmuşdur. 260-cı ildə atası dünyasını dəyişənədək imamla bir çox insanlar görüşmüşdür. Görüşə gələnlər bu uşaqda imamət nümunələrini aşkar görürdülər. Atası dünyasını dəyişdikdən sonra imam qeybə çəkilmiş, Bəni Abbas padşahlarının onu öldürmək və həbs etmək cəhdləri boşa çıxmışdır. İmam hazırda sağdır və cahanşümul İslam hökumətinin təsisi üçün zəmin yaranan anda zühur edəcəkdir.

# On ikinci fəsil

## *Qeybə çəkilmiş imam*

Ötən fəsildə qeyd etdik ki, imam Mehdi (ə.c.) hicri 260-cı ildə atası imam Həsən Əskərinin (ə) şəhadətindən sonra 4-5 yaşlarında ikən imamət məqamına çatmışdır. Bəni Abbas padşahları həzrət Peyğəmbərin (s) və digər məsum imamların buyuruqları əsasında ondakı imamət nişanələrini bilirdilər. Onlara məlum idi ki, imam Mehdi (ə.c.) zülmlə mübarizəyə qalxıb sitəmkarların hakimiyyətinə son qoyacaq. Bu səbəbdən də onu qətlə yetirməyə çalışırdılar. Bu və bundan başqa səbəblərə görə imamın qeybə çəkilməsi zəruri olmuşdur. Amma onun xalqla rabitəsi birdəfəlik kəsilməmişdi. İnsanlar naib və vəkil adlanan bəzi mötəbər şəxslər vasitəsi ilə imamla əlaqə saxlayırdılar. Bu yolla onlar öz şər'i suallarına cavab alır, ehtiyaclarını təmin edirdilər. Bu vəziyyət 70 ilədək davam etdi. İmamın 70 illik uyğun qeybi "qeybəti-suğra", yəni kiçik qeyb dövrü adlanır. Həmin müddət başa çatdıqdan sonra imamın son naib və vəkili dünyasını dəyişdi və hicri 329-cu ildə imamın insanlarla rabitəsi kəsildi. Həmin vaxtdan "ğeybəti-kubra", yəni böyük qeyb dövrü başladı. Böyük qeyb dövrü üçün imam xüsusi naib təyin etməmişdir. İnsanlar öz dini ehtiyaclarını ödəmək üçün həmin dövrdə fəqihlər və müctəhidlərə müraciət etməlidirlər.

Bütün yer üzünə hökmü çatacaq vahid İslam hökumətinin təsisi üçün zəmin yarananadək imam qeybdə qalasıdır. Elə bir

dövr gəlməlidir ki, bütün insanlar həmin hökuməti arzulasınlar və başqa ünvanlardan ümidləri üzülsün. Həmin vaxt imam zühur edəcək və ixtiyarındakı böyük iqtidarlar zülm üsul-idarəsini dağıdacaq. İmamın hakimiyyət dövründə bütün yer üzündə hökmlər icra olunacaq, ədalət bərpa ediləcək.

## *Həzrət Mehdinin (əc) zühurunun gözlənilməsi (intizar)*

Həzrət Mehdinin (əc.) zühurunu inkar edənlər deyirlər: "İmamın zühuruna etiqad insanı yuxuya verir, mövcud vəziyyətdən qəflətdə saxlayır, təslimçilik və süstlüyə şərait yaradır." Amma unutmamalıyıq ki, intizar, yəni imam Mehdinin (ə.c.) zühurunun gözlənilməsi mövcud durumdan narahat olan insanın ruhiyyəsidir. İntizarda olan insan daha üstün ictimai-siyasi durum üçün çalışır, sağalmasını gözləyən xəstə kimi vurnuxur. Ata uzun müddətə ayrıldığı oğlunu necə intizarla gözləyirsə, həzrət Mehdinin (əc.) intizarını çəkənlər də beləcə narahatdır. Həzrət Mehdinin (əc.) ədalətli hökumətinin intizarı və o böyük xilaskarın qiyamı mövzusu iki səciyyə ilə müşayiət olunur:

1. Zülm və azğınlığa qarşı müxalifətçilik;
2. Mövcud durumun ədalətin qələbəsi ilə müşayiət olunacaq münasib bir durumla əvəz olunması istəyi.

Əgər bu iki yönüm insan ruhiyyəsində kök atarsa, onda iki növ rəftar müşahidə olunar: Zülm və azğınlıq amilləri ilə mübarizə, fiziki və mənəvi baxımdan vahid İslam hökumətinin gəlişinə hazırlıq.

Həqiqi müntəzir (imam Mehdinin (əc.) intizarını çəkən) şəxs müəyyən hədislərə əsasən imam Mehdinin (əc.) qərargahındadır və gələcəyə biganə deyil. Zalım və azğın insan zülmün kökünə balta çalacaq bir şəxsin intizarını necə gözləyə bilər?! Dostun gəlişi intizarında olan, meyvə fəslini səbirsizliklə gözləyən şəxs daim hazırlıqdadır. Qonaq gözləyən evi təmizləyir, qonağın istiqbalı üçün hazırlıq görür. Meyvə

yığımına hazırlaşan müxtəlif alətlər əldə edir. Cahanşümul xilaskarın qiyamı intizarında olan insan böyük bir inqilaba hazırlaşır. Belə bir intizar insanı tərbiyələndirir, ona agahlıq və hərəkət verir. Zühur intizarının insanı süstləşdirdiyini düşünmək kökündən yanlış bir təsəvvürdür.

## *İntizarın təsirləri*

Söhbətimizin bu məqamında həzrət Mehdinin (əc.) zühur intizarının üç mühüm təsirini yada salırıq:

***1. Fərdi özünü tərbiyə***

Yer üzündə bütün cinayət və sitəmlərə son qoyulması və böyük islahatlar üçün əzmkar, dözümlü, dərin təfəkkürlü, ruhi hazırlıqlı fərdlərə ehtiyac var. İntizarda olanın qarşısında belə bir proqram dayanır və onu yerinə yetirmək üçün hərəkət lazımdır. Həqiqi müntəzir öz ruhunu və düşüncəsini paklayır, həzrət Mehdinin (ə) silahdaşları cərgəsinə qatılmaq üçün vücudundakı çirkabları təmizləyir.

***2. İctimai həmkarlıq***

Həqiqi müntəzir özünü tərbiyələndirməklə yanaşı ətrafına münasibətdə özünü vəzifəli bilir, başqalarının da islahı üçün çalışır. Çünki onun intizarını çəkdiyi böyük proqram fərdi proqram deyil. Həqiqi müntəzir özünü islah etməklə yanaşı başqalarının da islahını vəzifə bilir.

***3. Ümidvarlıq***

Cəmiyyətdə fitnə-fəsad tüğyan qoparıb əksəriyyəti öz ağuşuna aldığı vaxt bəzən pak insanlar ümidini itirir, mövcud vəziyyətin islahını mümkünsüz sayır. Bədbinliyə düçar olmuş belələri elə düşünürlər ki, artıq nə özlərini, nə də başqalarını xilas edə bilərlər. Belə bir ümidsizlik insanı mühit qarşısında təslimçilik və fəsada sürükləyə bilər. Belə bir məqamda yalnız

xilaskarın zühuruna etiqad insana ümid verib onun addımlarını möhkəmləndirə bilər. Zühur intizarı insanı fəsad tufanında sığortalayır, onu süstləşməyə qoymur. Bir şərtlə ki, insanlar intizar mövzusunu düzgün şəkildə anlasınlar, ifrat və təfritdən çəkinsinlər. Təhrif olunmuş intizar inancında yuxarıda sadalanan müsbət təsirlər yoxdur.

Allahdan yardım diləyək ki, öz ləyaqətli rəftarlarımızla həzrət Mehdinin (əc.) ədalətli hökuməti üçün zəmin hazırlaya biləк.

*İkinci hissə*

# Əxlaq və batini sifətlərin tarazlığı

# Birinci fəsil

## *İnsan xoşbəxtliyində əxlaqın rolu*

“Oxuculara” mövzusunda qeyd olundu ki, insanın varlıq mərhələlərindən biri hisslər və meyllər mərhələsidir. Bu mərhələ insanın ruhu ilə bağlıdır və onun mərkəzi insan qəlbidir. İnsan ruhunda eşq və dostluq, eləcə də onların ziddi kin və eqoistlik var. Bu sifətlərdən istənilən biri tənhalıqda zərərlidir. Uyğun zərəri aradan qaldırmaq üçün addım atılmalı və ruhi sifətlər arasında tarazlıq yaradılmalıdır. Bu yolla insan öz həyatında orta həddi gözləyə bilir. Uyğun məqsədə çatmaq üçün əxlaq və nəfsin paklanması elmi nəzərdə tutulur. Qurani-məcidin buyuruqlarından aydın olur ki, peyğəmbərlər insanlara ilahi ayələri bəyan etdikdən sonra onların növbəti vəzifəsi ruhların paklanmasıdır. [1] Peyğəmbərlər insanların ruhundakı bulaşıqlıqları təmizləməli, onu fəzilət çiçəkləri ilə bəzəməli idilər. İslam peyğəmbəri (s) buyurur: “Mən əxlaqi fəzilətləri kamilləşdirmək və zirvə nöqtəsinə çatdırmaq üçün peyğəmbərliyə seçildim.”[2]

Aydın məsələdir ki, insanda kamilliyə və paklanamağa doğru hərəkət hazırlığı olmadan uyğun məqsədə çatmaq mümkünsüzdür.

---

*1. Surə 2, “Bəqərə”, ayə 129*
*2. “Biharul-ənvar”, c. 16, s. 210; “Əssunənul-Kubra”, c. 10, s. 192*

Çünki öz rahatlığını azğın nəfs istəklərinə itaətdə görən inadkar və eqoist insan mənəviyyat səfərində vahid tövfiqdən məhrum olur. Bütün bunları nəzərə alıb fürsət əldən çıxmamış özümüzü islah etmək barədə düşünməliyik. İnsan bütün vücudunu azğın nəfsin hakimiyyətindən azad etməli, ağılın səsini dinləməlidir. Qulağı, gözü, dili, qarını, şəhvəti, ən əsası düşüncəni günah çirkabından təmizləmək zəruridir. İnsan öz istedadlarını ağılın səsini dinləməyə öyrətməli, bu sahədə cəhd göstərməlidir. Çünki o ilkin mərhələdə əridilmiş maye kimidir və hansı qaba tökülərsə həmin qabın formasını alar. Bəli, uşaq yaşlarında insanın xarakterini dəyişmək asandır. Amma ömür keçdikcə xasiyyətlər kök atır, insanın xarakterinə hopur. Qəlibə tökülmüş ərinmiş filiz vaxt keçdikcə bərkidiyi kimi xarakter də möhkəmlənir. Soyumuş filizin formasını və möhkəmlənmiş xarakteri dəyişmək çox çətindir. Amma əgər insani fəzilətlər xarakterə çevrilərsə insanın doğru yoldan çıxması ehtimalı azalar. Uyğun nöqtələrlə bağlı Sədi Şirazi deyir:

*Uşaqlıqda ədəb görməsə insan,*
*Çətin ki qurtula böyüyən zaman.*
*Əyri dayanarsa budaq yaş ikən,*
*Onu yalnız odla aça bilərsən.*

Bəli, ağacdan yenicə dərilmiş yaşıl budaq asanlıqla əyilib-düzəlir. Ondan istənilən şəkildə istifadə etmək olur. Bir müddət keçdikdən sonra Həmin budaq quruyur və yalnız istilik verməklə formasını dəyişir. Beləsə, hər birimiz pis xasiyyətlər xarakterimizə hopmamış özümüzü islah etməyə çalışmalıyıq.

## *Əxlaqi və tərbiyəvi işlərin yeri*

İnsan istənilən bir şərait və zamandan əxlaq və tərbiyəyə ehtiyaclıdır. Hətta bu günkü texnoloji tərəqqi əsrində əxlaqi məsələlər öz əhəmiyyətini itirməmişdir. Bəlkə də bu sahədə ehtiyaclar daha da artmışdır. Çünki elm və sənət gücləndikcə vicdan və insanlığa ehtiyac artır. Əks təqdirdə insan ixtiyarında

olan elm və texnologiyadan yalnız kimyəvi bombalar, atom silahları düzəltmək üçün istifadə edir. Sənai deyir:

*Oğru çıraq ilə gələrsə əgər*
*Ən yaxşı meyvəni ağacdan dərər.*

Hər birimiz ailə-övlad, dostlar və ətrafdakılarla rəftarlarımıza diqqətli olmalıyıq. Gözəl əxlaq həyatın istənilən bir mərhələsində insana gözəllik və kəramət verir. Hikmət sahibi olan Allah Qurani-kərimdə İslam peyğəmbəri (s) haqqında buyurur: "Həqiqətən, sən böyük əxlaq sahibisən."[1] Həqiqətən də əziz Peyğəmbər (s) və onun ardıcıllarının gözəl əxlaqı İslam dininin tərəqqisinə əhəmiyyətli təsir göstərmişdir. Həzrət Peyğəmbər (s) güzəşt edən və alicənab bir şəxs idi. O ətrafdakılarla xoş davranır və hamının öz fikrini bildirməsi üçün şərait yaradırdı.

Nəql edirlər ki, bədəvi bir ərəb tez-tez İslam peyğəmbərinin (s) görüşünə gəlib ona hədiyyə verir və dərhal da pul istəyirdi. Həzrət Peyğəmbər (s) onun bu işinə təbəssümlə cavab verərdi. Həzrət Peyğəmbər (s) pərişan vaxtlarında buyurardı: "Ey kaş həmin bədəvi yenə gələydi!"

Həzrət Peyğəmbər (s) və məsumların gözəl əxlaqla bağlı bir neçə buyuruğunu yada salaq:

1. Əziz Peyğəmbər (s): "Sirkə balı korladığı kimi pis əxlaq yaxşı əmələ təsir göstərib onu məhv edir."[2]

2. İmam Həsən Müctəba (ə): "Həqiqətən də yaxşılıqların ən üstünü gözəl əxlaqdır."[3]

3. İmam Sadiq (ə): "Günəşin hərarəti buzu əritdiyi kimi gözəl əxlaq insanın xətalarını əridir."[4]

---

*1. Surə 68: "Qələm", ayə 4*
*2. "Vəsailuş-şiə", c. 12, s. 152, hədis 18*
*3. Həmin mənbə, s. 153, hədis 26*
*4. Həmin mənbə, s. 149, hədis 6*

**Sual:** Müsəlman gözəl əxlaq sahibi olmalıdır dedikdə onun həmişə təbəssümlü olmasımı nəzərdə tutulur?

**Cavab:** Gözəl əxlaq dedikdə insanın öz ətrafındakı şəxslərlə gözəl və münasib rəftarı nəzərdə tutulur. Güzəşt, mehribanlıq, xoş danışıq, təvazökarlıq, xeyirxahlıq, böyüklərə və ata-anaya ehtiram, ustada hörmət gözəl əxlaq nümunələridir. Qeyd edək ki, başqalarını sevindirib onlara qəm-qüssəsini unutdurmaq möminlik xüsusiyyətlərindəndir. Mömin insan şadlığını büruzə verir, qəm-qüssəsini gizlədir. O istəmir ki, öz kədərini ətrafdakılarla bölüşsün. Mömin fərd öz gülüşü və zarafatları ilə başqalarını alçatmır, birini incitməklə o birini şadlandırmır.

# İkinci fəsil

## *Bəzi əxlaqi sifətlər*

İnsan mənəvi kamilliklərə çatmaq, təkamül zirvəsinə ucalmaq üçün öncə çirkin sifətlərdən uzaqlaşmalıdır. Bu proses "təxliyə" adlanır. Yalnız təxliyədən sonra əxlaqi fəzilətlərlə zinətlənmək olar. Belə bir zinətlənmə "təhliyə" sayılır. Əgər mənzilimizdəki hovuza su tökmək istəyiriksə, əvvəlcə onun çirkabını təmizləməliyik. Hovuzdakı iylənmiş suyu təmizləmədən ona saf su tökmək mənasız bir işdir.

Şübhəsiz ki, ruh bədəndən ayrıldıqdan sonra cisim təbii olaraq çürüyür. Amma ölməz ruh yaşayır və onun hansı vəziyyətdə olması insanın aqibətini təyin edir. Əgər dünya həyatında insan öz ruhunu çirkin əxlaqla bulaşdırmışsa, axirət aləmində də əzab çəkir. Əksinə, dünya həyatında əxlaq əldə etmiş insan axirət dünyasında da şad-xürrəmdir.

Şübhəsiz ki, təxliyə və təhliyə proseslərindən keçmək üçün insan öncə çirkin və gözəl sifətləri tanımalıdır. Ruhu çirkinliklərdən təmizləmək və zinətləndirmək üçün belə bir tanışlıq qaçılmazdır. Uyğun ehtiyacı nəzərə alaraq hazırkı fəsildə çirkin və gözəl sifətlərdən bəzilərini yada salırıq:

### *1. Yalan*

Allah-taalanın insana verdiyi ən böyük nemətlərdən biri danışıq iste'dadıdır. İnsan danışıq vasitəsi ilə öz ehtiyaclarını

dilə gətirir, istəklərini bildirir. Düşüncə və etiqadlar da dil vasitəsi bəyan olunur. İnsan dil vasitəsi ilə dostlarla qəmini bölüşür, ruhunda bir yüngüllük yaradır. Ən sadə ünsiyyət vasitəsi olan dilin fəaliyyət dairəsi çox böyükdür. Dil vasitəsi ilə başqalarını sevindirmək, öyüd-nəsihət vermək, elm öyrətmək, barışıq yaratmaq mümkündür. Amma dil də başqa əşyalar kimi pis yolda istifadə edilə bilər. Necə ki, bıçaq həm xeyir, həm də şər yolda istifadə olunur. Bıçaqla həm zəruri ehtiyacları aradan qaldırmaq, həm də günahsız insanı öldürmək olar. Kiçik həcmli dil də insana çox böyük zərərlər gətirə bilər. Dilin kiçikliyinə aldanmamalıyıq.

Dilin insan üçün zərərlərindən biri yalan danışmaqdır. Yalan o qədər böyük günahdır ki, yalançı Allahın düşməni sayılmışdır. Dini rəhbərlər hətta zarafata yalan danışmağı qadağan edirlər. Çünki belə bir günah digər günahlar üçün qaynaqdır. İmam Baqir (ə) buyurur: “Allah-taala pislikləri qıfıllamışdır və həmin qıfılın açarı şərab içməkdir. Amma yalan danışmaq şərab içməkdən qat-qat pisdir.”[1]

Cəmiyyətin ən böyük qazanclarından biri onun fərdləri arasında qarşılıqlı etimaddır. Bu böyük sərmayəni puça çıxaracaq ən təhlükəli vasitə dil və dilin yol verdiyi yalandır. Yalan insanların bir-birinə olan etimadını qırır, yalançıya kimsə hörmət göstərmir.

Çirkin sifət olan yalanın ziddi doğruçuluqdur. Yalan nə qədər çirkindirsə, doğruçuluq bir o qədər gözəldir. İmam Sadiq (ə) buyurur: “Dilini islah edən insanın əməlləri çiçəklənər.”[2] Digər bir hədisdə imam buyurur: “İnsanların rüku və səcdələrinin uzunluğunu əsas götürməyin, bu iş adət də ola bilər. Əsas məsələ insanların doğruçuluğu və əmanətdarlığıdır.”[3]

---

*1. “Vəsailuş-şiə”, c. 12, s. 244, hədis 3*
*2. Həmin mənbə, s. 162, hədis 2*
*3. Həmin mənbə, c. 19, s. 68, hədis 3*

## *2. Həsəd*

Ruhi və əxlaqi xəstəliklərdən biri də insanın həsədçiliyidir. Bu xəstəliyin müalicəsi olduqca zəruridir. Həsəd o qədər təhlükəli şeytani xasiyyətdir ki, Allah-taala öz Peyğəmbərinə (s) buyurur: “Ey mənim rəsulum! De ki, pənah aparıram Allaha... həsədçinin şərindən...”[1]

İnsan Allah-taalanın bir şəxsə verdiyi nemətə müxtəlif cür münasibət göstərə bilər:

1. Arzu edər ki, Allah həmin neməti o şəxsdən alsın. Eyni zamanda özü həmin şəxsi o nemətdən məhrum etməyə çalışar. Bu çox pis bir haldır və həmin ruhiyyəyə həsəd deyilir. Bu çirkin xasiyyət səbəbindən insan özünü yaddan çıxarıb başqalarını məhv etməyə çalışır.

2. İnsan arzu edir ki, Allah həmin fərdə verdiyi nemətdən ona da versin. Belə bir hal “ğibtə” adlanır. Qibtə bəyənilmiş bir haldır. Çünki insan qibtə sayəsində fəallaşır. Qibtənin heç bir ictimai zərəri yoxdur. İmam Sadiq (ə) buyurur: “Mömin insan həsəd aparmır, amma qibtə edir. Münafiq isə qibtə etmir, həsəd aparır.”[2]

3. İnsan arzu edir ki, Allahın başqalarına verdiyi nemətdən yalnız onda olsun və Allah başqalarına verdiyini geri alsın. Belə bir şəxs Allahın ona ehsanından imtina edir. Uyğun hal paxıllıq sayılır. Paxıl insan yalnız özü üçün istəyir və başqalarının məhrumluğundan ləzzət alır. Həsəd və paxıllığın ziddi isar sifətidir. İsar əhli başqalarının nemətə çatmasından şadlanır, hamının nemət və asayiş içində olmasını istəyir, hətta öz ixtiyarında olanları başqalarına verməkdən ləzzət alır.

---

*1. Surə 113, “Fələq”, ayə 1-5*
*2. “Biharul-ənvar”, c. 70, s. 250, hədis 7*

## *3. Təkəbbür*

Qurani-kərimdən və məsumların buyuruqlarından aydın olur ki, varlıq aləmində həyata keçmiş ilk günah təkəbbür və qürurdur. Allah öz mələklərinə insana səcdə əmri verdiyi vaxt İblis və Şeytan adı ilə tanınmış Əzazil özünü böyük sayıb təkəbbür göstərdi və Allaha itaətdən boyun qaçırdı. O dedi: "Mən oddan yaranmışam, insan isə torpaqdan. Deməк, mənim məqamım daha ucadır." Bu etirazına görə Əzazil Allah dərgahından qovuldu.

Hər birimiz İblisin aqibətindən ibrət götürüb, təkəbbür və qürurdan çəkinməliyik. İnsanın yaraşığı təvazö və sadəlikdir. Təkəbbür və qürur düşüncə sahibi olan insana yaraşmır. Belə bir ruhiyyə şeytani ruhiyyədir.

*Demə ki torpaqdan, ya oddanam mən,*
*Təkəbbür bir dərddir baxmaz nədənsən.*[1]

Həzrət Əli (ə) "Nəhcül-bəlağə"nin "Qasiə" xütbəsində təkəbbür və qüruru məzəmmət edərək buyurur: "Allahın İblislə rəftarından ibrət götürün. İblis altı min illik əməllərini və ibadətini bir saatlıq təkəbbürə görə əldən verdi. İblis uzun-uzadı ibadətlərindən sonra belə cəzalandırıldısa, kim bu günahdan yaxa qurtara bilər?! Xeyir, Allah bir günaha görə ki, mələyi behiştdən qovub, həmin günaha yol vermiş insanı behiştə göndərməz. Səma və yer əhlinə münasibətdə Allahın hökmü eynidir."[2]

Həzrət Əli (ə) buyurur: "İnsanlarla təkəbbürlü davranıb lovğalanan insan zəlil olar."[3]

Təkəbbürün ziddi təvazö və sadəlikdir. Təvazökarlıq Allah və bəndələr qarşısında insanın məqamını yüksəldir. Təvazökar

---

1. *"Gülüstan", bab 8, söhbət qaydaları, s. 264, say 21*
2. *"Nəhcül-bəlağə", xütbələr bölməsi, xütbə 192, s. 211*
3. *"Biharul-ənvar", c. 1, s. 160, hədis 50*

insan sevilir. İslamın tərəqqi səbəblərindən biri də məsum rəhbərlərin və onların yaxınlarının təvazökarlığı olmuşdur. Əziz Peyğəmbər (s) özü də başqaları kimi ümumi işlərdə iştirak etmiş, şəxsən tər axıtmışdır. Məclisdə heç vaxt başqalarından yuxarıda əyləşməmişdir. Belə ki, məclisə yenicə daxil olan qərib təyin edə bilməzdi ki, məclisdəkilərdən hansı peyğəmbərdir.

## *4. Yersiz qəzəb*

İnsan vücudundakı faydalı qüvvələrdən biri də qəzəbdir. İnsan qəzəb qüvvəsi sayəsində düşmən qarşısında müdafiə mövqeyi tutur. Bu xasiyyət Allahın nemətlərindən sayılır. Silahlı düşmənlə üzbəüz dayanmış insan mərhəmət göstərsə məğlub olar, düşmən onun malına və namusuna təcavüz edər.

*Yırtıcı pələngə qarşı mərhəmət*
*İşdə zəiflərə sitəm, cinayət.*[1]

Deməк, qəzəb qüvvəsi nəinki eyb deyil, hətta təkamülün başlanğıc nöqtəsidir. Amma ondan yerində istifadə edilməlidir. Məsələn, qaniçən və təcavüzkar düşmənə qarşı qəzəb müsbətdir, iman qardaşlarına qarşı qəzəb mənfidir. İnsan insanlıq həddini aşmayanlara münasibətdə mərhəmətli olmalı, onların nöqsanlarını bağışlamalıdır. Allah-taala Qurani-kərimdə Peyğəmbərin (s) yaxınlarını vəsf edərək buyurur: “Peyğəmbərlə olanlar düşmənlər qarşısında amansız, öz aralarında mehribandırlar.”[2]

Müsəlmanlar bir-birləri ilə mehriban olmalı, qəzəblərini düşmənə yönəltməlidirlər. Həm güzəşt, həm də qəzəb insan həyatında ehtiyac duyulan xasiyyətlərdir. Amma mühüm nöqtə budur ki, bu iki zidd qüvvədən necə istifadə olunmalıdır?

---

*1. “Gülüstan”, 8-ci bab, söhbət qaydaları, s. 273, say 50*
*2. Surə 48, “Fəth”, ayə 29*

İstənilən bir yönümdə ifrata varmaq zərərdir. Demək, fərd və cəmiyyətə münasibətdə həm qəzəb, həm də mərhəmətdən yerində istifadə olunmalıdır.

Dini rəhbərlərdən nəql olunmuş iki hikmətli buyuruğu nəzərdən keçirək:

a) Həzrət Əli (ə): "Kobudluq bir növ dəlilikdir. Çünki belə rəftar edən sonda peşiman olur. Əgər peşiman olmasa onun divanəliyi davamlıdır."[1]

b) İmam Sadiq (ə): "Allah-taala qəzəbinə nəzarət edən insanın eyblərini örtər."[2]

Aydın məsələdir ki, qəzəblənmiş insan xoşagəlməz hərəkətlərə yol verə bilər. Amma uyğun məqamlarda qəzəbin udulması pisliklərin büruzə verilməməsi ilə sonuclanır.

Güzəşt vasitəsi ilə qəzəbə nəzarət, başqalarının büdrəmələrinə göz yummaq mənfi qəzəbin tam əksinə olan bir xasiyyətdir. Bir gün imam Kazimin (ə) xidmətçilərindən biri tələskənliyə yol verib əlində tutduğu sinidəki xörəyi imamın üstünə dağıtdı. İmam xidmətçinin bu hərəkətinə görə narahat oldu. Xidmətçi zirəklik göstərib təqvalıların qəzəbini udması ilə bağlı ayəni oxudu. İmam (ə) buyurdu: "Mən qəzəbimi uddum." Xidmətçi sözünə davam edib başqalarının büdrəmələrinin bağışlanması haqqındakı ayəni oxudu. İmam (ə) buyurdu: "Mən sənin xətana göz yumdum." Xidmətçi ehsan edənlər haqqındakı ayəni oxudu. İmam (ə) xidmətçiyə müraciətlə buyurdu: "Səni azad etdim və filan bağı da sənə bağışladım."[3]

İmam Səccad (ə) haqqında da oxşar bir hadisə nəql olunmuşdur. Həmin rəvayətdə kənizin əlindən su qabı düşüb imamın üzünü yaralamasından danışılır.[4]

---

*1. "Nəhcül-bəlağə", hikmətlər bölməsi, hikmət 255, s. 403*
*2. "Biharul-ənvar", c. 70, s. 264, hədis 11*
*3. İbn Əbül Hədid, "Nəhcül-bəlağənin şərhi", c. 18, s. 46*
*4. Bax: "Biharul-ənvar", c. 46, s. 67, 68, hədis 36*

Əlbəttə ki, qəzəbə nəzarət etmək üçün müəyyən təkrarlara, çalışmalara ehtiyac var. İnsan belə bir xasiyyətə asanlıqla sahib ola bilmir. Böyük şair Mövlana deyir:

*Nə vaxt qəzəb yeri, nə vaxt əfv yeri?*
*Yerini tanımaq mərdlər hünəri.*[1]

## 5. Özününümayiş və riyakarlıq

İnsanın əməllərini dəyərdən salan bəlalardan biri onun özününümayiş etdirməsi və riyakarlığıdır. Riya dedikdə əməl zamanı başqa məqsəd güdmək nəzərdə tutulur. Bu çirkin xüsusiyyət insanın fərdi və ictimai əməllərinə mənfi təsir göstərir, onları dəyərdən salır. Bu sifətin ziddi ixlasdır. İxlas dedikdə saf və pak niyyət nəzərdə tutulur. Bəzən insan ibadət edərkən Allahın razılığını yox, insanların rəğbətini qazanmaq barədə düşünür. Belə bir hərəkət riyakarlıqdır. Riyakar insan daim çalışır ki, öz zahirini bəzəsin; o daim çalışır ki, vücudunda olmayan bir xasiyyəti qiyafəsi ilə nümayiş etdirsin. Riyakar insan daxilən başqa olsa da, zahirdə özünü dindar və insanpərvər kimi göstərir.

*Zahirin kafir goru tək bəzənmiş,*
*Daxilinə Allah qəzəbi enmiş.*
*Çöldə bəyənmirsən ol Bayazidi,*
*Oturtmusan içində şər Yəzidi.*
*Qəlbində olanlar fırıldaq, hiylə,*
*Allah üçün bir şey varınmı söylə?*[2]

Həqiqətən də, riyakar insanların zahiri kafirlərin qəbirləri tək zinətlidir. Amma həmin qəbirlərin içində Allah qəzəbindən başqa bir şey yoxdur.

---

1. *Mövlana, "Məsnəviye-mənəvi" 5-ci dəftər*
2. *Şeyx Bəhayi, "Kəşkül"*

Məsumların uyğun mövzudakı bəzi buyuruqlarını nəzərdən keçirək:

a) İmam Əli (ə): "Əməlin paklığına və xalisliyinə diqqət onun özünü yerinə yetirməkdən çətindir."[1]

b) İmam Sadiq (ə): "İstənilən bir riyakarlıq və özünü nümayiş Allaha qarşı şirkdir."[2]

v) İmam Sadiq (ə): Peyğəmbərin (s) dilindən belə nəql edir: "Bəndənin əməlini mələklər yuxarı qaldırar. Mələk insanın yaxşı əməlinə görə sevinər. Amma bu əməl Allahın hüzuruna çatdırılan vaxt Allah buyurar: "Bu əməli cəhənnəm oduna atın. Çünki bəndəm onu mənim razılığım üçün yerinə yetirməyib."[3]

Riyakar insan əslində şirkə düçar olmuşdur və çoxlarına pərəstiş edir. O öz əməllərini zahirən bəzəməklə ətrafdakıları aldadır ki, onlardan bir şey qoparsın. O Allahdan qeyrilərinin mükafat vermək gücündə olduğunu düşünür. Bu səbəbdən də məsumlar vurğulayır ki, Allah bu qəbil insanları nəzərdə tutduqları şəxslərin yanına göndərər və "mükafatınızı onlardan alın" söyləyər.

Ey əzizlər, ey Allaha doğru hərəkət aşiqləri! Riyakarlıq bu yolda bitmiş tikan, maneədir. İnsan öz əməllərində ixlaslı olmaq üçün şeytani nəfs istəkləri ilə ciddi mübarizə aparmalıdır. Xalis niyyət sözlə başa çatmır. Bir çox natiqlər ixlasdan dəm vurur, amma onların əməllərində söylədiklərinin zərrəcə təsdiqi tapılmır. Onlar öz zahirlərini o qədər bəzəyirlər ki, belə bir dəhşətli xəstəliyə düçar olduqları insanın ağlına da gəlmir.

Xalis niyyət və əməllərdə Allahın razılığının izlənilməsi hikmət və elmi insanın qəlbindən dilinə rəvan edir. Amma riyakarlıq və özünü nümayiş əməlləri puça çıxarır, riyakar fərdi insanların nəzərində alçaldır.

---

*1. "Ğurərul-hikəm", s. 155, say 2903*

*2. "Biharul-ənvar", c. 69, s. 281, hədis 3*

*3. "Vəsailuş-şiə", c. 1, s. 71, hədis 3*

## *6. Başqalarının hörmətdən salınması*

İslam təlimlərinə əsasən, insanların abır-həyasını, şəxsiyyətini qorumaq çox mühümdür. Başqalarının qanını axıtmaq, onların malını qarət etmək kimi şəxsiyyəti alçaltmaq da çirkindir. İmam Sadiq (ə) buyurur: “Allah-taala möminin əleyhinə danışan, onun şəxsiyyətini sual altına almaq istəyən, onu alçaldan, xalqın gözündən salan şəxsi öz vilayət və yaxın məqamından xaric edər, şeytanın hökmü altına salar. Amma belə birisinə rəhbərliyi şeytan da qəbul etməz.”[1]

İnsan fərdlər haqqında bildiyini ümumi yığıncaqlarda açıqlamaq haqqına malik deyil. Əgər bir insanda doğrudan da pis sifət varsa ona dostcasına xəbərdarlıq etmək, öyüd-nəsihət vermək lazımdır. Müsəlmanların eyblərini açıqlamaq, bu eybləri başqalarına çatdırmaq olmaz. Əslində ətrafdakıları öz əməllərimizlə pis işdən çəkindirməliyik.

*Özgənin eybini gətirmə dilə,*
*Pisliyini göstər öz əməlinlə.*[2]

Söhbətimizin bu məqamında insanların şəxsiyyətini hədəfə almış bəzi böyük günahları nəzərdən keçirək:

a) Qeybət və böhtan: Əgər bir şəxsdə müəyyən eyb varsa və həmin şəxs bu eybin açıqlanmasından narahat olarsa, həmin eybi başqalarına deməyimiz qeybətdir. Əgər bir şəxsdə olmayan sifəti başqaları ilə söhbətdə ona aid edəriksə, bu böhtandır. Qeybət və böhtan insan şəxsiyyətini alçaldan, onları hörmətdən salan iki günahdır. Qeybət edən şəxsə irad tutulduqda çox vaxt belə deyir: “Bu qeybət deyil. Mənim dediyim sifətlər həmin şəxsdə var.” Bu adam yaddan çıxarır ki, olan eybi dilə gətirmək qeybətdir. Əgər olmayanı dilə gətirsək, bu böhtan olar. Bəzən deyirlər ki, mən bu sözləri onun üzünə

---

*1. Həmin mənbə, c. 12, s. 294, hədis 2*
*2. Vaiz Qəzvini, şerlər divanı, beyt 412*

də söyləyirəm. Əgər qeybət edən şəxs dediklərini eyb sahibinin üzünə deyirsə də, bu qeybət günahını yüngülləşdirmir. Deyilən söz haqqında danışılan şəxsi incidərsə, bu qeybətdir və ağır bir günahdır.

Allah-taala Qurani-kərimdə buyurur: "Bəziləriniz bəzilərinizin qeybətini etməyin. Sizlərdən elə biri varmı ki, ölmüş qardaşının ətini yeməyi xoşlasın? Şübhəsiz, bunu xoşlamırsınız."[1] İmam Sadiq (ə) buyurur: "Mömin insan öz din qardaşını ittiham etdiyi vaxt onun qəlbindəki iman duz suda əridiyi kimi əriyib aradan gedir."[2]

b) Xəbərçilik: Böyük günahlardan biri də xəbərçilikdir. Bu günah dostlar arasında ayrılıq yaradır, eynən yalan kimi cəmiyyətdəki etibarı puça çıxarır. Bu ruhi xəstəliyə düçar olanlar müsəlmanlar arasında kin-küdurəti aradan qaldırmaq əvəzinə öz yersiz sözləri ilə onu daha da alovlandırırlar. Allah bəzən doğru sözə qəzəblənir. Bu həmin doğru sözdür ki, iki müsəlmanın arasında düşmənçilik yaradır. Allah bəzən yalanı bəyənir. Bu həmin yalandır ki, müsəlmanlar arasındakı kin-küdurəti aradan qaldırır. Bəzən xəbərçi şəxs aparıb-gətirdiyi xəbərlərə görə hədəfə alınır və həyatını əldən verir.

Sədi bu barədə deyir: "İki düşmən arasında elə danış ki, onlar dostlaşanda utanmayasan."

*Düşmənlər arası sanki alov var,*
*Xəbərçi bu odda odun tək yanar.*
*Düşmənlər barışıb dostlaşan zaman*
*Arada od tutar xəbərçi insan.*
*İki dost arası alov qalamaq*
*Ağıldan uzaqdır, yanar o axmaq.*[3]

---

1. *Surə 49, "Hucurat", ayə 12*
2. *"Vəsailuş-şiə", c. 12, s. 302, hədis 1*
3. *"Gülüstan" 8-ci bab, söhbət qaydaları, s. 260, 261, say 12*

v) Eyb axtarmaq və sirr açmaq: Bəzi qəlbi xəstə insanlar başqalarında eyb axtarır, onların sirlərini açır. Onların məqsədi lazım gələn məqamda bildiklərindən istifadə etməkdir. İmam Sadiq (ə) buyurur: “İnsanı imandan çıxaran ən kiçik iş biri ilə dostluq edib, onun nöqsanlarını qeydə almaq və lazım gəldikdə həmin nöqsanları dilə gətirməkdir.”[1]

Digər bir hədisdə imam Sadiq (ə) Peyğəmbərin (s) dilindən belə nəql edir: “Ey dildə müsəlmanlığı qəbul edən, amma qəlbində xalis iman olmayanlar! Müsəlmanları qınamayın, onlarda eyb axtarmayın. Əgər bir şəxs insanlarda eyb axtarsa Allah da onun eybini izləyər. Belə bir şəxs evindən çıxmasa belə Allah onu rüsvay edər.”[2]

q) Söyüş və təhqir: İnsanlarla ünsiyyətdə təhqiramiz sözlər işlətmək arada kin-küdurət və düşmənçilik yaradır. Bu günah səbəbindən ictimai rabitələr zəifləyir. İmam baqir (ə) buyurur: “Həqiqətən, Allah dili ilə təhqir edib, söyüş söyəni düşmən bilir.”[3]

Müqəddəs İslam şəriəti insanların şəxsiyyətinin qorunmasına xüsusi diqqət yetirir və bu yönümdə günahlardan çəkindirir. İnsanlara xəyanət, onları məsxərəyə qoymaq, çirkin ləqəblərlə müraciət, pak insanları günahda suçlamaq, sui-zənn şəriətin qınadığı günahlardandır və ictimai rabitələri zəiflədir. Başqalarını hörmətdən salmaq, onların eyblərini açmaq, xəbərçilik necə pisdirsə, şəxsiyyəti qorumaq, insanları pis əməllərindən xəbərdar etmək bəyənilmiş əməllərdir. İstənilən bir halda insanların eybini cəmiyyət arasında dilə gətirməməliyik.

Əlbəttə ki, insanların şəxsiyyəti ilə bağlı günahlar və yaxşı əməllər təkcə qeyd etdiklərimiz deyil. Biz sadəcə kitabımızın həcmini nəzərə alaraq deyilənlərlə kifayətləndik.

Siz əziz yeniyetmələr vaxtınızın böyük bir hissəsini evdə, ata-ananızla, məktəbdə, müəllimlərlə birlikdə, dostlarınızla

---

*1. “Vəsailuş-şiə”, c. 12, s. 276, hədis 4*
*2. Mirzə Hüseyn Nuri, “Mustədrəkul-vəsail”, c. 9, s. 109, hədis 4*
*3. “Vəsailuş-şiə”, c. 16, s. 32, hədis 2*

keçirdiyinizdən növbəti üç fəsildə valideyn, müəllim və dostla rəftar qaydaları haqqında danışmaq qərarına gəldik. Onların bizim üzərimizdə hansı haqları var? Zəruri nöqtələri öyrənək və onlarla ünsiyyətdə diqqətsizlik və məlumatsızlıq səbəbindən günaha yol verməyək.

# Üçüncü fəsil

## *Ata-anaya yaxşılıq*

Ata-ananın haqlarına riayət etmək üçün insanın duyğuları və haqqı itirməməsi xasiyyəti yetərli amillərdir. İslam dinində ata-anaya ehtiram olduqca ciddi bir şəkildə vurğulanır. Bu məsələnin ciddiliyini və əhəmiyyətini anlamaq üçün müəyyən nöqtələri nəzərdən keçirək:

1. Qurani-məciddə tövhid dəvətindən sonra ata-anaya ehtiram mövzusu öndə dayanır.[1] Valideynə ehtiram mövzusunun tövhid mövzusu ilə bir sırada dayanması İslamın bu mövzuya diqqətindən danışır. Ata-anaya təşəkkür ilahi nemətlər müqabilində təşəkkürlə yanaşı zikr olunur.

2. Əgər ata-ana kafir olarsa, yenə də onların ehtiramı gözlənilməlidir. Qurani-məcid buyurur: "Əgət ata-anan səni şirkə sövq etsələr, onlara itaət etmə. Dünya həyatında isə onlarla ehtiramla keçin."[2]

3. Cihad mövzusu İslam proqramlarında ən mühüm mövzulardandır. Bununla belə, cəbhənin ehtiyacı ödənən bir vaxtda ata-ananın qulluğunda durmaq cihada getməkdən mühüm sayılır. Bir daha qeyd edirik ki, cəbhənin ehtiyacı

---

*1. Bax: Surə 2, "Bəqərə", ayə 83; surə 4, "Nisa", ayə 36; surə 6, "Ənam", ayə 151; surə 17, "İsra", ayələr 23, 24*
*2. Surə 31, "Loğman", ayə 15*

ödənən zaman cəbhəyə getmək istəyən insanın ata-anası bu işə görə narahatdırsa, o getməməlidir.

Cabir ibn Əbdüllah Ənsari deyir: Bir şəxs əziz Peyğəmbərin (s) yanına gəlib ərz etdi ki, mən sağlam bir gəncəm və cihada getmək istəyirəm. Amma anam narahat olur." Peyğəmbər (s) buyurur: "Qayıt, ananla qal. And olsun məni peyğəmbərliyə göndərən Allaha, bir gecə ananla birlikdə qalmağın Allah yolunda bir il cihaddan üstündür."[1]

Peyğəmbərdən (s) nəql olunmuş bir hədisdə buyurulur: "Övladın ata-anaya məhəbbətli baxışı ibadətdir." [2] Həzrət buyurur: "Ata-ananızı qəzəbləndirməkdən qorxun, onların üzünə ağ olmayın. Çünki behiştin 500 illik yoldan duyulan ətri ata-anasını incidən şəxsə yetişməyəcək."[3]

## *Övladlıq vəzifələrindən nümunələr*

**Sual:** Biz ata-anaya ehsan edənlərdən olmağımız üçün nə etməliyik? Nə edək ki, ağvalideyn olmayaq, onları qəzəbləndirməyək?

**Cavab:** Hər bir insanın ata-ana qarşısında vəzifələri var və bu vəzifələrə əməl olunmalıdır. Həmin vəzifələrdən bəzilərini sadalayırıq:

1. Valideynlə danışarkən səsini onların səsindən yuxarı qaldırma, onlarla mehriban danışmağa çalış. Sən danışıq qabiliyyətinə görə onlara borclusan. Onlar uşaqlıq vaxtı sənə məhəbbətlə danışmağı öyrətmişlər. Sən dilini sənin üçün itiləyənlərə, sənə danışmağı öyrədənlərə qarşı işlətməməlisən.

Sədinin "Gülüstan"ınında deyilir: "Gənclik yaşımda anamın üzərinə səsimi qaldırdım. O inciyib bir küncdə əyləşdi və ağlayaraq dedi: "Körpəliyini unutmusan ki, belə edirsən?"

---

*1. "Vəsailuş-şiə", c. 15, s. 20, 21, hədis 2*
*2. "Biharul-ənvar", c. 71, s. 80, hədis 80*
*3. Həmin mənbə, s. 61, 62, hədis 27*

*Bir qoca, övladı qəzəblənən an*
*Dedi niyə pələng kimi baxırsan?*
*Nə tez çıxdı uşaqlığın yadından?*
*Çarəsizdin qucağımda bir zaman.*
*İndi sən bir şirsən mən qoca qarı,*
*Bu qarıya cəfa qılma sən barı.*[1]

4. Onlara mehribanlıqla bax. Bil ki, onlara qəzəbli baxışınla Allahın qəzəbini qazanırsan. İmam Sadiq (ə) buyurur: "Haqlı olsan belə, ata-anana qəzəblə baxma. Belə iş görən Allahın dərgahından uzaqdır, onun namazı qəbul deyil."[2]

3. Onlar səndən bir şey istəməmiş ehtiyaclarını yerinə yetir. İmkan vermə ki, nəyə görəsə sənə ağız açalar.

4. Yolda onlardan qabağa keçmə, məclisə daxil olanda onlardan qabağa düşmə. Onlar əyləşənədək gözlə.

5. Onları adları ilə çağırma, yersiz bəhanələrdən çəkin. Ədəbsizliyə yol vermə. İmam Baqir (ə) buyurur: "Atam imam Səccad (ə) yolda yanaşı gedən ata-oğulla rastlaşdı. Oğul atasına söykənib, sanki ağırlığını onun üzərinə salmışdı. İmam o qədər qəzəblənmişdi ki, dünyasını dəyişənədək həmin uşaqla danışmadı."[3]

*Allahdan istəyək əsil ədəbi,*
*Ədəbsizə nəzər salarmı Rəbbi?!*
*Ədəbsiz yandırmır təkcə özünü,*
*Oda çəkir yeri, göyün üzünü.*[4]

6. Cəmiyyətdə onları hörmətdən salma. Elə işlər görmə ki. Xalq sənin ata-anana lənət oxusun.

7. Ata-anan dünyadan köçdükdən sonra onları unutma, öz xeyir işlərinlə onlara savab göndər. Ola bilər ki, ata-anası sağ

---

1. *"Gülüstan", 6-cı bab, zəiflik və qocalıq haqqında, s. 224, 225, hekayət 6*
2. *"Vəsailuş-şiə", c. 21, s. 501, hədis 5*
3. *Həmin mənbə, s. 502, hədis 8*
4. *"Məsnəviye-mənəvi", 1-ci dəftər*

ikən onlara hörmət göstərən şəxs onlar dünyasını dəyişdikdən sonra diqqətsizlik etsin. Bu münasibət də ağvalideynlik sayılır.

*Gör neçə il ötüb keçib o gündən,*
*Atanın qəbrini unutmusan sən.*
*Atan üçün hansı işi görmüsən*
*Oğlun sənin üçün ata bir qədəm?!*[1]

İnsan ata-anasına münasibətdə necə olarsa övladları da ona eyni münasibəti göstərər. Hətta daha pis rəftarlarla üzləşə bilər.

## *Ana daha çox hörmətə layiqdir*

**Sual:** İslam baxımından ataya, yoxsa anaya daha çox ehtiram göstərilməlidir?

**Cavab:** İslamda ananın hüquqlarına riayət və ona ehtiram göstərilməsi daha çox tövsiyə edilir. İmam Səccad (ə) insanların qarşılıqlı haqları haqqında danışarkən buyurur: “Ana kimsənin daşıya bilməyəcəyi bir yükü çəkmişdir. Sənə öz canından yedirtmiş, kimsənin qıymadığını vermişdir. Səni əlləri, gözləri, qulaqları, bütün vücudu ilə qorumuşdur. Oyaq qalmış, yatırtmış, doyurmuşdur. Özü ac qalıb səni yedirtmiş və içirtmişdir. Özü günəş altında oturub sənə kölgə salmışdır.”

İmam Sadiq (ə) buyurur: “Bir şəxs həzrət Peyğəmbərin (s) yanına gəlib ərz etdi: “Ey Peyğəmbər (s)! Kimə yaxşılıq edim?” Həzrət buyurdu: “Anana!” Həmin şəxs ikinci dəfə eyni sualı verdi. Həzrət Peyğəmbər (s) də eyni cavabı təkrarladı. Üçüncü dəfə də eyni sual-cavab təkrarlandı. Həmin şəxs sonda soruşdu: “Anamdan sonra kimə yaxşılıq edim?” Həzrət buyurdu: “Atana!”[2]

İbn Cüneyd Bağdadi deyir: “Bir gün çay kənarından keçirdim. Sürətlə hərəkət edən bir əqrəb gördüm. Onun ardınca

---

*1. “Gülüstan”, 6-cı bab, zəiflik və qocalıq, s. 222, 223, hekayət 3*
*2. “Vəsailuş-şiə”, c. 21, s. 491, hədis 1*

düşdüm. O suya yaxınlaşıb bir bağanın üstünə mindi. Bağa hərəkət edib onu çaydan keçirdi. Əqrəb bağanın üstündən düşüb sürətlə bir ağaca doğru hərəkət etdi. Orada bir gənc uzanmışdı. Həmin gəncə tərəf bir ilan sürünürdü. Əqrəb ilanı çalıb öldürdü. Gənc yuxudan oyananda ondan soruşdum: "Nə yaxşı iş görmüsən ki, Allah səni bu bəladan qurtardı?" Oğlan dedi: "Bu gün anam istədi ki, onun kuzəsini bulaqdan doldurum. Yoldan ötərkən bir alimin ata süvar olmaq istədiyini gördüm. Atını tutdum ki, rahatlıqla süvar olsun."

# Dördüncü fəsil

## *Müəllim və tərbiyəçiyə ehtiram*

Dinimizdə elm və biliyə xüsusi əhəmiyyət verilir. İslam dini sərvətlə elmi müqayisə edərək bir neçə dəlil əsasında elmə önəm verir. Həmin nöqtələrdən bəzilərini nəzərdən keçirək:

1. Elm insanı qoruyur. Sərvəti isə insan qorumalıdır.

2. Elm bağışlandıqca artır, püxtələşir. Sərvət isə xərcləndikcə azalır.

3. Elm hakimdir, insan elm vasitəsi ilə əşya və fərdlərə hökm edir. Amma sərvət məhkumdur və ona hökm olunur. Məsələn, hökm edilir ki, bu mal filankəsdən alınıb filankəsə verilsin.

4. Elm və bilik yalnız zəhmətlə əldə olunur, onu bağışlamaq və ya irs qoymaq mümkün deyil. İnsanların ruzisinə isə Allah tərəfindən zəmanət verilmişdir, bağışlanma və digər yollarla insana çatır.

Elm və bilik bu qədər dəyərli olduğundan alim və elm adamının da dəyəri böyükdür. İslam maarifində alim və elm adamının dəyəri haqqında çox danışılır.

İmam Kazim (ə) buyurur: "Alimlə zibillikdə söhbət etmək cahillə xalı üzərində əyləşməkdən yaxşıdır."[1]

---

*1. "Biharul-ənvar", c. 1, s. 205, hədis 27*

Deyilənləri nəzərə alıb hər birimiz alim və ya tələbə olmağa çalışmalıyıq. Əks təqdirdə elə bir dəyərimiz olmayacaq. Əgər yaxında alim varsa onların elmindən faydalanaq. Digər bir tərəfdən öz ustad və müəllimlərimizin, tərbiyəçilərimizin qədrini bilək. Onlara daim ehtiram göstərək. İmam Sadiq (ə) buyurur: “Ondan elm öyrəndiyiniz üçün qarşısında təvazö göstərin.”[1]

## *Müəllim və tərbiyəçinin haqları*

**Sual:** Müəllim və tərbiyəçilərimizin qədrini bilmək və onlara ehtiram göstərmək üçün nə etməliyik?

**Cavab:** Din rəhbərlərinin dəyərli buyuruqlarında ustad və müəllimin haqları dəqiq şəkildə bəyan olunmuşdur. Söhbətimizin bu yerində müxtəsər şəkildə həmin bu hüquqları yada salaq:

1. Müəllimə ardıcıl suallar verməklə onu yormaq olmaz. Çünki o, bol bəhrəli xurma ağacı kimidir. Tələbə xurmaya xatir bu ağacı silkələməməli, xurmanın nə vaxt düşəcəyini gözləməlidir.

2. Bəli, sual həqiqətlərin açarıdır və soruşmayan bir şey öyrənmir. Amma boş suallarla ustadın vaxtını almaq olmaz. Elm mə’dəni olan Əli ibn Əbu-Talib (ə) əlini sinəsinə qoyub deyirdi: “Öyrədiləsi birini tapsaydım, bu sinədə çox bilik vardı.”[2]

Həzrət buyururdu: “Ey insanlar, nə qədər ki, məni itirməmisiniz suallarınızı verin.”[3] İndi düşünün ki, bir şəxs həzrət Əlidən (ə) başında və ya üzündəki tüklərin sayını soruşur! Belə bir rəftar dünyanın ən böyük tərbiyəçi və ustadına qarşı nankorluq olmazmı?!

3. Ustad bir mövzuda danışarkən həmin mövzuda başqalarının dediklərini təkrarlayıb onu kiçiltmək olmaz.

---

*1. “Vəsailuş-şiə”, c. 15, s. 276, hədis 1*

*2. “Nəhcül-bəlağə”, hikmətlər bölməsi, hikmət 147, s. 388*

*3. Həmin mənbə, xütbələr bölməsi, xütbə 189, s. 206*

Məsələn, demək olmaz ki, ustad, filankəs filan cür dediyi üçün sizin söylədikləriniz yanlışdır.

4. Ustada can-dildən qulaq asmaq lazımdır. Dərs zamanı ətrafdakılarla söhbətləşmək olmaz. Ustadla astadan danışmaq, səsi qaldırmamaq lazımdır.

5. Elm öyrənmək üçün ustad qarşısında diz çökmək lazımdır. Elə yerdə oturmalıyıq ki, o bizə baxmaq üçün əziyyət çəkməsin.

6. Ustadın hüzurunda ədəbsiz hərəkətlərə yol verilməməlidir. Məsələn, göz və ya qaşla işarə etmək pisdir.

7. Dərs uzandığı vaxt narahat olmamalı və ya narahatçılığımızı hansısa hərəkətlərimizlə büruzə verməməliyik. Bu qəbil hərəkətlər ustada qarşı hörmətsizlikdir.

8. Əgər sinifdə kimsə ustada sual verirsə, biz ustaddan önə keçib sualı cavablandırmamalıyıq.

9. Ustadın arxasınca danışmaq olmaz. Əksinə, bir məclisdə ustadın pisliyinə danışılırsa, onu müdafiə etmək, eyblərini örtüb yaxşılıqlarını aşkarlamaq lazımdır.

*Böyüklərin adın pisliyə çəkən*
*Özü kiçiləsi gözlərdə hökmən.*[1]

10. Günaha yol verməklə dərsin əzəmətini, ustadın ehtiramını pozmayaq. Məsələn, dərs zamanı kiminsə qeybətini etmək olmaz.

11. Ustadın düşmənləri ilə dostluq, dostları ilə düşmənçilik pisdir.

12. Sinifə daxil olarkən ustada ayrıca salam verək. Sinifə ümumi şəkildə verilən salam yetərli deyil.

13. Ustad ayağa qalxıb getmək istəyərkən müxtəlif bəhanələrlə onu yubatmayaq.

---

*1. "Gülüstan", 1-ci bab, padşahların xarakteri, s. 98, hekayət 41*

# Beşinci fəsil

## *Dost və dostluq qaydaları*

İnsan ictimai bir varlıqdır. O cəmiyyətdən kənarda, tənhalıqda kamilləşə bilmir. Bu səbəbdən də ömür boyu səmimi və canıyanan dosta ehtiyaclıdır. Əslində, özünə vəfalı dost və yoldaş tapa bilməyən insan acizdir. Bundan da acizi mehriban dostu yersiz bir rəftarı ilə küsdürən fərddir. Qeyd etməliyik ki, etibarlı, mehriban, canıyanan və vəfalı dostun varlığı ictimai həyatın zərurətidir. İnsan hər adama dostluq əli uzatmamalıdır ki, qısa bir müddətdə zərbə görsün. Amma necə də azdır vəfalı dostlar! Onlar mirvari tək azdır və çətin əldə olunur.

*Həqiqi dostların bilək qiymətin,*
*Onlar mirvari tək tapılır çətin.*

İnsanı tanımaq üçün mötəbər yollardan biri də onun dostlarını nəzarətə almaqdır. Çünki əxlaqi xüsusiyyətlər dostdan-dosta sirayət edir. Əgər sizin dostunuz sağlam və pak insandırsa müsbət dəyərləndirilərsiniz, azğın və günahkar insandırsa ittiham olunarsınız.

*Əgər mənə öz dostundan söyləsən,*
*İşdə kimliyini anlayaram mən.*
*Bilinərsə dostlarının qiyməti,*

*Sənə qiymət veriləsidir qəti.*

Hər hansı parça öz-özlüyündə dəyərsizdir. Amma həmin parça Kəbə evinə çəkildikdən sonra Kəbəyə xatir əziz tutulur, yüksək dəyərləndirilir. Sədi deyilir:

*Kəbə parçasını dəyərləndirən,*
*Dostum, ipəkqurdu deyildir əslən.*
*Kəbəyə çəkilib bir neçə gündü,*
*Kəbə kimi əziz tutulur indi.*[1]

Əksinə, insan azğın və günahkar insanla dostluq edərsə, tədricən onun təsiri altına düşər və rəngi dəyişər.

*Pislərə qoşuldu Lutun arvadı,*
*Peyğəmbərə düşmən yazıldı adı.*
*Kəhf səhabəsinə qoşulan bir it*
*Həmin o müqəddəs əshaba aid.*[2]

Allah-taala Qurani-kərimdə cəhənnəmə düşənlərin dilindən belə nəql edir: "Vay olsun Mənə! Ey kaş filankəsi dost seçməyəydim. Onunla yoldaşlıq məni Qurana itaətdən çəkindirdi, azdırdı."[3]

## *Səmimi dostun xüsusiyyətləri*

**Sual:** Həqiqi dostda hansı sifətlər olmalıdır?

**Cavab:** Həqiqi dostun bəzi sifətlərini nəzərdən keçirək:

1. O aşkarda və xəlvətdə eyni münasibət göstərir, dostla rəftarı dəyişkən deyil. Həqiqi dost özünü zahirdə səmimi

---

*1. "Gülüstan", 7-ci bab, tərbiyənin təsiri, s. 235, 236, hekayət 8*
*2. Həmin mənbə, 1-ci bab, padşahların xarakteri, s. 53, hekayət 4*
*3. Surə 25, "Fürqan", ayələr 28, 29*

göstərib qəlbində kin-küdurət saxlamır. Həqiqi dostda nifaq ruhiyyəsi yoxdur, arxada pisliyinizə danışmır.

2. Həqiqi dost sizin inkişafınızı və izzətinizi özünə fəxr bilir, sizin müvəffəqiyyətsizliklərinizdən narahat olur. O sizi özündən ayırmır, özü üçün istədiyini sizin üçün də istəyir, özü üçün bəyənmədiyini sizin üçün də bəyənmir.

3. Dövrün hadisələri həqiqi dostun sizə olan münasibətini dəyişmir. Kasıb vaxtı sizə yaxınlaşan, varlananda sizdən uzaqlaşan şəxs həqiqi dost deyil. Həqiqi dost həm yaxşı, həm pis günlərdə insanın yanındadır.

*Həqiqi dost ömrün hər bir anında,*
*Yaxşı və pis gündə daim yanında.*[1]

Paxıl, kimsəyə əl tutmaq istəməyən fərdlərdən uzaqlaşmaq lazımdır. Nəql edirlər ki, bir şəxs küçənin kənarında dayanıb ağlayırdı. Əlində bir neçə çörək olan dostu onunla rastlaşdı. Dostunun ağlamağını görüb ağlamağa başladı. Dostu soruşdu: “Sən nə üçün ağlayırsan?” Həmin şəxs dedi: “Sənin dərdinə şərik olmaq istədiyimdən ağlayıram.” Birinci şəxs dedi: “Mən aclıqdan ağlayıram, səninsə çörəyin var. O çörəkdən ver daha ağlamayım.” İkinci dost dedi: “And olsun Allaha, sənin üçün sübhədək ağlayaram, amma çörək istəmə!”

4. Yaxşı dost insana onun nöqsanlarını xatırladır. O güzgü kimidir. Ona baxıb eyblərini görürsən. O sizin razılığınızı qazanmaqdan ötrü yalan təriflərə yol vermir. İmam Sadiq (ə) buyurur: “Mənim üçün ən yaxşı dost eyblərimi mənə xatırladandır.”[2]

5. Yaxşı dostda fitnəkarlıq, xəyanət, xəbərçilik kimi pis sifətlər olmur. Bu sifətlər keçici xəstəlik kimi insana sirayət edir. Pis dost tədricən insanın iman və əxlaqını korlayır.

---

*1. “Gülüstan”, 1-ci bab, padşahların xarakteri, s. 70, hekayət 16*
*2. “Vəsailuş-şiə”, c. 12, s. 25, hədis 2*

*Bacardıqca uzaq ol pis adamdan,*
*Belələri qorxuludur ilandan.*
*İlan sancıb çıxarırsa canını,*
*Pis dost qılınclayır hey imanını.*

Bu gün sənə xatir başqalarının haqqını tapdayan, onlara zülm edən şəxs sabah sənə xəyan edəsidir. Sənə başqalarının pisliyindən danışan, bir müddət sonra başqalarına sənin pisliyini açıqlayasıdır.

*Başqasının eybini sənə çatdıran adam*
*Səndən də başqasına danışasıdır müdam.*[1]

6. Həqiqi dost sir saxlayan olmalıdır. İnsan biri ilə dostluq rabitəsi saxladıqda istər-istəməz ona öz qəlbini açır, sirlərini onunla bölüşür. Əlbəttə ki, insanın orta həddi gözləməsi və sirlərini açmaması yaxşıdır. İki dodaqdan xaric olan sirr məxfi qalası deyil. Həzrət Əli (ə) buyurur: "Dostuna orta həddə bağlan. Çünki o bir gün düşmən ola bilər. Düşmənlə münasibətdə də orta həddi gözlə. Çünki bir gün onunla dostlaşa bilərsən."[2]

Sədi Şirazi imam Əlinin (ə) hikmətli buyuruğu ilə bağlı deyir: "Dostuna hər sirri açma. Olsun ki, bir gün düşmənin ola. Düşmən də bir gün dost ola bilər. Onu necə gəldi qılınclama."

*Dostun əzizdirsə də, açma ona sirrini,*
*Dost da əziz dostuna çatdırar sözlərini.*[3]

---

1. *"Gülüstan", 2-ci bab, dərvişlərin əxlaqı, s. 101, hekayət 4*
2. *"Nəhcül-bəlağə", hikmətlər bölməsi, hikmət 268, s. 410*
3. *("Gülüstan", 8-ci bab, söhbət qaydaları, s. 259, say 10)*

7. Həqiqi dost sağlam ağıl sahibi olmalıdır. Çünki nadan şəxs özü də bilmədən səni bədbəxtliyə sürükləyər. Olsun ki, nadan insan dostuna yaxşılıq etmək istəyi ilə axmaqlığından onu əziyyətə sala.

*Halvadan canıma dərd gələn bir an*
*Axmaq dost yedirir onu durmadan.*[1]

Həzrət Əli (ə) buyurur: "Agah düşmən nadan dostdan yaxşıdır."[2]

8. Həqiqi dost sənin düşməninlə yaxınlıq etməz. Belə bir dostluq xalis deyil. Həzrət Əli (ə) buyurur ki, sənin düşməninlə dostluq edən əslində sənə düşmənçilik edir."[3]

*Düşməniylə dostluq edən adamdan*
*Uzaq dayananlar ağıllı insan.*[4]

Hazırkı söhbətimizin sonunda İslam tarixində iz salmış həqiqi dostluq nümunələrindən birini nəzərdən keçirək:

Səfvan ibn Yəhya imam Riza (ə) və imam Cavadın (ə) yaxınlarından olmuşdur. Bu şəxs iki dostu ilə Kəbə kənarında əhd-peyman bağlayır ki, dostlardan biri dünyasını dəyişsə, o birilər özləri üçün 17 rəkət vacib, 34 rəkət müstəhəb namaz qıldığı kimi dünyasını dəyişən dost üçün də bu işi görsünlər. Onlar dünyadan gedən dostları üçün ramazan ayının orucunu tutacaqlarını əhd etdilər. Əhd-peyman bağladılar ki, öz mallarından nə qədər zəkat versələr, dostları üçün də həmin miqdarda zəkat ayırsınlar. Belə oldu ki, həmin iki şəxs dünyasını dəyişdi, Səvfan qaldı. O ömrünün son gününədək gündə 150 rəkət namaz qılır, hər ilin üç ayını oruc tutur, üç dəfə

---

*1. Mövlana, "Məsnəviye-mənəvi", 4-cü dəfər*
*2. "Biharul-ənvar", c. 75, s. 12, hədis 70*
*3. "Nəhcül-bəlağə", hikmətlər bölməsi, hikmət 295, s. 415, 416*
*4. ("Gülüstan", 8-ci bab, söhbət*
*qaydaları, s. 261, say 13)*

malının zəkatını verirdi. O gördüyü işlərin savabını dostlarına hədiyyə edirdi.[1] Salam olsun belə dostlara!

*1. “Biharul-ənvar”, c. 49, s. 273, hədis 20*

*Üçüncü hissə*

# Hökmlər (əhkam) və dini vəzifələr

# Birinci fəsil

## *Vəzifələr və dini göstərişləri bilmək*

İnsanın dünya və axirət xoşbəxtliyi onun Allah tərəfindən müəyyənləşmiş vəzifələrinə əməl etməsindən asılıdır. Şübhəsiz ki, bu vəzifələri bilmədən onları yerinə yetirmək mümkünsüzdür və onların xoşbəxtliyi təmin olunmaz. İslam dininin proqramları iki hissəyə bölünür:

**1. “Üsulidin”:** Bu hissə hər bir müsəlmanın inanmalı olduğu dini əsaslardan danışır. Uyğun etiqad əsasları dinin sütunu sayılır və onlara araşdırmalar yolu ilə inanmaq lazımdır. Bu səbəbdən də üsulidində açıqlanmış etiqad əsaslarına təqlidi yolla inanmaq bəs etmir. Hər bir müsəlman uyğun əsaslar mövzusunda düşünməklə onların gerçəkliyinə əmin olmalıdır.

Varlıq aləminin yaradıcısını tanımaq, onun yeganəlik və ədalət kimi sifətləri ilə tanış olmaq, ölümdən sonrakı həyata etiqad, insanların qiyamət sorğu-sualı, ilahi peyğəmbərlərin Allah tərəfindən göndərilməsinə inam, vilayət və imamətin, məsum canişinlərin rəhbərliyinin qəbulu dini etiqad əsaslarından, başqa sözlə üsulidindəndir.

**2. “Füruidin”:** Füruidin dedikdə İslam dininin insanların öhdəsində qoyduğu əməli vəzifələri nəzərdə tutulur. İnsan bu hökmlərə əməl etməklə kamilləşir, fərdi və ictimai tərəqqi yolunda addım atır, öz axirət yolunu hamarlayır. Namaz, oruc, xüms, zəkat, Həcc, cihad, yaxşılığa dəvət (əmr be məruf),

pisliyə qadağa (nəhy əz munkər), əxlaqi göstərişlər bu qəbildəndir.

Bu vəzifələrdən bir hissəsi müsəlmanlar tərəfindən yekdil qəbul olunsa da, bir qrup cüzi məsələlərin müəyyənləşməsində ixtisasa ehtiyac var. Bu səbəbdən də müsəlman şəxs həmin vəzifələrə şəxsi araşdırmalar vasitəsi ilə əməl edə bilməz. Bu sahədə mütəxəssis olmaq, elmi araşdırmalar yolu ilə vəzifələri müəyyənləşdirmək lazımdır. Deməк, dini hökmlərə münasibətdə insan iki yoldan birini seçməlidir:

1. İctihad yolu: İnsan Quran ayələri, Peyğəmbər (s) və məsumların buyuruqlarını dərindən araşdırmaqla nəzər sahibi olur, mütəxəssis dərəcəsinə çatır. Belə bir şəxs müctəhid adlanır.

2. Təqlid yolu: Müsəlman şəxs öz dini vəzifələrinə əməl etmək üçün müctəhidə, dini hökmlər sahəsindəki mütəxəssisə müraciət edir. Müsəlmanın dini hökmlərə münasibətdə müctəhidin fətvalarına əməl etməsi zəruridir. Hər bir şəxs qarşısına çıxan şər'i məsələyə cavab tapmaq üçün müctəhidə müraciət edir. Müctəhidin hökmlərinə əməl edən müsəlman müqəllid adlanır.

Bu məqamda iki nöqtəyə nəzər salmaq lazımdır:

1. Təqlid müctəhid olmayanların zəruri vəzifəsidir. İstər kişi, istər qadın, bir şəxs ictihad dərəcəsinə çatarsa digər bir müctəhidə təqlid edə bilməz, öz baxışları əsasında addım atmalıdır.

2. İctihad dərəcəsinə çatmamış, dini hökmləri öyrənmək gücü olmayan şəxs şəri məsələlər barədə fikir bildirib fətva verə bilməz. Bir şəxs haqqı olmadan digərinə hökm verərsə, qarşı tərəfin bütün əməllərinə görə məsuliyyət daşıyır. Bir çox hədislərdə ictihad dərəcəsinə çatmamış fərdlərin uyğun addımı atması qadağan edilir. İmam Baqir (ə) buyurur: "Elmi və ilahi səlahiyyəti olmadan fətva verən şəxsi rəhmət və əzab mələkləri

lənətləyir. Onun fətvasına əməl edənlərin bütün məsuliyyəti həmin şəxsin üzərinə düşər.”[1]

**Sual:** İctihad dərəcəsinə çatmış hər şəxsə təqlid etmək olarmı?

**Cavab:** Xeyir. Müctəhid aqil, yetkin, on iki imamçı şiə, sağ, ədalətli olmalı, dünya malına aldanmamalıdır. Müctəhidlərin baxışları arasında fərq olduqda daha mütəxəssis müctəhidə müraciət edilməlidir. Belə bir müctəhid “ə’ləm” adlanır.

**Sual:** Qadın ictihad dərəcəsinə çata bilərmi?

**Cavab:** Bəli, qadın ictihad dərəcəsinə çata bilər və bu dərəcəyə çatmış qadın bir başqasına təqlid edə bilməz. Amma başqalarının qadına təqlid etməsi düzgün sayılmır.

**Sual:** Haradan bilək ki, müctəhidin biri o birilərindən bilikli, ə’ləmdir?

**Cavab:** Müctəhidin ə’ləmliyini aşağıdakı yollarla təyin etmək olar:

1. İnsan elə bir həddə elmli ola bilər ki, ələm müctəhidin təyinində arxayınlıq qazansın.

2. Agah və mötəbər bir şəxsin sözündən əminlik yarana bilər.

3. İki mütəxəssis, ədalətli və Allahdan qorxan alim azad bir mühitdə bir alimin ələm olduğunu təsdiqləyə bilər. Bir şərtlə ki, başqa iki ədalətli alim onların dediyinə qarşı çıxmasın.

4. Bir şəxsin ələmliyi alimlər arasında və elmi qurumlarda məşhur ola bilər. İnsanda bu yolla arxayınlıq yaranması mümkündür.

**Sual:** Bir müctehidin fətva və baxışlarını öyrənmək üçün təqlid edən şəxs hansı yollardan istifadə edə bilər?

---

*1. “Vəsailuş-şiə”, c. 27, s. 20, hədis 1*

**Cavab:** 1. Müctəhidin özündən və ya iki adil şəxsdən öyrənə bilər; 2. Müctəhidin risaləsindən, əl yazmasından oxuya bilər (bir şərtlə ki, risalənin müctəhidə məxsusluğu və ya öz əlyazması olması bilinsin); 3. Arxayınlıq yaradan istənilən əqli yol (məsələn, doğru danışan bir şəxsdən fətvanı eşitmək).

**Sual:** İnsan bir müctəhidə təqliddən o biri müctəhidə təqlidə keçə bilərmi?

**Cavab:** Əgər insan başa düşsə ki, 2-ci müctəhid 1-ci müctəhiddən aləm və mütəxəssisdir, ya da 1-ci müctəhidin hansısa təqlid şərtini ödəməməsi məlum olsa, 1-ciyə təqliddən 2-ciyə təqlidə keçmək olar. Digər hallarda belə bir addım atmaq olmaz.

**Sual:** Əgər bir şəxs bir müctəhidin fətva və baxışını yanlış şəkildə başqa birinə nəql etsə, sonradan anlasa ki, müctəhidin baxışı dəyişib, nə etməlidir?

**Cavab:** Əgər fətvanı səhv nəql etsə, bunu başa düşdükdən sonra səhvini aradan qaldırmalıdır. Fətva dəyişdiyi zaman vacib ehtiyata əsasən bu barədə məlumat verilməlidir.

**Sual:** Əgər müctəhidlərin hərəsi bir sahədə daha güclü mütəxəssis olsa (necə ki, bir həkim göz, digəri qulaq üzrə mütəxəssisdir. Hər müctəhidə mütəxəssis olduğu sahədə təqlid etmək olarmı?

**Cavab:** "Əgər müctəhidlərdən hər biri bir və ya bir neçə sahədə mütəxəssis olarsa, onlara nəzərdə tutulan sahədə təqlid edilməlidir.

## *Vəzifələrin növləri və onların ümumi şərtləri*

İnsanlara onların əməli vəzifələrini öyrədən sahə əhkam adlanır. Əhkam hökm sözünün cəmidir və hökmlər mənasını bildirir. Hökmlər beş qisimdir: vacib, haram, müstəhəb, məkruh və mübah.

Əgər bir şəxsdə dini vəzifələrin icrası üçün bütün şərtlər ödənirsə, o uyğun vəzifələri yerinə yetirməlidir. Vəzifəli olmaq üçün aşağıdakı şərtlər nəzərdə tutulur:

**1. Ağıl:** Ağılsız insan dini vəzifələri yerinə yetirməyə borclu deyil. Bu dəlilik müvəqqəti və ya daimi ola bilər.

**2. Qüdrət:** Dini vəzifəni yerinə yetirmək gücü olmayan insan azaddır. İnsan vəzifəsini gücü həddində yerinə yetirməyə borcludur. Allah-taala insanı heç vaxt güc və imkanlarından artıq vəzifələndirmir. Qurani-kərim buyurur: “Allah-taala kimsəni gücündən artıq vəzifələndirmir.”[1]

**3. İxtiyar, azadlıq:** Bir başqasının hökmü altında olan, dini vəzifələri yerinə yetirmək ixtiyarı olmayan şəxs vəzifəli deyil.

**4. Büluğ, yetkinlik:** Büluğ, yetkinlik həddinə çatmamış şəxsin vəzifəsi yoxdur. Qızların və oğlanların üç büluğ nişanəsi var: Qarından aşağı, ayıb yerdən yuxarı cod tükləşmə; yuxuda və ya oyaq vaxtı məni (sperma) xaric olması; oğlanlar üçün qəməri təqvimlə 15 yaşın (müstəhəb ehtiyata əsasən 13 yaşın), qızlar üçün qəməri illə 9 yaşın tamam olması. (Qəməri təqvimlə 15 il şəmsi təqvimlə 164 gün azdır. 9 qəməri il isə 9 şəmsi ildən 98 gün qısadır.)

**Sual:** Üzdə, yanaqda, sinədə, qoltuqda cod tüklərin görünməsi və ya səsin qalınlaşması buluğ həddini göstərmirmi?

**Cavab:** Xeyir. Amma insan özü bu hallar əsasında büluğa çatdığını müəyyənləşdirə bilər.

**Sual:** Əgər insan yetkinlik yaşına çatmadığını düşünüb dini vəzifələrini yerinə yetirməsə və sonradan anlasa ki, bu həddə çatıbmış, ötürdüyü namazlar, oruclar və digər vacib əməllərin hökmü nədir?

---

*1. Surə 2, “Bəqərə”, ayə 286*

**Cavab:** Bəli, yerinə yetirmədiyi əməllərin qəzasını yerinə yetirməlidir. Əmin olduğu vaxtın qəzası vacibdir, şəkk etdiyi vaxtın qəzası vacib deyil.

**Sual:** Yaxşını pisdən seçən (müməyyiz) yaşdakı uşağın namaz və orucu düzgündürmü?

**Cavab:** Bəli, müməyyiz uşağın ibadətləri düzgündür.

**Sual:** Yetkinliyə çatmamış müməyyiz uşaq müctəhidə təqlid edə bilərmi?

**Cavab:** Yetkinlik yaşına çatmamış uşaq təqlid etməsi vacib deyil. Amma təqlid etmişsə, bunun eybi yoxdur.

**Sual:** Yetkinlik yaşına çatmamış müməyyiz uşaq ələm müctəhidəmi təqlid etməlidir?

**Cavab:** Təqlid belə bir uşağa vacib olmadığından o ələm olmayan müctəhidə də təqlid edə bilər. Yetkinlik yaşına çatdıqdan sonra ələm müctəhidə təqlidi zəruridir.

**Sual:** Vəzifə yaşına çatmış müsəlman dini hökmləri hansı həddə öyrənməlidir?

**Cavab:** Müsəlman ehtiyac duyduğu məsələləri öyrənməlidir.

# İkinci fəsil

## *Murdarlar (nəcasət) və bulaşıqlıqlar*

Hər bir müsəlman fərd öz ruhunu tərbiyələndirməklə yanaşı öz cismini də bulaşıqlıqlardan təmizləməlidir. Ruhu günahdan, küfrdən, şirkdən, nifaqdan təmizləmək zəruri olduğu kimi, cismi də müxtəlif bulaşıqlıqlardan təmizləmək mühüm əhəmiyyət daşıyır.

Müqəddəs İslam dinində ruhun paklığı tövsiyə edildiyi kimi, cismin də paklığına xüsusi əhəmiyyət verilir. Deyilənlərin əhəmiyyətini növbəti buyuruqlardan anlamaq olur:

1. Qurani-kərim: "Allah tövbəkarları sevir, paklananları da dost tutur."[1]

2. İslam peyğəmbəri (s): "Paklıq imandan qaynaqlanır."[2]

3. İmam Riza (ə): "Təmizlik və paklıq peyğəmbərlərin əxlaqındandır."[3]

Yaxşı olar ki, əziz yeniyetmələr istənilən bir sahədə paklığı özlərinə şüar etsinlər. Libası, məskəni, qidanı, yaşayış mühitini müxtəlif murdarlardan və bulaşıqlıqlardan qorumaq həm sağlamlıq üçün xeyirlidir, həm də Allahın mərhəmətinə

---

*1. Surə 2, "Bəqərə", ayə 222*
*2. "Biharul-ənvar", c. 59, s. 291*
*3. Həmin mənbə, c. 75, s. 335, hədis 4*

səbəb olur. Həzrət Peyğəmbər (s) buyurur: “Təmizliyini gözləməyən bəndə necə də pisdir!”[1]

Həzrət Əli (ə) buyurur: “Libası pak olan şəxsin qəm-qüssəsi olmaz.”[2]

Müqəddəs İslam şəriətində bəzi işlər və əşyalar murdar və çirkin sayılmışdır. Müsəlmanlar həmin murdarlardan və çirkin şeylərdən çəkinməyə çağırılır. Səmavi dindəki uyğun çağırışlar onun sağlamlıq və gigiyena məsələlərinə diqqətindən danışır. İstənilən bir sahədə orta həddi gözləmək bəyənilmiş işdir. Murdarlar və bulaşıqlıqlardan çəkinmədə də ifrat və təfritə yol verilməməlidir.

Murdar şeylərə biganəlik, paklıq məsələlərinə diqqət yetirməmək İslamın ruhu ilə bir araya sığmır. Bu işdə həddi aşmaq da vəsvəsəyə səbəb olur və şəriətdə bəyənilmir. Vasvası insan əslində xəstəliyə tutulmuşdur. Şeytani düşüncələr onun düşüncə və qəlbinə rahatlıq vermir.

Təəssüf ki, bir çoxları paklıq, dəstəmaz, qüsl kimi məsələlərdə vəsvəsəyə düçar olmuşlar. Bu vasvasılıq onları bir sıra vacib işlərdən saxlayır. Bu qəbil insanlar yersiz vəsvəsələrə adi baxmağa vərdiş verməli, yalnız yəqinlik hasil olduqda məsələyə ciddi yanaşmalıdırlar. Belələri azğın nəfsin vəsvəsələrinə etina etməsələr şeytan da tədricən onlardan əl çəkər.

Abdullah ibn Sənandan nəql olunmuş mötəbər bir hədisdə belə deyilir: İmam Sadiqin (ə) xidmətinə gəlib ərz etdim ki, ağıllı bir şəxs dəstəmaz və namazda şəkkə düçar olub. Həzrət buyurdu: “Bu şəxs şeytanın ardınca gedirsə necə ağıllıdır?!” Dedim ki, necə yanı şeytana mütidir? Həzrət buyurdu: “Onun özündən soruş ki, gördüyü işlər haradan qaynaqlanır? Özü deyəcək ki, şeytandan.”[3]

Şeytanın işi insanı aldatmaq, batili haqqa qatışdırmaqdır. Haqq yolun yolçuları şeytanı onun öz sifətində

---

*1. “Fürui-kafi”, c. 6, s. 439, hədis 6*
*2. “Biharul-ənvar”, c. 75, s. 93, hədis 104*
*3. “Vəsailuş-şiə”, c. 1, s. 63, hədis 1*

axtarmamalıdırlar. Vasvasılığa düçar olanlar Allahdan yardım istəməli, mütəxəssislərə və psixoloqlara müraciət etməklə özlərinə çarə qılmalıdırlar.

İndi isə bəzi murdarları nəzərdən keçirək:

***1. Sidik və nəcis***

İnsanın və atıcı qanı olan əti haram heyvanın sidiyi və nəcisi murdardır. Amma qoyun və inək kimi əti halal olan heyvanların sidik və nəcisi pakdır.

**Sual:** Əti haram quşların zılı hansı hökmdədir?

**Cavab:** Onların zılı pakdır. Amma ehtiyata əsasən bundan çəkinmək lazımdır.

**Sual:** Ağcaqanad, milçək kimi kiçik həşəratların nəcisi hansı hökmdədir?

**Cavab:** Pakdır.

***2. Məni (sperma)***

Atıcı qanı olan hər bir haram ətli heyvanın mənisi haramdır. Vacib ehtiyata əsasən əti halal olan atıcı qanlı heyvanların da mənisindən çəkinmək lazımdır.

***3. Leş (heyvan ölüsü)***

Atıcı qanı olan heyvanın ölüsü murdardır. Bu heyvanın öz başına ölməsi və ya qeyri-şər’i qaydada öldürülməsi hökmü dəyişmir. Bu heyvan həm halal ətli, həm də haram ətli ola bilər. Amma balıq kimi atıcı qanı olmayan heyvanlar suda ölərsə, onun ölüsü pakdır.

**Sual:** Ölmüş heyvanın, leşin bütün üzvləri murdardırmı?

**Cavab:** Xeyir ruhu olmayan hissələr, yəni ağrı duymayan üzvlər (tük, yun, diş) pakdır. Amma it və donuzun ölüsünün

bütün üzvləri murdardır. Həmin üzvlərin ruha malik olub-olmamasının fərqi yoxdur.

**Sual:** Əgər insanın və ya atıcı qanı olan heyvanın bədənindən diri ikən ət qoparılarsa, bu ətin hökmü nədir?

**Cavab:** Qoparılmış hissə murdardır.

**Sual:** İnsanın dodağından və ya əl ayağından qopan dəri qırıqlarının hökmü nədir?

**Cavab:** Əgər qopma vaxtı çatmışsa əl ilə qoparılsa da pakdır. Amma qopma vaxtı çatmamış dərinin qoparılmasından vacib ehtiyata əsasən çəkinmək lazımdır.

**Sual:** Ölmüş toyuğun qarnından çıxarılan yumurtanın hökmü nədir?

**Cavab:** Əgər yumurta qabıq bağlamışsa, onun daxili pakdır. Amma zahiri suya çəkilməlidir.

### *4. Qan*

İnsanın və ya atıcı qanı olan hər bir heyvanın qanı murdardır. Balıq və ağcaqanad kimi atıcı qanı olmayanların qanı pakdır.

**Sual:** Əgər yemək qaynayarkən ona bir damla qan düşsə yemək murdarlanırmı?

**Cavab:** Qaynama və hərarət murdarı pak etmir. Bütün qida və qab murdarlanmış sayılır.

**Sual:** Diş laylarından çıxan qanın hökmü nədir?

**Cavab:** Bu qan az olsa və ağız suyuna qarışıb aradan getsə, pakdır. Amma ehtiyat budur ki onu udmaqdan çəkinəsən.

**Sual:** Toyuq yumurtasının içində görünən qanın hökmü nədir?

**Cavab:** Vacib ehtiyata əsasən həmin qandan çəkinmək lazımdır. Amma qanı yumurtanın sarısından onun örtüyünü yırtmadan ayırmaq mümkün olarsa, yumurtanın sarısı və ağı yeyilə bilər.

**Sual:** Qana bulaşmış libas yuyulduqdan sonra onda qanın izi qalır. Bu libasın hökmü nədir?

**Cavab:** Əgər murdarın özü (eyni) paklandıqdan və libas suya çəkildikdən sonra onda murdarın qoxusu və rəngi qalarsa, bunun eybi yoxdur. Bir şərtlə ki, murdardan bir zərrə qalmadığına əmin olaq.

***5. İt və donuz***

Quruda yaşayan it və donuzun hər nəyi murdardır. Onların hətta tükü, sümüyü, dırnağı, ağız suyu kimi rütubəti pak deyil. Amma dəniz iti və donuzu pakdır.

***6. Kafir***

Allahı və qiyaməti qəbul etməyən və ya Allaha şərik qoşan şəxs murdardır. Onlarla təmasdan, hətta tüklərinə, dırnaqlarına, rütubətlərinə toxunmaqdan çəkinmək lazımdır. Yəhudilər, məsihilər və zərdüştlər kimi kitab əhli isə pak sayılır, bir şərtlə ki, bədənləri spirtli içkilər və donuz əti kimi murdar şeylərlə murdarlanmamış olsun.

**Sual:** Əgər büluğ həddinə çatmamış uşağın ata-anası kafir olsa, bu uşaq hansı yaşında İslamı qəbul edib paklana bilər?

**Cavab:** Yaxşını pisdən seçə biləcək həddə çatan uşaq müsəlman olsa paklanar.

**Sual:** Kafir şəxs müsəlman olmaq üçün nə etməlidir?

**Cavab:** O şəhadət kəlmələrini müsəlman olmaq məqsədi ilə dilə gətirməlidir. Deməlidir: “Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən rəsulullah”.

***7. Məstedici mayelər***

Şərab, arpa suyu, məstedici istənilən maye murdardır və onu içmək haramdır. Belə bir işin əzabı var.

**Sual:** Əgər neftdən spirt hazırlanarsa bu spirt murdarmı?

**Cavab:** Əgər məstedici olmasa pakdır. Tibbdə, rəngkarlıqda istifadə olunan spirtlərin məstedicidən hazırlandığı məlum olmasa, pak sayılır.

Qeyd etməliyik ki, adı çəkilən murdarlar "eyni-nəcis", həmin murdarlara toxunmaqla murdarlanan libas və ya bədən "mütənəccis" adlanır.

**Sual:** Əgər ixtiyarımızda olan iki qab və ya iki libasdan biri murdarlanmışsa və hansının murdarlandığını bilmiriksə vəzifəmiz nədir?

**Cavab:** Hər iki libasdan və ya hər iki qabdan istifadə edilməməlidir. Onların ikisi də suya çəkilməlidir.

**Sual:** Əgər pak bir şey murdar bir şeyə toxunsa hansı halda murdar sayılar?

**Cavab:** Əgər onların ikisi də və ya ikisindən biri o birini isladacaq həddə yaş olsa, pak şey murdarlanar. Əgər rütubət o birinə keçməyəcək həddə azdırsa, pak şey murdarlanmaz.

**Sual:** Əgər insan bədəninin bir hissəsi murdarlansa və bədən təri oradan başqa yerlərə yayılsa, bunun hökmü nədir?

**Cavab:** Tərin çatdığı hər bir yer murdar sayılır.

**Sual:** Bədənə daxil edilən və bədəndə qana bulaşan tibbi alətlər bayıra çıxarıldığı vaxt onların hökmü nədir?

**Cavab:** Əgər alət bədəndə murdarlanmamış olarsa, murdar sayılmaz.

**Sual:** Əgər mayenin bir nöqtəsi murdarlansa bütün maye murdarlanarmı?

**Cavab:** Əgər maye axıcıdırsa (bərk şəkilə düşməmişsə) və onun bir miqdarını götürdükdə qalan hissəsi götürülən hissənin yerini tutursa, bir nöqtənin murdarlanması bütün mayeni murdarlayar. Bal kimi mayelərin bir nöqtəsi murdarlanarsa, həmin hissəni götürdükdən sonra qalan hissə pak olar.

# Üçüncü fəsil

## *Pakedicilər*

Murdarlanmış əşyaları paklaya bilən şeylər "mutəhhərat", yəni pakedicilər adlanır. Onlardan bəzilərini nəzərdən keçirək:

### *a) Su*

Su ümumi şəkildə "mütləq" və ya "müzaf" ola bilər. Müzaf su dedikdə ya meyvə suyu kimi bir şeydən alınmış su, və ya torpaqla bulaşmış kimi bir şey qatılmış su. Deməк, müzaf su dedikdə qatışıq su mənası anlaşılır. Su öz təbii saf halından çıxmışsa, ona qatışıq su deyirlər. İnsanların su adlandırdığı təbii vəziyyətdə olan sular isə mütləq su sayılır. Mütləq su ilə dəstəmaz və qüsl yerinə yetirmək, onunla murdarı təmizləmək olar. Qatışıq (muzaf) su isə murdarı paklamır. Muzaf su hətta kürr həddində olarsa bir zərrə murdar şey həmin suyu murdarlayır və onunla dəstəmaz və qüsl yerinə yetirmək olmaz. Su dörd şərt ödəndikdə murdarı paklaya bilər:

1. Su müzaf yox, mütləq olsun;
2. Su pak olsun, murdar olmasın;
3. Murdar şeyi yuyarkən su bulaşmasın, onun rəngi, qoxusu və dadı dəyişməsin.
4. Murdar şeyi suya çəkdikdən sonra suda murdarın eyni, özündən bir şey qalmasın.

Mütləq su özü də beş qisimdir:

### *1. Kürr su*

Kürr su dedikdə ehtiyata əsasən tilləri 3 qarış yarım olan kub həcmində su nəzərdə tutulur. Əgər insanın ixtiyarında olan su belə bir həcimli qabı doldurarsa, bu kür sayılır. Həmin qabın tilləri 3 qarış da ola bilər.

Əgər qan, sidik və ya spirtli içki kimi murdarlardan biri, eləcə də bu murdarlarla murdarlanmış bir əşya (məsələn, murdar qab) kürr suya düşərsə, əgər kürr suyun rəngi, qoxusu və dadı dəyişməzsə, kürr su murdarlanmamışdır.

### *2. Axar su*

Axar su dedikdə yerdən qaynayıb çıxan və hərəkətdə olan su nəzərdə tutulur. Bulaq suyu buna misal göstərilə bilər.

Hətta kür sudan az həddə olan axar su murdarlanarsa, qoxusu, rəngi və dadı dəyişməzsə, pakdır.

### *3. Yağış suyu*

Yağış suyu murdar əşyanı o vaxt paklayır ki, insanlar onu yağış adlandırsın və həmin yağış bərk yerə yağdıqda onun üzəri ilə yağsın.

### *4. Quyu suyu*

Quyu suyu da bulaq suyu kimi kürr miqdarından az olarsa da, murdar vasitəsi ilə qoxusu, rəngi və dadı dəyişməyən halda pakdır.

### *5. Az su*

Kürr miqdarına çatmamış su az su adlanır. Kürr miqdarından az su tutan istənilən qabdakı su misal göstərilə bilər. Az su murdara toxunmaqla murdarlanır. Əlbəttə ki, az su qab vasitəsi ilə yuxarıdan aşağıya təzyiqlə axıdılarsa, onun yalnız murdar şeyə çatan hissəsi murdarlanar. Həmin suyun yuxarıda qalan hissəsi, eləcə də qabda qalmış hissəsi pakdır.

Məsələ 1. Əgər murdarlanmış müzaf su kürr suya qatışarsa və ona müzaf su deməzlərsə, o pakdır.

Məsələ 2. Bəzi gölməçələrin suyu duz qatqılıdır. Mə'dən suları və mikrob öldürmək üçün xlor qatılmış sular nə qədər ki, saf halından çıxmayıb mütləq sayılır.

Məsələ 3. Öncə pak olmuş su və ya başqa bir şeyin sonradan murdarlandığını bilmiriksə, onu pak saymalıyıq. Öncə mütləq olmuş bir suya bir şey qatıldıqdan sonra onun mütləq qalıb-qalmadığına şübhə ediriksə, həmin su mütləq qəbul olunmalıdır.

Məsələ 4. Öncə murdar olmuş su və ya istənilən bir şeyin sonradan paklanıb-paklanmadığını bilmiriksə onu murdar saymalıyıq. Öncə müzaf olmuş və halının dəyişməsinə şübhə etdiyimiz suyu müzaf qəbul etməliyik.

## *b) Torpaq:*

Murdarlanmış ayaq və ya ayaqqabının altını torpaqa sürtmək və ya yol getməklə təmizləmək mümkündür. Bunun aşağıdakı şərtləri var:

1. Yer pak və quru olsun;
2. Ayağın və ya ayaqqabının altı murdar yerə toxunmaqla murdarlanmış olsun; əgər insanın ayağı qanamışsa və ayaqqabısının içi murdarlanmışsa, yol getməklə təmizlənməz.
3. Yol getmək və ya ayağı yerə sürtməklə ayaqdakı və ya ayaqqabının altındakı murdarın özü təmizlənmiş olsun;
4. Üzəri ilə hərəkət olunan yer ya torpaq, ya daş, ya kərpic, ya ot, ya asfalt, ya da bu kimi başqa bir şey olsun.

**Sual:** Xalı və ya həsirin üzəri ilə yeriməklə ayağın və ya ayaqqabının altında olan murdar paklanarmı?

**Cavab:** Xeyir, paklanmaz.

**Sual:** Əgər ayaqqabı və ya ayağı yerə sürtməklə onun murdarı gedərsə yol getməyə ehtiyac qalırmı?

**Cavab:** Bir qədər yol getmək və ayağı yerə sürtməklə murdar təmizlənirsə də, ən azı 15 addım atmaq yaxşıdır.

**Sual:** Ayaqın və ya ayaqqabının altı hərəkət zamanı yaş olmalıdırmı?

**Cavab:** Xeyir.

**Sual:** Süni ayağın altı, əsa, avtomobil təkəri murdarlanarsa deyilən hökm öz gücündə qalırmı?

**Cavab:** Bəli, yol getmək vasitəsi ilə murdar paklanır.

## *c) Günəş:*

Günəş torpağı, binanı, qapı və pəncərə kimi hissələri, hətta binadan sayılan mıxları müəyyən şərtlər ödənməklə paklaya bilər. Həmin şərtlərdən bəzilərini nəzərdən keçirək:

1. Murdar şey elə bir həddə yaş olmalıdır ki, başqa bir şey ona toxunduqda islansın. Əgər murdar şey qurudursa, onu islatmaq lazımdır.
2. Murdar şey qan və nəcis kimi murdarların özündən təmizləndikdən sonra günəş onları paklayır.
3. Günəş şüalarının murdar şeyin üstünə saçmasına bir şey mane olmamalıdır. Məsələn, günəşin nuru ilə murdar şey arasında pərdə varsa, həmin şey paklanmaz.
4. Murdar şey yalnız günəşin hərarəti ilə qurumalıdır. Əgər murdar şeyin qurumasında günəşlə birgə güclü külək rol oynayırsa, həmin şey paklanmaz.

**Sual:** Ot, ağac və meyvə murdarlanarsa və nəm olarsa günəş nuru ilə paklanırmı?

**Cavab:** Bəli.

## *ç) İstihalə:*

Əgər murdar şey tamamilə dəyişsə, başqa bir şeyə çevrilsə, ikinci şey pak olar. Məsələn, murdarlanmış ağac yanıb külə çevrilərsə, daş duzlaqda duza, şərab da sirkəyə çevrilərsə, paklanar. Amma murdarlanmış şey tam dəyişməyincə

paklanmaz. Məsələn, murdarlanmış buğda un şəklinə düşüb çörəyə çevrilərsə paklanmaz.

**Sual:** Murdarlanmış ağac kömürə çevrilərsə paklanarmı?
**Cavab:** Xeyir.

## *d) İntiqal (nəqlolma):*

İnsan və ya atıcı qanı olan heyvanın qanı ağcaqanad kimi həşəratın bədəninə keçdikdən sonra onun öz qanı sayılır və murdar deyil.

**Sual:** Zəlinin bədəndən çəkdiyi qan paklanırmı?
**Cavab:** Xeyir. Çünki bu qan insanın qanı sayılır, həmin heyvana aid edilmir.

## *e) Təbəiyyət (tabeçilik)*

Təbəiyyət dedikdə murdar bir şeyin başqa bir murdar şeyin paklanması ilə əlaqəli paka çıxması nəzərdə tutulur. Məsələn, şərab sirkəyə çevrilib paklandığı vaxt onun yerləşdiyi qab da paklanır. Şərab sirkəyə çevrilərkən qabın harasına toxunarsa paklanar.

**Sual:** Kafir ata-ananın həddi-büluğ olmamış övladları ata-analarının İslamı qəbul etməsi ilə müsəlman olurmu?
**Cavab:** Bəli. Amma nə qədər ki, ata və ya anadan biri İslamı qəbul etməyib, övladlar kafir hökmündədir. Amma uşaqlar yaxşını pisdən ayıracaq bir yaşa çatıb İslamı qəbul etsələr paklanarlar.

# Dördüncü fəsil

## *Ayaqyolunun hökmləri*

İnsan da əksər heyvanlar kimi bədənindəki qalıq maddələri ifraz etməyə məcburdur. Bu ifrazat sidik və nəcis şəklində orqanizmdən çıxır. Onların təxirə salınması insanın sağlamlığına zərərlidir. Bu səbəbdən də bir sıra rəvayətlərdə göstəriş verilir ki, sidik insana əziyyət verdiyi vaxt insan özünü sıxıb saxlayarsa sidik kisəsi xəstəliyə düçar olar.[1]

İnsan bəzi rəvayətlərdə qeyd olunduğu kimi, öz sidik və nəcisini, azca əvvəl xoş görüntülü qidaları ikrah doğuracaq halda müşahidə etdiyi vaxt iki məsələ barədə düşünür:

1. Onun əziyyətlə qazandığı, bəzən halal-harama fikir vermədən ardınca qaçdığı qidalar ikrah doğuracaq bir vəziyyətdə ondan ayrılır, amma haram yeməyin günahları yerinə qalır.

2. Aydın olur ki, insan yalnız təxəyyülə qapılıb özünü çəkir, təkəbbür göstərir. Əslində o əvvəli murdar bir damla, sonu hamının çəkindiyi cənazədir. Bu arada isə insan öz canında sidik və nəcis daşıyan varlıqdan başqa bir şey deyil. İslamda ayaqyolu, onunla bağlı qaydalar dəqiqliklə açıqlanmışdır. Bəli, insan həyatının heç bir kəsiyi nəzərdən qaçırılmamışdır. İndi o uyğun hökmləri xülasə şəkildə nəzərdən

---

*1. "Mustədrəkul-vəsail", c. 1, s. 284, hədis 4, 5*

keçirək. Bu hökmlər üç qisimdir: vaciblər, müstəhəblər və məkruhlar.

## *Ayaqyolu ilə bağlı vacib əməllər*

Ayaqyoluna gedərkən müəyyən şərtlərə əməl etmək lazımdır:

1. Yetkinlik həddinə çatmış insanın öz ayıb yerlərini yetkin insanlardan və yaxşını pisdən seçən uşaqlardan örtməsi vacibdir. Həmin şəxslər məhrəm olsa belə örtünmək lazımdır.

2. Ayaqyolunda insanın bədəninin ön hissəsi, sinəsi və ayıb yeri üzüqibləyə və ya arxası qibləyə olmamalıdır.

3. Möminlərin məzarı üzərinə bayıra getmək onlara və dini müqəddəsliklərə qarşı hörmətsizlikdir. Sahibindən icazə almamış bir torpaq və ya mülkdə də bayıra getmək olmaz.

4. İnsan sidik və ya nəcislə bayıra getdikdən sonra onların ixrac olduğu yeri paklamalıdır. Rəvayətlərdə bildirilir ki, ayaqyolundan sonra özünü paklamayanlar mələklər tərəfindən əzaba məruz qalır, onların qiyamət səhnəsindəki vəziyyəti hətta əzaba düşənlərə əziyyət verir. İmam Baqirdən (ə) nəql olunmuş rəvayətə əsasən, Lut qövmünün əzaba düşməsinin səbəblərindən biri də ayaqyolundan sonra özlərini paklamamaları olub.[1]

Sidik çıxacağını hökmən su ilə təmizləmək lazımdır. Əgər su axar və ya kürr sudursa, sidik yerini bir dəfə yumaq bəs edər. Əgər su aftafa suyu kimi az sudursa, vacib ehtiyata əsasən sidik yerini iki dəfə yumaq lazımdır. Nəcis çıxacağını parça, kağız, kəsək, və ya daşla paklamaq olar. Vacib ehtiyata əsasən bu əşyalarla ən azı üç dəfə paklamaq lazımdır. Amma müəyyən hallarda nəcisin çıxacağı yalnız su ilə paklanır:

1. Əgər nəcislə birlikdə qan kimi başqa bir murdar şey xaric olmuşsa;

---

*1. "Biharul-ənvar", c. 12, s. 148, hədis 1; s. 152, hədis 7*

2. Əgər kənardan bir murdarlıq toxunmuşsa; məsələn, insan qanlı əli ilə nəcis çıxacağını murdarlamışdır.

3. Əgər nəcisin çıxacağı həddindən artıq bulaşmışsa.

Qeyd etməliyik ki, bütün hallarda nəcis çıxacağının su ilə paklanması daha yaxşıdır. Su ilə yuyarkən nəcis çıxacağında nəcis zərrələrinin qalmadığına yəqinlik varsa bəs edər. Nəcis çıxacağında qoxunun qalmasının eybi yoxdur. Bir dəfə yumaqla nəcis zərrəsi qalmazsa ikinci dəfə yumağa ehtiyac yoxdur.

## *Müstəhəb əməllər*

1. Namazdan öncə, yatmazdan öncə, möhtəlim olduqdan (insandan məni xaric olduqdan) sonra sidiyə getmək müstəhəbdir.

2. Sidiyə gedərkən kimsənin görmədiyi yerdə oturmaq; imam Sadiq (ə) buyurur: "Loğmanın xasiyyətlərindən biri bu idi ki, kimsə onu ayaqyolunda görməmişdi."[1]

3. Tualetə daxil olarkən sol ayaqla daxil olmaq, çıxarkən sağ ayaqla çıxmaq;

4. Bayıra çıxarkən başın örtülü olması;

5. Bayıra çıxarkən bədənin ağırlığının sol ayağa salınması;

6. Kişilərin sidikdən sonra istibra etməsi. İstibra dedikdə xüsusi bir qayda ilə sidik kanalının təmizlənməsi nəzərdə tutulur. İstibra belə yerinə yetirilir: sidik kəsildikdən sonra əgər nəcis çıxacağı murdardırsa öncə onu paklamaq lazımdır. Sonra sol əlin orta barmağı ilə nəcis çıxacağından cinsi alətin kökünədək üç dəfə sığal çəkilir. Sonra baş barmaq alətin üzərinə, ona yanaşı barmaq alətin altına qoyulur və üç dəfə sünnət yerinədək sığal çəkilir. Bundan sonra alətin başı üç dəfə sıxılır. Bu müstəhəb əməli yerinə yetirənlər əgər sonradan sidik kanalında rütubət hiss edərlərsə, o rütubətin murdar olmadığını qəbul etməlidirlər. Bu halda onların ayaqyolundan sonra

---

*1. "Vəsailuş-şiə", c. 1, s. 305, hədis 2*

aldıqları dəstəmaz batil olmur. Amma bir şəxs istibra etməyibsə, ayaqyolundan sonra yaranan rütubətin murdar olub-olmadığı bilinməyən halda sidik xaric olan yeri ikinci dəfə yumağı, ayaqyolundan sonra aldığı dəstəmazı təzələməlidir.

## *Məkruhlar*

1. Ayaqyolunda üzü günəşə və aya oturmaq məkruhdur. Amma ayıb yer örtülərsə eybi yoxdur.

2. Üzü küləyə, yola, küçəyə, gəliş-gediş yerinə, evin qapısına oturub bayıra çıxmaq məkruhdur. Meyvə verən ağacın altına bayıra çıxmağın da kərahəti var.

3. Bayıra çıxarkən danışmaq, bir şey yemək, ayaqyolunda yubanmaq, sağ əllə özünü yumaq məkruhdur.

4. Ayaq üstə sidiyə getmək, bərk yerə sidiyə getmək, heyvanların yuvasına və suya sidiyə getmək, xüsusi ilə dayanmış suya sidiyə getmək məkruhdur.

5. İnsana zərər verməyəcəyi halda belə sidiyi və nəcisi saxlamaq məkruhdur. Bu iş insana zərərli olduqda caiz sayılmır.

Hədisdə bildirilir ki, sünnə əhli alimlərindən olan Əbu Hənifə imam Sadiqin (ə) görüşündən çıxdığı vaxt onun oğlu həzrət Kazimi (ə) gördü. Ondan şəhər əhlindən olmayan bir qəribin harada bayıra çıxa biləcəyi haqqında soruşdu. Həzrət Kazim (ə) buyurdu: "Bu iş üçün məscidin həyətindən, çaylardan su götürülən yerdən, ağac meyvələrinin töküldüyü yerdən, müsafirlərin düşdüyü yerdən çəkin. Üzünü qibləyə tutma, bayıra çıxarkən libasının bulanmaması üçün onu qaldır. Başqa hər yerdə bayıra çıxa bilərsən."[1]

**Sual:** İstibra, sidik və nəcis yolunun paklanması zamanı üzü qibləyə və ya arxası qibləyə oturmaq olarmı?

---

*1. "Vəsailuş-şiə", c. 1, s. 301, hədis 1*

**Cavab:** Bunun eybi yoxdur. Amma yaxşı olar ki, bu iş görülməsin.

**Sual:** Çarəsizlikdən, məsələn, naməhrəm görməsin deyə bayıra çıxarkən üzüqibləyə və ya arxasıqibləyə oturmaq olarmı?

**Cavab:** Əgər ayaqyolunda yubanmaq insan üçün zərərlidirsə, bu halda eybi yoxdur və istənilən bir tərəfə otura bilər. Əgər üzüqibləyə və ya arxasıqibləyə oturmaqdan başqa çarə yoxdursa, arxası qibləyə oturmaq ehtiyatlı addımdır.

**Sual:** Əgər bir uşaq ayaqyolunda üzüqibləyə oturmuşsa, bunu görənin vəzifəsi nədir?

**Cavab:** Uşaq özü belə oturmuşsa, bu işə mane olmaq vacib deyil. Amma müstəhəb ehtiyata görə böyüklər uşaqları üzüqibləyə və ya arxasıqibləyə oturtmamalıdırlar.

**Sual:** Əgər insan sidik və ya nəcis yerini paklayıb-paklamaması ilə bağlı şəkkə düşmüşsə, vəzifəsi nədir?

**Cavab:** Ayaqyolunda dərhal özünü təmizləmək adəti olmasına baxmayaraq, gərək özünü təmizləsin.

# Beşinci fəsil

## *Dəstəmaz ruhu işıqlandırır*

Şübhəsiz ki, dəstəmazın iki faydası var: mənəvi fayda və gigiyenik (sağlamlığa təsirli) qayda. Gigiyenik baxımdan gündə beş dəfə və ya üç dəfə üzün və əllərin yuyulması insanın təmizliyinə böyük təsir göstərir. Suyun tüklərə və dəriyə çatması şərti ilə başa və ayaqlara məsh çəkilməsi həmin üzvləri də pak saxlamağımıza səbəb olur. Dəstəmazın mənəvi təsirləri də var. Bu iş Allaha yaxınlaşma məqsədi ilə yerinə yetirildiyindən insanın ruhuna tərbiyəvi təsir göstərir. Dəstəmaz ümumi şəkildə insanın başdan başlamış ayağadək Allaha itaət yolunda hərəkətini bəyan edir.

Fəzl ibn Şazan nəql edir ki, imam Riza (ə) buyurmuşdur: "Dəstəmaz və ona hazırlıq göstərişinin səbəbi bəndənin Allah hüzurunda münacat zamanı paklığı, zahirən istənilən bir çirkinlikdən uzaqlığı, yuxulu vəziyyətdən çıxması, Allah qarşısında pak-pakizə bir qəlblə dayanmasıdır."[1]

Allah-taala "Maidə" surəsində dəstəmaz, qüsl, təyəmmüm və onların yerinə yetirilmə qaydası haqqında məlumat verdikdən sonra buyurur: "Allah sizə çətinlik yaratmaq yox, sizi paklamaq istəyir."[2]

---

*1. "Vəsailuş-şiə", c. 1, s. 367, hədis 9*
*2. Surə 5, "Maidə", ayə 6*

Bu zahiri paklıq insanın ruhi paklığı ilə müşayiət olunur. Söhbətimizin bu məqamında uyğun təsirlərdən bəzilərini nəzərdən keçiririk.

## *Dəstəmazın təsirləri və nəticələri*

1. Nuraniyyət yaranması: Məsumlardan nəql olunmuş bir sıra hədislərdən aydın olur ki, dəstəmaz, qüsl və təyəmmüm sayəsində əldə olunmuş paklıq insanın vücuduna bir növ nuraniyyət, səfa verir. Həzrət Peyğəmbər (s) buyurur: "Mən qiyamət günü öz ümmətimi onlardakı dəstəmaz nişanəsindən tanıyaram."[1] Həzrət Peyğəmbərdən nəql olunmuş digər bir hədisdə buyurulur: "Mənim ümmətim dəstəmazın təsirindən qiyamət günü məhşər səhnəsinə üzü ağ gələrlər."[2]

Bu səbəbdən də dini rəhbərlər buyururlar ki, dəstəmazlı insanın da yenidən dəstəmaz alması müstəhəbdir. İmam Sadiq (ə) buyurur: "Bir şəxs təharətli (dəstəmazlı) olduğu halda onu təzələyərsə on savab qazanar."[3] Digər bir rəvayətdə buyurulur: "Dəstəmazlı ikən yenidən dəstəmaz almaq nur üzərinə nur gətirmək kimidir."[4]

2. Allahın sevimlisi olmaq: Qurani-kərimdə buyurulur ki, Allah tövbəkarları sevir, pak-pakizə dostları da dost tutur.[5]

3. Ömrün uzunluğu və şəhid mükafatının əldə olunması: İslam peyğəmbəri (s) Ənəsə buyurur: "Ey Ənəs! Daim təharətli ol ki, Allah sənin ömrünü uzatsın. Əgər gün uzunu təharətli qala bilirsənsə, belə et. Həqiqətən, əgər təharətli halda ölsən, dünyadan şəhid kimi gedərsən."[6]

4. Ruzinin artımı: Bir şəxs İslam peyğəmbərinə (s) ruzisinin azlığından şikayətləndi. Həzrət (s) buyurdu: "Daim

---

*1. "Mustədrəkul-vəsail", c. 1, s. 358, hədis 19*
*2. Həmin mənbə*
*3. "Vəsailuş-şiə", c. 1, s. 376, hədis 3*
*4. Həmin mənbə 377, hədis 8*
*5. Surə 2, "Bəqərə", ayə 222*
*6. "Vəsailuş-şiə", c. 1, s. 383, hədis 3*

təharətli ol ki, ruzin davamlı olsun, artsın." Həmin şəxs Peyğəmbərin (s) göstərişinə əməl edib ruzi çətinliyindən qurtuldu.[1]

5. Günahların yuyulması: Bəzi rəvayətlərdən məlum olur ki, hətta dəstəmazlı halda dəstəmaz almaq insanın kəbirə günahları istisna olmaqla digər günahlarını yuyur. Allah-taala həmin şəxs tövbə etməmiş Allah onun tövbəsini təzələyir."[2]

6. Abidlərin savabına çatmaq: Həzrət Peyğəmbər (s) buyurur: "Bir şəxs təharətli halda yatarsa, yatağı onun üçün məscid məqamında olar."[3]

7. İstəklərin həyata keçməsi: İmam Sadiq (ə) buyurur: "Bir şəxs dəstəmazı olmadığı halda Allahdan bir şey istəsə və duası qəbul olmasa, özünü danlasın."[4]

Namazın düzgünlüyü və qəbulunda dəstəmazın böyük rolu var. Bu səbəbdən də rəvayətlərdə qeyd edilir ki, dəstəmazsız namaz qəbul deyil. Amma bu o demək deyil ki, dəstəmaz yalnız namaz üçündür. Çox-çox bəyənilmişdir ki, insan bütün hallarda dəstəmazlı olsun. İnsanın yatarkən, məscidə daxil olarkən, Quran oxuyarkən dəstəmazlı olmasının əhəmiyyətli təsiri var.

## *Dəstəmazın yerinə yetirilmə qaydası*

Dəstəmazı iki şəkildə, irtimasi və tərtibi şəkildə almaq olar. Kitabımızın həcmini nəzərə alaraq tərtibi dəstəmaz haqqında danışmaqla kifayətlənirik.

Tərtibi dəstəmazda dəstəmaz niyyəti etdikdən sonra hər dəstəmaz üzvünə su axıtmaq lazımdır. Su üzə yuxarıdan aşağıya bu şəkildə axıdılır:

a) Öncə üzüyumaq niyyəti ilə suyu alının yuxarısına, tükbitən yerə tökürlər. Əli su ilə birlikdə yuxarıdan aşağıya

---

*1. "Mustədrəkul-vəsail", c. 1, s. 300, hədis 7*
*2. "Vəsailuş-şiə", c. 1, s. 375-377, hədis 1, 2, 4, 5, 7*
*3. "Mustədrəkul-vəsail", c. 1, s. 297, hədis 6*
*4. "Vəsailuş-şiə", c. 1, s. 374, hədis 1*

çəkirlər. Dəstəmazda üzün vacib yuyulma ölçüsü tük bitən yerdən çənəyədəkdir. Eninə ölçü orta barmaqla baş barmaq arası qədərdir. Əgər deyilən ölçülərə əməl olunmasa dəstəmaz batildir. İnsan dəstəmazı düzgün aldığına əmin olmaq üçün bir qədər artıq hissəni yusa yaxşıdır.

b) Sonra sağ əl dirsəkdən barmaqların ucunadək yuyulur. Aşağıdan yuxarıya yuyularsa dəstəmaz batildir. Deyilən yerin yetərincə yuyulduğuna əmin olmaq üçün suyu bir qədər yuxarıdan tökmək lazımdır. Sonra eyni qayda ilə sol əl yuyulur.

c) Sonra dəstəmaz suyunun ovucda qalmış təri ilə başın alına doğru dörddə bir hissəsinə məsh çəkilir. Başın qabağına bütünlüklə məsh çəkmək vacib deyil. Onun hansı hissəsinə məsh çəkilərsə kifayət edər. Vacib ehtiyata əsasən başa sağ əllə məsh çəkilir. Müstəhəb ehtiyata əsasən məsh yuxarıdan aşağıya ən azı üç barmaqla başın qabaq hissəsinə çəkilir.

ç) Başa məsh çəkildikdən sonra ovucda qalmış dəstəmaz təri ilə sağ ayağa barmaqların başından ayağın qılçaya dikələn hissəsinədək məsh çəkilir. Müstəhəb ehtiyat budur ki, topuğadək məsh çəkilsin. Vacib ehtiyata əsasən ən azı birləşmiş üç barmaqla məsh çəkilməlidir. Daha yaxşı olar ki, əlin bütöv içi ilə məsh çəkilsin. Baş barmaq üzərinə məsh çəkilməsi vacib deyil. Başqa barmaqlardan da başlanılsa və ayağın dikilən yerinə qədər davam etsə bəs edər.

d) Eyni qayda ilə sol ayağa məsh çəkilir.

**Sual:** Üz hansı əllə yuyulmalıdır?

**Cavab:** Dəstəmazda üzü sağ və ya sol, eləcə də hər iki əllə yumaq olar. Əgər su yuxarıdan aşağıya axmaqla üzün vacib olan hissəsini əhatə edərsə, əlavə əl çəkməyə ehtiyac yoxdur.

**Sual:** Burun və gözlərin içini yumaq vacibdirmi?

**Cavab:** Burunun daxilini, dodaqlar və göz yumularkən onların görünməyən hissəsini yumaq vacib deyil. Amma vacib buyurulmuş hissənin yuyulmasına əmin olmaq üçün sadalanan hissələri də bir qədər yumaq yaxşıdır. Ehtimal olunsa ki,

hansısa bir çirk və ya başqa şey başlara, gözün kənarlarına və dodaqlara suyun çatmasına mane olur, dəstəmazdan öncə araşdırma aparmaq, həmin maneələri aradan qaldırmaq lazımdır.

**Sual:** Əgər bir şəxsin əlləri kiçik, üzü böyüksə (və ya əksinə) eləcə də başının bir hissəsində tük yoxsa (ya da alnının bir hissəsində tük bitmişsə) dəstəmazda üzünü hansı həddə yumalıdır?

**Cavab:** Adi insanlar üzünü necə yuyursa, o da elə yusun.

**Sual:** Üzü yumazdan öncə əllərin yuyulması dəstəmazdan sayılırmı?

**Cavab:** Xeyir dəstəmazda üz yuyulmazdan öncə əllərin yuyulması dəstəmazdan sayılmır. Diqqətli olmaq lazımdır ki, dəstəmazda əllər dirsəkdən barmaqların ucunadək yuyulur. Dəstəmazdan öncə əllərin yuyulması ilə kifayətlənmək olmaz və kim belə edərsə dəstəmazı batildir.

**Sual:** Əgər bir şəxs əllərini isladıb üzünə və qollarına çəkərsə, dəstəmazı düzgündürmü?

**Cavab:** Əgər əldəki yaşlıq elə bir miqdarda olsa ki, üzə və əllərə çəkiləndə su axsın, eləcə də bu iş xalqın nəzərində yumaq sayılsın, eybi yoxdur.

**Sual:** Ayaqlara məsh çəkmək üçün bütün əli ayağın üzərinə qoyub azca hərəkət etdirmək bəs edərmi?

**Cavab:** Bəli. Belə etmək olar.

**Sual:** Baş və ayaqlara məsh çəkərkən əli hərəkətsiz saxlayıb başı və ayaqları hərəkət etdirmək olarmı?

**Cavab:** Xeyir. Bu şəkildə yerinə yetirilmiş məshin düzgünlüyünə iradlar var.

**Sual:** Corab və ya ayaqqabının üzərindən ayaqlara məsh çəkmək olarmı?

**Cavab:** Xeyir. Yalnız şiddətli soyuq, oğru, yırtıcı, düşmən qorxusundan ayaqqabı və ya ayaqları çıxarmaq mümkün olmadıqda onların üzərindən məsh çəkmək olar.

**Sual:** Əgər dəstəmaz üzvləri dəstəmazdan öncə yaşdırsa, dəstəmazdan öncə onları qurulamaq vacibdirmi?

**Cavab:** Üz və əllərin yaş olmasının eybi yoxdur. Amma başa və ya ayaqlara məsh çəkməzdən öncə onlar quru olmalıdır. Onlardakı yaşlıq əldəki yaşlığı təsirsiz həddə edəcək olarsa, məsh batildir. Amma azca rütubətin eybi yoxdur.

**Sual:** Sol ayağa sağ ayaqdan qabaq məsh çəkmək olarmı?

**Cavab:** Vacib ehtiyata əsasən bu iş caiz sayılmır.

## *Dəstəmazın şərtləri*

Dəstəmazın düzgün olması üçün müəyyən şərtlərə riayət etmək lazımdır.

1. Dəstəmaz suyu pak olsun. Murdar su ilə alınan dəstəmaz batildir.

2. Dəstəmaz suyu saf olsun. Meyvə suyu, gülab kimi bulaşıq sularla alınan dəstəmaz batildir.

3. Dəstəmaz suyu, dəstəmaz alınan yer qəsbi olmamalıdır.

4. Dəstəmaz üçün istifadə edilən qab qəsbi olmamalı, qızıl-gümüşdən düzəldilməməlidir.

5. Dəstəmaz üzvləri dəstəmazda yuyulub məsh çəkərkən pak olmalıdır.

6. Dəstəmaz üçün kifayət qədər vaxt olmalıdır. Əgər vaxt az olarsa, dəstəmaz alınacağı təqdirdə namazın vaxtı keçərsə, dəstəmaz əvəzinə təyəmmüm edilməlidir.

7. İnsan Allahın əmrini yerinə yetirmək, Ona yaxınlaşmaq məqsədi ilə dəstəmaz almalıdır. Özünü göstərmək, sərinləşmək, bu kimi qeyri-ilahi məqsədlərlə alınan dəstəmaz batildir.

8. Dəstəmazda tərtibi gözləmək, məsələn, əvvəlcə üzü, sonra əlləri yumaq, əvvəlcə başa, sonra ayaqlara məsh çəkmək lazımdır. Əks təqdirdə dəstəmaz batildir.

9. Dəstəmazdakı işlər fasiləsiz yerinə yetirilməlidir. Dəstəmaz zamanı elə bir fasilə yaratmaq olmaz ki, ətrafdakılar insanın dəstəmaz almadığını düşünsünlər.

10. Dəstəmaz əməllərini yerini yetirməyə qadir insan bu işləri özü görməlidir. Əgər insanın üzünü və qollarını başqa biri yuyarsa və ya bu işlərdə ona kömək edilərsə dəstəmaz batildir.

11. Dəstəmaz insana zərərli olmamalıdır. Dəstəmaz zərərlidirsə təyəmmüm etmək lazımdır.

12. Dəstəmaz üzvlərində qır, boya, yapışqan kimi suya mane olacaq şeylər olmamalıdır. Dəstəmazdan öncə bu qəbil maneələri təmizləmək lazımdır.

## *Hansı işlərdən qabaq dəstəmaz almaq vacibdir?*

Müəyyən işlərdən öncə dəstəmaz almaq vacibdir:

1. Meyit namazından başqa, bütün müstəhəb və vacib namazlar üçün;

2. Allah evinin vacib təvafı üçün;

3. Dəstəmaz alınması ilə bağlı and içildikdə, nəzir və ya əhd edildikdə;

4. Əgər bir şəxs and içərsə və ya nəzir, əhd edərsə ki, bədəninin hansısa bir hissəsini Qurana toxundursun, onun dəstəmaz alması vacibdir. Məsələn, murdarlanmış Quran suya çəkildikdə bədən ona toxunduğundan, dəstəmaz almaq lazımdır.

## *Dəstəmazı batil edən işlər*

Sidik və ya nəcisə getmək, insandan yel xaric olması, gözün görməməsi və qulağın eşitməməsi ilə müşayiət olunan

yuxu, qüsl tələb edən işlərin görülməsi, vacib ehtiyata əsasən məstlik kimi ağılı işdən saxlayan işlər dəstəmazı batil edir.

**Sual:** Dəstəmaz tamamlanmamışdan öncə və ya ondan sonra dəstəmazda yuyulmuş bədən üzvlərindən biri murdarlanarsa, dəstəmaz batil olarmı?

**Cavab:** Dəstəmaz batil olmaz, amma həmin üzvü suya çəkmək lazımdır. Bədənin dəstəmaza aid olmayan üzvləri də murdarlandıqda suya çəkilməlidir. Əgər insan ayaqyolundan sonra sidik və nəcis çıxacağını suya çəkməzsə, müstəhəb ehtiyata əsasən öncə onları suya çəkməli, sonra dəstəmaz almalıdır.

**Sual:** İnsanın dəstəmazla bağlı niyyəti dilə gətirib, "Allaha yaxınlaşmaq üçün dəstəmaz alıram" söyləməsi vacibdir?

**Cavab:** Dəstəmazın, namazın, təyəmmümün, qüslün və bu kimi işlərin niyyətini dilə gətirmək vacib deyil. Əgər insan nə iş gördüyünü bilirsə, bəs edər. Əgər dəstəmazın gedişində ondan nə iş gördüyünü soruşsalar, "dəstəmaz alıram" söyləyə bilməlidir.

**Sual:** Dəstəmaz gedişində yol yerimək olarmı? Məsələn, üz və əlləri yuduqdan sonra bir neçə addım atıb baş və ayaqlara məsh çəkmək mükündürmü?

**Cavab:** Eybi yoxdur.

**Sual:** Əgər diyircəkli qələmin boyası və ya baş rəngi bədən üzvündə qalmışsa, bu halda dəstəmaz almaq olarmı?

**Cavab:** Əgər rəng təkcə rəngdirsə və maddə şəklində deyilsə (qat kəsməmişsə) suyun bədən üzvlərinə çatmasına maneçilik törətməyəcəyi təqdirdə eybi yoxdur.

**Sual:** Əgər bir şəxs dəstəmaz aldıqdan sonra onun batil olub-olmadığına şəkk edərsə, vəzifəsi nədir?

**Cavab:** Qəbul etməlidir ki, dəstəmaz alıb. Amma əgər dəstəmaz alıb-almadığına şübhə edərdisə, dəstəmaz almadığını qəbul etməlidir.

# Altıncı fəsil

## *Qüsl cisim və ruhun paklığıdır*

“Qüsl” dedikdə insanın xüsusi vaxtlarda Allaha yaxınlaşmaq məqsədi ilə bütün bədənini yuması nəzərdə tutulur. Qüsl insanın cismini və ruhunu paklayır, onun bəndəliyini, Allaha yaxınlaşmasını göstərir. Qüslün əxlaqi təsirləri inkar edilməzdir. Allaha yaxınlaşmaq məqsədi olmadan yerinə yetirilən qüsl batildir. Bundan əlavə, qüsl insanın ömür boyu öz paklığını qoruması üçün təyin olunmuş dini vəzifələrdəndir. Bir çoxları öz təmizliyinə diqqət yetirmir. Bu İslami hökm onları ardıcıl şəkildə bədənlərini yumağa və paklığa sövq edir.

### *Qüslün yerinə yetirilmə qaydaları*

Qüsl də dəstəmaz kimi iki yolla yerinə yetirilir:

1. İrtimasi qüsl: irtimasi qüsl verən insan qüsl niyyəti ilə bütün bədənini birdəfəyə islatmaqla suya girir.

2. Tərtibi qüsl: Tərtibi qüsl verən insan əvvəlcə başını və boynunu, sonra vacib ehtiyata əsasən bədəninin sağ tərəfini, daha sonra sol tərəfini yuyur. İnsan əmin olmalıdır ki, qeyd olunan üç hissəni tam şəkildə yumuşdur. Bir hissə yuyularkən ona yaxın ətraf da yuyulur. Tərtibi qüsldə göbək və ayıb yerin yarısı sağ, yarısı sol tərəflə yuyulur. Daha yaxşı olar ki, bütün

göbək və ayıb yer hər iki tərəf yuyularkən tam şəkildə yuyulsun.

## *Qüslün növləri*

Qüsl də dəstəmaz kimi bəzən vacib, bəzən müstəhəb olur. Müstəhəb qüsllər çoxdur. Bu qüsllərlə tanışlıq üçün şəri hökmlərin bəyan olunduğu risalələrə müraciət etmək lazımdır. İndi isə vacib qüsllərlə tanış olaq.

1. Cənabət qüslü: İnsanın cənabət halına gəlməsinin səbəbləri var: kişi və ya qadından oyaq vaxtı və ya yuxuda ikən məni (sperma) xaric olması. Vacib namazlar və bu kimi işlər üçün cənabət qüslü vermək vacibdir.

2. Meyit qüslü: İnsan öldükdən sonra onun bədəni təmizlənir, sonra ona üç qüsl verilir. Qüsllərdən biri sidr qatılmış su ilə, digəri kafur qatılmış su ilə, üçüncüsü saf su ilə verilir.

3. Meyitə toxunmaq qüslü (qüsle məsse meyyit): Əgər insan meyit qüslü verilməmiş və bədəni soyumuş insana toxunarsa, meyitə toxunmaq qüslü verməlidir.

4. İnsana nəzr, and və ya əhd vasitəsi ilə vacib olan qüsllər: İnsan bəzən çətinlikdən qurtarmaq, pis işləri tərk etmək və ya yaxşı işlər görmək üçün əhd edir ki, qüsl versin.

5. Qadınlara aid qüsllər: heyz qüslü, nifas qüslü, istihazə qüslü.

## *Cünub şəxsə haram sayılan işlər*

Cünub olmuş və hələ ki cənabət qüslü verməmiş insana beş iş haramdır.

1. Bədənini Quran yazısına, Allahın adına, vacib ehtiyata əsasən peyğəmbər və imamların, eləcə də xanım Zəhranın (s. ə.) adına toxundurmaq.

2. Məkkədə məscidül-həram, Mədinədə məscidün-nəbiyyə getmək. Hətta bir qapıdan girib o birindən çıxmaq istəsə də, bu iş olmaz.

3. Digər məscidlərdə dayanmaq. Vacib ehtiyata əsasən imamların hərəmində də dayanmaq olmaz. Amma qapılardan birindən girib o birindən çıxsa eybi yoxdur.

4. Məscidə bir şey qoymaq üçün oraya daxil olmaq.

5. Vacib səcdəsi olan dörd surədən bir hissəsini və ya tam mətnini oxumaq. On beşinci fəsildə Quran haqqında danışarkən bu məsələyə bir daha qayıdacağıq.

## *Cünub şəxsə məkruh olan işlər*

Cünub şəxsin bəzi işləri görməsi məkruhdur, yəni bəyənilmir:

1. Yemək, içmək, yatmaq. Amma dəstəmaz aldıqdan və ya yeyib-içmək üçün əlləri yuduqdan sonra məkruh olmur.

2. Vacib səcdəsi olmayan surələrdən yeddi ayədən artıq oxumaq.

3. Bədənin hansısa bir yerini Quranın cildinə, haşiyəsinə və ya xətləri arasına toxundurmaq. Cünub halda Quran gəzdirmək də məkruhdur. 4. Cünub halda başa həna və ya rəng yaxmaq, bədənə yağ çəkmək.

**Sual:** İnsan tərtibi qüsl verdikdən sonra başa düşsə ki, bədənindən və başından bir hissəsini yumayıb, onun vəzifəsi nədir?

**Cavab:** Əgər başından bir hissəsini yumamışsa, həmin hissəni yuyub, sonra bədənin sağ, eləcə də sol hissələrini ikinci dəfə yumalıdır. Əgər bədəninin sağ tərəfindən bir hissəsini yumamışsa, həmin yeri yuduqdan sonra vacib ehtiyata əsasən bədəninin sol tərəfini də ikinci dəfə yumalıdır. Əgər bədənin sol tərəfində yuyulmamış yer qalmışsa, təkcə həmin yeri yuduqdan sonra qüsl düzgün olur.

**Sual:** İrtimasi qüsldən sonra məlum olsa ki, su bədənin bir hissəsini əhatə etməyib, vəzifə nədir?

**Cavab:** Yenidən qüsl verilməlidir. Hətta bədəninin hansı hissəsinin islanmadığını bilsə də qüslü təzələməlidir.

**Sual:** Burunun və qulağın içi kimi görünməyən yerləri qüsl zamanı yumaq vacibdirmi?

**Cavab:** Xeyir. Əgər sırğa yeri onun içi görünəcək həddə genişdirsə, onu yumaq lazımdır.

**Sual:** Qüsl zamanı baş və üz tüklərinin dibi islanmalıdırmı?

**Cavab:** Bəli. Bədəndən sayılan qısa tüklər də yuyulmalıdır. Vacib ehtiyata əsasən, uzun saçları da yumaq lazımdır.

**Sual:** Dəstəmazın düzgünlüyü üçün nəzərdə tutulan şərtlər qüslə münasibətdə də öz gücündə qalırmı?

**Cavab:** Bəli. Amma tərtibi qüsldə bu işi fasiləsiz görmək vacib deyil. İnsan öncə başını və boynunu yuyub bir neçə saatdan sonra sağ və sol tərəfini yuya bilər. Qüsldə bədən üzvlərini yuxarıdan aşağıya yumaq da vacib deyil. İnsan məsələn bədəninin sağ tərəfini aşağıdan yuxarıya yuya bilər.

**Sual:** Əgər insan qüsl verib-vermədiyinə şəkk edərsə, onun vəzifəsi nədir?

**Cavab:** Qüsl verməlidir.

**Sual:** Əgər qüslünü düzgün yerinə yetirib-yetirmədiyini bilməsə vəzifəsi nədir?

**Cavab:** Yenidən qüsl verməsi vacib deyil.

**Sual:** İnsan şəkk etsə ki, ona qüsl vacib olub yoxsa yox (məsələn, şəkk edir ki, möhtəlim olub, yəni yuxuda ondan məni

xaric olub, ya da bədəni ölünün bədəninə toxunub) qüsl vermək ona vacibdirmi?

**Cavab:** Xeyir, qüsl verməsi vacib deyil.

**Sual:** Əgər bir şəxsə cənabət qüslü, meyitə toxunma qüslü kimi bir neçə qüsl vacib olarsa, eyni zamanda cümə qüslü kimi bir neçə qüsl vermək istəyərsə, bu işi necə görsün?

**Cavab:** Həmin qüslləri iki şəkildə yerinə yetirə bilər:

1. Hər bir niyyət üçün ayrıca qüsl verə bilər;
2. Bütün qüslləri nəzərdə tutaraq bir qüsl verə bilər.

Qeyd etməliyik ki, insana bir neçə qüsl vacib olsa və onları yerinə yetirməmiş cünub olsa, hətta həmin qüsllərə diqqət yetirmədən təkcə cənabət qüslü versə, digər qüsllərə ehtiyac qalmaz.

**Sual:** Qüsl verdiyi vaxt insan dəstəmazı pozan bir iş görsə, məsələn, sidiyə getsə, qüslə yenidənmi başlamalıdır?

**Cavab:** Xeyir. Amma cənabət qüslü verərkən dəstəmazı pozan bir iş görərsə, qüsldən sonra dəstəmaz lazım olan namaz kimi işlər üçün yenidən dəstəmaz almalıdır.

**Sual:** Əgər insan bir neçə dəfə cünub olarsa və ya bir neçə dəfə ölünün bədəninə toxunarsa hər dəfə üçün ayrıca qüsl verməlidirmi?

**Cavab:** Xeyir. Bütün qüslləri niyyət edərək bir qüsl vermək yetər.

**Sual:** Qüsllərdən hansı biri dəstəmazı da əvəz edir və həmin qüsldən sonra namaz qılmaq üçün dəstəmaz almağa ehtiyac qalmır?

**Cavab:** Yalnız cənabət qüslü belədir. Vacib ehtiyata əsasən digər vacib qüsllərdən, eləcə də müstəhəb qüsllərdən sonra namaz üçün dəstəmaz almaq lazımdır.

**Sual:** Əgər meyitə toxunmuş insan meyitə toxunmaq qüslü verməyibsə, cünub insana haram olan işlər haramdırmı?

**Cavab:** Xeyir. Yalnız namaz qılmaq və dəstəmaz tələb edən işlər görmək üçün meyitə toxunma qüslü verməlidir. Amma belə bir vəziyyətdə məscidə daxil olmaq, orada dayanmaq, vacib səcdəsi olan surələr oxumaq olar.

**Sual:** Şəhidin bədəninə də toxunduqdan sonra meyitə toxunma qüslü verilməlidirmi?

**Cavab:** Bəli, vacib ehtiyata əsasən şəhidin meyitinə toxunduqdan sonra qüsl vermək lazımdır.

# Yeddinci fəsil

## *Təyəmmüm təvazö və təslim olmaq nişanəsidir*

Bütün ilahi hökmlərin müştərək bir ruhiyyəsi var. İlahi göstərişlərin nöqtəsi insanda bəndəlik, itaət və təvazö ruhiyyəsi yaratmaqdır. Bu ruhiyyə sözün əsil mənasında təyəmmümdə özünü göstərir. Təyəmmüm edən insan əlini torpağa vurub öz vücudunun ən şərəfli üzvü olan alnına çəkir. Bu yolla Allah qarşısında öz təvazösünü bildirir, hal dili ilə deyir ki, mənim alnım da əllərim kimi Sənin hüzurunda son nöqtəyədək kiçilir.

Qurani-məcid təyəmmüm torpağının "səidən təyyiba" adlandırır.[1] "Təyyib" sözü pak, "səid" sözü ("süud" sözündən götürüldükdə) yer səthini örtən şeylər mənasını bildirir. Torpaq, qum və daşlar buna misal ola bilər. Torpağa küləklər əsir, günəş parlayır, yağış yağır. Belə bir halda torpağın təmizlik baxımından zərərli olduğunu demək olmaz. Məsum imamlardan nəql olunmuş rəvayətlərdə bildirilir: "Allah torpağı da su kimi pakedici qərar vermişdir."[2]

Buna görə də insan dəstəmaz alıb qüsl verə bilmədikdə əminliklə torpaqdan istifadə etməlidir. Kimsə deyə bilməz ki, mən hökmən dəstəmaz almalı və ya qüsl verməliyəm. Bu

---

*1. Bax: Surə 4, "Nisa", ayə 43; Surə 5, "Maidə", ayə 6*
*2. "Vəsailuş-şiə", c. 3, s. 385, hədis 1*

məqamda Allahın göstərişlərinə tabe olmalıyıq. Bir hədisdə nəql olunur ki, bədənində yara olan bir şəxs cünub olmuşdu. O ətrafdakıların təkidi ilə cənabət qüslü verdi və nəticədə xəstələnib öldü. Peyğəmbər (s) buyurdu: "Onu bu işə vadar edənləri Allah öldürsün! Həqiqətən, nadanlığın dərmanı sorğu-sualdır."[1]

## *İnsan nə vaxt təyəmmüm etməlidir?*

Yeddi halda insan dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm etməlidir:

1. Dəstəmaz və ya qüsl üçün lazım olan qədər su əldə etmək mümkün deyilsə;

2. Su olduğu halda insan qocalıq, yırtıcı və ya oğrudan qorxduğu və ya su çəkməyə vasitə tapmadığı üçün su əldə edə bilmirsə;

3. İnsan sudan istifadəni özünə zərərli bilirsə, qorxursa ki, sudan istifadə etdiyi halda xəstələnə bilər, onda bir eyb yaranar və ya xəstəliyi uzanar; xəstəliyin ağırlaşması və müalicənin çətinləşməsi ehtimalı varsa;

4. İnsan qorxursa ki, ixtiyarında olan suyu dəstəmaz və qüslə sərf edərsə, özü, yoldaşları və ya öhdəsində olan heyvanlar susuzluqdan məhv olar; insanın özünün və yoldaşlarının xəstələnə biləcəyi və ya mövcud susuzluğa dözə bilməyəcəyi gözlənilirsə;

5. Əgər insan murdarlanmış bədənini və ya libasını paklamağa məcburdursa; əgər təyəmmüm etmək mümkündürsə, vacib ehtiyata əsasən təyəmmüm edilməlidir;

6. Su və ya suyun olduğu qab halal deyilsə;

7. Əgər çox azsa, dəstəmaz alınacağı və ya qüsl veriləcəyi təqdirdə namazın bir rəkəti vaxtında qılınacaq, o biri rəkətləri qəza olacaq.

---

*1. Həmin mənbə, s. 347, hədis 6*

## *Nələrə təyəmmüm etmək olar?*

Torpağa, quma, kəsəyə, gəc daşına, əhəng daşına, mərmərə və digər daşlara təyəmmüm etmək olar. Amma əqiq və firuzə kimi cəvahirat sayılan daşlara təyəmmüm batildir. Bu səbəbdən də vacib ehtiyata əsasən, torpaq, qum və daş olan yerdə bişmiş gəcə, əhəngə və gilə təyəmmüm etmək düzgün deyil.

Təyəmmüm ediləcək şey murdar və qəsbi olmamalıdır.

## *Təyəmmümün qaydaları*

İnsan təyəmmüm etmək üçün aşağıdakı əməlləri yerinə yetirməlidir:

1. Niyyət edir ki, Allahın əmrini yerinə yetirmək üçün dəstəmaz və ya filan qüsl əvəzinə təyəmmüm edir;
2. Əllərinin içini təyəmmüm olunası şeyə vurur;
3. Hər iki əlini başının tük bitən yerindən qaşlarınadək bütün alnına və onun iki tərəfinə çəkir. Demək, əllərin içi bütün alına, vacib ehtiyata əsasən, qaşların üzərinə çəkilməlidir;
4. Vacib ehtiyata əsasən növbəti dəfə əllərinin içini torpağa vurur;
5. Sol əlinin içini əl topuğundan barmaqların ucunadək sağ əlinin üstünə, sağ əlinin içini əl topuğundan barmaqlarının ucunadək sol əlin üstünə çəkir.

**Sual:** Dəstəmaz üçün təyəmmüm qüsl üçün təyəmmümdən fərqlənirmi?

**Cavab:** Xeyir. Bu iki təyəmmüm forma baxımından eynidir. Onların yalnız niyyətindən fərq var.

**Sual:** Duzlu torpağa təyəmmüm etmək olarmı?

**Cavab:** Müstəhəb ehtiyata əsasən təmiz torpaq olan yerdə duzlu torpağa təyəmmüm edilməməlidir.

**Sual:** Hansı məqamlarda təyəmmüm etmək məkruh sayılır?

**Cavab:** Çala, yol, duzu üzə çıxmamış torpağa təyəmmüm etmək məkruhdur. Əgər duz torpağın üzərini örtərsə ona edilən təyəmmüm batildir.

**Sual:** Təyəmmümdə alına və əllərin üzərinə yuxarıdan aşağıyamı əl çəkilməlidir?
**Cavab:** Bəli.

**Sual:** İnsanın əlində üzük olarsa təyəmmüm üçün onu çıxarmalıdırmı?
**Cavab:** Bəli. Əgər alında, əllərin içində və ya arxasında maneə varsa, təmizlənməlidir.

**Sual:** Təyəmmümü nələr batil edir?
**Cavab:** Dəstəmazı batil edən işlər dəstəmaz əvəzinə təyəmmümü də batil edir. Qüslü batil edən işlər qüsl əvəzinə təyəmmümü də batil edir.
**Sual:** Əgər bir insan bir neçə qüsl verməlidirsə (məsələn, cənabət və meyitə toxunma qüslü) qüsl əvəzinə təyəmmüm edərkən bir təyəmmüm bəs edirmi?
**Cavab:** Vacib ehtiyata əsasən hər qüsl əvəzinə bir təyəmmüm edilməlidir.

**Sual:** Üzürlü səbəbdən cənabət qüslü əvəzinə təyəmmüm edilməlidirsə, namaz üçün dəstəmaz almaq lazımdırmı?
**Cavab:** Xeyir. Amma başqa qüsllər əvəzinə təyəmmüm edilmişsə, vacib ehtiyata əsasən namaz üçün dəstəmaz alınmalıdır. Dəstəmaz üçün də üzrü varsa, bir təyəmmüm də dəstəmaz əvəzinə edilir.

# Səkkizinci fəsil

## *Namaz bəndəliyin əzəmətidir*

Füruidinin, yəni dini hökmlərin ilk bəndi, hər bir müsəlmanın ən mühüm əməllərindən biri namazdır. Namaz hətta İslamdan öncəki ilahi dinlərdə ən əhəmiyyətli ibadətlərdən olmuşdur. Namazın uzun tarixi var və bu ibadət bütün peyğəmbərlərin tapşırığıdır.

Həzrət İbrahim oğlu İsmail və onun anası Hacəri susuz və kimsəsiz Məkkə torpağına gətirəndə belə dua edir: “Pərvərdigara! Mən övladlarımdan birini Sənin evinin yanındakı otsuz və susuz bir yerdə qoydum. Pərvərdigara! İstədim ki, namazı bərpa etsinlər.”[1] Həzrət İbrahim digər bir minacatında belə deyir: “Pərvərdigara! Məni və mənim nəslimdən olanları namazqılan buyur.”[2]

Allah-taala İsmaili vəsf edərək belə buyurur: “O öz əhlini həmişə namaz qılmağa və zəkat verməyə dəvət edirdi.”[3]

Həzrət İsa hələ beşikdə ikən belə dedi: “Allah məni harada oldumsa aləmlər üçün bərəkət və rəhmət buyurdu. Tapşırdı ki, nə qədər sağam, namaz qılım zəkat verim.”[4]

---

*1. Surə 14, “İbrahim”, ayə 37*
*2. Həmin mənbə, ayə 40*
*3. Surə 19, “Məryəm”, ayə 55*
*4. Həmin mənbə, ayə 31*

Qurani-kərimdə həzrət Musa, Şüeyb, Zəkəriyya, Loğmandan danışılarkən namaz mövzusu yada salınır.[1]

Bir çox ayə və rəvayətlərdə namaz imanlı insanların önəmli sifətlərindən sayılır. Əgər namaz nəzərdə tutulan şərtlər ödənməklə qılınarsa, insan mənəvi bir aləmə yüksələr, onun Allahla iman bağlılığı güclənər, ruhundakı və qəlbindəki günah çirkabları təmizlənir.

Qurani-kərim insanın günah və çirkin işlərdən çəkinməsində namazın böyük təsirindən danışır. Allah-taala Öz Peyğəmbərinə (s) belə buyurur: "Ey peyğəmbər, namazı bərpa et, namaz insanı günah və pis işlərdən uzaqlaşdırar."[2]

Dini rəhbərlərdən nəql olunmuş hədislərdə bildirilir ki, namaz mömin və təqvalı insanın öz rəbbinə doğru yüksəlişi üçün bir vasitədir. Əgər namaz qəbul olarsa, insanın digər əməlləri də qəbul olar. Əksinə, namaz rədd edilərsə, insanın digər əməlləri də rədd edilər. İmam Baqir (ə) buyurur: "Namaz dinin sütunudur. Bu ibadət xeymənin ortasında sütuna bənzəyir. Nə qədər ki, o yerindədir, iplər və mıxlar da yerindədir. Əgər bu sütun əyilsə və ya sınsa, iplərdən və mıxlardan bir fayda olmaz, xeymə uçub dağılar."[3]

Namaz günahlar qarşısında bir səddir, eyni zamanda onların yuyulmasında təsirli bir vasitədir. Çünki o insanın iman ruhunu gücləndirir, qəlbdəki Allah qorxusuna qüvvət verir. İnsan qəlbindəki qəflət pərdələrinin çəkilməsində, yaranış məqsədinin aydınlaşmasında namazın mühüm təsiri var. Bu ibadət günün müxtəlif vaxtlarında insana xatırladır ki, oyan, maddi ləzzətlərə uyma. Bəli, namaz insandakı əxlaqi fəzilətləri yetkinləşdirir, mənəvi təkamülə səbəb olur. İnsan namaz vasitəsi ilə bu maddi həyatın dörd divarında baş qaldırıb mələklərlə səs-səsə verir.

---

*1. Bax: Surə 20, "Taha", ayə 14; Surə 11, "Hud", ayə 87; Surə 3, "Ali-İmran", ayə 39; Surə 31, "Loğman", ayə 17*

*2. Surə 29, "Ənkəbut", ayə 45*

*3. "Vəsailuş-şiə", c. 4, s. 27, hədis 12*

Əziz Peyğəmbərdən (s) belə nəql olunur ki, həzrət onun görüşünə gəlmiş bir qrup şəxsə belə buyurdu: “Əgər qapınızın ağzından bir çay axsa və siz bu çayda gündə beş dəfə yuyunsanız, bədəninizdə bulaşıqlıq qalarmı?” Məclisdəkilər dedilər: ”Xeyir.” Həzrət buyurdu: “Namaz da həmin çay kimidir. Hər namaz qılanda iki namaz arasında baş vermiş günahlar yuyulur.”[1]

İnsanın bütün bu deyilənləri nəzərə alıb namaza diqqətli olması lazımdır. Namazı ilk vaxtında qılmaq, namazda diqqətli və müti olmaq lazımdır. İnsan namaz vaxtı kiminlə danışdığını dərk etməli, özünü Allahın əzəməti qarşısında heç saymalıdır. Namaz gedişində insan həssas olmalı, özününümayişdən çəkinməlidir. Çünki Allah üçün qılanmayan namazın mükafatı yoxdur və belə bir namaz insanı cəhənnəmə aparır.

*Cəmiyyət içində uzanan namaz*
*Cəhənnəmə açar olası hökmən.*
*Namazda kənarda qalmasın gözün,*
*Yoxsa səccadəni odda görərsən.*[2]

İnsan namazın savabını azaldan işlərdən çəkinməlidir. Məsələn, yuxulu halda, ayaqyolu ehtiyaclarını ödəməmiş, tələsik, diqqəti namazdan yayındıran işlərdən çəkinməlidir. İmam Sadiqin (ə) səhabələrindən olan Əbu Bəsir deyir: “İmam Sadiqin (ə) vəfatından sonra onun həyat yoldaşı ümmü Həmidəyə başsağlığı vermək üçün getdim. O ağladı, mən də ona qoşuldum. Sonra dedi: “Əgər imamı can verəndə görsəydin heyrətə gələrdin. Gözlərini açıb belə buyurdu: “Bütün qohumlarımı bir yerə yığın.” Biz onun göstərişini yerinə yetirdik. Həzrət onlara baxıb buyurdu: “Namazı yüngül sayanlar bizim şəfaət və yardımımızdan bəhrələnməyəcək.”[3]

---

*1. Həmin mənbə, s. 12, hədis 3*
*2. “Bustan”, 5-ci bab, razılıq, s. 143*
*3. “Vəsailuş-şiə”, c. 4, s. 26, 27, hədis 11*

Qurani-kərim namazı lazımınca dəyərləndirməyənləri məzəmmət edərək: “Vay olsun namazından qəflətdə qalan namazqılanlara!” [1] Münafiqlərin sifətləri açıqlanarkən belə buyurulur: “Elə ki namaza durarlar, başdan ayağa süstlük içində olarlar. Adamlar arasında özlərini göstərər, Allahı az xatırlayarlar.”[2]

İmam Baqir (ə) buyurur: “Bir gün həzrət Peyğəmbər (s) məsciddə əyləşmişdi. Məscidə bir şəxs daxil olub namaza başladı. Amma həmin şəxs namazın rüku və səcdələrini lazımınca yerinə yetirmirdi. Həzrət Peyğəmbər (s) buyurdu: “Bu şəxs qarğa kimi dimdiyini yerə döyür. Əgər namazı bu vəziyyətdə ola-ola dünyasını dəyişsə mənim dinimdən sayılmaz.”[3]

Digər bir rəvayətdə həzrət buyurur: “Oğruların ən pisi namazından oğurlayan kəsdir. Belə biri namazını kamil qılmaz.”[4]

Yuxarıda deyilənlərdən aydın olur ki, namaz qılmayan, bu vacib əmələ diqqətsizlik göstərənlərin aqibəti çox pisdir.

*Aclıqdan ağzını açmışsa əgər*
*Namaz qılmayana borc vermək hədər.*
*Allahın borcunu qaytarmayan kəs*
Borcunu qaytarmaz, gözləmə əbəs.[5]

## *Namazın növləri*

Namaz ümumi şəkildə iki qismə bölünür: vacib və müstəhəb.

---

*1. Surə 107, “Maun”, ayə 4, 5*
*2. Surə 4, “Nisa”, ayə 142*
*3. “Vəsailuş-şiə”, c. 4, s. 31, 32, hədis 2*
*4. “Biharul-ənvar”, c. 81, s. 263, 264, hədis 22*
*5. “Gülüstan”, 8-ci bab, söhbət qaydaları, s. 279, hekayat 66*

***a) Müstəhəb namazlar***

Müstəhəb namazlar çoxdur və bu namazlar “nafilə” adlanır. Bu nafilələrdən biri gün uzunu qılınan nafilələrdir və onlar cümə günü 38, digər günlər 34 rəkətdir.

Nafilə namazlarından biri də gecə nafilə namazıdır. Bu namaz adətən gecə namazı adlandırılır. Həzrət Peyğəmbər (s) buyurur: “Danışığında ədəbi gözləyən, acları doyuran və insanlar yuxuda ikən gecə namazına duran şəxslər sizin ən yaxşılarınızdır.”[1] Digər bir rəvayətdə Peyğəmbərin (s) dilindən belə nəql olunur: “Gecə namazı qılan şəxsin gündüz çöhrəsi (xarakteri) açıq olar.”[2]

Bəli, gün uzunu məişət problemləri insanın başını qatır, onun diqqətini Allahdan yayındırır. Gecə yarı, sübhə yaxın sakit bir fəza yaranır, insanın ruhu və cismi yuxudan sonra aramlıq tapır. Belə bir məqamda insanda mənəvi bir hal yaranır. Sakit, tənha, insanların baxışlarından uzaq anlarda insanın diqqəti Rəbbinə yönəlir, ruhiyyəsi dəyişir. Bu səbəbdən də bütün Allah aşiqləri gecənin axır anlarındakı ibadətləri yerinə yetirmiş, öz ruhlarını və imanlarını gücləndirmişlər.

*Gecə duaları, sübh ibadəti*
*Hafizə daddırdı ol səadəti.*[3]

Gecə namazının özünəməxsus qaydaları var. Allah aşiqlərinin ruhani ibadətdən faydalanması üçün onu qısa şəkildə nəzərinizə çatdırırıq. Ümid edirik ki, Həzrət Haqla xəlvət gecələrdə bizi də yaddan çıxarmayasınız.

Gecə namazı 11 rəkətdir və aşağıda göstərilən şəkildədir:

1. Sübh namazı kimi ikirəkətli dörd namaz. Bu namazlar gecə namazı niyyəti ilə qılınır.
2. Əvvəlki dörd namaz kimi ikirəkətli şəf’ namazı.

---

*1. “Biharul-ənvar”, c. 84, s. 142, 143, hədis 14*
*2. Həmin mənbə, s. 148, hədis 22*
*3. Hafiz, divan, s. 211*

3. Sonda “vətr namazı” niyyəti ilə qılınan bir rəkət namaz. Bu namazın niyyətindən sonra həmd və surə oxunur, qunut tutulur. Qunutda möminlərə də dua edilir. Sonra rükuya gedilir, rükudan sonra iki səcdə yerinə yetirilir. Vətr namazı təşəhhüd və salamla başa çatır.

Qeyd etməliyik ki, bu namazlarda azan və iqamə yoxdur. Gecə namazlarının istənilən birində 2-ci rəkətdə rükudan öncə qunut tutub dua etmək, raz-niyaza məşğul olmaq mümkündür. Şəf’ namazında savab ümidi ilə ehtiyatən qunut tutulur. Vətr namazında isə qunut nə qədər uzun olarsa bir o qədər faydalıdır. Gecə namazının vaxtı gecə yarıdan sübh azanınadəkdir. Bu namazı sübh azanına yaxın bir vaxtda qılmaq daha yaxşıdır. Səfərdə olan və ya bu namazı vaxtında qılmağa çətinlik çəkən şəxs onu gecənin əvvəlində qıla bilər.

***b) Vacib namazlar***

1. “Yövmiyyə” namazı gündəlik 17 rəkət namaz və cümə namazı: 17 rəkət namaz 2 rəkət sübh, 4 rəkət günorta, 4 rəkət ikindi, 3 rəkət şam, 4 rəkət xüftən namazından ibarətdir. İnsan səfərdə olduğu vaxt bu 17 rəkət namaz 11 rəkət olur. Çünki səfərdə olan şəxs dördrəkətli namazlarını 2 rəkət qılmalıdır.

Bu beş namazın hər birinin xüsusi vaxtı var. Bu barədə əməli hökmlər risaləsində ətraflı danışılır. İnsan namaz vaxtı olduğuna əmindirsə, namaza başlaya bilər. Qeyd olunan beş namaz tərtiblə, ardıcıllıqla qılınır. Əgər namaz qılan şəxs bilərəkdən ikindi namazını günorta namazından qabaq qılarsa, onun namazı batildir.

2. Vacib namazlardan biri də ayat namazıdır. Ayat namazı bir neçə səbəblə vacib olur: Günəş tutulması (küsuf), ay tutulması (xüsuf), zəlzələ, şimşək, qara və qırmızı külək, insanların çoxunda qorxu yaradan təbiət hadisələri.

3. Meyitə qüsl verildikdən, kəfən və hənutdan sonra meyit namazı qılmaq vacibdir.

4. Allah evinin ziyarətində vacib təvaf namazı.

5. Dünyasını dəyişmiş atanın qəza namazları böyük oğula vacibdir. Əgər həmin şəxsin oğlu yoxdursa, meyitə ən yaxın və ən böyük kişi qohum vacib ehtiyata əsasən bu namazları qılmalıdır.

6. Nəzr, əhd və and vasitəsi ilə insana vacib olan namazlar. Məsələn, bir şəxs hansısa istəyinin qəbul olması üçün namaz nəzr edir. Onun istəyi qəbul olduqdan sonra bu namazı qılması vacibdir.

7. İmam Mehdinin (ə. c.) hüzuru dövründə fitr və qurban bayramı namazları. Nə qədər ki, imam qeybdədir, bu namazı qılmaq müstəhəbdir. Onu həm fərdi, həm də camaatla qılmaq olar.

Adı çəkilən namazlar haqqında ətraflı məlumat almaq üçün şəri məsələlər risaləsinə müraciət edə bilərsiniz.

**Sual:** Bir şəxs namaz vaxtının çatmasına əmin olub namazını qılır. Sonradan məlum olur ki, namazın vaxtı olmayıbmış. Onun vəzifəsi nədir?

**Cavab:** Namazını yenidən öz vaxtında qılmalıdır.

**Sual:** Əgər namaz qılan şəxs günorta namazı gedişində yada salarsa ki, bu namazı qılıbmış, onun vəzifəsi nədir?

**Cavab:** Həmin namazı saxlayıb, ikindi namazı qılmalıdır. Həmçinin, əgər şam namazı arasında başa düşsə ki, şam namazını qılıb.

**Sual:** Əgər ikindi namazı qıldığı vaxt yadına düşərsə ki, günorta namazını qılmayıb, vəzifəsi nədir?

**Cavab:** Namazının niyyətini dəyişməli, onu günorta namazı niyyəti ilə davam etdirməlidir. Namaz başa çatdıqdan sonra ikindi namazına başlamalıdır. Əgər xüftən namazında dördüncü rükuya getməzdən öncə yadına düşsə ki, şam namazını qılmayıb, eyni qaydada hərəkət etməlidir.

# Doqquzuncu fəsil

## *Namazın bəzi şərtləri və müqəddimələri*

Qeyd etdik ki, insan xüzu-xüşulu olmalı, tam şəkildə diqqətini Allaha yönəltməlidir. Eyni zamanda zahiri paklıq, bədənin təmizliyi gözlənilməli, dəstəmaz, qüsl və təyəmmüm hökmlərinə əməl olunmalıdır. Bütün bunlardan əlavə namazın müqəddimə şərtləri ödənməlidir. Namaz qılan şəxs libası, namaz qıldığı yer və qiblə ilə bağlı şərtləri yerinə yetirməlidir. Bütün bunlar insanın namazdan daha çox bəhrələnməsi ilə nəticələnir. Namazın müqəddimələri ilə bağlı bəzi şərtləri nəzərdən keçirəcəyik.

### *Namaz qılan şəxsin libası*

Namaz qılan şəxsin libası ilə bağlı hökmlərdən aydın olur ki, İslam dini paklıq və başqalarının haqlarına nə dərəcədə diqqətlidir. Əgər insan bilərəkdən murdar və ya qəsb olunmuş bir libasla namaz qılarsa, onun namazı batildir. Namaz nəzərdə tutulmuş şərtlər ödənməklə qılınarsa, müsəlmanlar arasında zülmə yer qalmaz, kimsənin haqqı tapdanmaz. Həmin şərtləri nəzərdən keçirək:

1. Namaz qılan kişinin libası elə olmalıdır ki, namaz qıldığı vaxt ayıb yeri örtülsün. Hətta onu bir şəxs görmürsə

göbəkdən dizədək bədəninin örtülməsi yaxşıdır. Namaz qılan qadının libası onun bütün bədənini örtməlidir. Vacib ehtiyata əsasən ayaqlarının altı da örtülməlidir. Əslində qadının namaz əsnasında üzünün dəstəmazda yuyulan hissəsini, əllərini əl topuğunadək, ayaqlarını ayaq topuğunadək örtməsi vacib deyil. Amma əminlik olsun deyə vacib həddən bir qədər artıq örtünməsi lazımdır.

2. Namaz qılanın libası pak olmalıdır. Bilərəkdən murdar libasla qılınan namaz batildir.

3. Namaz qılanın libası halal olmalıdır. Əgər bir şəxs əynindəki libasın haramlığını bilərəkdən bu libasla namaz qılarsa, namazını təzələməlidir. Hətta onun libasında qəsbi sap, düymə olarsa, bu libasla namaz qıla bilməz.

4. Namaz qılanın libası atıcı qanı olan və qeyri-şəri qaydada kəsilmiş və ya leş heyvanın hissələrindən hazırlanmamalıdır. Ətinin halal və ya haramlığından asılı olmayaraq ölmüş heyvanın üzvləri olan libasla namaz qılmaq olmaz. Müstəhəb ehtiyata əsasən atıcı qanı olmayan heyvan ölüsünün hissələrindən libasla da namaz qılınmamalıdır. Balığı misal göstərmək olar. Amma əti halal heyvan leşinin tükü kimi ruhsuz hissələrdən libasla namaz qılmaq olar.

5. Namaz qılanın libası canavar və tülkü kimi əti haram heyvanların əzalarından olmamalıdır. Namaz qılanın üstündə pişik kimi əti haram heyvanın tükü də olmamalıdır. Belə bir tükün bədən və ya libasa yapışıb qalması da caiz deyil. Vacib ehtiyata əsasən, atıcı qanı olmayan heyvanların da (məsələn, ilanın) əzaları ilə namaz qılınmamalıdır.

6. Namaz qılan kişidirsə, onun libası ipəkdən ola bilməz. Amma qadın ipək libasla namaz qıla bilər.

7. Namaz qılan şəxs kişidirsə, üzərində qızıl olan libasla namaz qıla bilməz.

**Sual:** Əgər namaz qılan şəxs namaz əsnasında yetərincə örtünmədiyini görsə vəzifəsi nədir?

**Cavab:** Dərhal zəruri həddə örtünməlidir və vacib ehtiyata əsasən namazı bitirib onu yenidən qılmalıdır.

**Sual:** Əgər insan namazdan sonra lazımı həddə örtünmədiyini bilsə vəzifəsi nədir?
**Cavab:** Namazı düzgündür.

**Sual:** Əgər libas və ya bədənin murdar olduğu namazdan sonra bilinərsə, vəzifə nədir?
**Cavab:** Qılınmış namaz düzgündür, müstəhəb ehtiyata əsasən vaxt çatarsa yenidən qılınmalıdır.

**Sual:** Bir şəxs libasının və ya bədəninin murdar olduğunu bildiyi halda bunu unutmuşsa qıldığı namazın hökmü nədir?
**Cavab:** Qıldığı namaz batildir. Əgər namaza vaxt qalırsa, onu yenidən qılmalıdır. Vaxt keçmişsə həmin namazın qəzasını qılmaq lazımdır.

**Sual:** Bir şəxs murdarlanmış libasını suya çəkib onun paklığına əmin olur. Həmin libasla namazı qılıb qurtardıqdan sonra libasın paklanmadığı məlum olur. Bu namazın hökmü nədir?
**Cavab:** Vacib ehtiyata əsasən, həmin namaz yenidən qılınmalıdır. Vaxtı keçmişsə qəzası yerinə yetirilməlidir.
**Sual:** Əgər pişik kimi əti haram heyvanın ağız suyu və ya rütubəti namaz qılanın libasına dəyərsə, bu namazın hökmü nədir?
**Cavab:** Əgər həmin rütubət namaz bitənədək yaş qalarsa, namaz batildir. Amma uyğun rütubət namaz zamanı quruyarsa və onun eyni, özü aradan gedərsə, namaz düzgündür.

**Sual:** Namaz qılanın libasında müsəlman şəxsin tükünün, tərinin və ya ağız suyunun olması namazı batil edirmi?
**Cavab:** Xeyir.

**Sual:** Kişinin qızıldan zinət əşyası kimi istifadə etməsinin hökmü nədir?

**Cavab:** Boyunbağı, üzük, saat kimi qızıl əşyalardan istifadə bütün hallarda kişilər üçün haramdır və bu əşyalarla qılınan namaz batildir. Vacib ehtiyata əsasən, qızıldan düzəldilmiş eynəkdən də istifadə etmək olmaz. Amma qadınlar istənilən halda qızıl əşyalardan istifadə edə bilərlər.

**Sual:** Əgər bir kişi qızıl üzük yaxud digər bir qızıl əşyalarını istifadə etmədən üzərində gəzdirərsə məsələn, cibində qızıl üzük varsa, bu halda namaz qıla bilərmi?

**Cavab:** Bəli qıla bilər. Belə bir vəziyyətdə qılınan namazın nöqsanı yoxdur.

**Sual:** Kişinin qızıl yox, platin kimi metaldan hazırlanmış zinətdən istifadə etməsinin eybi varmı?

**Cavab:** Xeyir, eybi yoxdur.

**Sual:** Şöhrət libaslarının hökmü nədir? Belə libaslarla namaz qılmaq olarmı?

**Cavab:** Şöhrət libası dedikdə parçasına, rənginə, tikilişinə görə xalqın diqqətini cəlb edən və barmaqla göstərilən libaslar nəzərdə tutulur. Məsğərəyə səbəb olan, şəxsiyyəti alçaldan libaslar da belədir. İnsan Bu qəbil libaslardan çəkinməlidir. Amma həmin libaslarla qılınan namaz batil deyil.

**Sual:** Qadın kişi libası, kişi qadın libası, geyə bilərmi? Bu qəbil geyimlə namaz qılmaq olarmı?

**Cavab:** Əgər həmin libas şəxsiyyəti alçaldarsa ondan çəkinmək lazımdır. Amma bu qəbil libaslarla qılınan namaz batil deyil.

**Sual:** Namazda nələrdən istifadə etmək müstəhəbdir?

**Cavab:** Əba, ağ libas geymək, təmiz libaslardan istifadə etmək müstəhəbdir. Namazda ətirlənmək, barmağa əqiq üzük salmaq da müstəhəbdir.

**Sual:** Hansı libaslarla namaz qılmaq məkruhdur?

**Cavab:** Qara, çirkli, dar, üzərində insan və ya heyvan şəkli olan libaslarla, şərabxorun libası ilə namaz qılmaq məkruhdur. Əhli-beytə əzadarlıq üçün qara libas geyən insan bu libasla namaz qılsa məkruh deyil. Düymələri açıq vəziyyətdə, üzərində surət olan üzüklə namaz qılmaq məkruhdur.

## *Namaz qılanın yeri ilə bağlı şərtlər*

Namaz qılınan yerlə bağlı şərtlər mövcuddur:

1. Qəsbi olmasın; qəsbi yerdə qılınan namaz batildir. Qəsbi yerdə insan öz xalçasının üzərində də namaz qılmamalıdır.

2. Namaz qılınan yer hərəkətsiz olmalıdır. Nəqliyyat vasitələrində hərəkət zamanı tərpənişlərlə qılınan namaz batildir.

3. Namaz qılınan yerdə dayanmaq və ya oturmaq haram sayılmamalıdır. Əgər bir xalçanın üzərində Allahın adı və ya Quran ayələri yazılmışsa onun üzərində dayanmaq və ya oturmaq olmaz. Belə bir yerdə qılınan namaz təzələnməlidir.

4. Namaz qılınan yerdə rahatlıqla qalxmaq, rükuya və səcdəyə getmək mümkün olmalıdır.

5. Bir şəxs murdarlanmış yerdə namaz qılırsa, həmin yer namaz qılanın bədininə və ya libasına sirayət edəcək həddə rütubətli olmamlıdır.

6. Namaz qılınan yer hamar olmalıdır. Əgər namaz qılanın alnını qoyduğu yer dizlərini və ayaqlarını qoyduğu yerdən dörd bağlı barmaqdan çox alçaq və ya hündür olarsa, orada namaz qılınmamalıdır.

7. Məsumların qəbrindən öndə namaz qılınmamalıdır. Əgər qəbirlə namaz qılınan yer arasında divar kimi arakəsmə

varsa, eybi yoxdur. Namaz qılınan yer məsumların qəbrindən yetərincə uzaqsa, uyğun vəziyyətdə namaz qılmaq olar.

## *Namaz qılınan yerlə bağlı müstəhəb və məkruh hallar*

Bəzi yerlərdə namaz qılmaq müstəhəbdir və həmin yerlərdə qılınan namazın savabı çoxdur:

1. Məscidlər; İslam dinində namazların məsciddə qılınması çox tövsiyə edilir. Məkkədəki "Məscidül-Həram" məscidində qılınan namazın savabı daha çoxdur. Mədinədə Məscidün-Nəbiyy, İraqda Kufə məscidi, Fələstində Beytül-Müqəddəs və hər şəhərin came məscidi namaz üçün daha münasibdir. Bu məscidlərdən sonra savab baxımından məhəllə məscidi üstündür.

2. Namaz üçün imamların pak hərəmləri üstün sayılır. Bu hərəmlərdə qılınan namaz başqa məscidlərdə qılınan namazdan üstündür. Əmirəl-möminin Əli ibn Əbu-Talibin (ə) hərəmində qılınan namazın savabı 200 min namazın savabı qədərdir.

Amma bəzi yerlərdə namaz qılmaq məkruhdur və belə yerlərdə namazın savabı azdır:

1. Hamamda;
2. Başqa bir insanın qarşısında;
3. Ruhu olan bir şeyin əksi qarşısında (arada pərdə yoxsa);
4. Canlının əksi olan otaqda;
5. Od və çıraq qarşısında;
6. Qəbirlərin qarşısında, qəbirlər arasında, ümumiyyətlə qəbristanlıqda;
7. Gəliş-gediş olan küçələrdə; əgər gəliş-gedişə mane olarsa burada qılınan namaz batildir.

**Sual:** Bir şəxsi məsciddə namaz qıldığı yerdən qaldırıb onun yerində namaz qılsalar, bu namazın hökmü nədir?

**Cavab:** Vacib ehtiyata əsasən bu namaz düzgün deyil və həmin namazı qəsbi olmayan başqa bir yerdə qılmaq lazımdır.

**Sual:** Əgər kişi ilə qadın arasında arakəsmə yoxsa, qadın kişidən öndə namaz qıla bilərmi?

**Cavab:** Məhrəm və ya naməhrəm olmasından asılı olmayaraq, vacib ehtiyata əsasən qadın elə dayanmalıdır ki, ətrafdakılar onun kişidən öndə dayandığını deməsinlər. Daha yaxşı olar ki, qadının səcdə yeri kişinin durduğu yerdən bir qədər arxada olsun. Əlbəttə ki, Məscidül-Həramda namaz qılan qadınlar və kişilərin bu şərtə riayət etməsi vacib deyil.

**Sual:** Naməhrəm qızla oğlan gəliş-gediş olmayan bir yerdə namaz qıla bilərlərmi?

**Cavab:** Onların belə bir yerdə olması caiz deyil. Amma namaz qılarlarsa, qıldıqları namaz batil deyil.

**Sual:** Haram musiqi və rəqs səsləri eşidilən yerdə namaz qılmaq düzgündürmü?

**Cavab:** Həmin səslərə qulaq asmaq olmaz. Amma namaz qılmağın eybi yoxdur.

## *Qiblə sıraların vəhdət amilidir*

İslam peyğəmbəri (s) peyğəmbərliyə çatdıqdan 13 il sonra, hətta hicrətdən bir neçə ay ötənədək Allahın əmri əsasında üzü Beytül-Müqəddəsə namaz qılırdı. Sonra qiblə dəyişdi, müsəlmanlara əmr olundu ki, üzü Kəbəyə namaz qılsınlar.

Mədinədə üzü Beytül-Müqəddəsə nə vaxtadək namaz qılınması ilə bağlı təfsirçilər arasında fikir ayrılığı var. Bəziləri 7 ay, bəziləri 17 ay üzü Betül-Müqəddəsə namaz qılındığını bildirirlər. Hər halda həmin müddət ərzində yəhudilər müsəlmanları məsğərəyə qoyur, deyirdilər: “Sizin müstəqilliyiniz yoxdur, bizim qibləyə doğru namaz qılırsınız. Məlum olur ki, biz haqlıyıq!”

Yəhudilərin bu rişxəndləri İslam peyğəmbəri (s) və müsəlmanları çox narahat edirdi. Yəhudilər Allah əmrini yerinə yetirən bu insanlardan heç vəchlə əl çəkmirdilər. Həzrət Peyğəmbər (s) gecələr səmaya üz tutur, sanki vəhy gözləyirdi. Bir müddət keçəndən sonra, nəhayət, qiblənin dəyişməsi ilə bağlı vəhy nazil oldu. Həmin vaxt Peyğəmbər (s) Bəni Salim məscidində üzü Beytül-müqəddəsə namaz qılırdı. Cəbrailə əmr olundu ki, onun qolundan tutub üzünü Kəbəyə çevirsin. Müsəlmanlar bu vəziyyəti görüb dərhal üzlərini Peyğəmbərlə (s) eyni tərəfə göndərdilər. Kəbə cənubda olduğu halda Beytül-Müqəddəs təqribən şimalda idi.

Qiblənin dəyişmə səbəblərindən biri də bu ola bilərdi ki, Kəbə evi həmin vaxtlar müşrik bütlərinin mərkəzinə çevrilmişdi. Öncə müsəlmanlara əmr edildi ki, üzü Beytül-müqəddəsə namaz qılsınlar. Beləcə müsəlmanlar müşriklərdən seçildilər.

Biz müsəlmanlar bütün vacib və müstəhəb namazlarımızı üzü Kəbəyə qılmalıyıq. Heyvanları da kəsərkən Kəbəni qiblə götürməliyik.

**Məsələ 1.** Əgər namaz qılan şəxs ayaqüstə namaz qılırsa, onun haqqında "üzüqibləyə dayanıb" deyilməsi kifayətdir. Yəni bədənin ön tərəfi, üzü və sinəsi üzüqibləyə olmalıdır. Dizlər və ayaq barmaqlarının ucu qibləyə tərəf olması zəruri deyil.

**Məsələ 2.** Üzürlü səbəbdən oturaq vəziyyətdə namaz qılan şəxs dizlərini üzü qibləyə tutmaya da bilər. Onun üzü, sinəsi, eləcə də qarın nahiyəsi üzüqibləyə olmalıdır.

**Məsələ 3.** Əgər bir şəxs uzanmış vəziyyətdə namaz qılmağa məcburdursa, sağ tərəfi üzərində uzanmalı və bədəninin ön tərəfi qibləyə doğru olmalıdır. Əgər bacarmırsa yenə də bədəninin ön hissəsini qibləyə doğru saxlamaqla sol tərəfi üzərində uzanmalıdır. Əgər arxası üstdə uzanmağa məcburdursa, ayaqlarının altı üzüqibləyə olmalıdır.

**Məsələ 4.** Müstəhəb namazı yol gedə-gedə, süvari halda qıla bilər. Bu iki halda müstəhəb namaz qılarkən insanın üzüqibləyə olması vacib deyil. Amma sabit vəziyyətdə namaz qılırsa, ehtiyatən üzünü qibləyə tutmalıdır.

**Məsələ 5.** İnsan qibləni tapmaq üçün çalışmalıdır. Əgər qiblənin hansı tərəfdə olduğuna əmin deyilsə, məscidlərin mehrabı, müsəlman qəbirləri əsasında qibləni müəyyənləşdirməlidir. Əgər yenə də qiblə müəyyənləşməsə, istədiyi tərəfə namaz qıla bilər. Amma ehtiyat budur ki, namaz dörd tərəfə qılınsın.

# Onuncu fəsil

## *Nəzmullah - azan və iqamə şüarları*

Bütün dövrlərdə bütün millətlərin fərdləri ayağa qaldırmaq, onlarda fərdi və ictimai məsuliyyətlər yaratmaq üçün xüsusi şüarları olmuşdur. Məsələn, məsihilər insanları kilsəyə dəvət etmək üçün kilsə zəngləri çalmışlar. Amma müsəlmanların namaza çağırışı olan azan daha yetərli və daha təsirlidir. Allah adı ilə başlayan bir şüardan uca şüar nə ola bilər?! Azanda Allahın yeganəliyinə, həzrət Məhəmmədin (s) peyğəmbərliyinə şəhadət verilir, insanlar namaza, qurtuluşa dəvət edilir. Azanın bütün cümlələri məzmunlu və tərbiyəvidir.

Dini rəvayətlərdə azan deyilməsi təkidlə vurğulanır. Azan deyənlər üçün uca axirət məqamı, böyük savab nəzərdə tutulur. Həqiqətən də, azanın məqamını ucaldan onun Allaha doğru, ibadətə çağırış olmasıdır. Namaz vaxtı ardıcıl şəkildə hər gün minarələrdən ucalan azan səsi azadlıq nidası, həyatverici bir nəsimdir. Azan bədxahları narahat edir, onları sıxıntıya salır. Tanınmış ingilis siyasətçilərindən olan Qladistonun azanla bağlı söylədikləri deyilənləri bir daha təsdiqləyir. O deyir: "Nə qədər ki Məhəmmədin adı minarələrdən ucalır, Kəbə yerindədir, Quran müsəlmanlara yol göstərir, İslam məmləkətlərində bizim siyasətimizin möhkəmlənməsi mümkünsüzdür."[1]

---

*1. "Təfsiri-nümunə", c. 4, s. 438*

Amma dərin məzmuna malik olan azanı onun batini gözəlliyinə müvafiq olaraq gözəl səslə söyləmək lazımdır. Azan deyənin səsinin pisliyinə xatir bu ilahi şüarı təsirdən salmaq olmaz. Sədi Şirazi qısa bir hekayətdə uyğun nöqtəni işıqlandırır:

"Xoşagəlmaz səsi olan bir şəxs ucadan Quran oxuyurdu. Bir hal əhli ona yaxınlaşıb dedi: "Sənin aylıq haqqın nə qədərdir?" Həmin şəxs dedi: "Heç nə qədər." Hal əhli söylədi: "Bu zəhmətini neçəyə satırsan?" Quran oxuyan dedi: "Mən onun əvəzini Allahdan istəyirəm." Hal əhli söylədi: "Allahdan istəməyinə dəyməz!"

*Pis səsinlə Quran oxuyaraq sən*
*İslama gələni salma həvəsdən.*[1]

Əlbəttə ki, azan və iqamə işrət məclislərindəki avazla oxunmamalıdır.

Bəli, vacib namazlardan öncə, istər vətəndə, istərsə səfərdə, istər əda namazında, istərsə də qəza namazında azan və iqamə söyləmək həm qadınlar, həm də kişilər üçün müstəhəbdir.

## *Azanın mətni*

Azan 18 cümlədən ibarətdir:

1. Dörd dəfə "Əllahu Əkbər", yəni Allah vəsfə gələn hər şeydən böyükdür;

2. İki dəfə "Əşhədu ənla ilahə illəllah", yəni şəhadət verirəm ki, yeganə Allahdan savayı məbud yoxdur;

3. İki dəfə "Əşhədu ənnə Muhəmmədən rəsulullah", yəni şəhadət verirəm ki, Məhəmməd Allahın rəsuludur;

4. İki dəfə "Həyyə ələs səllat", yəni tələs namaza doğru;

---

*1. "Gülüstan", 4-cü bab, sükutun faydaları, s. 187, hekayat 14*

5. İki dəfə “Həyyə ələl fəlah”, yəni tələs qurtuluşa doğru;

6. İki dəfə “Həyyə əla xəyril-əməl”, yəni tələs ən yaxşı əmələ;

7. İki dəfə “Əllahu əkbər”;

8. Sonda iki dəfə “La ilahə illəllah”, yəni yeganə Allahdan başqa məbud yoxdur.

## *İqamənin mətni*

İqamə 17 cümlədən ibarətdir. Əgər azanın əvvəlində “Əllahu Əkbər” dörd dəfə deyilirsə, iqamənin əvvəlində iki dəfə deyilir. Azandakından fərqli olaraq iqamədə “Həyyə əla xəyril əməl” cümləsindən sonra iki dəfə “qədqamətis səlat” söylənilir. Azanın sonunda “La ilahə illəllah” iki dəfə deyilirsə, iqamənin sonunda bir dəfə deyilir.

**Məsələ 1.** “Əşhədu ənnə əliyyən vəliyyullah” cümləsi azan və iqamənin mətnindən deyil. Amma “Əşhədu ənnə Muhəmmədun rəsulullah” dedikdən sonra Allaha yaxınlıq məqsədi ilə həmin cümləni demək yaxşıdır.

**Məsələ 2.** Azan və ya iqamənin cümlələri arasında adi sayılmayacaq fasilə verilməməlidir. Əks təqdirdə ona yenidən başlamaq lazımdır.

**Məsələ 3.** Azan və iqamə arasında fasilə çox olmamalıdır. Əgər fasilə çox olarsa, onları böyük fasiləsiz yenidən demək müstəhəbdir.

**Məsələ 4.** Azan iqamədən öncə deyilməlidir. İqamədən sonra azan demək düzgün sayılmır.

**Məsələ 5.** Azan deyən şəxsin azan deyərkən üzüqibləyə dayanması, dəstəmaz və qüsllü olması, əllərini qulaqlarına

qoyması, uca səslə söyləməsi, səsini uzatması, cümlələr arasında fasilə verməsi müstəhəbdir.

**Məsələ 6.** İqamə gedişində insan ayaq üstə dayanmalı, dəstəmazlı olmalıdır. Azan deyənin öz bədənini aram saxlaması müstəhəbdir.

**Məsələ 7.** İqaməni azandan asta səslə demək müstəhəbdir. Onun cümlələrini bir-birinə yapışdırmamaq yaxşıdır. Amma iqamənin cümləlləri arasında azanın cümlələri arasındakı qədər fasilə verilməməlidir.

**Məsələ 8.** İnsan savab qazanmaq ümidi ilə azandan sonra və iqamədən öncə addım atıb bir qədər otura bilər, səcdəyə gedə bilər, zikr və dua oxuya bilər, bir qədər sakit dayana bilər.

**Məsələ 9.** Azan üçün seçilən adamın ədalətli, vaxt tanıyan, uca səsli olması, eləcə də azanı hündür bir yerdən verməsi müstəhəbdir.

**Məsələ 10.** Camaat namazında azan və iqaməni kişi deməlidir. Amma əgər qadın camaat namazı qılanlara məhrəm olarsa, onun dediyi azan həmin insanlar üçün bəs edər. Amma müstəhəb ehtiyata əsasən, həmin azanla kifayətlənmək olmaz.

**Məsələ 11.** Əgər camaat namazı üçün azan və iqamə söylənilərsə, həmin cəmiyyətlə namaz qılmaq istəyən şəxs özü üçün ayrıca azan və iqamə söyləməməlidir.

**Məsələ 12.** Cəmiyyət namazı üçün məscidə gedən şəxs cəmiyyət namazının başa çatdığını görərsə, nə qədər ki, cəmiyyət namazının sıraları dağılmayıb vacib ehtiyata əsasən öz namazı üçün azan və iqamə deməməlidir.

**Məsələ 13.** Əgər günorta və ikindi, eləcə də şam və xüftən namazları ardıcıl və ya az fasilə ilə qılınarsa, ikindi və xüftən namazları üçün azan deməmək olar. Amma iqamə söylənilməlidir. Əlbəttə ki, namazdan sonra dua oxunması, nafilə qılınması fasilə sayılmır.

**Məsələ 14.** Uşağın dünyaya gəldiyi ilk gün və ya göbək bəndi düşmədikdən öncə onun sağ qulağına azan, sol qulağına iqamə demək müstəhəbdir.

# On birinci fəsil

## *Namazda vacib olanlar*

Namazın müxtəlif hissələri var, onlardan bəziləri rüku kimi vacib, bəziləri qunut kimi müstəhəbdir.

Namazda vacib olan əməllər də iki hissəyə bölünür. Onlardan bəziləri rükndür, bəziləri rükn deyil.

## *Namazın rüknləri*

Rükn namazda vacib olanlardandır, onun bilərəkdən və ya səhvən artırılması və ya tərk olunması namazı batil edir. Rüknlərlə tanış olaq.

***1. Niyyət***

Niyyət dedikdə insanın bir iş üçün qərara gəlməsi nəzərdə tutulur. Niyyəti dilə gətirmək vacib deyil. Sadəcə, insan nə iş gördüyünü bilməlidir.

Namaz qılan şəxs namaza Allaha yaxınlaşmaq, Onun əmrinə itaət məqsədi ilə başlamalıdır. Bir şəxs özünü camaata göstərmək üçün namaz qılarsa, onun namazı batildir. Hətta namazın bir hissəsi Allahdan qeyrisinə xatir qılınarsa, namaz batil olar.

**Sual:** Niyyət edərkən namazının rəkətlərinin sayını müəyyənləşdirmək lazımdırmı? Məsələn, "Allaha yaxınlaşmaq üçün iki rəkət sübh namazı qılıram" söyləmək vacibdirmi?

**Cavab:** Rəkətlərin sayını müəyyənləşdirmək vacib deyil. Amma namaz qılan bilməlidir ki, hansı namazı qılır. Onun vacib və ya müstəhəb namaz qıldığını bilməsi də zəruridir.

***2. Qiyam***

Qiyam dedikdə farağat, düz dayanış, əyilməmək nəzərdə tutulur. Təkbirətul-ehram deyərkən qiyam halı, eləcə də rükudan öncəki, rükuya bitişik qiyam namazın rüknlərindən sayılır. Amma həmd-surə oxuyarkən, eləcə də rükudan qalxdıqdan sonra qiyam vacib olsa da, rükn sayılmır. Bu qiyamlar bilməyərəkdən yaddan çıxarsa, namaz düzgündür.

**Məsələ 1.** Namaz qılan şəxsin bədəni qiyam zamanı aram dayanmalı, vacib ehtiyata əsasən divar və ya əsa kimi bir şeyə söykənməməlidir. Çıxılmaz hallar istisnadır.

**Məsələ 2.** Qiyam vəziyyətində hər iki ayağın yerə toxunması vacib ehtiyat sayılır. Amma bədənin ağırlığını hər iki ayağa salmaq vacib deyil.

**Məsələ 3.** Qiyam zamanı fəqərə sütununu, boyunu düz saxlamaq, çiyinləri salmaq, əl ovuclarını budların üzərinə qoymaq, barmaqları bir-birinə yapışdırmaq, səcdə yerinə baxmaq, namazı xüzu və xüşu ilə qılmaq, ayaqların birini qabağa, birini geriyə qoymamaq, ayaqlar arasında üç barmaqdan bir qarışadək ara saxlamaq müstəhəbdir. Qiyam zamanı əlləri və barmaqları hərəkət etdirməmək müstəhəb ehtiyat sayılır.

**Məsələ 4.** Namaz qılan şəxs namaz vaxtı azca irəliyə və geriyə getmək istəsə, bədənini azca sağa və ya sola hərəkət etdirsə, hərəkət zamanı bir şey danışmamalıdır. Yalnız bədən aramlaşdıqdan sonra namazı davam etdirmək olar.

**Məsələ 5.** Əgər namazqılan namaz arasında ayaq üstə qala bilməsə oturmalıdır. Əgər oturmaq da mümkün deyilsə, IX fəsildə deyildiyi qaydada uzanmalıdır. Amma nə qədər ki bədən aramlaşmayıb namazdan nə isə oxumaq olmaz.

**Məsələ 6.** Müstəhəb namazları oturaq halda qılmaq olar. Amma yaxşı olar ki, iki rəkət oturaq namaz bir rəkət ayaqüstü namaz sayılsın.

***3. Təkbirətul-ehram***

Hər bir namazın başlanğıcında “Əllahu Əkbər” deyilməsi təkbirətul-ehram adlanır. Allah və Əkbər sözləri, eləcə də onların hərifləri ardıcıl şəkildə deyilməlidir. Təkbirətul-ehram və ya digər təkbirləri deyərkən əlləri qulaqlar və ya üz bərabərində qaldırmaq müstəhəbdir.

***4. Rüku***

Namaz qılan şəxs 1-ci rəkətdə həmd-surədən, 2-ci rəkətdə qunutdan, 3-cü və 4-cü rəkətlərdə təsbihati-ərbəədən sonra rüku niyyəti ilə qabağa doğru, əllərinin içi dizlərinə çatanadək qabağa əyilməlidir. Ehtiyata əsasən əllər dizlərə qoyulmalıdır.

Rükuda aşağıdakı əməlləri yerinə yetirmək müstəhəbdir:

1. Rükuda dizləri arxaya çəkmək, beli düz saxlamaq, boyunu uzatmaq, bel ilə bərabər saxlamaq;
2. İki ayaq arasında yerə baxmaq;
3. Rükunun zikrindən öncə və ya sonra salavat göndərmək.

**Sual:** Əgər bir şəxsin qolları və dizləri başqalarından fərqlənərsə, məsələn, qolları qısa olarsa, rükuda nə qədər əyilməlidir?

**Cavab:** Adi insanlar rükuda necə əyilirsə, o qədər əyilsin.

**Sual:** Əgər namaz qılan şəxs rükunu unudub səcdəyə çatmamışdan qabaq xatırlasa, vəzifəsi nədir?

**Cavab:** Qalxıb düz dayanmalı, sonra rükuya getməlidir. Əgər yerə əyilmiş vəziyyətdən rüku vəziyyətinə gəlsə rükuya bitişik qiyamı yerinə yetirmədiyi üçün namazı batildir.

***5. Səcdələr***

Namaz qılan şəxs vacib və müstəhəb namazların hər rəkətində rükudan sonra iki səcdə yerinə yetirməlidir. Səcdədə alın, əllərin içi, iki diz, ayaqların baş barmaqları yerə və ya səcdə ediləsi şeylərə toxunmalıdır.

Yerə, ağac və yarpaq kimi yerdən cücərən və yeməli, geyməli olmayan şeylərə, mərmər və qaradaş kimi mədən daşlarına səcdə etmək olar. Səcdə üçün ən üstün şey imam Hüseynin (ə) türbəti, ondan sonra torpaq, daş və otdur.

Səcdə edilən şeylə bağlı müəyyən şərtlər var:

1. Səcdə edilən şey pak olmalıdır. Amma murdarlanmış xalçanın üzərinə qoyulmuş möhürə, bir üzü murdarlanmış möhürün pak üzünə səcdə etməyin eybi yoxdur.

2. Vacib ehtiyata əsasən səcdə edilən şey heç olmaya bir dirhəm boyda olmalıdır.

3. Neft məhsullarına, geyim əşyalarına, buğda və arpa kimi yeyilən şeylərə, qızıl və gümüş kimi mədəndən çıxarılan şeylərə səcdə etmək olmaz.

4. Bir şeyin üzərində alın aram dayanmırsa, ona səcdə etmək olmaz. Amma əgər döşək üzərindəki möhürə alını qoyduqdan sonra bir qədər hərəkət edib dayanırsa, ona səcdə etmək olar.

5. Alınla səcdə edilən şey arasında maneə olmamalıdır. Möhür üzərindəki çirk alının möhürə toxunmasına mane olursa ona edilən səcdə batildir. Amma təkcə rəngi dəyişmiş möhürə səcdə etmək olar.

Səcdədə bəzi əməllər müstəhəbdir:

1. Səcdəyə gedən kişi öncə əllərini, qadın isə öncə dizlərini yerə qoysa yaxşıdır.

2. Alından əlavə burunun da səcdə edilən şeyə qoyulması yaxşıdır.

3. Səcdə halında əl barmaqları bir-birinə birləşmiş halda üz bərabərində qoyulur. Belə ki barmaqların ucu üzü qibləyə qalır.

4. Səcdəni uzatmaq, səcdədə salavat göndərmək müstəhəbdir.

5. Səcdədə dua edib Allahdan nə isə istəmək müstəhəbdir. Amma səcdə halında Quran oxumaq məkruhdur.

**Sual:** Allahdan qeyrisi üçün səcdə etməyin hökmü nədir?

**Cavab:** Belə bir səcdə haramdır. Peyğəmbər (s) və imamların qəbri kənarında onlar üçün alını səcdəyə qoymaq olmaz. Amma bu səcdə Allaha şükr üçündürsə, eybi yoxdur. Bununla belə bu işdən çəkinmək yaxşıdır.

**Sual:** Əgər səcdə zamanı ixtiyarsız olaraq alın səcdədən qalxarsa nə etmək lazımdır.

**Cavab:** Bu halda yenidən alını səcdə yerinə qoymamaq lazımdır. Səcdə zikrinin deyilib-deyilməməsinin bu hökmə təsiri yoxdur. Əgər ixtiyarsız olaraq alın səcdə yerinə qoyulsa onun səcdə yeri ilə təmasları üst-üstə bir səcdə sayılır. Belə bir halda səcdənin zikri deyilməmişsə, onu demək lazımdır.

**Sual:** Səcdənin zikri deyilərkən bədənin yerə toxunmalı olan yeddi üzvündən biri qalxarsa nə etməli?

**Cavab:** Əgər bilərəkdən səcdə zikri deyilərkən yeddi üzvdən biri yerdən qalxarsa ehtiyata əsasən namazı bitirib, onu yenidən qılmaq lazımdır. Əgər səcdə zikrinə başlanılmayıbsa, alından savayı o biri üzvləri yerdən qaldırıb və yenidən yerə qoyarsa eybi yoxdur. Əgər səcdənin zikri bitməmiş səhvən alnını səcdə yerindən götürərsə yenidən səcdə yerinə qoya bilməz, bəlkə bunu bir səcdə saymaq lazımdır. Amma digər üzvlər səhvən yerdən qaldırılarsa vacib ehtiyata əsasən onları yenidən yerə qoyub zikr demək lazımdır.

**Sual:** Əgər bir şəxs səcdənin zikrini səcdəyə çatmamış və ya səcdədən qalxan halda deyərsə, onun vəzifəsi nədir?

**Cavab:** Əgər alın səcdə yerinə çatmamış və bədən aramlaşmamış bilərəkdən səcdə zikri deyilərsə, namaz batildir. Səcdə zikri qurtarmamış vəziyyətdə də bilərəkdən səcdədən qalxmaq namazı batil edir. Amma bilməyərəkdən səcdəyə çatmamış zikrə başlayarsa, səcdəyə çatdıqdan və bədən aramlaşdıqdan sonra zikri yenidən deməlidir. Əgər bilmədən zikr başa çatmamış səcdədən qalxarsa, eybi yoxdur.

**Sual:** Namaz qılan şəxs 1-ci səcdədən qalxdıqdan sonra dərhal 2-ci səcdəyə gedə bilərmi?

**Cavab:** Xeyir. 1-ci səcdədən qalxdıqdan sonra bədənin aramlaşması üçün bir qədər oturmaq lazımdır. Yalnız bundan sonra 2-ci səcdəyə getmək olar.

**Sual:** Kağıza səcdə etmək olarmı?

**Cavab:** Əgər kağız ağac və saman kimi şeylərdən düzəldilmişsə onlara səcdə etmək olar. Amma səcdə üçün yararsız sayılan şeylərdən düzəlmiş kağıza səcdə etməyin eybi var.

**Sual:** Əgər bir şəxsin səcdə üçün nəzərdə tutulan şeylərə əli çatmasa və ya hər hansı səbəbdən onlardan istfadə edə bilməsə, necə səcdə etməlidir?

**Cavab:** Əgər vaxt çoxdursa, namazı dayandırmalı və səcdə ediləsi şey tapdıqdan sonra namazı yenidən qılmalıdır. Əgər vaxt azdırsa öz libasına səcdə edə bilər. Əgər libası da yoxdursa, əlinin arxasına səcdə etsin.

**Sual:** Əgər birinci səcdədə möhür alına yapışarsa həmin vəziyyətdə bilərəkdən 2-ci səcdəyə getmək olarmı?

**Cavab:** Xeyir. Möhürü alından ayırmaq lazımdır.

## *Namazın rükn olmayan vacib əməlləri*

Namazın bilərəkdən artırılıb-əskildildikdə onu batil edən, bilməyərəkdən artırılıb əskildildikdə onu batil etməyən əməlləri rükn olmayan vaciblər adlanır. Rükn olmayan vacib əməllərlə tanış olaq:

***1. Qiraət***

Gün uzunu qılınan namazlarda təkbirətul-ehramdan sonra 1-ci və 2-ci rəkətlərdə öncə həmd, sonra vacib ehtiyata əsasən səcdəsi olmayan surələrdən biri tam oxunmalıdır. 3-cü və 4-cü rəkətlərdə isə bir dəfə təsbihate-ərbəə demək kifayətdir. Müstəhəb ehtiyata əsasən təsbihate-ərbəəni 3 dəfə demək lazımdır. Təsbihate-ərbəənin yerinə təkcə həmd də oxumaq olar. İnsanın 3-cü və 4-cü rəkətdə həmd oxuması və ya təsbihate-ərbəə deməsi onun öz ixtiyarındadır.

**Sual:** Namaz qılan şəxs həmddən sonra "Qüreyş" və ya "İnşirah" surəsini oxuya bilərmi?

**Cavab:** Xeyr, oxuya bilməz. Çünki "Fil" və "Qüreyş" surələri namaz zamanı bir surə sayılır. Bu səbəbdən də namaz qılan şəxs onlardan birini oxusa kifayət etməz. Həmddən sonra "Fil" surəsi oxunmuşsa, "Qüreyş" surəsi də oxunmalıdır. Eyni qaydada, "Zuha" və "İnşirah" surələri birlikdə oxunmalıdır.

**Sual:** Həmd və surə hansı namazlarda ucadan, hansı namazlarda astadan oxunmalıdır?

**Cavab:** Qadın və kişi üçün vacibdir ki, günorta və ikindi namazlarında həmd və surəni astadan oxusunlar. Əgər bilərəkdən həmin surələri ucadan oxusalar, namaz batildir. Kişiyə vacibdir ki, sübh, şam və xüftən namazlarında həmd və surəni ucadan oxusun. Amma qadın uyğun namazlarda həmin surələri həm ucadan, həm də astadan oxuya bilər. Naməhrəm bir şəxs namaz qılan qadının səsini eşidirsə, vacib ehtiyata əsasən qadın həmd və surəni astadan oxumalıdır.

**Sual:** Əgər insan səhvən həmd və surəni uca oxumalı yerdə astadan, asta oxumalı yerdə ucadan oxusa, namazının hökmü nədir?

**Cavab:** Namazı düzgündür. Əgər Həmd və surəni oxuyarkən vəzifəsinə əməl etmədiyini bilsə, oxuduğu hissəni təkrarlamasına ehtiyac yoxdur.

**Sual:** Həmd və surənin ucadan oxunma ölçüsü nədir? Namazqılan şəxs səsini hansı həddə qaldıra bilər?

**Cavab:** Əgər bir şəxs ucadan oxumalı olduğu Həmd və surəni qiraət etdiyi vaxt insanlar bunu kifayət sayarsa, bəs edər. Əlbəttə ki, namaz qılan şəxs səsini adi həddən yuxarı qaldırmamalıdır. Əgər bir şəxs Həmd və surəni fəryad çəkərək oxuyursa, namazı batildir.

**Sual:** Təsbihati-ərbəə asta oxunmalıdır ya ucadan?

**Cavab:** Vacib ehtiyata əsasən qadın və kişilər təsbihati-ərbəəni bütün namazlarda astadan oxumalıdır. Əgər 3-cü və 4-cü rəkətdə Həmd oxuyurlarsa, vacib ehtiyata əsasən, onun "Bismillahir-Rəhmanir-Rəhim" hissəsini də astadan deməlidir.

**Sual:** Əgər bir şəxs bilmədən namazın 1-ci və 2-ci rəkətlərində təsbihati-ərbəə söyləsə, onun vəzifəsi nədir?

**Cavab:** Əgər rükuya getdikdən sonra səhvə yol verdiyini anlayarsa, namazı düzgündür. Amma rükuya getməmiş səhvini başa düşərsə, vəzifəsini yerinə yetirməli, yəni Həmd və surə oxumalıdır.

### *2. Təşəhhüd*

Namaz qılan şəxs bütün namazların 2-ci rəkətində, eləcə də şam namazının 3-cü, dördrəkətli namazların 4-cü rəkətində 2-ci səcdədən sonra bədəni aram vəziyyətdə ikən təşəhhüd oxumalıdır. Qeyd etmişdik ki, gecə namazında bir rəkətli vitr namazı var. Bu bir rəkətdən sonra da təşəhhüd oxunmalıdır.

***3. Salam***

Son rəkətdəki təşəhhüddən sonra salam deyilməlidir. Əgər namaz qılan şəxs bilərəkdən salam söyləməsə namazı batildir.

***4. Zikr***

Namaz qılan şəxs namazı 3-cü və 4-cü rəkətlərində, eləcə də rüku və səcdələrdə zikr söyləməlidir.

**Sual:** Namaz qılan şəxs namazın vacib və müstəhəb zikrlərini, təkbirətül-ehramı, rüku və səcdələrdəki zikrləri astadan deməlidirmi?

**Cavab:** Bu məsələ insanın öz ixtiyarına verilir. O zikrləri həm ucadan, həm də astadan deyə bilər.

***5. Tərtib***

Tərtib dedikdə namazın vacib hissələrini deyildiyi kimi, ardıcıl qaydada yerinə yetirməsi nəzərdə tutulur. Əgər bir şəxs bilərəkdən bu tərtibi pozarsa, məsələn, Həmdi surədən sonra oxuyarsa, rükudan qabaq səcdəyə gedərsə, namazı batildir.

***6. Movalat***

Movalat dedikdə namazın ayrı-ayrı hissələri arasında fasilə buraxmamaq nəzərdə tutulur. Əgər bir şəxs namazın zikrləri, rüku və səcdələri arasında namaz həddindən çıxacaq həddə fasilə buraxarsa, namazı batildir. Amma rüku və səcdələri uzatmaq, uzun surələri oxumaq namazın movalatını pozmur.

# On ikinci fəsil

## *Namazın tərtibi və tərcüməsi*

Bu fəsildə namazın necə yerinə yetirilməsindən və onun mətninin tərcüməsindən danışacağıq. Namaz aşağıdakı ardıcıllıqla qılınır:

1. Namaz qılan şəxs dəstəmaz aldıqda, libası, namaz yeri ilə bağlı şərtləri yerinə yetirdikdən, üzü qibləyə dayandıqdan sonra namaz üçün niyyət edir. Məsələn, Allaha yaxınlaşmaq məqsədi ilə sübh namazı qılmağa qərar verir.

2. Bədən aram, hərəkətsiz dayandığı halda təkbirətul-ehram, yəni "Əllahu-Əkbər" söylənilir.

3. Təkbirətul-ehramdan sonra Həmd surəsinin qiraətinə başlanılır:

-"Bismillahir-rəhmanir-rəhim"-Bağışlayan və mehriban Allahın adı ilə

-"Əlhəmdulillahi rəbbil aləmin"-Həmd və sitayiş bütün yaranmışların Rəbbi olan Allaha məxsusdur;

-"Ər-rəhmanir-rəhim"-O kəs ki, bağışlayan və mehribandır;

-"Maliki yəvmiddin"-Qiyamət günü ixtiyar sahibidir;

-"İyyakə nəbudu və iyyakə nəstəin"-Yalnız Sənə pərəstiş edir və yalnız Səndən kömək istəyirik;

-"İhdinəs siratəl mustəqim"-Pərvərdigara, bizi doğru yola hidayət et;

-“Siratəlləzinə ən əmtə ələyhim ğəyril məğzubi ələyhim vələz zalin”-O kəslərin yoluna ki, onlara nemət vermisən, o kəslərin yoluna yox ki, onlara qəzəblənmisən; azmışların yoluna yox;

4. Sonra vacib ehtiyata əsasən, Quranın vacib səcdəsi olmayan surələrindən biri tam oxunmalıdır.

Namaz qılan şəxsin gün uzunu qıldığı namazlarda tövhid surəsini tərk etməsi məkruhdur. Eyni zamanda 1-ci və 2-ci rəkətlərdə eyni bir surəni oxumağın kərahəti var. Yalnız Tövhid surəsini hər iki rəkətdə oxumaq məkruh deyil.

İndi Tövhid surəsini nəzərdən keçirək:

-“Bismillahir-rəhmanir-rəhim”-Bağışlayan və mehriban Allahın adı ilə;

-“Qul huvəllahu əhəd”-De ki, Odur yeganə Allah;

-“Əllahus səməd”-O Allah ki, bütün yaranmışlardan ehtiyacsızdır;

-“Ləm yəlid və ləm yuləd”-Övladı yoxdur və kimsənin övladı deyil;

-“Və ləm yəkun ləhu kufuvən əhəd”-Kimsə Onun misli və oxşarı deyil.

5. Ayaq üstə bədən aramlaşdıqdan sonra rükuya getmək, rüku vəziyyətində bədən aramlaşdıqdan sonra rükunun zikrini söyləmək lazımdır. Məsələn, deyilir: “subhanə rəbbiyəl əzimi və bihəmdih”, yəni mənim böyük Rəbbim hər bir eyb və nöqsandan pak-pakizədir, mən Ona sitayişdəyəm. Rükuda vacib ehtiyata əsasən ən azı üç dəfə “subhanəllah” deyilməlidir. Subhanəllah, yəni Allah istənilən bir eyb və nöqsandan pak-pakizədir.

6. Rükudan qalxdıqdan və bədən aramlaşdıqdan sonra “Səmiəllahu limən həmidəh” söyləmək müstəhəbdir. Bu zikrin mənası: “Allah ona sitayiş edən şəxsin həmd-sənasını eşidir və qəbul edir.”

7. Sonra səcdəyə gedilir. Səcdə vəziyyətində bədən aramlaşdıqdan sonra səcdənin zikri söylənilir. Vacib ehtiyata

əsasən səcdədə üç dəfə “subhanəllah” deyilməlidir. Başqa zikr də söyləmək olar. Məsələn: “Subhanə rəbbiyəl ə’la və bihəmdih”, yəni mənim üstün Rəbbim hər bir eyb və nöqsandan pak-pakizədir, mən ona sitayişə məşğulam.

Sonra 1-ci səcdədən qalxmaq və bədən aramlaşdıqdan sonra 2-ci dəfə səcdəyə getmək lazımdır. 1-ci səcdədən qalxdıqdan sonra “Əllahu əkbər” söyləmək müstəhəbdir. 2-ci səcdədə zikr deyildikdən sonra qalxıb əyləşmək lazımdır.

8. Namazın 2-ci rəkətini yerinə yetirmək üçün ayağa qalxmaq lazımdır. Ayağa qalxarkən “bihəvlillahi və qüvvətihi əqumu və əq’ud” söyləmək müstəhəbdir. Bu zikrin mənası: “Allahın yardımı və qüvvəsi ilə qalxıb əyləşirəm.

9. Namaz qılan şəxs 2-ci rəkətdə də 1-ci rəkətdə olduğu kimi Həmd-surə oxuyur.

10. 2-ci rəkətdə rükuya getməzdən öncə qunut oxumaq müstəhəbdir. Qunut üçün vacib ehtiyata əsasən əllər qaldırılır və savab ümidi ilə iki əlin içi üz bərabərində üzü səmaya tutulur. Baş barmaqdan savayı bütün barmaqlar bir-birinə yapışdırılır. Qunut tutan şəxs öz ovucuna baxır. Bu halda istənilən bir duanı oxumaq, zikri söyləmək olar. Üç dəfə “Subhanəllah” söyləmək kifayətdir. Müstəhəbdir ki, qunutun zikri ucadan deyilsin. Yalnız cəmiyyət namazında imam eşidəcəyi təqdirdə qunutu ucadan oxumaq müstəhəb olmur.

11. Qunut başa çatdıqdan sonra rükuya getmək və rükudan sonra iki səcdəni yerinə yetirmək lazımdır.

12. Namaz qılan şəxs 2-ci rəkətdə iki səcdəni yerinə yetirdikdən sonra oturaq vəziyyətdə təşəhhüd oxuyur:

-“Əşhədu ənla ilahə illəllah, vəhdəhu la şərikə ləh”, yəni şəhadət verirəm ki, yalnız yeganə Allah pərəstişə layiqdir və Onun şəriki yoxdur;

-“Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh”, yəni şəhadət verirəm ki, Məhəmməd Allahın bəndəsi və elçisidir;

-"Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd", yəni Pərvərdigara, Məhəmməd (s) və onun Əhli-beytinə (ə) salam və rəhəmət göndər.

Təşəhhüd halında namaz qılan şəxsin sol budu üzərində əyləşib sağ pəncəsini sol ayağının içinə qoyması müstəhəbdir. Eləcə də, əl barmaqlarını bir-birinə birləşdirib budların üzərinə qoymaq və ətəyə baxmaq yaxşıdır. Təşəhhüdə başlamazdan öncə "Əlhəmdulillah" və ya "Bismillahi və billahi vəlhəmdulillahi və xəyril əsmau llahi" söyləmək yaxşıdır. Təşəhhüd başa çatdıqdan sonra "və təqəbbəl şəfaətəhu vərfə' dərəcətəh" deyilsə savabı var. Bu zikrin mənası: Pərvərdigara, Peyğəmbərin (s) bizim haqqımızdakı şəfaətini qəbul et, Öz yanında həzrətin dərəcəsini ucalt."

13. Əgər namaz ikirəkətli namazdırsa, namaz qılan şəxs oturaq vəziyyətdə bədəni aramlaşdıqdan sonra aşağıdakı qaydada salam verib namazı bitirir:

"Əssəlamu ələykə əyyhuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh" söyləmək müstəhəbdir. Zikrin mənası: "Salam olsun sənə ey peyğəmbər! Allahın bərəkət və rəhməti olsun sənə!"

"Əssəlamu ələynə və əla ibadilahis-salihin" söyləmək vacibdir. Zikrin mənası: "Salam olsun biz namazqılanlara və Allahın bütün saleh bəndələrinə." "Əssəlamu ələykum" da söyləmək olar. Yəni Allahın salamı olsun sizə. Müstəhəb ehtiyat budur ki, "Əssəlamu ələykum" ifadəsinə "və rəhmətullahi və bərəkatuh" cümləsi də artırılsın.

Vacib ehtiyat budur ki, 2-ci salam deyildikdən sonra 3-cü salam söylənilsin.

14. Əgər namaz üçrəkətli və ya dördrəkətli olarsa, qılınmış iki rəkətin təşəhhüdünü söylədikdən sonra salam verməmiş ayağa qalxmaq və növbəti rəkətləri yerinə yetirmək lazımdır. Üçüncü və dördüncü rəkətlərdə ya Həmd surəsi oxunur, ya təsbihati ərbəə söylənilir. Təsbihati ərbəənin mətni: "Subhanəllahi vəlhəmdulillahi və la ilahə illəllahu vəllahu

əkbər" - pak-pakizədir Allah; həmd-sitayiş ona məxsusdur; Ondan savayı pərəstişə layiq olan yoxdur; O vəsfə gələsi hər şeydən böyükdür. Ötən fəsildə qeyd edildiyi kimi, bu zikrin ən azı üç dəfə deyilməsi müstəhəb ehtiyatdır.

15. Daha sonra rüku və səcdələr yerinə yetirilir. Rüku və səcdələrin yerinə yetirilmə qaydası öncə açıqlandı. Namaz üçrəkətlidirsə, 3-cü rəkətin səcdələrindən sonra təşəhhüd və salam deyilir və namaz başa çatdırılır. Namaz dördrəkətlidirsə, 3-cü rəkətin 2-ci səcdəsindən sonra ayağa qalxmaq və 4-cü rəkəti yerinə yetirmək lazımdır. 4-cü rəkət də 3-cü rəkət kimi qılınır. 4-cü rəkətin rüku və səcdələrindən sonra təşəhhüd oxunur, salam verməklə namaz başa vurulur.

## *Namazın təqibatı*

Təqibat dedikdə namaz başa çatdıqdan sonra namaz qılan şəxsin dua oxuması, raz-niyaz etməsi nəzərdə tutulur. Namazdan sonra şükr səcdəsi yerinə yetirmək müstəhəbdir. Şükür səcdəsi üçün alın möhürə qoyulur. Səcdə halında zikr deməmək də olar. Amma bu halda 100 və ya 3 dəfə, ən azı 1 dəfə "şukrən lillah", "şukrən", ya da "əfvən" demək müstəhəbdir. Namazdan sonra bir qədər Quran oxumaq, dua etmək yaxşıdır. Təqibat üçün daha çox tövsiyə olunmuş zikrlərdən biri xanım Fatimənin (s. ə.) təsbihatı adlanan zikrdir. Bu təsbihatda 34 dəfə "Əllahu əkbər", 33 dəfə "əlhəmdulillah", 33 dəfə "Subhanəllah" söylənilir.

# On üçnücü fəsil

## *Namazı batil edənlər*

Namazı batil edən işlər “mubtilat” adlanır:

1. Əgər namaz arasında onun düzgünlük şərtlərindən biri, məsələn geyim şərti pozularsa;

2. Namaz arasında dəstəmazı batil edən bir iş baş verərsə. Məsələn, insandan sidik xaric olarsa;

3. Namazda sünnə əhli kimi əllərin sinədən aşağıda üst-üstə qoyulması; hətta Allah qarşısında ədəbə riayət üçün belə edilmişsə, vacib ehtiyata əsasən həmin namaz yenidən qılınmalıdır;

4. Həmd surəsi başa çatdıqdan sonra sünnə əhli kimi bilərəkdən amin söyləmək;

5. Bilərəkdən qibləyə arxa çevirmək və ya qiblədən sağa-sola dönmək; elə bir həddə qiblədən çıxmaq ki, ətrafdakılar “üzü qibləyədir” söyləməsinlər; qiblədən çıxma həddi sağa və ya sola dönmək həddində deyilsə də, uyğun hökm öz gücündə qalır;

6. Namaz qılan şəxsin bilərəkdən namazda olmayan bir söz söyləməsi;

7. Bilərəkdən uca səslə gülmək; bilmədən elə gülmək ki, bu gülüş namazdan çıxmaq şəklində olsun; təbəssüm isə namazı batil etmir;

8. Bilərəkdən dünya işlərinə xatir uca səslə ağlamaq; aşağıdakı hallarda ağlamaq namazı batil etmir:

a) Bilərəkdən də olsa səssiz ağlamaq;

b) Namaz halından çıxmaq həddinə çatmamış bilmədən bərkdən ağlamaq;

c) Dünya ilə bağlı şər’i istəyə görə ağlamaq;

ç) Allaha eşq, axirət əzabı qorxusu səbəbindən ağlamaq (insanın bu sayaq ağlaması onun ən üstün əməllərindəndir);

9. İnsanın bilərəkdən və ya bilməyərəkdən namazın formasını pozacaq bir iş görməsi; məsələn, havaya atılması;

10. Namazın şəklini pozacaq həddə yemək və içmək;

11. Bilərəkdən və ya bilməyərəkdən vacib rüknlərin pozulması; bilərəkdən vacib olmayan rüknlərin pozulması;

12. Namazı batil edən şəkklərə yol verilməsi; həmin şəklərdən bəzilərini nəzərdən keçirək:

a) İki rəkətli namazın rəkətlərinin sayında şəkk; məsələn, sübh namazı, cümə namazı və ya müsafir namazının rəkətlərinin sayında şəkk;

b) Üçrəkətli namazların rəkətlərinin sayında şəkk;

c) İstənilən bir namazda rəkətlərinin sayının itirilməsi.

Əlbəttə ki, bütün bu hallarda namazı dərhal dayandırmaq lazım deyil. Öncə bir qədər düşünmək, yalnız şəkk aradan qalxmadıqda namazı pozmaq lazımdır.

Namaz qılan şəxs yuxarıda sadaladığımız şəkklərdən əlavə digər şəkklərlə də rastlaşa bilər. Bütün bu şəkklərlə tanış olmaq üçün şəri hökmlər risaləsinə müraciət edin.

**Sual:** Əgər bir şəxs namaz əsnasında dişlərinin arasında qalan qidanı udsa, namazı batil olarmı?

**Cavab:** Xeyir. Hətta ağıza şəkər qoyub onun suyunu tədricən udmaq namazı batil etmir.

**Sual:** Əgər namaz qılan şəxs əmin olduğu halda bir tərəfə üz tutub namaz qılırsa, sonradan anlayırsa ki, qiblə sağda və ya solda imiş, namazının hökmü nədir?

**Cavab:** Əgər namazın vaxtından qalarsa, onu təzələmək lazımdır. Namazın vaxtı keçdikdən sonra başa düşərsə, onun qəzasını qılmalıdır.

**Sual:** Namaz vaxtı təkcə üzün qiblədən çevrilməsinin hökmü nədir?

**Cavab:** İnsan üzünü bilərəkdən və ya səhvən qiblədən çevirərsə namazı batildir. Amma bilərəkdən və ya bilməyərəkdən üzün azca dönməsi namazı batil etmir.

**Sual:** Asqırmaq, gəyirmək, ah çəkmək namazı batil edirmi?

**Cavab:** Xeyir. Amma namazın gedişində bilərəkdən "ah", "vay" kimi sözlər demək namazı batil edir.

**Sual:** Namaz qılan şəxs gülüşünün qabağını almaq üçün özünü sıxarsa və bunun nəticəsində halı dəyişərsə, məsələn, rəngi qızararsa, namazının hökmü nədir?

**Cavab:** Bütün bunlar namazın şəklini pozarsa, onu yenidən qılmaq lazımdır.

**Sual:** Əgər namaz qılan şəxs namazın gedişində bir müddət sakit dayansa və danışmasa, namazı batildirmi?

**Cavab:** Əgər o qədər sakit dayansa ki, ətrafdakılar onun namaz qılmadığını deyələr, namazı batildir.

**Sual:** Üzü və ya gözləri az miqdarda sağa və ya sola çevirmək, tüpürmək, Həmd-surə oxuyarkən sakit dayanıb ətrafdakıların danışığını dinləmək namazı batil edirmi?

**Cavab:** Sadalanan işlər, o cümlədən insanın namazda xüzu-xüşusunu, qəlbin iştirakını pozan hərəkətlər, məsələn saqqalla oynamaq məkruhdur və namazın savabını əskildir.

**Sual:** Namazı dayandırmaq olarmı?

**Cavab:** Vacib namazı heç bir səbəbsiz dayandırmaq vacib ehtiyata əsasən caiz deyil. Amma aşağıdakı hallarda namazı dayandırmaq olar:

1. Əgər öz həyatınız və ya öldürülməsi caiz olmayan birinin həyatı təhlükədədirsə, qorunması zəruri olan mala təcavüz edilirsə namazı saxlamaq olar;

2. Namaz əsnasında məlum olsa ki, məscid yol verilməyəcək şəkildə murdarlanıb və ya bu murdarın ətrafa yayılmaq qorxusu var; bu hallarda namazın vaxtı çoxsa və namazı saxlamadan murdarı təmizləmək mümkün deyilsə, namazı saxlamaq olar;

3. Namaz halında və namazın vaxtına qalan bir vaxt borc sahibi borcunu istəsə; əgər namaz qılan şəxs namaz qıla-qıla borcu qaytara bilməsə;

4. Rükuya əyilməmiş yada düşsə ki, namazın azan və iqaməsi deyilməyib; Həmdi oxumağa başlamamış yada düşsə ki, iqamə deyilməyib; bu hallarda namazın vaxtı çoxsa onu saxlayıb, azan və iqamə söyləmək müstəhəbdir.

**Sual:** Əgər namaz gedişində namaz qılan şəxsə salam verilsə, onu salamı alması vacibdirmi?

**Cavab:** Bəli, əgər salam verənin məqsədi zarafat və ya məsxərə deyilsə, dərhal cavab vermək lazımdır. Salamın cavabı yubadılarsa və elə bir vaxt cavab verilərsə ki, həmin salamın cavabı sayılmasın, cavab verilməməlidir; məsələn, namaz qılan şəxsə namazın 1-ci rəkətində salam verilmişsə, o bu salamın cavabını 3-cü rəkətdə ala bilməz.

**Sual:** Namaz qılan şəxs namaz halında bir şəxsə salam verə bilərmi?

**Cavab:** Xeyr, salam verə bilməz.

**Sual:** Namaz qılan şəxs namaz əsnasında salama necə cavab verməlidir?

**Cavab:** Vacib ehtiyata əsasən, salamın cavabı onun özünə uyğun şəkildə qaytarılmalıdır. Əgər salam verən "Salamun ələykum" söyləmişsə, namaz qılan şəxs də onu artırmadan sahibinə qaytarmalıdır. Bu halda "Salamun ələykum və rəhmətullahi və bərəkatuh" demək olmaz. Bundan əlavə, salamın cavabında salam sözü öncə işlədilməlidir. "Ələykumus-salam" deyilməməlidir.

# On dördüncü fəsil

## *Camaat namazı İslami birliyin təcəssümüdür*

İslamda mühüm məsələlərdən biri də müsəlman cəmiyyətin birliyi, müsəlmanların yekdilliyidir. Bu birliyin təmini üçün müəyyən proqramlar nəzərdə tutulur. İslami birliyin təminində mühüm addımlardan biri də camaat namazıdır. Rəvayətlərdə cəmiyyət namazının böyük əhəmiyyətə malik olduğu vurğulanır. Məsələn, buyurulur: "Bir şəxs üzürsüz səbəbdən, etinasızlıq üzündən camaat namazını, müsəlman cəmiyyətini tərk edərsə, onun üçün namaz yazılmaz."[1]

Şəri hökmlər risalələrində camaat namazının əzəməti ilə bağlı bir sıra məsələlər mövcuddur:

1. Gündəlik namazları, meyit namazını, ayat namazını camaatla qılmaq müstəhəbdir. Xüsusi ilə məscidin qonşuları, azanın səsini eşidənlər sübh, şam və xüftən namazlarını camaatla qılsalar yaxşıdır.

2. Namazı ilkin vaxtında qılmaq müstəhəb olsa da, onu camaatla birgə qılmağa xatir bir qədər yubanmaq da müstəhəbdir.

3. Camaatla qılınan qısa namaz fərdi qılınan uzun namazdan üstündür.

---

*1. "Vəsailuş-şiə", c. 8, s. 285, hədis 2*

4. Namazını əvvəl vaxtda fərdi qılmış şəxsin onu camaatla yenidən qılması müstəhəbdir. Bu namaz imam və ya məmum olmasının fərqi yoxdur.

5. İnsan müstəhəb namaz qıldığı vaxt cəmiyyət namazı təşkil olunarsa, müstəhəb namazı bitirib həmin namazın 1-ci rəkətinə çatmaq mümkün olmadıqda, müstəhəb namazı dayandırmaq müstəhəbdir.

## *Camaat namazının şərtləri*

Camaat namazının təşkili üçün müəyyən şərtlər ödənməlidir:

1. Camaat namazının imamı ədalətli, ağıllı, on iki imamçı şiə, vacib ehtiyata əsasən büluğ həddinə çatmış, namazın sözlərində və hərəkətlərində səhvə yol verməyən şəxs olmalıdır. Əgər məmumlar, yəni camaat namazında imama iqtida edənlər kişilər və qadınlardan ibarətdirsə, imam kişi olmalıdır.

İmamın ədaləti dedikdə, onun böyük günahlara yol verməməsi nəzərdə tutulur. Camaat namazının imamı kiçik günahları da təkrarlamamlıdır. Onun dini məsələlərə biganəlikdən çəkinməsi lazımdır.

2. İmamla ona iqtida edənlər, eləcə də iqtida edənlərin öz arasında arakəsmə olmamalıdır. Şüşə ilə arakəsmənin də olması caiz deyil. Amma imam və kişi məmumlarla qadın məmumlar arasında pərdə ola bilər. Əgər bu pərdə qadınları toplum ayıracaq həddə deyilsə, eybi yoxdur.

3. İmamın durduğu yer məmumun durduğu yerdən hündür olmamalıdır.

4. Vacib ehtiyata əsasən imamın durduğu yerlə məmumun səcdəyə getdiyi yer arasında bir addımdan çox məsafə olmamalıdır. Vacib ehtiyata əsasən, məmumun səcdə yeri ilə onun qarşısında dayanıb imamla əlaqə yaradan digər məmumun dayandığı yer arasında bir addımdan artıq məsafə olmamalıdır. Əgər məmum onun sağında və solunda dayananlar vasitəsi ilə

imama bağlanırsa, sağında və solundakılardan bir addımdan çox aralı olmamalıdır.

5. Məmum imamdan öncə dayana bilməz. Vacib ehtiyata əsasən onun imamla bir xətdə dayanması da düzgün deyil. İstənilən halda məmum imamdan arxada olmalıdır. Əgər məmum təkcə bir kişidirsə, vacib ehtiyata əsasən imamın sağında dayanmalıdır. Bu halda o imamla eyni xətdə dura bilər.

## *Camaat namazının qılınma qaydası*

Camaat namazı fərdi namazdan bir o qədər də fərqlənmir. Sadəcə, bu namazda həmd və surəni tək imam oxuyur. Digər zikrləri isə məmum da söyləyir. Məmum camaat namazında təkbirətul-ehramı imamdan qabaq deməməlidir. Vacib ehtiyata əsasən, imam təkbiri başa çatdırdıqdan sonra məmum təkbir söyləməlidir. İmamdan qabaq rükuya və səcdəyə getmək olmaz. Müstəhəb ehtiyata əsasən məmum imamın salamını eşidirsə, ondan öncə salam verməməlidir. Namazın digər zikrlərini imamdan öncə deməyin eybi yoxdur. Amma müstəhəb ehtiyat budur ki, imam məmumun zikrlərini eşidəcəyi təqdirdə ondan qabaq demək olmaz.

## *Camaat namazında müstəhəb olanlar*

1. Camaat namazının imamı cərgənin orta hissəsində dayanmalıdır. 1-ci cərgədə elm, kamal və təqva əhlinin dayanması müstəhəbdir.

2. Camaat namazının sıraları nizamlı olmalıdır. Bir cərgədə dayanmış insanlar arasında məsafə qalmamalı, çiyinlər yanaşı dayanmalıdır.

3. Məmunlar yalnız "qədqamətis səlat" deyildikdən sonra qalxmalıdır.

4. İmam məmunlar arasındakı ən zəif şəxsi nəzərə almalı, onların imama çata bilməsi üçün tələsməməlidir. İmam eyni zamanda qunut, rüku və səcdələri uzatmamalıdır. Amma

məmunlar zikrlərin uzunluğunu istəyərsə, qunut, rüku və səcdələri uzatmaq olar.

5. İmam Həmd-surəni, zikrləri məmumların eşidəcəyi həddə ucadan söyləməlidir. Amma səsi həddindən artıq qaldırmaq olmaz.

6. İmam hiss edərsə ki, camaat namazına qoşulmaq istəyən var, həmin şəxsin qoşula bilməsi üçün rükunu ikiqat uzada bilər.

## *Camaat namazında məkruh olanlar*

Camaat namazında bəzi işlər məkruhdur və bu işlər namazın savabını azaldır:

1. Sıralarda yer olduğu halda tək dayanmaq;
2. İmamın eşidəcəyi həddə zikrləri ucadan deмək;
3. Namazını yarı qılmalı olan müsafirin günorta, ikindi və şam namazlarını müsafir olamayan imama iqtida etməsi; eyni zamanda müsafir olmayan şəxsin müsafir imama iqtidası; demək, müsafirin müsafir imama, qeyri-müsafirin qeyri-müsafir imama iqtida etməsi daha yaxşıdır.

**Sual:** Hansı hallarda gündəlik namazı camaatla qılmaq vacibdir?

**Cavab:** İki halda gündəlik namazları camaatla qılmaq lazımdır:

1. Bəziləri namazı fərdi qıldıqda düzgün qılıb-qılmaması ilə bağlı vəsvəsələrə düçar olur və yalnız camaat namazında rahatlıq tapır. Belələri namazını camaatla qılmalıdır.

2. Əgər ata-anası övlada əmr edərsə ki, namazını camaatla qılsın və övladın etirazı ata-ananı narahat edərsə, o öz namazlarını camaatla qılmalıdır.

**Sual:** Müstəhəb namazları camaatla qılmaq olarmı?

**Cavab:** Xeyr. Yalnız imam qeybdə olduğu dövrdə fitr və qurban bayramı namazlarını, eləcə də "istisqa namazı" adlanan yağış namazını camaatla qılmaq olar.

**Sual:** Namazını bir dəfə camaatla qılmış imam və ya məmum həmin namazı 2-ci dəfə də camaatla qıla bilərmi?

**Cavab:** Əgər 2-ci namazda imam dayanacaqsa, bu işin eybi yoxdur, hətta müstəhəbdir. Amma 2-ci namazda məmum kimi iştirak edəcəyi təqdirdə yalnız savab ümidi ilə qıla bilər.

**Sual:** Əgər məmumun dayandığı yer imamın dayandığı yerdən hündür olsa, bunun hökmü nədir?

**Cavab:** Əgər bu hündürlük adi həddə olarsa və imamla məmum eyni cəmiyyət sayılarsa, eybi yoxdur. Amma hündürlük elə bir həddə olarsa ki, məmumla imam ayrı-ayrı cəmiyyət sayılsın, belə bir namazın eybi var.

**Sual:** Camaat namazında körpə uşağın ilk sırada dayanmasının hökmü nədir?

**Cavab:** Bir uşaq həddində ara qalmasının camaat namazına zərəri yoxdur.

**Sual:** İmamın adını bilmək vacibdirmi?

**Cavab:** Əgər imamda iqtida üçün nəzərdə tutulan şərtlər varsa, onun adını bilmək lazım deyil.

**Sual:** Camaat namazı qılan şəxs ortada fərdi namaza keçə bilərmi?

**Cavab:** Bəli. Camaat namazı qılan şəxs fərdi namaz niyyəti edib namazını tək qıla bilər.

**Sual:** Camaat namazı qılınan yerdə bir şəxs kənarə çəkilib tənha namaz qıla bilərmi?

**Cavab:** Əgər onun bu işi camaat namazını hörmətdən salmazsa və ya imama qarşı şübhə yaratmaq məqsədi daşımazsa, mümkündür. Əgər namazını bir guşədə qılan şəxsin

məqsədi imamı hörmətdən salmaq deyilsə, amma camaat belə düşünürsə, həmin şəxs namazını fərdi qılmamalıdır.

**Sual:** Qadın qadın cəmiyyətinə imam dayana bilərmi?

**Cavab:** Vacib ehtiyata əsasən qadınlar üçün də imam kişi olmalıdır.

**Sual:** Yaxşını pisdən seçən, amma hələ ki, büluğ həddinə çatmamış uşaq başqa uşaqlara imam dayana bilərmi?

**Cavab:** Ehtiyata əsasən, dayana bilməz.

**Sual:** Əgər məmum camaat namazı başa çatdıqdan sonra bilərsə ki, imamda zəruri şərtlər olmayıb, məsələn, imam müsəlman və ya ədalətli olmayıb, yaxud namazını dəstəmaz almadan qılıbdır, namazının hökmü nədir?

**Cavab:** Məmumun namazı düzgündür.

# On beşinci fəsil

## *Məscid Allaha pərəstiş ocağıdır*

İnsanın təkamülündə təsirli rola malik yaranış məqsədlərindən biri onun hikmət sahibi olan Allaha ibadət və pərəstişidir. Namaz varlıq aləminin yaradıcısına pərəstişin ən üstün nümunələrindəndir. Namazın müsəlmanların birliyində, həmrəyliyində də böyük təsiri var. Bu məqsədlər müqəddəs məkan olan məsciddə gerçəkləşir. Məscid həm Allaha ibadət, həm də müsəlmanların birliyi üçün bir mərkəzdir. Bu səbəbdən də Qurani-kərimdə məscidin tikintisi və təmiri Allaha və qiyamətə etiqadlı möminlərin şəni olaraq tanıtdırılır.[1] Amma məscidin zahirən tikintisi və təmirindən də mühümü ondakı mənəvi fəzanın yaradılmasıdır. Həqiqi mömin və din keşikçiləri bu fəzada tərbiyə olunur. Məscid insanların agahlıq və oyanışı, mühitin islahı üçün hərəkət mərkəzi olmalıdır. Cəmiyyətin ən fəal zümrəsi olan yeniyetmələr və gənclər məsciddə bir araya gəlməlidir. Məscid təkcə qocaların, təqaüdə çıxanların bir araya gəldiyi yer deyil.

Məscid tikmək, onu abadlaşdırmaq nə qədər dəyərlidirsə, onu uçurub-dağıtmaq da bir o qədər çirkindir. Qurani-kərim nəzərincə, məscidlərdə Allahın adının çəkilməsinə mane

---

*1. Bax: Surə 9, “Tövbə”, ayə 18*

olanlar, məscidləri viran qoymaq istəyənlər cəmiyyətdəki zalımlardan sayılır.[1]

Məscidin dağıdılması dedikdə təkcə onun tikilisinin uçurulması nəzərdə tutulmur. Bu əzəmətli ilahi mərkəzi rövnəqdən salan, Allah zikrini insanların qəlbində həbs edən hər bir addım yetərincə böyük zülmdür.

## *Məscidin hökmləri*

Məscidlə bağlı müəyyən əməllər haram sayılır:

1. Məscidin yerini, tavanını, iç divarını, vacib ehtiyata əsasən, xalçalarını və divarının çölünü (məscid tikən şəxs məscid divarının çölünü də məsciddən saymışsa) murdarlamaq haramdır. Bu murdarlıqdan xəbər tutan şəxs dərhal onu təmizləməlidir. Əgər özü bu işi bacarmasa və məscidin murdar qalması ona hörmətsizlik sayılsa, bu işi görə biləcək şəxslərə xəbər verməlidir.

2. Cənabətli şəxsin Məscidül-Hərama, Məscidün-Nəbiyyə, hətta bir qapıdan daxil olub o biri qapıdan çıxmaq məqsədi ilə daxil olması, cünub vəziyyətdə başqa məscidlərdə dayanması haramdır. Başqa məscidlərdə bir qapıdan girib o biri qapıdan çıxmaq olar. Cünub halda məscidə daxil olub bir şey qoymaq da haramdır. Hər bir müsəlmanın məscidə ehtiram olaraq aşağıdakı işləri görməsi bəyənilir:

1. Məscidi təmizləmək, onun çıraqlarını yandırmaq (müstəhəbdir);

2. Məscidə getmək istəyən şəxsin dəstəmaz alması, özünü ətirləməsi, pak libaslar geyməsi müstəhəbdir;

3. Məscidə daxil olarkən sağ ayağı, çıxarkən sol ayağı atmaq müstəhəbdir;

4. Məscidə daxil olarkən təhiyyət, məscidə ehtiram niyyəti ilə iki rəkət namaz qılmaq müstəhəbdir. Digər vacib və ya müstəhəb namaz qılınarsa da bəs edər;

---

*1. Bax: Surə 2, "Bəqərə", ayə 114*

5. İnsanın öz namazlarını məsciddə qılması müstəhəbdir. İslam dinində tövsiyə olunur ki, məscidə getməyən insanlarla bir süfrədə əyləşməsin, qonşu olmasın, məsləhətləşməsin, onlardan qız almasın, onlara qız verməsin. Bu deyilənlər məscdin qonşusuna daha çox sifariş olunmuşdur. Məscidin qonşusunun üzürsüz səbəbdən məsciddə namaz qılmaması məkruhdur;

6. Namaz qılınmayan məscidə getmək özü də müstəhəbdir;

7. Ağız, burun və ya sinə suyunun məscidə atılmasından çəkinmək lazımdır;

8. Əgər insan məcbur deyilsə, məsciddə yatmamalıdır; məsciddə dünya işləri haqqında danışmaq, itmiş şeyi tələb etmək, səsi qaldırmaq məkruhdur. Yalnız azanı uca səslə demək olar;

9. Məsciddə toxuculuq kimi sənət işləri ilə məşğul olmaq məkruhdur;

10. Məsciddə öyüd-nəsihət məzmunu olmayan şerlərin oxunması məkruhdur;

11. Murdar bir əşyanın məscidə sirayət etmə qorxusu olduqda, onu məscidə aparmamaq lazımdır; murdar şeyin məscidə aparılması hörmətsizlik sayılarsa, bu işdən çəkinmək lazımdır;

12. Məsciddə meyit namazı qılmaqdan çəkinmək lazımdır, bu iş məkruhdur;

13. Məscidi qızılla, ruhu olan insan, heyvan, mələk və başqa canlıların təsviri ilə bəzəmək olmaz, bu işdən çəkinmək lazımdır;

14. Qoxusu namazqılanlara əziyyət verəcək sarımsaq və soğan kimi şeylər yeyib məscidə daxil olmaq məkruhdur və bu işdən çəkinmək lazımdır.

**Sual:** Namazın vaxtı çatmışsa və məscidin bir guşəsi murdardırsa, namaz qılan şəxs öncə namazı qılmalıdır, yoxsa məscidi təmizləməlidir?

**Cavab:** Əgər namazın vaxtı çoxsa, əvvəlcə məscidi təmizləmək lazımdır.

**Sual:** Peyğəmbər (s) və məsum imamların hərəminin murdarlanmasının hökmü nədir?

**Cavab:** Bu iş haramdır. Çünki uyğun hərəmlərin murdarlanması onlara hörmətsizlik sayılır. Həmin murdarlığı təmizləmək vacibdir. Hətta oranın murdarlanması hörmətsizlik sayılmırsa, vacib ehtiyata əsasən, təmizləmək lazımdır.

**Sual:** Kafirlərin məscidə daxil olmasına icazə varmı?

**Cavab:** Kafirlərin hətta dini məlumatlar əldə etmək üçün məscidə daxil olmasının eybi var; bu məqsədlə məscidin kənarında yer hazırlanmalıdır.

**Sual:** Məsciddə müxtəlif mərasimlər keçirmək olarmı?

**Cavab:** Əgər bu mərasimlər insanın namaz və tərbiyəsinə mane olmazsa, fitnə-fəsad yaratmazsa, məscidi hörmətdən salmazsa, eybi yoxdur.

**Sual:** Məscidin divarına plakat, şəkil və bu kimi başqa şəkillər vurmaq olarmı?

**Cavab:** Əgər məscidə hörmətsizlik sayılmazsa, onun rövnəqini pozmazsa, bu iş haram deyil. Hər halda, namaz zamanı orada təsvirin olması məkruhdur.

# On altıncı fəsil

## *Quran əbədi möcüzədir*

Quran Allah tərəfindən İslam peyğəmbərinin (s) qəlbinə nazil edilmiş səmavi kitabdır. O 23 il ərzində göndərilmişdir. Quran 114 surədən ibarətdir. Bu səmavi kitab insanları qəflət yuxusundan oyatmaq, onları ətraflarındakı təhlükələrdən xəbərdar etmək, yol verdikləri şirk və günahları onlara xatırlatmaq məqsədi izləyir. Bəli, Quran insanın agahlıq mənbəyi, qəlb və ruhun paklıq səbəbidir. Onda bəyan olunmuş maarif və inanclar, isbat yolları, ictimai qanunlar, insanın tərbiyəsi üçün nəzərdə tutulmuş proqramlar böyük bir həqiqətdən danışır. Qeyri-adi məzmunlu bu kitabın dərs oxumamış, yetərsiz bir mühitdə ərsəyə gəlmiş bir şəxs tərəfindən bəyan olunması əslində onun Allah tərəfindən göndərildiyini göstərir. Mühüm vəzifələrimizdən biri budur ki, doğru yol göstərən bu kitabdan lazımınca faydalanaq, onu taxçalardan, qəbristanlıqlardan, falçıların əlindən xilas edib, bəşəriyyətin xilası üçün istifadə edək.

## *Quranın hökmləri*

1. Quran yazılarını murdarlamaq haramdır. Əgər onun yazıları murdarlanarsa, dərhal suya çəkilməlidir. Əgər Quranın yazı olmayan hissələri və cildi murdarlanarsa və bu murdarlıq Qurana hörmətsizlik sayılarsa, onu suya çəkmək lazımdır.

2. Bədənin istənilən bir yeri ilə Quran yazılarına, Allahın adlarına təharətsiz, dəstəmazsız toxunmaq haramdır.

3. Quran oxunarkən ətrafdakılarla söhbətdən çəkinmək, onu dinləmək lazımdır. Əgər həmin söhbət Qurana hörmətsizlik sayılarsa, caiz deyil. Amma Quran oxunan vaxt insandan bir söz soruşulsa, cavab verə bilər.

**Sual:** Quranı qan və leş kimi murdarların üzərinə qoymaq olarmı?

**Cavab:** Bu iş haramdır. Hətta həmin murdar şey qurudursa da, bu işi görmək olmaz. Quranı murdar şeyin üzərindən götürmək vacibdir.

**Sual:** Quranı kafirlərin, məsihi və yəhudi kimi kitab əhlinin əlinə vermək olarmı?

**Cavab:** Əgər onun murdarlanmaq və hörmətsizliyə məruz qalmaq qorxusu yoxsa, qarşı tərəfin hidayəti məqsədi ilə bu işi görmək olar. Bir şərtlə ki, onlar həqiqətən də, Qurandan bəhrələnmək istəsinlər.

**Sual:** Murdar cövhərlə Quran yazmaq olarmı?

**Cavab:** Bu iş haramdır. Həmin yazını məhv etmək lazımdır.

**Sual:** Quran ayələri və Allahın adlarını dəstəmazsız yazmaq olarmı?

**Cavab:** Əgər bədən həmin yazıya toxunmazsa, eybi yoxdur.

**Sual:** İnsan Quran yazılmış kasetlərə dəstəmazsız toxuna bilərmi?

**Cavab:** Eybi yoxdur. Bir şərtlə ki, bu iş hörmətsizlik sayılmasın. Lövhəyə Quran yazarkən yerə tökülən tozlara da dəstəmazsız toxunmaq olar.

**Sual:** Quranın tərcüməsinə dəstəmazsız toxunmaq olarmı?

**Cavab:** Quranın istənilən bir dildə tərcüməsinə dəstəmazsız toxunmaq olar. Amma Allahın istənilən bir dildə yazılmış adları və sifətlərinə vacib ehtiyata əsasən dəstəmazsız toxunmaq haramdır.

**Sual:** Dəstəmazsız halda məsumların adına toxunmaq olarmı?

**Cavab:** Müstəhəb ehtiyata əsasən, bu iş görülməməlidir. Belə bir hərəkət məsumlara hörmətsizlik sayılarsa, haram olar. Dünyaya gələn insana məsumların adı qoyularsa, həmin adların yazısına dəstəmazsız toxunmaq olar.

**Sual:** Uşaqların, psixi xəstələrin Qurana toxunmasının qarşısını almaq vacibdirmi?

**Cavab:** Əgər onların Qurana toxunması hörmətsizlik sayılmazsa, mane olmaq vacib deyil.

**Sual:** Quran oxunan zaman danışmaq olarmı?

**Cavab:** Quran oxunan vaxt söhbətdən çəkinib onu dinləmək yaxşıdır. Əgər ətrafdakılar bir şey soruşarsa, onlara cavab verməyin eybi yoxdur.

## *Quranın vacib səcdəli surələri*

Qurani-kərimin dörd surəsində vacib səcdəli ayə var. İnsan özü həmin ayələri oxuyarsa və ya bir başqası oxuyanda eşidərsə dərhal səcdə etməlidir. Səcdədə zikr demək də müstəhəbdir. Bu səcdə yaddan çıxarsa, yada düşən kimi onu yerinə yetirmək lazımdır. Həmin səcdə üçün dəstəmaz, qüsl, üzüqibləyə dayanmaq, bədənin paklığı, libasın paklığına ehtiyac yoxdur. Amma səcdə edilən yer qəsbi olmamalıdır. Həmin ayələrlə tanış olaq:

1. Surə 32, “Səcdə”, ayə 15;
2. Surə 41, “Fussilət” (Ha, mim, Səcdə), ayə 37;

3. Surə 53, “Nəcm”, ayə 62;
4. Surə 96, “Ələq”, ayə 19

**Sual:** Əgər bir şəxs ətrafda səcdə ayəsi oxunan vaxt onu dinləmədiyi halda eşidərsə, səcdə etməlidirmi?
**Cavab:** Xeyr.

**Sual:** Əgər səcdə ayəsini oxuyan büluğ həddinə çatmamış uşaqdırsa və ya Quran oxumaq məqsədi olmayan yuxulu bir adamdırsa, səcdə etmək lazımdırmı? Əgər səcdə ayəsi radiodan eşidilərsə, səcdə etmək vacib olurmu?
**Cavab:** Əgər büluğ həddinə çatmamış uşaq səcdə ayəsi oxuyarsa, səcdə etmək lazımdır. Əgər Quran oxuyanın səsi birbaşa yayımlanarsa, yenə də səcdə etmək vacibdir. Quran oxumaq məqsədi olmayan bir şəxsdən həmin ayəni eşidərkən səcdə etmək vacib deyil. Əgər səcdə ayəsi lent yazısından eşidilərsə vacib ehtiyata əsasən səcdə etmək lazımdır.

**Sual:** Əgər insan səcdə ayəsini həm özü oxuyursa, həm də bir başqasından dinləyirsə, bir səcdə etmək bəsdirmi?
**Cavab:** Bəli.

**Sual:** Namazda səcdə ayəsi oxumaq olarmı?
**Cavab:** Vacib ehtiyata əsasən, namazda bilərəkdən səcdə ayəsi olan surədən oxumaq namazı batil edir. Namaz vaxtı həmin ayələri dinləmək də onları oxumaq hökmündədir. Amma namaz qılanın həmin ayələri dinləmək məqsədi yoxsa, ixtiyarsız şəkildə həmin ayələri eşidirsə, namazı düzgündür və səcdə lazım deyil.

# On yeddinci fəsil

## *Oruc təqva və pəhrizkarlıq zəminidir*

Oruc dedikdə insanın Allah əmrini yerinə yetirmək məqsədi ilə sübh azanından şam azanınadək yemək və içməkdən, eləcə də şəri hökmlər risaləsində bəyan olunmuş müəyyən işlərdən çəkinməsi nəzərdə tutulur. Quran, Tövrat və İncildəki buyuruqlardan belə anlaşılır ki, İslamdan öncəki dinlərdə də oruc olmuşdur. Məsumların buyuruqlarını nəzərdən keçirdikdə bu ibadətin insanın fiziki və mənəvi sağlamlığında böyük təsirə malik olduğu aydınlaşır:

1. Həzrət Peyğəmbər (s) nəql edir ki, Allah-taala buyurdu: "Oruc mənim üçündür və mən özüm onun mükafatını verərəm."[1]

2. Həzrət Peyğəmbər (s) buyurur: "Oruc cəhənnəm odu qarşısında sipərdir."[2]

3. İmam Sadiq (ə) buyurur: "Oruc tutanın yuxusu ibadət, susması Allaha təsbih, əməlləri və duaları Allah dərgahında qəbuldur."[3]

4. İmam Sadiq (ə) başqa bir rəvayətdə buyurur: "İsti və yandırıcı havada oruc tutmaq böyük cihaddır."[4]

---

*1. "Vəsailuş-şiə", c. 10, s. 397, hədis 7*
*2. Həmin mənbə, s. 395, hədis 1*
*3. Həmin mənbə, s. 401, hədis 17*
*4. "Mustədrəkul-vəsail", c. 7, s. 504, hədis 1*

5. Xanım Məryəmin vəfatı barədəki hədisdə deyilir: “Həzrət İsa anasını dəfn etdikdən sonra onu çağırdı: “Ey ana! Dünyaya qayıtmaq istəyirsənmi?” Xanım Məryəm cavab verdi: “Bəli, iki iş üçün qayıtmaq istəyirəm: çox soyuq gecələrdə Allaha ibadət və çox isti günlərdə oruc tutmaq üçün. Ey oğlum! Yol çox təhlükəli, qorxuludur!”[1]

## *Orucun faydaları və təsirləri*

Əgər bu dini göstəriş bütün qaydaları və şərtləri ödənməklə yerinə yetirilərsə, böyük maddi və mənəvi təsirlərə malik olar. Söhbətimizin bu yerində orucun bəzi təsirlərini yada salaq:

***a) Tərbiyəvi təsir***

Orucun iki mühüm tərbiyəvi təsiri var:

1. Oruc insanın ruhuna sığal çəkir, onun cismini və canını paklayır. Oruc tutan insan ac və susuz halda ətrafdakı qidalara göz yumur. O əməli şəkildə sübut edir ki, yalnız yemək barədə düşünən heyvan deyil. Bəli, o öz nəfs istəklərinə qalib gəldiyini əməldə sübuta yetirir. Bəli, oruc insanı heyvanlıq məqamından mələk məqamına yüksəldir. Qurani-məcid orucun insanda təqva ruhiyyəsi yaratdığını bildirir.[2]

*Az yeyən mələyə oxşadır özün,*
*Heyvan tək yeyənin heç görmə üzün.*
*Hər işdə Allaha müti olan kəs*
*Nəfsinə yox deyib oldu müqəddəs.*[3]

2. Oruc insanın iradəsini gücləndirir. İxtiyarında müxtəlif xörəklər və içkilər olan insan Allahın razılığı üçün onlara göz yumur. Bəli, yemək və içməkdən çəkinməsi onu gücləndirir.

---

*1. Həmin mənbə, s. 506, hədis 6*
*2. Bax: Surə 2, “Bəqərə” ayə 183*
*3. “Gülüstan”, bab 7, tərbiyənin təsiri, s. 244, hekayət 18*

Çay kənarında bitmiş ağac gecə-gündüz çayın suyundan bəhrələnsə də kövrək olur, bir gün su görməsə yarpaqları təravətini itirir. Amma susuz səhralarda bitən ağaclar güclü küləklərə, günəşin istisinə, qışın soyuğuna müqavimət göstərib, möhkəm və davamlı olur. Oruc da belədir. İnsan özünə müvəqqəti məhdudiyyətlər qoymaqla iradəsini gücləndirir.

*Az yeməyə vərdiş verərsə insan,*
*Çətin döngələri adlayar asan.*
*Kim nəfs istəyəni verərsə ona,*
*Çıxıntı önündə çətin dayana.*[1]

***b) İctimai təsir***

Orucun digər bir müsbət təsiri cəmiyyətdə bərabərlik yaratmasıdır. Oruc göstərişini yerinə yetirənlər maddi durumundan və ictimai məqamından asılı olmayaraq eyni çətinlikləri yaşayır. Hişam ibn Həkəm imam Sadiqdən (ə) orucun vacib olma səbəbini soruşur. İmam (ə) buyurur: “Allah bu ibadəti vacib etdi ki, yoxsul və varlı eyniləşsin. Oruc tutan varlı aclığı dadmaqla yoxsulların çətinliyini dərk edir, onlara yardım əli uzadır. Allah oruc vasitəsi ilə bəndələri arasında bərabərlik yaradır...”[2]

c) Orucun sağlamlığa təsiri

Orucun insanın sağlamlığına böyük təsiri var. Həzrət Peyğəmbər (s) buyurur: “Oruc tutun, sağlam olun.”[3]

Bir çox xəstəliklərin səbəbi çox və çeşidli yeməkdir. Normadan artıq qida bədənə sovrulmur, artıq piylər şəklində orqanizmin müxtəlif nöqtələrində toplanır. Beləliklə insanda piylənmə gedir, qanda şəkərin miqdarı artır. Artıq qidalanma orqanizmdə müxtəlif mikrobların, xəstəliklərin yaranmasına səbəb olur. Bütün bu hallarla ən yaxşı mübarizə üsulu çox

---

*1. “Gülüstan”, bab 3, qənaətin fəziləti, s. 149, hekayət 6*
*2. “Vəsailuş-şiə”, c. 10, s. 7, hədis 1*
*3. “Biharul-ənvar”, c. 93, s. 255, hədis 33*

yeməkdən çəkinmək və oruc tutmaqdır. Oruc insan orqanizmindəki artıq maddələri təmizləyir, bədənə təravət verir. Bədəndəki həzm orqanları ömür boyu işləyən ən əhəmiyyətli orqanlardır. Oruc tutan insan bu orqanlara istirahət verir. Əlbəttə ki, oruc tutan şəxs axşam orucunu açarkən, eləcə də o başdan yeyərkən hədd gözləsə, orucdan faydalanır. Əks təqdirdə oruc faydasız ola bilər.

## *Pak niyyət orucun əsasıdır*

İnsan müxtəlif məqsədlərlə yeməkdən çəkinə bilər. Orucu digər aclıqlardan fərqləndirən onun ilahi niyyətlə yerinə yetirilməsidir. Oruc tutan şəxs təkcə yemək-içməkdən yox, orucu batil edən bütün işlərdən çəkinir. Əgər bir şəxs ilahi niyyətsiz oruc tutarsa, bu yalnız özününümayiş olar. Həzrət Peyğəmbər (s) buyurur ki, özünü göstərmək üçün oruc tutanın qazancı yalnız aclıq və susuzluqdur.[1] Bu müamilədə yalnız pak niyyətli əməlin dəyəri var.

Oruc tutarkən namaz və Həccdə olduğu kimi, hansısa əməlləri yerinə yetirmək lazım gəlmir. Oruc tutan şəxs yemək və içməkdən, bu kimi bəzi işlərdən çəkinməlidir. Bu səbəbdən də oruc insanların diqqətini az cəlb edir. Təbiidir ki, bu ibadətdə riya üçün bir o qədər də meydan yoxdur. Oruc tutanların əksəri Allahın razılığı üçün bu ibadəti yerinə yetirir. Olsun ki, elə bu səbəbdən Allah-taala oruc tutanların mükafatını öz öhdəsinə götürür.

*Niyyətdir yaşadan ibadətləri,*
İncisiz sədəfin nədir dəyəri?[2]

---

*1. Həmin mənbə, c. 84, s. 207, hədis 17*
*2. "Bustan", 5-ci bab, Allahın razılığı, s. 142*

## *Orucun bəzi hökmləri*

Öncə qeyd olunduğu kimi, niyyəti dilə gətirmək vacib deyil. Əgər insan oruc tutarkən Allahın əmrini yerinə yetirdiyini nəzərdə tutarsa, bəs edər. Orucun niyyəti üçün üç hal mümkündür:

a) Müəyyən vaxtda oruc tutmaq üçün (məsələn, mübarək ramazan ayında) gecənin əvvəlindən sübh azanınadək sabah üçün oruc niyyət etmək olar.

b) Vaxtı müəyyən olmayan qəza orucu kimi bir oruc üçün günorta azanınadək niyyət etmək mümkündür. Bir şəxs sübh vaxtı oruc tutmaq məqsədində olmasa da, günortayadək orucu pozan bir iş görməsə, oruc niyyət edə bilər.

c) Müstəhəb oruc tutmaq istəyən insan qüruba bir qədər qalanadək niyyət edə bilər. Yəni axşamadək orucu batil edən bir iş görməmiş şəxs qürubdan öncə oruc niyyət etsə, orucu düzgündür.

**Sual:** Əgər bir şəxs sübh azanından öncə səhəri gün üçün oruc niyyəti etsə və yatıb şam azanından sonra oyansa, orucu düzgündürmü?

**Cavab:** Bəli.

**Sual:** Yaxşını pisdən seçən buluğ həddinə çatmamış uşağın orucu və digər ibadətləri düzgündürmü?

**Cavab:** Uşağın ibadəti düzgündür.

## *Orucu batil edənlər*

Bəzi işlər orucu batil edir. Onlardan bəzilərini nəzərdən keçirək:

***1. Yemək və içmək***

Əgər oruc tutan şəxs bilərəkdən bir şey yesə və ya içsə həmin şeyin az-çoxluğundan asılı olmayaraq oruc batildir.

İnsanın yeməli və ya yeməli olmayan torpaq kimi bir şey yeməsinin fərqi yoxdur. Amma oruc olduğunu unutmuş insan bir şey yeyərsə, orucu batil olmaz. Bu oruc həm vacib, həm də müstəhəb oruc ola bilər.

**Sual:** Oruc halda iynə vurdurmağın hökmü nədir?

**Cavab:** Ağrıkəsici və peyvənd iynələrinin vurulmasının eybi yoxdur. Amma vacib ehtiyata əsasən, gücləndirici iynələrdən və dərmanlardan çəkinmək lazımdır.

**Sual:** Boğazın və ya sinənin bəlğəmini udmaq orucu batil edirmi?

**Cavab:** Əgər bəlğəm ağıza çatmamışsa onu udmağın eybi yoxdur. Amma ağız fəzasına daxil olmuş bəlğəmi udmaq olmaz.

**Sual:** Oruc halda ağız suyunu udmaq olarmı?

**Cavab:** Bunun eybi yoxdur. Hətta dadlı şeylər görən insanın ağzı sulanarsa ağız suyunu uda bilər.

***2. İstimna***

Əgər oruc tutan şəxs ondan məni (sperma) çıxaracaq bir iş görərsə orucu batildir və bu iş haram işdir. Amma yuxuda möhtəlim olan, orqanizmindən sperma xaric olan insanın orucu düzgündür və bu halda oyanıb məninin qarşısını alması lazım deyil.

***3. Allah və məsumların adından yalan söyləmək***

Oruc tutan şəxs danışıq, yazı və işarələrlə Allah, Həzrət Peyğəmbər (s) və məsumların adından bilərəkdən yalan danışarsa, vacib ehtiyata əsasən orucu batildir. Əgər dərhal yalan dediyini bildirərsə və tövbə qılarsa da batildir. Bu işi zarafat məqsədi ilə görərsə, pis iş görmüşsə də orucu batil olmaz.

**Sual:** Əgər oruc tutan şəxs məsumların adından bir söz demək istəsə və həmin sözün düzgünlüyünü bilməsə, nə etməlidir?

**Cavab:** Ehtiyata əsasən, dediyi sözün mənbəsini göstərməli, kimdən eşitdiyini və ya haradan oxuduğunu bildirməlidir. Həmin sözləri qəti şəkildə Allaha və məsumlara aid etməməlidir.

***4. Qatı tozun boğaza çatması***

Bilərəkdən qatı tozun boğaza çatması vacib ehtiyata əsasən orucu batil edir. Bu tozun halal və ya haram şeyin tozunun olmasının fərqi yoxdur. Vacib ehtiyata əsasən, oruc tutan şəxsin boğazına qatı buxar və siqaret tütüsü kimi tüstülər də yetişməməlidir.

***5. Başı tam şəkildə suya salmaq***

Oruc tutan şəxs bilərəkdən başını tamamilə suya və ya gülab kimi qatışıq bir mayeyə batırarsa bədəni bayırda qalsa belə, vacib ehtiyata əsasən həmin orucun qəzasını tutmalıdır. Amma bütün bədən suda olduğu halda başın bir miqdarı bayırda qalarsa oruc batil olmaz. Müstəhəb ehtiyata əsasən oruc tutan qadın suya oturmamalıdır.

**Sual:** Başın bir hissəsi bir dəfə, o biri hissəsi növbəti dəfə suya batırılarsa oruc batil olarmı?

**Cavab:** Xeyr. Baş bir dəfəyə bütünlüklə suya batırıldıqda oruc batil olur. Əgər baş tükündən bir miqdarı sudan bayırda qalarsa vacib ehtiyata əsasən həmin orucu başa vurub sonradan qəzasını yerinə yetirmək lazımdır.

**Sual:** Əgər bir şəxs ixtiyarsız olaraq suya düşsə və başı bütünlüklə suya batsa, orucu batildirimi? Bilmədən başını suya batıran adamın hökmü nədir?

**Cavab:** Bu adamların orucu batil deyil. Amma unutduğundan başını suya batıran şəxs bunu xatırladığı vaxt dərhal sudan çıxmalıdır.

**Sual:** İrtimasi qüsldə bədən bütünlüklə suya batırılır. Oruc halda belə bir qüsl vermək olarmı?

**Cavab:** Əgər bir şəxs oruc olduğunu unudub irtimasi qüsl verərsə orucu və qüslü düzgündür. Amma oruc olduğunu bildiyi halda (mübarək ramazan ayının orucu) bir şəxs irtimasi qüsl verərsə, vacib ehtiyata əsasən həm qüslü, həm də orucu batildir. Əgər tutduğu orucu müstəhəb və ya vaxtı geniş bir orucdursa, qüslü düzgündür, vacib ehtiyata əsasən orucu batildir.

**Sual:** Oruc tutan şəxs başını şəlalə və ya böyük borudan axan suyun qabağına tuta bilərmi?

**Cavab:** Əgər su bütün başı əhatə edəcək həddə olarsa, bu işin eybi var.

**Sual:** Oruc tutan şəxs üzgücü papağı ilə və yaxud suyun başa toxunmasına mane olub və qarşısını alan digər bir örtük əşyalarını geyib suya batarsa orucu batil olurmu?

**Cavab:** Xeyr.

***6. Sübh azanınadək cənabət, heyz və ya nifas halında qalmaq***

Mübarək ramazan ayının orucu və ya onların qəzasını tutarkən, vacib ehtiyata əsasən hər bir vacib orucda insanın sübh azanınadək cünub, heyz və ya nifas halında qalması orucu batil edir. Vəzifəsi təyəmmüm olan şəxs təyəmmüm edərsə orucu batil olmaz. Amma müstəhəb oruc tutan insanın sübh azanınadək cənabət halında qalması orucu batil etmir.

**Sual:** Əgər bir şəxs mübarək ramazan ayında sübh azanından sonra oyanıb möhtəlim olduğunu görsə (məni xaric olduğunu) orucu düzgündürmü?

**Cavab:** Bəli, düzgündür.

**Sual:** Əgər oruc tutan şəxs gündüz vaxtı yatıb möhtəlim olarsa, dərhal qüsl verməsi vacibdirmi?

**Cavab:** Xeyr, vacib deyil.

***7. Qusmaq***

Əgər oruc tutan şəxs bilərəkdən qusarsa orucu batil olar. Əgər bilmədən, özündən ixtiyarsız qusarsa orucu batil olmaz. Qusan insan ağzına gələn şeyi çölə tökməli və udmamalıdır.

**Sual:** Oruc halda gəyirməyin hökmü nədir?

**Cavab:** Gəyirmək orucu batil etmir. Amma oruc tutan şəxs bilsə ki, gəyirsə boğazından bir şey xaric olacaq, bilərəkdən gəyirməməlidir.

## *Orucun kəffarəsi*

Əgər bir şəxs bilərəkdən, heç bir üzrü olmadan ramazan ayının orucunu tutmasa, ya da oruc tutub günün axrınadək orucunu pozsa, həm qəza orucu tutmalıdır, həm də oruc kəffarələrindən birini yerinə yetirməlidir. Orucun kəffarələri:

a) 60 gün (31 günü ardıcıl) oruc tutmaq;

b) 60 fəqiri doyurmaq və ya onların hər birinə 750 qram-1mud çöək təam vermək. İnsan kəffarə olaraq 60 fəqirin payını 60-dan az fəqirə bölə bilməz.

c) Allah yolunda qul azad etmək. Əlbəttə ki, bu gün belə bir kəffarə vermək mümkün deyil.

Diqqət: Əgər oruc tutan şəxs şərab, istimna, Allah və məsumların adından yalan kimi haram işlə orucunu pozarsa, vacib ehtiyata əsasən həm qəza orucu tutmalıdır, həm də üç kəffarə ödəməlidir.

## *Müsafirin orucu*

Dördrəkətli namazı iki rəkət qılmalı olan müsafir səfərdə oruc tuta bilməz. Amma səfərdə namazını tam qılan müsafir (peşəsi səfər olan şəxs və ya haram səfərə çıxan

şəxs) orucunu tutmalıdır. Səfərdə on gün bir yerdə qalmaq qərarına gəlmiş müsafir də orucunu tutur.

**Sual:** Ramazan ayında səfərə çıxmaq olarmı?

**Cavab:** Bunun eybi yoxdur. Amma səfərə çıxmaqda məqsəd orucdan qaçmaqdırsa, bu iş məkruhdur.

**Sual:** Səfərdə müstəhəb oruc tutmaq olarmı?

**Cavab:** Xeyr. Yalnız Mədinə şəhərində hər hansı istəyin həyata keçməsi üçün üç gün müstəhəb oruc tutmaq olar. Vacib ehtiyata əsasən həmin oruclar çaharşənbə (üçüncü gün), cümə axşamı və cümə günləri tutulmalıdır.

**Sual:** Bir şəxs mübarək ramazan ayında səfərdən öz şəhərinə qayıdarsa və ya səfərdə on gün bir yerdə qalmaq qərarına gələrsə, həmin günün orucunu tutmaq vacib olurmu?

**Cavab:** Əgər günorta azanından qabaq öz şəhərinə çatarsa, həmin vaxtadək orucu pozan bir iş görməzsə, oruc niyyət etməlidir və həmin günü oruc tutmalıdır. Əgər günortadan sonra çatarsa və ya on gün qalmaq qərarına gəldiyi yerə yetişərsə, həmin günün orucu düzgün deyil. Həmin vaxtadək orucu pozan bir iş görməsə də oruc tuta bilməz.

## *Kimlərə oruc tutmaq vacib deyil?*

Müsafirdən əlavə bir neçə şəxsə ramazan ayının orucu vacib deyil:

1. Oruc tutmaq gücü olmayan və ya orucdan əziyyət çəkən yaşlı insanlar;

2. Özünə və körpəsinə orucdan ziyan olacaq hamilə qadınlar, amma sonradan orucunun qəzasını tutmalıdır;

3. Əgər övladına süd verən qadına və onun körpəsinə oruc zərər olarsa, oruc tutmamalıdır. Amma sonradan oruclarının qəzasını yerinə yetirməlidir;

4. Büluğ həddinə çatmış, amma oruc tutmağa fiziki gücü olmayan, orucdan çox əziyyət çəkən uşaqlar; amma qüdrətləri çatan vaxt həmin orucun qəzasını tutmalıdırlar.

**Sual:** Orucun zərərli olduğunu bilən şəxs oruc tuta bilərmi?

**Cavab:** Xeyr. Əgər oruc tutarsa, orucu batildir. Üzrü aradan qalxdıqdan sonra orucunun qəzasını tutmalıdır.

**Sual:** Əgər bir şəxs orucun ona zərər olmadığını düşünüb oruc tutarsa və qürubdan sonra orucun zərərli olduğu bilinərsə, tutduğu oruc düzgündürmü?

**Cavab:** Xeyr. Həmin orucun qəzasını tutmalıdır.

**Sual:** Müstəhəb orucu sona çatdırmaq vacibdirmi?

**Cavab:** Xeyr. Müstəhəb oruc tutan şəxs günün istənilən bir vaxtı orucunu aça bilər. Əgər mömin bir şəxs ona yeməli bir şey təklif edərsə, bu təklifi qəbul etməyi müstəhəbdir.

**Sual:** Oruc halda diş çəkdirmək olarmı?

**Cavab:** Bu iş məkruhdur. Oruc halda qan vermək, zəifliyə səbəb olacaq istənilən bir iş görmək məkruhdur.

**Sual:** Övlad ata-anasının icazəsi olmadan müstəhəb oruc tuta bilərmi?

**Cavab:** Əgər övladın orucu ata-anaya əziyyət olarsa, bu işə icazə verilmir.

**Sual:** Əgər bir şəxs oruc halda cənazəyə toxunsa, orucu batil olarmı?

**Cavab:** Xeyr. Əgər meyitə toxunma qüslü verməsə də, orucu batil olmaz. Amma namaz üçün meyitə toxunma qüslü verməlidir.

**Sual:** Öhdəsində mübarək ramazan ayının qəza orucu olan şəxs müstəhəb oruc tuta bilərmi?

**Cavab:** Xeyr. Vacib ehtiyata əsasən öhdəsində istənilən bir vacib orucun qəzası olan şəxs müstəhəb oruc tuta bilməz.

# On səkkizinci fəsil

## *İslamda maddi məsuliyyətlər, həmdərdlik*

İslam təkcə əxlaqi və etiqadi məktəb deyil. Bu din bəşəriyyətin maddi və mənəvi ehtiyaclarını əhatə edən kompleks göstərişlərdən ibarətdir. İslam dinində həzrət Peyğəmbərin (s) dövründən başlayaraq məhrumlara, ehtiyaclılara, kimsəsizlərə, xəstələrə və əlillərə xüsusi diqqət göstərilmişdir.

Sərvət əldə edilməsi, onun necə xərclənməsi, vacib haqların ödənməsi ilə bağlı İslam qanunları elə tənzimlənmişdir ki, həm fərdin təlaşlarına və mülkiyyətinə hörmət göstərilir, həm də iqtisadi əməliyyatların bir qrupun əlində toplanmasının qarşısı alınır.

Dini rəhbərlərin nəzərincə, varlılar Allahın təyin etdiyi haqları ödəsələr, cəmiyyətdə yoxsul qalmaz. Cəmiyyətdə yoxsulların mövcudluğunun əsas səbəblərindən biri varlıların dini haqları ödəməməsidir. Həzrət Əli (ə) buyurur: "Yalnız varlı əlinə yığdığından yoxsul ac qaldı.[1]

Quran ayələri və məsumların buyuruqlarına nəzər saldıqda aydın olur ki, İslam dininin əsas məqsədlərindən biri sosial təbəqələr arasındakı ədalətsiz fərqləri aradan qaldırmaqdır.

---

*1. Nəhcül-bəlağə", hikmətlər bölməsi, hikmət 328, s. 420*

Bu məqsədə çatmaq üçün İslam dininin xüsusi və geniş proqramları var. Bu proqramlara əməl edilərsə, xoşbəxt bir cəmiyyət qurular. Ədalətsizlik, insafsızlıq, bahaçıllıq, əskik satmaq, xalqın malının qəsb edilməsi, oğurluq, israf, saxtakarlıq, qatqıçılıq, fırıldaqçılıq, rüşvətxorluq, möhtəkirlik, sələmçilik kimi işlərdən uzaq olmaq, eyni zamanda xüms və zəkat kimi haqları ödəmək, fitriyyə, kəffarə, nəfəqə kimi haqları sahibinə çatdırmaq İslam dinində nəzərdə tutulmuş proqramların tərkib hissəsidir. Cəmiyyətdə yoxsulluğun aradan qaldırılmasında sədəqələrin, qərzül-həsənə ( xeyir gözləmədən verilən gözəl borc) banklarının, ümumi vəqflərin böyük əhəmiyyəti var.

İslam proqramlarında cəhd göstərilir ki, insanlarda iman, qardaşlıq, insaniyyət, ədalətpərvərlik ruhu tərbiyə olunsun. Müsəlman qonşusu ac ikən tox yatmaqdan utanmalıdır.

*Fəzldən, ehsandan uzaq olan kəs*
*Kor kimi yoxsula göstərməz həvəs.*
*Dünyanı qazanmaq sayılmaz hünər.*
*Çalış ki, qəlblərə çalasan zəfər.*[1]

Söhbətimizin bu məqamında maddi məsuliyyətlərlə bağlı bəzi məsələləri nəzərdən keçirəcəyik.

## *Xüms*

Xüms dedikdə insanın müxtəlif yollarla əldə etdiyi qazancın ilin ehtiyaclarından artıq qalan hissəsinin beşdə birini müəyyənləşmiş ünvanlara ayırması nəzərdə tutulur. Bu işdə Allahın razılığını izləmək mühümdür.

## *Xümsün xərclənməsi*

Xüms iki bərabər hissəyə bölünür:

---

*1. "Gülüstan", 7-ci bab, tərbiyənin təsiri, s. 238, hekayət 11*

a) İmamın səhmi (payı): Hazırkı dövrdə vacib ehtiyata əsasən həmin səhm zəruri şərtlərə malik müctəhidə təqdim olunmalı, ya da onun icazəsi ilə İslamın güclənməsi yolunda sərf edilməlidir.

b) Seyidlərin səhmi (payı): Bu hissə yoxsul, yolda qalmış seyidlərə xərclənir. Bu hissənin xərclənməsi üçün müctəhidin icazəsinə ehtiyac yoxdur. Amma yaxşı olar ki, bu işdə də ondan icazə alınsın.

Bir şübhəyə cavab: Bəziləri belə düşünə bilər ki, xümsün bir hissəsinin seyidlərə ayrılması bir növ ayrı seçkilikdir. Cavab olaraq deməliyik ki, uyğun hissə yalnız ehtiyaclı seyidlərə xərclənir. Bundan əlavə onlara yalnız bir illik ehtiyacı verilə bilər. Demək, həmin hissədən yalnız iqtisadi çətinliyə düşmüş yoxsul, yetim uşaqlar faydalana bilir. Bundan əlavə, seyid olmayan ehtiyaclılar öz ehtiyacını zəkatdan ödəyə bilər. Unutmamalıyıq ki, yoxsul seyidlərin zəkatdan istifadə etmək hüququ yoxdur. Zəkat cəmiyyətin ümumi büdcəsi sayılır. Belə görünə bilərdi ki, seyidlərin zəkatdan məhrum edilməsi də onlara qarşı ayrı seçkilikdir. Amma İslam qanunlarında bütün təbəqələr nəzərdə tutulmuşdur. Seyidlər xümsdən, seyid olmayanlar zəkatdan pay alır. Seyidlərin zəkatdan məhrum edilməsinin səbəbi ayrıseçkilik yox, bir imtiyazdır. Seyidlər müəyyən məsləhətlər əsasında ümumi büdcədən istifadə edə bilməzlər.

## *Nələrə xüms düşür?*

Yeddi şey üçün xüms vermək vacibdir. Yəni qeyd edilənlərin beşdə biri xüms kimi ödənməlidir.

1. Ticarət və iş gəliri: İnsan əkinçilik, sənətkarlıq, ticarət və digər iqtisadi yollarla sərvət əldə edərsə və bu sərvət ilin ehtiyaclarından artıq qalarsa, onun beşdə biri xüms ödənir;

2. Mə’dən: Mədən xalqın malı sayılır. Vacib ehtiyata əsasən imamın qeybi dövründə mə’dən hasilatı üçün şər’i hakimdən icazə alınmalıdır. Mə’dəndən qızıl, gümüş və sairə

qiymətli ehtiyatlar çıxaran şəxs öz xərclərini çıxıb (15 misqal qızıl) xüms ödəməlidir;

3. Xəzinə: Xəzinə dedikdə yerdə, ağacda, dağda və ya divarda gizlədilmiş şey nəzərdə tutulur. Xəzinənin sahibi tanınmır. Onun tapılması xərcləri çıxıldıqdan sonra xümsü ödənməlidir;

4. Üzgüçülüklə dənizdən çıxarılan cəvahir: Cəvahir də xalqın malı sayılır. Onu çıxarmaq üçün vacib ehtiyata əsasən şəri hakimdən icazə alınmalıdır. Əgər üzgüçülük yolu ilə dənizdən cəvahir, mərcan və bu kimi şeylər əldə olunarsa, xərclər çıxıldıqdan sonra onun beşdə biri xüms ödənməlidir;

5. Harama qatışmış halal mal: Əgər insanın malı harama qatışmışsa və onun miqdarını müəyyənləşdirmək mümkün deyilsə, həmin malın xümsü ödənməlidir;

6. Savaş qəniməti: Əgər müsəlmanlar məsum imamın hüzuru dövründə onun əmri ilə kafirlərlə vuruşub qənimət əldə etsələr, imamın məsləhəti ilə bir hissə ayrıldıqdan sonra xərcləri çıxıb qalan hissənin xümsünü verməlidirlər;

7. Zimmi kafirin müsəlmandan aldığı torpaq. Əgər bir kafir İslam dövlətinin himayəsində yaşayırsa, ona zimmi kafir deyilir. Zimmi kafir müsəlmandan aldığı torpağa görə xüms verməlidir. Həmin şəxs torpaq əvəzinə pul da verə bilər.

## *Malın zəkatı*

İslamda qazanc və sərvət müqabilində verilən zəkatın xüsusi əhəmiyyəti var. Zəkat mühüm ibadətlərdəndir. Quran və hədislərdə zəkat namazla yanaşı zikr olunur. Zəkat ödəməkdən boyun qaçıranlar şiddətlə məzəmmət edilir. Cəmiyyətdə ictimai ədalətin bərpa olunmasında, yoxsulluqla mübarizədə, təbəqələr arası fərqlərin azaldılmasında zəkatın əhəmiyyətli rolu var. Zəkat vermək vacibdir və bu iş Allaha yaxınlaşma məqsədi ilə həyata keçməlidir. Zəkat insanın ruhunu və canını dünyapərəstlikdən təmizləyir, onu Allaha yaxınlaşdırır.

Zəkat cəmiyyətdəki yoxsullardan qabaq sərvət sahiblərinin özünə faydalıdır. Zəkat verilməyən cəmiyyətlərdə çox keçmir ki, sosial partlayışlar baş verir və varlıların bütün sərvəti təhlükə altına düşür. İmam Sadiq (ə) buyurur: "Yalnız zəkat ödənmədiyindən suda və quruda sərvətlər məhv olur. Sərvətinizi zəkat verməklə sığortalayın."[1]

## *Nələrə zəkat düşür?*

Doqquz şeyin zəkatını vermək vacibdir: buğda, arpa, xurma, kişmiş, qızıl, gümüş, qoyun, inək, dəvə. Bu doqquz şeydən hər biri üçün "nisab həddi" deyilən hədd müəyyənləşmişdir və həmin hədd əsasında zəkat ödənir. Şəri məsələlər risaləsində uyğun məsələ geniş şərh olunur.

## *Zəkatın sərf olunması*

Zəkat aşağıdakı ünvanlara xərclənir:

1. Yoxsullar; özünün və himayəsində olanların illik xərcini və ya illik xərcinin bir hissəsini ödəyə bilməyən şəxs yoxsul sayılır;

2. Miskinlər: maddi durumu yoxsuldan da aşağı olanlar miskin sayılır;

3. Zəkat veriləcəyi təqdirdə İslama meyl göstərəcək, savaşlarda müsəlmanlara yardım edəcək kafirlər;

4. Qul alıb azad etmək; hazırkı dövrümüzdə bu işi görmək mümkün deyil;

5. Borcunu verə bilməyənin borcunu ödəmək; bir şərtlə ki, həmin pul günaha xərclənməsin;

6. Cəmiyyətin ümumi mənafeyinə faydalı işlərə, İslamın güclənməsinə, Allah yolunda xərcləmək; məsələn, məscid və mədrəsə, hamam və kitabxana tikmək, yol düzəltmək;

7. Yolda qalmış, vətəninə qayıtmaq üçün pulu olmayan müsafirə kömək etmək; bu qəbil insanlar "ibn Səbil" adlanır;

---

1. *"Vəsailuş-şiə", c. 9, s. 28, 29, hədis 21*

8. İmam və ya onun naibi tərəfindən zəkat yığmağa vəzifəli şəxslərə xərcləmək.

## *Fitriyyə*

Vacib zəkatlardan biri də fitriyyə adlanan fitrə zəkatıdır. Müəyyən səciyyələrə malik hər bir yetkin insan ildə bir dəfə bu zəkatı ödəməlidir. Zəkatı Allaha yaxınlaşmaq məqsədi ilə verməк lazımdır. İmam Sadiq (ə) buyurur: “Həzrət Peyğəmbərə göndərilən salavat namazı kamilləşdirdiyi kimi fitriyyə də mübarək ramazan ayının orucunu kamilləşdirir. Oruc tutub fitriyyə verməyən şəxsin orucu qəbul olmaz. Necə ki, təşəhhüdündə Peyğəmbərə (s) salam göndərilməyən namaz qəbul deyil.[1]

İstənilən bir halda fitr bayramı axşamı günəş qürub edən vaxt həddi-büluğ, aqil, huşlu insana öz tərəfindən və himayəsində olanlar tərəfindən fitriyyə vermək vacibdir. Əlbəttə ki, həmin şəxs özü yoxsul deyilsə. Ailədə yaşından və dinindən asılı olmayaraq hər bir şəxs üçün fitriyyə verilməlidir.

## *Fitriyyənin miqdarı*

İnsan özü və himayəsində olan fərdlər tərəfindən fitriyyə verməlidir. Hər nəfərə görə bir sa, təqribən 3 kiloqram qida verilir. Bu qida həmin şəhərdə və məntəqədə daha çox istifadə edilən qidalardan olmalıdır. Buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və bu kimi şeylərdən fitrə vermək olar. Əlbəttə ki, bu şeylərin əvəzinə onların qiymətini hesablayıb vermək olar.

## *Fitriyyənin xərclənmə ünvanları*

Kimə zəkat düşürsə, fitrə zəkatı da düşür. Amma müstəhəb ehtiyat budur ki, fitrə zəkatı həmin pulu günaha xərcləməyəcək

---

*1. “Vəsailuş-şiə”, c. 9, s. 318, hədis 5*

yoxsul şiələrə verilsin. Vacib ehtiyata əsasən, şərabxora, aşkara böyük günah edənə fitrə verilməməlidir. Fitriyyə verərkən öncə yoxsul qohumları nəzərə almaq lazımdır. Sonra yoxsul qonşular, daha sonra yoxsul elm əhli gəlir.

## *Fitriyyə ödənməsinin vaxtı*

Fitr bayramı namazı qılmayan şəxs fitriyyəni bayram günü günortayadək, bayram namazı qılacaqsa vacib ehtiyata əsasən, fitriyyəni namazdan öncə verməlidir. Əgər həmin vaxtadək bir yoxsul tapmasa, fitriyyəni öz malından ayırıb saxlamalıdır.

## *Müstəhəb sədəqə və Allah yolunda infaq*

Bəşəriyyəti narahat edən ictimai problemlərdən biri də təbəqələr arasındakı fərqdir. Dövrümüz texnoloji tərəqqi dövrü olsa da, bu ayrıseçkilik aradan qalxmamışdır, yoxsullar və varlılar təbəqəsi bir-birindən seçilməkdədir. Bəziləri o qədər sərvət toplamışlar ki, öz kapitallarının hesabını bilmirlər. Bəziləri isə bir qarın çörəyə möhtacdır və aclıqdan əziyyət çəkir. Onlar üçün sadə məskən, sadə libas və sadə qidalar əlçatmazdır. Şübhəsiz ki, belə bir cəmiyyət heç vaxt həqiqi səadətin ləzzətini dada bilməz. Bu böyük problemlə mübarizə yollarından biri yoxsullara və ehtiyaclılara yardım göstərilməsi, ehsan edilməsidir. İslamda sədəqə və ehsan təkidlə vurğulanan bir məsələdir. Rəvayətlərdə bildirilir ki, insanın verdiyi sədəqə yoxsulun əlinə çatmamış Allahın hüzuruna təqdim olunur. [1] Bu səbəbdən də imam Səccad (ə) sədəqə verən vaxt əlini öpərmiş.[2] İmam Baqir (ə) birinə sədəqə verəndə onu geri alıb qoxulayar, öpər, sonra yenidən qaytararmış.[3]

---

1. *"Vəsailuş-şiə", c. 9, s. 406, hədis 1*
2. *Həmin mənbə, s. 433, 434, hədis 2*
3. *Həmin mənbə, s. 406, 407, hədis 2*

Hədislərdə bildirilir ki, insan sədəqə vermək istədiyi vaxt 70 şeytan ona vəsvəsə edir. Onlar hər yolla sədəqəyə mane olmağa çalışırlar. Sədəqə verən şəxs əslində onu şeytanların cəngindən alıb, Allahın hüzuruna təqdim edir.[1]

Sədəqənin onu verən şəxsə ictimai faydalardan əlavə də xeyirləri var:

1. Sədəqə verənin sərvəti artar; imam Sadiq (ə) buyurur: "Öz ruzini sədəqə verməklə tələb et."[2]

2. Ağrılı bəlalar, insanın qəlbini sıxan ölümlər sədəqə vasitəsi ilə aradan qalxar; həzrət Peyğəmbər (s) buyurur: "Sədəqə şər qapılarından 70-ni bağlayar."[3]

Nəql olunur ki, bir gün həzrət İsa öz yaxınları ilə əyləşmişdi. O yanlarından ötən bir şəxsi göstərib buyurdu: "Bu şəxs tezliklə öləcək." Amma bir müddət sonra həmin şəxsin dalında çırpı gəldiyini görənlər dedilər: "Ey Ruhullah! Sən deyirdin bu kişi öləcək, bəs nə oldu?" Həzrət həmin kişini çağırıb dedi: "Dalındakı çırpını yerə qoy." Kişi dalındakı şələni yerə qoydu. Şələnin içindən daş udmuş bir ilan çıxdı. Həzrət İsa həmin şəxsdən soruşdu: "Bu gün nə yaxşı iş görmüsən?" Kişi dedi: "İki parça çörəyim vardı. Onun birini yoxsula verdim."[4]

3. Yoxsulluğun aradan qalxması; Həzrət Əli (ə) buyurur: "Çıxılmaz vəziyyətə düşdükdə Allahla öz sədəqəniz vasitəsi ilə müamilə aparın."[5]

4. Sədəqə cəhənnəm odu qarşısında sipərdir.[6]

5. Xəstələrin sağalması; Həzrət Peyğəmbər (s) buyurur: "Sədəqə verməklə xəstələrinizə çarə qılın."[7]

Qeyd etmək lazımdır ki, sədəqə verən bu işi Allaha xatir görməlidir. Sədəqə verilmiş insandan nə isə ummaq olmaz.

---

*1. Həmin mənbə, s. 370, hədis 12*
*2. Həmin mənbə, hədis 10*
*3. "Biharul-ənvar", c. 93, s. 132, hədis 64*
*4. "Vəsailuş-şiə", c. 9, s. 389, hədis 8*
*5. Həmin mənbə, s. 372, hədis 20*
*6. Həmin mənbə, s. 369, hədis 7*
*7. Həmin mənbə, s. 372, hədis 18*

## *Zülmün aradan qaldırılması ("Rədde-məzalim")*

Əgər insan bilmədən və ya diqqətsizlikdən bir şəxsin mülkünə zərər vurursa və ya onun malını qəsb edərsə, öz günahını yumalıdır. Əgər maddi zərər vurulmuş şəxslərdən xəbər yoxsa və ya heç vəchlə onları tapmaq mümkün deyilsə, insan öz günahını yumaq üçün zəruri şərtlərə malik müctehiddən icazə almaqla və ya özü qəsb olunmuş mal əldədirsə, həmin malı, əldə deyilsə onun dəyərini mal sahibi tərəfindən fəqirlərə sədəqə verməlidir. Bu iş "rədde-məzalim" adlanır.

## *Kəffarələr*

Kəffarə sözü örtmək mənasını bildirən küfr sözündəndir. Allaha imanı olmayan şəxs həqiqəti ört-basdır etdiyindən kafir adlanır. Kəffarə insanın bilərəkdən və ya diqqətsizlikdən gördüyü pis işi örtdüyü üçün belə adlandırılmışdır.

Kəffarə həm insanı günahdan çəkindirir, həm də tərbiyəvi təsirə malikdir. Kəffarə iman sütunlarını möhkəmləndirir, insanın dini göstərişlərə münasibətini ciddiləşdirir.

Kəffarə olaraq acların doydurulması, onlara libas verilməsi, heyvan kəsib onun ətini yoxsullar arasında paylamaq ola bilər. Bir çox günahlara görə kəffarə ödənməlidir. Oruc halda, Həcc və ümrə ehramında baş vermiş günahlar, bu kimi başqa xoşagəlməz işlər müqabilində kəffarə verilir. Kəffarə həm də cəmiyyətdəki yoxsulluğun aradan qaldırılmasında rol oynayır.

# On doqquzuncu fəsil

## *Həcc böyük İslam konfransıdır*

Həcc dedikdə Məkkədə Allah evinin ziyarəti, xüsusi bir proqramın icrası nəzərdə tutulur. Həcc ibadətinin də digər ibadətlər kimi böyük bərəkətləri var. Həcc həm fərd, həm də cəmiyyət üçün xeyirlidir. Müsəlmanlar bu proqramı düzgün yerinə yetirərlərsə, Həccdən əyləncə və səyahət məqsədi ilə istifadə etməzlərsə, hər il bu böyük mərasimdən sonra İslam dünyasında böyük dəyişikliklər müşahidə olunar.

## *Həccin təsirləri və yönümləri*

Həcc mərasiminin bir sıra dəyərli təsirləri və yönümləri var:

***1. Ruhi dəyişiklik, özünütərbiyə***

Həccin ən mühüm fəlsəfəsi onun əxlaqi yönümüdür. Həcc əməlini yerinə yetirmək qərarına gəlmiş dünya bər-bəzəyini bir kənara qoyub ehram libası geyir, bir sıra halal ləzzətlərə göz yumub özünütərbiyə proqramını yerinə yetirməyə başlayır. Həcc proqramının hər bəndini yerinə yetirən insanın Allaha bağlılığı güclənir. Öz qaranlıq keçmişindən uzaqlaşmış hacı işıqlı gələcəyə addım atır. Onun həyat kitabında nurlu bir səhifə açılır. Bu səbəbdən də rəvayətlərdə deyilir: Bülöv daşı dəmirin pasını apardığı

kimi Həcc və ümrə insanın yoxsulluq və günahını aradan qaldırır."[1] Başqa bir hədisdə oxuyuruq: "Təkəbbürə yol vermədən Həcc və ümrə üçün Kəbəyə üz tutan insan günahlardan təmizlənib, anadan doğulduğu vaxtdakı kimi pak olur."[2]

Bəli, Həcc müsəlmanın dünyaya yenidən gəlişidir. Bu ibadət sağlam bir həyata atılan addımdır. Həcc ibadətini yerinə yetirən insanın qarşısında həzrət İbrahim, İsmail, Hacər, İslam peyğəmbəri (s) və onun yaxınlarının xatirələri və mücahidələr canlanır.

Necə də gözəl olardı ki, əziz gənclərimiz xəlvətdə Allahla raz-niyazları zamanı ondan sağlam və güclü olduqları bir vaxtda Həcc tövfiqi istəyəydilər. Belə bir vəziyyətdə insan Həcc ibadətindən daha böyük feyz alır.

### *2. İslam ümmətinin birliyi*

Həccin mühüm yönümlərindən biri onun siyasi yönümüdür. Bu əzəmətli mərasim müsəlmanların birliyində təsirli amildir. Onun vasitəsi ilə İslam dünyası ilə bağlı məlumatlar dünyaya yayılır, əsarət zəncirləri qırılır. Həcc mərasimində ibadət ruhu siyasi gerçəkliklə bir araya gəlir.

Bəzi rəvayətlərdə Həcc zəif insanların cihadı kimi təqdim edilir.[3] Bu cihadda hətta qoca kişilər və qadınlar səhnəyə çıxır, İslam ümmətinin əzəməti tam mənasında özünü göstərir. Allah evi ətrafında sıx şəkildə cərgələnmiş ümmət öz vəhdət şüarları ilə İslam düşmənlərini qorxuya salır. Bəli, müsəlmanlar Həcc mərasimlərində ixtilafdan, firqəçilikdən çəkinməli, qarşılıqlı anlaşmaya gəlib düşmən üzərində qələbə yolunu araşdırmalıdırlar.

### *3. İslam maarifinin yayılması*

Həcc mərasiminin digər bir faydası onun mədəni və elmi yönümüdür. Həcc günlərində müxtəlif firqələrdən, zümrələrdən

*1. "Füre-kafi", c. 4, s. 255, hədis 12*
*2. Həmin mənbə, s. 252, hədis 2*
*3. "Vəsailuş-şiə", c. 11, s. 12, hədis 14*

olan müsəlmanların rabitəyə qatılması İslam maarifinin dünyaya yayılmasında güclü amil ola bilər. Hələ Bəni-Üməyyə və Bəni-Abbas hökumətləri dövründə müsəlmanlar sıxıntıya salınmış İslam hökmlərinin yayılması üçün Həcc mərasimindən faydalanır, məsum imamlar, böyük alimlərlə rabitəyə qatılaraq öz problemlərini həll edirdilər. Həcc mərasimi İslam mütəfəkkirlərinin böyük konfransı ola bilər. Alimlər bu mərasimdə bir araya gəlib İslam maarifinin təbliği üçün yol axtara bilərlər.

***4. İqtisadi dayaqların möhkəmləndirilməsi***

Həccin digər bir yönümü iqtisadi yönümdür. Həcc mərasimindən faydalanmaqla İslam məmləkətləri öz iqtisadi dayaqlarını möhkəmləndirə bilər. Bu iş nəinki Həcc amallarına zidd deyil, hətta bu mərasimin fəlsəfələrindən biridir. İmam Sadiq (ə) Hişam ibn Həkəmin Həccin fəlsəfəsi ilə bağlı sualına cavab verərkən bildirir ki, bu ilahi vəzifənin faydalarından biri sərmayələrin bir şəhərdən o birinə hərəkətidir.[1] Çox yaxşı olardı ki, müsəlmanlar bu mərasimdə İslam iqtisadi birliyinin bünövrəsini qoyaydılar. Əgər bu iş görülərsə, müsəlman məmləkətlərinin qazancı İslam düşmənlərinin cibinə axmaz, müsəlmanlar iqtisadi asılılıqdan qurtularlar.

Deyilənləri nəzərə aldıqda görürük ki, müsəlmanlar bu müstəsna fürsətdən faydalanıb bir sıra problemlərini həll edə bilərlər. Bəli, Həcc ibadətinin siyasi ideoloji, mədəni, iqtisadi faydaları var. Olsun ki, elə bu səbəbdən imam Sadiq (ə) buyurur: "Nə qədər ki, Kəbə evi yerindədir, İslam da yerində möhkəm dayanmışdır."[2]

Amma çox əfsus ki, bütün bu faydalara göz yumur, Həcc səfərini əyləncə və səyahətə çeviririk. Bəziləri bu səfərdən özününümayiş məqsədi ilə istifadə edir. Peyğəmbər (s) buyurur:

---

*1. Həmin mənbə, s. 14, hədis 18*

*2. Həmin mənbə, c. 21, hədis 5*

“Elə bir dövr gələr ki, həmin dövrdə padşahlar əyləncə, varlılar, qazanc, yoxsullar dilənmək üçün Həccə gedər.”[1]

**Sual:** Həcc kimlərə vacibdir?

**Cavab:** Aşağıda sadalanacaq şərtlərə malik insanlara ömründə bir dəfə Həccə getmək vacibdir: büluğ həddində, aqil olsun; Həccə getmək qüdrəti olsun; Həccə getməsi onun haram işə yol verməsinə, vacib bir işdən çəkinməsinə səbəb olmasın (haramı tərk etmək, vacibi yerinə yetirmək Həccdən mühümdür)

**Sual:** Həcc qüdrəti (istitaət) dedikdə nə nəzərdə tutulur?

**Cavab:** İnsanın istitaətli (qüdrətli) sayılması üçün altı şərt ödənməlidir:

1. Sağlamlıq, Həcc əməllərini yerinə yetirmə gücü;
2. Səfər xərcini ödəyəcək imkan;
3. Həccə gedən şəxsin himayəsində olanların hami Həccdən qayıdanadək xərclərinin ödənməsi;
4. Yolun maneəsiz olması, yolda insanın canı, şəxsiyyəti və malı üçün təhlükələrin olmaması;
5. Həcc əməllərini yerinə yetirmək üçün kifayət qədər vaxt olması;
6. Həccə getmək istəyən şəxsin elə bir işi və qazancı olmalıdır ki, Həccdən qayıtdıqdan sonra öz ehtiyaclarını və himayəsində olanların ehtiyacını ödəyə bilsin.

**Sual:** Əgər bir şəxs Həcc qüdrətinə sahib olub Həccə getməsə, sonradan yoxsullaşsa, Həcc ona vacib olaraq qalırmı?

**Cavab:** Bəli. Həcc ona vacib olmuşdur və zəhmətə düşərsə də Həcci yerinə yetirməlidir.

---

*1. Həmin mənbə, s. 60, hədis 9*

# İyirminci fəsil

## *Cihad behişt qapılarındandır*

Allah-taalanın vacib əmrlərindən biri də cihaddır. Cihad dedikdə Allah düşmənləri ilə mübarizə, savaş nəzərdə tutulur. Qurani-məcidin bir çox ayələrində cihad və mücahidlərin əzəməti haqqında danışılır. Allah-taala "Adiyat" surəsinin ilk ayələrində mücahidlərin atlarının nəfəsinə (tövşüməsinə), onların ayağından qalxan toza and içir. Öz haqları və namusu yolunda sitəmkarlar və təcavüzkarlar qarşısında dayanmış millətlər bu yolda əzizlərini qurban verərək istiqlaliyyətlərini qoruyur, gələcək nəsillər tərəfindən sevilirlər. Amma xoş güzaran, ötəri ləzzətlər səbəbindən cihaddan boyun qaçıranlar, zillət libası geyənlər tədrici ölümə düçar olur, gələcək nəsillər tərəfindən məzəmmət edilirlər.

Söhbətimizin davamında nəzərdən keçirəcəyimiz buyuruqlar Allah yolunda cihadın əhəmiyyətini, mücahidlərin əzəmətini bəyan edir:

1. Qurani-məcid: "Allah Onun yolunda polad sədd tək möhkəm dayanıb vuruşanları sevir."[1]

2. Həzrət Peyğəmbər (s): "Cihad edin ki, övladlarınıza şərəf və əzəmət miras qoyasınız."[2] Həzrət Peyğəmbər (s) başqa

---

*1. Surə 61, "Səff", ayə 4*
*2. "Vəsailuş-şiə", c. 15, s. 15, hədis 16*

bir məqamda buyurur: "Allah cihadı tərk edən insana zillət libası geyindərər, ömrünə ehtiyac, dininə zülmət kölgəsi salar. Allah mənim ardıcıllarıma cihad meydanında yeriyən polad sütunlar və nizə ucları ilə izzət verər.[1]

3. Həzrət Əli (ə) buyurur: "Cihad behişt qapılarından bir qapıdır. Allah bu qapını öz xüsusi övliyalarının üzünə açmışdır. Cihad fəzilətli təqva libası, nüfuzedilməz ilahi zireh, möhkəm sipərdir. Allah cihadı tərk edən insana zillət və bəla libası geyindirər, onu insanların gözündə alçaldar."[2]

Unutmamalıyıq ki, bu gün İslam düşmənləri ilə mübarizə təkcə hərb sahəsinə aid deyil. İslamı əzəmətləndirən istənilən bir iqtisadi, elmi, ideoloji, siyasi təlaş cihad sayılır. Ən önəmlisi İslamın müqəddəs ilahi məqsədlərini həyata keçirməkdir. Əl-ələ verərək biganələrin məkrli planlarını puça çıxarmaq hər bir müsəlmana vacibdir. Düşmənlərin İslam məmləkətlərinə uzanmış çirkin əlləri hər yolla kəsilməlidir.

## *Cihadın növləri*

1. İbtidai cihad: ibtidai cihad dedikdə müsəlmanların imama qarşı silahlı qiyam qaldıranların, İslama və ədalətə dəvət məqsədi ilə kafirlərin və müşriklərin, müsəlmanlarla müqavilələrini pozanların üzərinə hərbi qüvvə göndərməsi nəzərdə tutulur.

Cihadın məqsədi fatehlik, məmləkətlərin istilası deyil. Müsəlmanlar millətlərin fitri haqlarını onlara qaytarmaq, insanları ilahi inanclarından məhrum edən kafirlər və zalımları yerində oturtmaq üçün cihada qalxırlar.

2. Müdafiə cihadı: müdafiə cihadı dedikdə müsəlman sərhədlərini pozmuş, hərbi müdaxiləyə cəhd göstərən, siyasi üstünlük əldə etməyə çalışan, mədəni və iqtisadi asılılıq vəziyyəti yaratmaq istəyən düşmənə qarşı silahlı müqavimət nəzərdə

---

*1. Həmin mənbə, s. 10, hədis 2*
*2. Həmin mənbə, s. 14, hədis 13*

tutulur. Olsun ki, müsəlmanların ziddinə silahlı qiyam qaldıranlarla mübarizə də müdafiə cihadıdır.

**Sual:** Kimlərin cihadda iştirak etməsi vacibdir?

**Cavab:** Büluğ həddinə çatmış, ağıllı, sağlam kişilər cihadda iştirak etməlidir. Gözü görməyən, hərəkət edə bilməyən, vəzifəsini yerinə yetirməkdə aciz xəstə insanlara cihad vacib deyil. Əgər cihad üçün yetərincə qüvvə toplanarsa, bu vəzifə başqalarının öhdəsindən götürülür. Əgər cihadın davamı üçün maddi dəstəyə ehtiyac olarsa, bütün varlıların öz imkanlarını işə salması vacibdir.

**Sual:** Əgər ata-ana övladının cihad və ya difayə (müdafiə cihadına) getməsinə razılıq verməzsə, bu vəzifə övladın üzərindən götürülərmi?

**Cavab:** Əgər övladın cəbhədə iştirakı vacib olarsa, yəni həmin dövrdə cəbhənin canlı qüvvəyə olan ehtiyacı yerində qalarsa, ata-ananın qadağası səmərəsizdir. Amma cəbhənin ehtiyacı ödənən vaxt övlad üçün cəbhədə iştirak etmək “kifayi vacib” olarsa, bu halda ata-ananın etirazına qarşı çıxmaq olmaz.

**Sual:** Əgər təcavüzkar bir şəxs insanı öldürmək, namusuna toxunmaq, əziyyət vermək üçün hücum çəkərsə vəzifə nədir?

**Cavab:** İstənilən bir yolla müdafiə olunmaq vacibdir. Hətta bu müdafiə hücum çəkən şəxsin ölümü ilə nəticələnərsə, müdafiə olunmaq vacibdir. Amma çalışmaq lazımdır ki, imkan həddində yüngül yollardan istifadə edilsin və sərtliyə yol verilməsin.

**Sual:** Əgər oğru insanın özünün və ya yaxınlarının malını oğurlamaq üçün hücum çəkərsə, insanın vəzifəsi nədir?

**Cavab:** İnsanın haqqı var ki, öz malını, canını, yaxınlarını müdafiə etsin. Amma bu işdə mərtəbələrə riayət etmək lazımdır. Əgər bu işdə yüngül müqavimətlə zərər aradan qalxarsa, sərt rəftar olunmamalıdır.

**Sual:** Əgər insan bir şəxsin onun canına və malına hücum məqsədində olduğunu düşünüb həmin şəxsə zərər yetirərsə və sonradan məlum olarsa ki, səhvə yol verib, onun vəzifəsi nədir?

**Cavab:** Vurulmuş zərər ödənməlidir. Amma insan günahkar sayılmır.

**Sual:** Başqa birinə məxsus yırtıcı heyvan insana hücum edərsə, müdafiə məqsədi ilə ona zərbə vurmaq olarmı?

**Cavab:** Əgər qorunmaq üçün başqa yol qalmazsa, həmin heyvanı vurmaq olar.

# İyirmi birinci fəsil

## *Əmr be məruf və nəhy əz munkər (yaxşılığa dəvət və pislikdən çəkindirmək) ictimai bir nəzarətdir*

Lüğətdə "məruf" sözü "tanınmış", "munkər" sözü tanınmamış mənasını bildirir. Beləcə, ağılın hökmü ilə yaxşı sayılan və şəriətdə əmr olunan vacib və müstəhəb işlər "məruf", ağıl baxımından çirkin sayılan, şəriətin qadağan etdiyi haram və məkruh işlər "munkər" adlandırılmışdır.

Müsəlmanın mühüm vəzifələrindən biri başqalarını yaxşılığa təşviq etmək və pislikdən çəkindirməkdir. Bu baxımdan bütün insanlar öz əməlləri və başqalarının rəftarlarına görə məsuliyyət hiss etməlidirlər. Bu sayağı ictimai nəzarətlə insanlar yaxşılığa dəvət olunmalı, pis işlərdən çəkindirməlidir. İslam məntiqində fərdlərin cəmiyyətdə baş verən hadisələrə nəzarəti onların təbii haqqıdır. Çünki insanların taleyi bir-birindən asılıdır. Heç bir pis iş məhdud çevrədə qalmır. İstənilən bir çirkin əməl və günah hansısa dərəcədə ictimai bəlaya çevrilir.

Həzrət Peyğəmbər (s) buyurur ki, günahkar insan cəmiyyət arasında gəmidə oturduğu yeri deşən kəs kimidir. Ona etiraz edildikdə deyir ki, mən öz oturduğum yeri deşirəm. Hansı ki,

bu adamın qarşısı alınmasa bir müddət sonra gəmi suya qərq olasıdır.[1]

Qurani-kərimdə bu mövzu ilə bağlı buyurulur: "İmanlı kişilərin və qadınların bir-birləri üzərində vilayəti var, onlar bir-birlərinin yardımçısıdırlar, bir-birlərini yaxşılığa çağırır, pislikdən çəkindirirlər."[2]

Quran baxımından imanlı insanlar bir-birləri qarşısında məsuliyyət daşıyırlar. Onlar bir-birlərini yaxşılığa çağırmağa və pislikdən çəkindirməyə borcludurlar.

Allah-taala Qurani-kərimdə əmr be məruf və nəhy əz munkəri müsəlmanların imtiyazı sayır. Bu imtiyaz səbəbindən müsəlmanlar ən üstün ümmət adlandırılırlar: "Siz bəşəriyyətin xeyrinə varlıq mərhələsinə qədəm qoymuş ən üstün ümmətsiniz. Çünki yaxşılığa dəvət edir, pislikdən çəkindirirsiniz."[3]

Bu vacib əmrin yerinə yetirilməsi Allaha iman, fərdi və ictimai qanunların icrası üçün zəmanətdir. Bu vəzifəyə münasibətdə səhlənkarlıq iman ruhunu zəiflədir, onun sütunlarını laxladır. Nəticədə, cəmiyyətə rəhbərlik ləyaqətli insanların əlindən çıxır, şər insanların əlinə düşür. Bəli, əmr be məruf və nəhy əz munkər yoxsa, müsəlmanlar izzət zirvəsindən zillət uçurumuna yuvarlanırlar.

Bu ilahi göstərişin əhəmiyyətini lazımınca dərk etmək üçün dini rəhbərlərin bir sıra buyuruqlarını nəzərdən keçirək.

1. Həzrət Peyğəmbər (s) buyurur: Nə qədər ki, mənim ardıcıllarım əmr be məruf və nəhy əz munkər edir, yaxşılıq və təqva üçün səfərbərdir, xeyir və səadətdədirlər. Elə ki bu işdən əl çəkdilər, xeyir və bərəkət aradan qalxar, bəziləri bəzilərinə hakim olar, yerdə və göydə onlara yardımçı tapılmaz."[4]

2. Həzrət Peyğəmbər (s) buyurur: "Mənim ümmətimin ən uca şəhidi sitəmkar hakim qarşısında dayanıb, onu yaxşılığa

---

*1. "Kənzul-ummal", c. 3, s. 69, 70, say 5533*
*2. Surə 9, "Tövbə", ayə 71*
*3. Surə 3, "Ali-İmran", ayə 110*
*4. "Vəsailuş-şiə", c. 16, s. 123, hədis 18*

çağıran, pislikdən çəkindirən və bu yolda öldürülən şəxsdir. Belə bir şəhidin yeri behiştdə Həmzə ilə Cəfər arasındadır."[1]

3. Həzrət Əli (ə) buyurur: "Bütün yaxşı işlər, hətta Allah yolunda cihad əmr be məruf və nəhy əz munkərlə müqayisədə dənizlə müqayisədə damla kimidir."[2]

4. İmam Baqir (ə) buyurur: "Əmr be məruf və nəhy əz munkər Allahın vacib buyurduğu iki vəzifədir. Bu iki əmr vasitəsi ilə digər vacib əmrlər bərpa olar, yollarda əmin-amanlıq yaranar, qazanclar halal olar, insanların haqları təmin edilər, yer üzü abadlığa doğru gedər, Allah düşmənlərindən intiqam alınar, bütün işlər yoluna düşər."[3]

5. İmam Riza (ə) buyurur: "Əmr be məruf edib pisliklərin qarşısını alın. Yoxsa pis adamlar sizə hakim olar, yaxşılarınızın da duası qəbul olmaz."[4]

Bir şübhəyə cavab: Bəzən irad tuturlar ki, belə bir göstərişə əməl olunması şəxsi səliqəsi ilə hərəkət edənlər üçün özbaşınalıq yaradır, cəmiyyətdə asayiş pozulur. Cavab olaraq deməliyik ki, əmr be məruf və nəhy əz munkərin dərəcələri var. Əgər əmr be məruf və nəhy əz munkərə əməl edərkən bir şəxsi öldürmək, yaralamaq, vurmaq zəruri olarsa şəri hakimdən icazə alınmalıdır. Deməli, bu əmrə itaət nəinki hərc-mərclik yaratmır, hətta ölü və hərəkətsiz cəmiyyəti hərəkətə gətirir, fəallaşdırır. Belə bir cəmiyyətdə insanlar bir-birlərinin əməllərinə nəzarətçidirlər.

## *Əmr be məruf və nəhy əz munkərin şərtləri*

Aşağıda göstərilən şəraitdə əmr be məruf və nəhy əz munkər vacibdir və onu tərk etmək günah sayılır:

---

[1] *"Məalimul-Qurbə fi əhkamil-həsbə", s. 67, 68*
[2] *"Vəsailuş-şiə", c. 16, s. 134, hədis 9*
[3] *Həmin mənbə, s. 119, hədis 6*
[4] *Həmin mənbə, s. 118, hədis 4*

1. Bu vəzifəni yerinə yetirmək istəyən insan "məruf" və "munkəri" bir-birindən seçə bilməlidir. Nəyin yaxşı, nəyin pis olduğunu bilməyən şəxs uyğun vəzifəni yerinə yetirə bilməz.

2. Ehtimal olunmalıdır ki, əmr və qadağanın təsiri olacaq. Əgər deyilən sözlərin təsirsiz qalacağı məlumdursa, bu vəzifə vacib deyil.

*Şoranlıq torpaqda sünbül cücərməz,*
*Toxumu zay etmə, başqa bir yer gəz.*[1]

3. İnsan bilməli və əmin olmalıdır ki, günahkar şəxs günahını davam etdirmək fikrindədir. Əgər günahın davam etdiriləcəyi məlum deyilsə və belə bir ehtimal yoxsa, əmr və qadağa vacib deyil.

4. Bu vəzifənin yerinə yetirilməsi daha böyük fəsad yaratmamalıdır. Əgər insan bilərsə və ya ehtimal edərsə ki, bu vəzifəni yerinə yetirməsi onun və başqalarının canı, şəxsiyyəti və malı üçün ciddi zərərə səbəb olacaq, belə bir halda əmr və qadağa haramdır.

5. Əgər əmr be məruf və nəhy əz munkər etmək istəyən insandan öncə kimsə bu işi görmüşsə və nəticə alınmışsa, əmr və qadağa vacib olmur. Çünki bu vəzifə "kifayi vacib" vəzifələrdəndir. Başqaları onu yerinə yetirdiyi vaxt insanın öhdəsinədən götürülür.

*Məndən qabaq demişlərsə bir sözü,*
*Qarışmağım yersiz olardı düzü.*
*Korun qarşısına çıxarsa quyu,*
*Mən görürkən kim çəkməli harayı.*[2]

**Sual:** İnsanları müstəhəb işlərə dəvət etməyin, onların məkruh işlərdən çəkindirməyin hökmü nədir?

---

*1. "Gülüstan", 1-ci bab, padşahların xasiyyəti, s. 54, hekayət 4*
*2. Həmin mənbə, s. 94, hekayət 38*

**Cavab:** Bu qəbil əmr və qadağa müstəhəb əmr və qadağadır.

**Sual:** İnsanın canı və malı üçün istənilən bir təhlükə olduqda bu vəzifə öhdədən götürülürmü?

**Cavab:** Xeyir. Elə hallar var ki, bu vəzifə insanın öhdəsindən götürülmür. Quran, müsəlmanların inancı və müstəqilliyi üçün təhlükə yarandıqda hətta can və maldan keçib onları qorumaq lazımdır. Əlbəttə ki, bu halda şəri hakimin icazəsinə ehtiyac var.

***Əmr be məruf və nəhy əz munkərin mərhələləri***

Bu mühüm vəzifəni yerinə yetirmək üçün dərəcə və mərtəbələr mövcuddur. Əgər aşağı mərtəbə ilə məqsədə çatmaq mümkün deyilsə, növbəti mərhələyə geçmək olar. Uyğun mərtəbələrlə tanış olaq:

1. Rəftarla hərəkət: ilk addımda günahkarla elə rəftar edilməlidir ki, o günaha görə bu rəftara məruz qaldığını hiss etsin. Məsələn, ondan üz çevirmək, xoş davranmamaq, get-gəli kəsmək nümunə göstərilə bilər.

2. Dillə hərəkət: Bu mərhələdə günahkara nəsihət verilir, o doğru yola çağırılır. Əgər moizə-nəsihət təsir etmirsə, sərt danışmaq lazımdır.

3. Əməli hərəkət: Əgər günahkarı zor göstərmədən pis işdən çəkindirmək və ya yaxşı işə sövq etmək mümkün deyilsə, ona güc göstərilməlidir. Amma bu addım qarşı tərəfin yaralanması və ya ölümü ilə nəticələnə bilərsə, özbaşına hərəkət etmək olmaz. Bu şəraitdə zəruri şərtlərə malik müctəhiddən icazə alınmalıdır.

## *Bir neçə tövsiyə*

1. Əmr be məruf və nəhy əz munkərdə məqsəd fərd və cəmiyyətin islahı olmalıdır. İnsan canıyananlıq, xoş niyyətlə bu işi görməlidir. Əmr və qadağada intiqam hisslərinə, kin-küdurətə yol verilməməlidir.

2. Əmr və qadağada imkan həddində lütf və məhəbbət göstərilməlidir. Bu üsul ən təsirli üsuldur. Sərt rəftarların gözlənilməz nəticələri də olur. Peyğəmbərlərin və məsumların rəftarlarından aydın olur ki, məhəbbət göstərməklə ən yola gəlməz adamları da islah etmək olur.

3. Bəzilərinin əmr və qadağası təsirsiz qaldığı halda başqaları özlərini təsirli görərsə, bu yönümdə addım atmalıdır.

4. Bəzən bu ilahi vəzifəni yerinə yetirmək bir nəfərin əlindən gəlmir və bu işdə ümumi şəkildə hərəkət edilməlidir.

5. Əmr və qadağa vəzifəsinin öz çətinlikləri var. Çünki bəzi mənafepərəst insanlar həqiqəti asanlıqla qəbul etmir. Onlar bəzən insanları yaxşılığa çağırıb, pislikdən çəkindirənləri hədəfə alırlar. Deməк, bu işdə səbirli və dözümlü olmaq, kiçik bir çətinlik gördükdə meydanı boş buraxmamaq lazımdır. Həzrət Loğman oğluna nəsihətlərində deyir: “Oğlum! Namaz qıl, insanları yaxşılığa çağır, pislikdən çəkindir. Bu işdə nə əziyyət çəksən səbirli ol, belə etməyin işlərdə sabitqədəmlik göstəricisidir.”[1]

6. Hazırkı dövrdə mədəniyyət mərkəzlərinin yaradılması, kitab nəşri, radio və televiziya proqramları insanların əqidə, əxlaq və əməlinə əhəmiyyətli təsir göstərir. Bu istiqamətdə çalışmaq çox mühümdür. Hər kəs öz gücündə bu yönümdə addım atmalıdır. Kütləvi informasiya vasitələrində gözəl əxlaq, insani keyfiyyətlər, İslam mədəniyyəti təbliğ olunmalıdır. Bu istiqamətdə çeşidli proqramlar həyata keçirmək, qeyri-İslami, açıq-saçıq layihələrdən çəkinmək lazımdır.

**Sual:** Əgər günahkarı bir günahdan çəkindirmək üçün onun əlindəki günah vasitəsini almaq lazım gələrsə, bu işi zorla görmək olarmı?

**Cavab:** Bəli. Çarə qalmadıqda, bu iş nəinki caiz, hətta vacibdir. Əgər günahın qabağını almaq üçün günahkarı bir məhələdən çıxarmaq lazımsa bu işi görmək olar.

---

*1. Surə 31, “Loğman”, ayə 17*

**Sual:** Bir insanı günahdan uzaqlaşdırmaq üçün insan özü günaha bata bilərmi?

**Cavab:** Xeyr. Yalnız qarşı tərəfin günahı çox böyük olduqda, şəriət bu məsələyə ciddi yanaşdıqda müəyyən addımlar atmaq olar. Əgər bir şəxsi nahaqdan öldürmək istəyirlərsə əmr və qadağanın mərtəbələrini gözləməklə bu işin qarşısını almaq lazımdır. İnsanın həyatını xilas etmək üçün kiçik günahlara yol vermək olar.

**Sual:** Əgər bir şəxs günahsız insanı öldürmək üçün ona hücum edirsə və onun qarşısını almaq üçün hökmən yaralamaq və öldürmək lazımdırsa, müctəhidin icazəsinə ehtiyac varmı?

**Cavab:** Xeyr. Bu halda günahsız bir şəxsi öldürmək istəyənin qarşısı istənilən bir vasitə ilə alınmalıdır. Bu iş onun ölümü ilə başa çatarsa da, addım atılmalıdır.

*Çətin anda qalmasa çıxış yolu*
*Yubanmadan qılınca əl atmalı!*[1]

---

*1. "Gülüstan", 1-ci bab, padşahların xasiyyəti, s. 45, hekayət 1*

# İyirmi ikinci fəsil

## *Halal və haram qazanclar*

### *İş və zəhmətin əhəmiyyəti*

İslam təlimlərində dolanışıq ehtiyaclarının təmini üçün halal iş və qazancın müstəsna əhəmiyyətə malik olduğu bildirilir. İş və zəhmət insanı süstlük və halsızlıqdan qurtarmaqla yanaşı fiziki və mənəvi sağlamlıq üçün faydalıdır. İş və zəhmətdən qaçan bir çox millətlər yoxsulluğa düçar olur, öz ehtiyaclarının təminində biganələrdən asılı vəziyyətə düşür. Bu qəbil millətlər heç vaxt müstəqillik və əzəmət tamını dada bilmir.

Bir çox rəvayətlərdə belə bir nöqtə vurğulanır ki, Allah-taala işsiz, çox yatan insanı düşmən sayır.[1] İlahi peyğəmbərlər, o cümlədən İslam peyğəmbəri (s) və onun məsum canişinləri əkinçilik, heyvandarlıq, dərzilik, zireh toxumaq kimi işlərlə məşğul olmuş, öz zəhmətləri ilə həyat ehtiyaclarını təmin etmişlər. Hədisdə bildirilir: “Allah-taala həzrət Davuda vəhy etdi: “Ey Davud! Sən yaxşı bəndəsən. Amma eyibin budur ki, dolanışıq ehtiyaclarını beytül-maldan (dini büdcədən) təmin edir, öz əlinin zəhmətindən faydalanmırsan.” Bu hadisədən sonra həzrət Davud 40 gün sübh çağı Allah dərgahına üz tutub ağladı. Allah-taala vəhy edib dəmiri Davud üçün yumşaltdı.

---

*1. “Vəsailuş-şiə”, c. 17, s. 57, 58*

Həzrət Davud hər gün dəmirdən zireh hazırlayır, onu satıb dolanışıq ehtiyaclarını təmin edirdi.”[1]

Həzrət Əlinin (ə) haqqında bildirilir ki, o əlində bel əkin sahəsində, xurma bağında çalışırdı. Həzrət öz əlinin zəhməti ilə min qul alıb Allah yolunda azad etmişdi.[2]

## *Var-dövlətə əsir olmaq bəyənilmir*

İslam baxımından, halal yolla əldə olunmuş var-dövlət və qazanc insanın kamilliyə çatması üçün faydalıdır. İmam Baqir (ə) buyurur: “Axirət yolunda istifadə olunan dünya insan üçün ən üstün yardımçıdır. [3] İmam Sadiq (ə) buyurur: “Səni başqalarının haqqına təcavüzdən saxlayan var-dövlət, səni günaha sövq edən yoxsulluqdan üstündür.”[4]

Yer üzündə fəsada səbəb olmayan, insana ilahi dəyərləri unutdurmayan, onu ağılsız dünya müsabiqəsinə qatmayan, başqalarının təhqiri ilə nəticələnməyən, eyni zamanda, məhrumlara yardım üçün istifadə edilən var-dövlət nəinki məzəmmət olunmur, hətta bəyənilmişdir. Tarix boyu bir çox ictimai fəsadların səbəbkarı Allahsız varlılar olmuşlar. Naz-ne’mət içində yaşayan, daim öz var-dövlətini artırmaq barədə düşünən, bu yolda heç bir cinayətdən çəkinməyən dinsiz varlılar bəşəriyyət üçün daim təhlükədir. İbn Abbasdan mənalı bir hədis nəql olunur: “İlk dirhəm və dinar sikkələri hazırlanan vaxt İblis onlara baxıb əlinə aldı, gözlərinin üstünə qoydu. Şadlıqdan başını itirmiş vəziyyətdə fəryad çəkdi. Yenidən onları sinəsinin üzərinə qoydu və dedi: “Siz mənim gözümün nuru, qəlbimin meyvəsisiniz. İnsanlar sizi sevdiyi bir vaxtda onların bütpərəst olub-olmamasının mənim üçün əhəmiyyəti yoxdur. Onların sizi sevməsi mənə bəs edir!”[5]

---

*1. Həmin mənbə, s. 37, 38, hədis 3*
*2. Həmin mənbə, hədis 1, 2*
*3. Həmin mənbə, s. 30, hədis 5*
*4. Həmin mənbə, s. 31, hədis 7*
*5. “Biharul-ənvar”, c. 70, s. 137, hədis 3*

Deyilənlərdən aydın olur ki, zöhd və paklıq halal qazanc və halal var-dövlətlə zidd deyil. İnsanın öz ehtiyacları və ətrafındakıların ehtiyaclarını ödəmək üçün sərvət əldə etməsi pis iş deyil. Pis odur ki, insan var-dövlətə əsir olsun, ona çatmaq üçün bütün çirkin, qeyri-əxlaqi işlərə əl atsın, başqalarının haqqını tapdasın.

Tənbəllik və süstlük istənilən bir halda məzəmmət olunur. İslam dini iş və zəhmətə böyük əhəmiyyət verir, insanları halal qazanca təşviq edir. Hədisdə oxuyuruq: "Tabeçiliyində olanların ehtiyacını ödəmək üçün əziyyət çəkən insan Allah yolunda cihad edən kəs kimidir."[1]

Qeyd etmək lazımdır ki, iş və zəhmət dedikdə təkcə əkinçilik, heyvandarlıq və sənətkarlıq nəzərdə tutulmur. İnsanın bəşəriyyət üçün faydalı bütün xidmətləri, o cümlədən elmi, mədəni fəaliyyətlər zəruri fəaliyyət sahələrindəndir.

## *Ticarət, alış-veriş*

Halal qazanc əldə etmək üçün yollardan biri də ticarət, alış-verişdir. Dolanışıq ehtiyaclarının təminində ticarətin mühüm rolu var. İnsan ictimai varlıqdır və onun təkbaşına çalışıb öz ehtiyaclarını ödəyə bilməməsi təbii bir işdir. Deməli, insan öz ehtiyaclarının təmini üçün başqaları ilə həmkarlığa məcburdur. O bu yolla öz ruhi və fiziki ehtiyaclarını təmin edir. Alış-veriş və müamilə insanların qarşılıqlı rabitələrinin bariz nümunəsidir. İnsan ticarət yolu ilə ehtiyac duyduğunu əldə edir, ehtiyac duymadığını ehtiyac duyan başqa bir insanın ixtiyarına verir. İslam dini nəinki ticarətlə müxalif deyil, hətta insanları bu işə təşviq edir. Hətta bəzi rəvayətlərdə bu sahə halal qazanc üçün başqa sahələrdən üstün tutulur. Rəvayətdə bildirilir ki, ruzinin onda doqquzu ticarətdə, qalan onda biri isə digər sahələrdədir.[2]

---

*1. "Vəsailuş-şiə", c. 17, s. 66, 67, hədis 1*
*2. Həmin mənbə, s. 10-13*

Şübhəsiz ki, İslam cəmiyyətin ehtiyaclarını aradan qaldıran ticarətə təşviq edir. İslam cəmiyyət üçün zərərli, haqq-ədalətdən uzaq, zülmlə müşayiət olunan müamilələri rədd edir. Bu səbəbdən də ticarətlə məşğul olmaq qərarına gələn insan İslam dininin ticarətlə bağlı hökmlərindən xəbərdar olmalıdır.

Əsbəğ ibn Nəbatə deyir: Həzrət Əli (ə) minbərdən belə buyurdu: "Ey tacirlər, öncə dini məsələlərinizi öyrənin, sonra alış-verişə məşğul olun."[1]

Digər bir hədisdə imam Baqirdən belə nəql olunur: "Əmirəl-möminin Kufə bazarlarında sübh vaxtı gəzib uca səslə buyururdu: "Ey tacirlər, Allahdan qorxun." Həmin vaxt hamı işini saxlayıb həzrəti dinləyərdi. Həzrət buyurardı: "Allahdan xeyir istəyin. İşi asanlaşdırıb xalqda bərəkət axtarın. Alıcılara yaxınlaşıb elm və səbri işinizə zinət qərar verin. And içməkdən çəkinin, yalan danışmayın. Zülm etməyin, məzlumların haqqını tələb edin. Sələmdən uzaq olun, əskik satmayın, xalqın malını kəsməyin, yer üzündə fəsad törətməyin." Həzrət Kufə bazarlarını gəzib bu sayağı xəbərdarlıq edər, sonra xalqın müşküllərinin həlli üçün iş yerinə qayıdardı.[2]

## *Satıcı və alıcı ilə bağlı şərtlər*

Satıcı və alıcı büluğ həddinə çatmış, ağıllı adam olmalı, müamiləyə məcbur edilməməlidir. Hər iki tərəf səfeh olmamalı, yəni olanını boş yerə sərf etməməlidir. Satıcı və alıcı xalqın nəzərində ağıllı şəxs kimi tanınmalı, müamilədə ciddi olmalıdır. Bir şəxsin zarafatla "filan malı satdım" deməsi müamilə üçün kifayət etmir.

## *Batil müamilə*

Bir neçə halda müamilə batildir. Onlardan bəzilərini nəzərdən keçirək:

---

*1. Həmin mənbə, s. 381, hədis 1*
*2. Həmin mənbə, s. 382, 383, hədis 1*

1. Şəriət baxımından murdar bir şeyin satışı və alışı; murdar şeydən haram məqsədlə istifadə üçün alınarsa bu müamilə batildir; qan kimi murdar şeydən xəstənin müamiləsi üçün almaq olar; Məsələn, ov üçün əslində murdar olan ov itinin alış-verişi caizdir.

2. Murdara toxunmaqla murdarlanmış yeməli və içməli məmulatların müamiləsi; əgər həmin murdar şeyi aldıqdan sonra paklamaq mümkündürsə, bunun eybi yoxdur.

3. Qeyri-şəri yolla, məsələn, oğurluqla əldə edilmiş bir şeyin müamiləsi.

4. Milçək, ağcaqanad kimi dəyəri olmayan şeyin müamiləsi.

5. Qumar alətləri kimi yalnız haram yolda istifadə edilən şeylərin müamiləsi.

6. Narkotik maddələr kimi cəmiyyət üçün zərərli şeylərin müamiləsi; saxta dərmanlar, vaxtı keçmiş qidalar, sağlamlıq üçün zərərli məhsullar da bu qəbildəndir.

7. Sələmlə müşayiət olunan müamilələr; Məsələn, 5 kiloqram düyü verib 6 kiloqram düyü almaq. Belə müamilələrdə iki şey arasında keyfiyyət fərqi olsa belə, artıq alınan miqdar haram sayılır.

8. Qatqılı malın müamiləsi; Məsələn, pis mal yaxşı mala qatılır və yaxşı mal adı ilə satılır; bitki yağını kərə yağına qatıb kərə yağı adı ilə satmaq bu qəbildəndir;

**Sual:** Alış verişdə and içməyin hökmü nədir?

**Cavab:** Düzgün and məkruh, yalan and haramdır.

**Sual:** Böyrək kimi bədən üzvlərinin müamiləsinin hökmü nədir?

**Cavab:** Əgər satan şəxs üçün əhəmiyyətli zərəri olmazsa, eybi yoxdur.

**Sual:** Haram işlərdə istifadə edilə biləsi videomaqnitafon DVD, boşqab anten kimi qurğuların hökmü nədir?

**Cavab:** Bu qurğular da sair audio-video qurğuların hökmündədir. Əgər haram işdə istifadə edilərsə, onların müamiləsi də caiz olmur. Əgər halal işdə istifadə edilərsə uyğun müamilənin eybi yoxdur.

**Sual:** Əgər bir şəxs müamiləyə məcbur edilərsə bu müamilənin hökmü nədir?

**Cavab:** Əgər müamilə başa çatdıqdan sonra tərəflər razı qalarsa, bu müamilə düzgündür. Əks təqdirdə müamilə batildir.

**Sual:** Əgər bir şəxs sahibindən icazə almadan bir malı satarsa, bunun hökmü nədir?

**Cavab:** Əgər müamilədən sonra mal sahibi razılaşarsa, müamilə düzgündür, razılaşmazsa müamilə batildir.

## *Qeyri-şəri qazanclar haqqında*

İslam dini cəmiyyətin iqtisadi strukturlarının islahı üçün müsəlmanları sağlam iqtisadi fəaliyyətlərə həvəsləndirməklə yanaşı, onları haram qazanclardan çəkindirir. Haram qazancın təhlükə aqibəti ilə bağlı ciddi xəbərdarlıq olunur. Bəzi dəyərli buyuruqları nəzərdən keçirək:

1. İmam Sadiq (ə) buyurur: "Haram qazanc insanın nəslində özünü göstərir"[1]; "Haram yolla möminin malını qəsb edən şəxs mənə dost deyil."[2]

2. İmam Hadi (ə) buyurur: "Haram malın artımı yoxdur. Bu artsa belə bərəkətsizdir. Haram maldan Allah yolunda sərf olunsa, bunun savabı olmaz. Haram maldan nə qalarsa Cəhənnəm odu üçün azuqədir."[3]

3. İmam Həsən Əskəri (ə) buyurur: "Əsli haramdan əldə olunan şeyin xeyri yoxdur və onu xərcləmək halal deyil."[4]

---

*1. "Vəsailuş-şiə", c. 17, s. 81, 82, hədis 3*
*2. Həmin mənbə, s. 81, hədis 2*
*3. Həmin mənbə, s. 82, hədis 5*
*4. Həmin mənbə, s. 86, 87, hədis 1*

İslam müamilə ilə bağlı yuxarıdakı şərtləri sadalamaqla yanaşı bəzi haram qazancları qeyd edir:

***1. Oğurluq***

Həzrət Peyğəmbər (s) buyurur: "Dörd iş evə daxil olan kimi onu xaraba qoyur, bərəkətini aradan qaldırır: xəyanət, oğurluq, şərabxorluq və zina."[1]

Oğurluq üçün İslamda konkret cəzalar nəzərdə tutulur. Birinci oğurluqda müəyyən şərtlər daxilində sağ əlin dörd barmağı kəsilir, ikinci oğurluqda sol ayaq pəncəsi ortadan kəsilir, üçüncü oğurluqda şəxs əbədi həbsə məhkum olunur, dördüncü oğurluq baş verərsə, oğru edam edilir.

***2. Quldurluq***

Silahlı şəkildə insanların mülkünə hücum edən şəxs Allah və Peyğəmbərlə (s) müharibəyə qalxmış sayılır. Belə bir şəxs üçün dörd cəzadan biri təyin olunur: ölüm, dara çəkilmə, sağ əl və sol ayağın kəsilməsi, yaşadığı şəhərdən sürgün.[2]

***3. Möhtəkirlik***

Xalqın ciddi ehtiyac duyduğu malın qiymətini qaldırmaq məqsədi ilə onu bir yerə yığıb satışa buraxmamaq. Bu əməl məsumlardan nəql olunmuş rəvayətlərdə ciddi məzəmmət edilir. Möhtəkir məlun, xətakar, xain, qatil kimi tanınır.[3]

***4. Əskik satmaq***

Allah-taala Qurani-kərimdə buyurur: "Vay olsun əskik satanlara! O kəslər ki, xalq üçün əskik, özləri üçün artıq götürərlər. Əskik satanlar düşünmürmü ki, ölümdən sonra böyük sorğu günü üçün ayağa qaldırılacaqlar? Elə bir gün ki, insanlar aləmlər Rəbbinin əmri ilə ayağa qalxar!"[4]

---

*1. Həmin mənbə, c. 28, s. 242, hədis 3*
*2. Surə 5, "Maidə", ayə 33*
*3. "Vəsailuş-şiə", c. 17, s. 423-427*
*4. Surə 83, "Mutəffifin", ayə 1-6*

***5. Qumar***

Qurani-kərim baxımından qumar çirkin və şeytani bir işdir. Şeytan qumar vasitəsi ilə insanlar arasında düşmənçilik yaradır.[1]

***6. Rüşvətxorluq***

rüşvət dedikdə bir şəxsin müəyyən məbləğdə pul alıb onun xeyrinə və başqa birinin ziyanına qanunsuz iş görməsi nəzərdə tutulur. Bəzi rəvayətlərdə bu əməl Allaha qarşı küfr sayılır. Rüşvət kimi alınmış pul çirkin pul kimi tanıtdırılır.[2]

Qeyd etmək lazımdır ki, rüşvət verən şəxs də haram iş görmüş olur və cəzalandırılmalıdır. Amma bir şəxsin haqqını almaqdan ötrü rüşvət verməkdən başqa yol qalmazsa, rüşvət verə bilər.

***7. Sələmçilik***

Əgər bir şəxs borc verib bir müddət sonra verdiyi məbləğdən artıq alarsa sələmçilik etmişdir. Müəyyən miqdarda buğdanı (bu kimi başqa bir şeyi) daha artıq miqdarda buğdaya satmaq düzgün sayılmır. Çünki bu qəbil işlər insanları halal və faydalı işlərdən uzaqlaşdırır.[3] Sələm ödəyən də rüşvət edən şəxs kimi haram iş görmüş olur.

Ümid edirik ki, əziz yeniyetmələrimiz Allahın lütfü sayəsində haram qazanclardan çəkinib halal qazanc ardınca gedəcəklər.

**Sual:** İmtahan və ya hər hansı konkursda saxtakarlığın hökmü nədir?

**Cavab:** Buna icazə verilmir.

**Sual:** Azdırıcı kitab və jurnallar çap edib satmağın hökmü nədir?

---

*1. Surə 5, "Maidə", ayə 90, 91*
*2. "Vəsailuş-şiə", c. 27, s. 221-224*
*3. Həmin mənbə, c. 18, s. 117-124*

**Cavab:** Azdırıcı, batil, yalan, böhtan məzmunlu, dini müqəddəslikləri təhqir edən kitab və jurnalların müamiləsi caiz deyil. Yalnız azdırıcı sualların nəhy əz munkər məqsədi ilə mütəfəkkir insanlar tərəfindən cavablandırıldığı əsərlər müamilə oluna bilər. Amma əmin olmaq lazımdır ki, bu kitabların mütaliəsi insanları azdırmayacaq.

**Sual:** Hər hansı bir idarə və ya təşkilatda şəri bir vəzifəni öhdəsinə götürmüş şəxs öz işində səhlənkarlıq göstərərsə, aldığı, maaşa cavabdehdirmi?

**Cavab:** Bəli. Bu şəxs günaha yol vermişdir və aldığı maaşa zamindir. Çünki o əmanət qəbul etmiş və öz məsuliyyətini düzgün yerinə yetirməmişdir.

**Sual:** Pul almadan müraciət edənlərə xidmət göstərməli olan işçilər qarşı tərəfdən pul alarlarsa bunun hökmü nədir?

**Cavab:** Qanunda nəzərdə tutulmamış pulu almaq haramdır. Əgər rüşvət müqabilində qanunsuz iş görülərsə və ya başqalarının haqları tapdanarsa yenə də harama yol verilmişdir.

**Sual:** Bankların və müxtəlif müəssisələrin öz müştərilərini həvəsləndirmək üçün hədiyyə verməsi, püşk keçirməsi caizdirmi?

**Cavab:** Bu qəbil hədiyyələri almağın eybi yoxdur.

**Sual:** Zalım üsul-idarədə işləməyin hökmü nədir?

**Cavab:** Əgər bu iş zalımların himayəsinə səbəb olarsa, caiz deyil. Amma xüsusi şəraitlərdə İslami dəyərlər və insanların hüquqlarını müdafiə etmək üçün şəri hakimin icazəsi ilə bu işi görmək olar. Fəsad əhli və sitəmkarlarla istənilən bir həmkarlıq, günah işlərdə onların himayəsi başqalarının hüquqlarına təcavüzdür və haramdır.

**Sual:** Xüsusi faydası və ümumi mənfəəti haram olan əşyaların düzəldilməsi və satışı caizdirmi?

**Cavab:** Caiz deyil.

**Sual:** İnsan və heyvan mücəssəməsi düzəldib satmaq olarmı?

**Cavab:** Əgər həmin mücəssəmə büt halında olarsa və pərəstiş üçün düzəldilərsə caiz deyil.

# İyirmi üçüncü fəsil

## *Əyləncə və istirahət insanın fiziki və mənəvi ehtiyacıdır*

İnsan ömrü sürətlə ötüb keçir. Vaxt ötdükcə insanın fiziki və intellektual gücü azalır, maddi və mənəvi enerjisi tənəzzül edir. İnsan vücudunda yalnız müəyyən müddət üçün fəaliyyət iste'dadı və gücü olur. Həmin müddət başa çatdıqdan sonra insan fəaliyyətdən düşür. Bəli, insan böyük sərmayə sahibidir. O istəsə də, istəməsə də hər gün həmin sərmayədən xərcləyir. İnsanın ən böyük sərmayəsi olan ömür eynən buz tək əriyib əldən çıxır. Çəkilən hər nəfəs, qəlbin hər döyüntüsü insanı ömrünün son anına yaxınlaşdırır. Həzrət Əli (ə) buyurur: “İnsanın hər nəfəsi onun ölümə doğru atdığı bir addımdır.”[1]

Deməк, hər anın qədrini bilmək, ömürdən imkan həddində səmərəli istifadə etmək lazımdır. Loğman oğluna nəsihətində deyir: “Ey oğlum! Bil ki, qiyamət günü Allahın hüzurunda dayandığın vaxt səndən dörd şey haqqında soruşular. Gəncliyini hansı yolda sərf etdin? Ömrünü hansı yolda xərclədin? Var-dövlətini hansı yolla qazandın? Qazancını hansı yolda xərclədin? Çalış, elə indidən bu suallara cavab verməyə hazır ol!”[2]

---

*1. “Nəhcül-bəlağə”, hikmətlər bölməsi, hikmət 74, s. 371*
*2. “Biharul-ənvar”, c. 13, s. 425, hədis 19*

Hər bir fərd günün saatlarını ehtiyacları əsasında düzgün bölməlidir. Hər iş üçün ayrıca vaxt ayrılmalıdır. Məsələn, yuxu, yemək, ibadət vaxtını müəyyənləşdirmək lazımdır. Təhsil, iş istirahət üçün konkret vaxt müəyyənləşdirməlidir. İnsanın cismi və ruhu əyləncə və istirahətə ehtiyaclıdır. Əyləncə və istirahət insanın yorğunluğunu aradan qaldırır, ona təravət gətirir.

Həzrət Əli (ə) oğlu imam Həsənə (ə) tövsiyəsində buyurur: “Oğlum! Mömin şəxsin vaxtı üç qismə bölünür: Bir saat Allahla minacat, bir saat insanın özü ilə hesabı, bir saat halal ləzzətlərdən istifadə üçün ayrılır. Mömin şəxs öz qüvvəsini üç iş üçün səfərbər etməlidir: gündəlik işlərin idarə olunması, qiyamətə doğru bir addım, haram olmayan ləzzətlərdən istifadə.”[1]

## *Bəzi əyləncələr haqqında*

Asudə vaxtlarda dostlar və qohumlarla görüşmək, ev işlərində ailəyə kömək etmək, bəzi ictimai tədbirlərdə iştirak etmək, elmi və dini yığıncaqlara qatılmaq, faydalı kitablar oxumaq, İslam tarixi ilə tanış olmaq, şer və ədəbiyyat mütaliə etmək, ümumi məlumatlara yiyələnmək olar. Bütün bunlardan əlavə aşağıdakı seçimləri apara bilərsiniz:

1. Üzgüçülük, qaçış, avarçəkmə, futbol kimi idman növləri üzrə müsabiqələr təşkili; bu qəbil müsabiqələr İslam baxımından nəinki caizdir, hətta fiziki və mənəvi sağlamlıq üçün bəyənilmiş bir işdir. Bir şərtlə ki, bu işlərdə harama yol verilməsin. Qeyd etməliyik ki, cıdır və oxatma yarışlarında şərt kəsmək, qalibləri mükafatlandırmaq olar. Bu işi həm iştirakçılar, həm də təşkilatçılar görə bilər.

2. Müxtəlif oyunlar; İslam baxımından müəyyən şərtlər daxilində oyunların təşkilinə icazə verilir. Bu oyunlarda qumar alətlərindən istifadə etmək, insana fiziki və mənəvi zərəri olan hallara yol vermək, udub-uduzmaqla bağlı şərt kəsmək,

---

*1. Həmin mənbə, c. 67, s. 65, hədis 6*

israfçılıq, kiminsə malının məhvi, səmərəsiz əyləncələr, insanların təhqiri yol verilməzdir. Bu yollar insanların fiziki və mənəvi sağlamlığına faydalı olarsa, onları düşmənlə mübarizəyə hazırlayarsa daha yaxşıdır.

Bir şəxs ov dalınca qaçırdı. Amma onun məqsədi həmin heyvanı ovlamaq yox, hərkət etməklə sağlam olmaq idi. İmam Cavaddan (ə) həmin şəxs haqqında soruşdular. Həzrət buyurdu: "Əgər boş yerə, əyləncə üçün belə etmirsə eybi yoxdur."[1]

Bir qrup rəvayətdən belə məlum olur ki, həzrət Peyğəmbər (s) çaparlar arasında müsabiqə keçirər, qalibləri mükafatlandırarmış.[2]

Bəzən həzrət özü də at və dəvə müsabiqələrində iştirak edərmiş. İmam Sadiq (ə) buyurur: "Bir bədəvi həzrət Peyğəmbərin (s) yanına gəlib onunla dəvə müsabiqəsi keçirmək istəyini bildirdi. Həzrət onunla razılaşdı. Bu müsabiqədə bədəvi ərəb həzrət Peyğəmbəri (s) ötüb keçdi. Peyğəmbər (s) səhabələrinə və yaxınlarına üz tutub buyurdu: "Siz mənim dəvəmi tərifləyib çox yuxarı qaldırdınız. Allah istədi ki, onu aşağı endirsin."[3]

3. Audio və video cihazlardan istifadə; peyk anteni, internet, televiziya, radio, teatrda nümayiş etdirilən faydalı proqramlara baxmaq olar. Sadəcə həmin proqramlar düşüncə və əxlaqa mənfi təsir göstərməməli, dini müqəddəsliklərə qarşı yönəlməməlidir. İnsan bütün gününü bu proqramlara sərf edə bilməz. İşi gücü mavi ekran qarşısında əyləşmək olan şəxs öz mühüm və vacib vəzifələrini yerinə yetirə bilməz. Bu sahədə böyüklərin uşaqlara nəzarət etməsi zəruridir.

4. Təbiət mənzərələri və tarixi məkanların seyri; səhraya çıxmaq, dağa qalxmaq, gözəl şəlalələri seyr etmək, sıx meşələri dolaşmaq, göz işlədikcə uzanan dənizlərə baxmaq, quşların gözəl nəğmələrini dinləmək, səmaya göz gəzdirmək, ulduzlara baxmaq insanın ruhunu oxşayır, Allahın qüdrət və əzəmətindən

---

*1. "Vəsailuş-şiə", c. 19, s. 254, hədis 6*
*2. Həmin mənbə, s. 254-256*
*3. Həmin mənbə, s. 253, 254, hədis 5*

danışır. Allah-taala buyurur: “De ki, yer üzərində gəzsinlər və Allahın varlıq aləmini necə yaratdığını görsünlər.”[1]

İstənilən bir ölkədə və şəhərdə tarixi abidələr mövcuddur. Bu tarixi abidələrin, viran qalmış sarayların və şəhərlərin seyri insanı qəflət yuxusundan oyadır, ona Allahın qüdrətini xatırladır. Bəzən bu səhnələrdən birinə baxmaq bütöv bir kitab oxumaqdan təsirli olur. Allah-taala buyurur: “De ki, yer üzünü gəzsinlər, günahkar insanların hansı aqibətə düçar olduğunu görsünlər.”[2]

## *Musiqi və avaz*

Müəyyən şərtlərə malik olan musiqi və avazı oxumaq və dinləmək olar:

a) Avazın mətnində batil və şərab və açıq saçıqlığın vəsfi kimi əxlaqa zidd sözlər olmasın; qadın gözəlliyini təsvir edən aşiqanə şerlər olmasın;

b) Musiqi insanın şəhvətini oyatmamalı, onun düşüncəsini kütləşdirməməlidir; oxunan və ya dinlənilən musiqi şərab, narkotik maddələr, cinsi fəsadlara həvəsləndirməməli, pozğun mühitə münasib olmamalıdır;

c) Dinlənilən musiqi xalqın nəzərində işrət məclislərinə xas musiqi kimi tanınmamalıdır.

Əgər hər hansı musiqidə yuxarıda sadalanan üç xüsusiyyətdən biri olarsa, həmin musiqini dinləmək, oxumaq, öyrənmək, öyrətmək caiz deyil. Həzrət Peyğəmbər (s) buyurur: “İlk dəfə nəğmə oxuyan İblis oldu.”[3] İmam Sadiq (ə) buyurur: “Nəğmə oxunan evdə qəfil ölümlər baş verər, dualar qəbul olmaz, mələklər oraya enməz.”[4]

---

*1. Surə 29, “Ənkəbut”, ayə 20*
*2. Surə 27, “Nəml”, ayə 69*
*3. “Vəsailuş-şiə”, c. 17, s. 310, hədis 328*
*4. Həmin mənbə, s. 303, hədis 1*

## *Haram musiqinin mənfi təsirləri*

Haram musiqinin bir sıra zərərləri vardır:

a) Bu musiqilər insanı təqva halından uzaqlaşdırır, ona şəhvət və fəsad səhnələrini xatırladır; rəvayətlərdə deyilir: "Nəğmə nifaq yaradır, yoxsulluğa səbəb olur, pərişanlıq gətirir."[1] Nifaq özü fəsada bulaşma, təqvadan uzaqlıq ruhiyyəsi yaradır.

Bəzən oğlanlar və qızlar məclisdə bir-birlərinə qatılır, həmin məclislərdə oxudulan musiqinin təsirindən bütün həya pərdələri yırtılır, fəsadlar baş verir. Bu səbəbdən də hədisdə bildirilir ki, musiqi həya-iffəti, namus-qeyrəti insanın əlindən alır, insan danışdığı sözün, onun haqqında deyilənlərin fərqinə varmır."[2]

b) Haram musiqi insanı vecsizləşdirir, Allahı yaddan çıxarır; "Loğman" surəsinin 6-cı ayəsində buyurulur ki, insanlardan bəziləri boş və mənasız sözləri satın alırlar. Rəvayətlərə əsasən, bu ayədə həmin haram musiqi nəzərdə tutulmuşdur.[3]

c) Haram musiqi insanın psixologiyasına mənfi təsir göstərir, onun əsəblərini zəifləşdirir; informasiya vasitələrində bildirilir ki, musiqiyə ifrat aludə olan insanların psixikası korlanır, düşüncə qüvvələri zəifləyir. Belələri hətta beyin iflicinə düçar olurlar.

ç) Haram musiqi insanın diqqətini kütləşdirir, onu ətrafda baş verən hadisələrdən qəflətdə saxlayır; illətlərin, xüsusi ilə gənc nəslin ayıqlığı dünya imperialistlərini daim qorxuya salmışdır. Onlar bütün vasitələrlə insanları biganələşdirməyə, ictimai-siyasi hadisələrdən kənarda saxlamağa çalışırlar. Onlar bu yolla millətlərin və məmləkətlərin var-dövlətini asanlıqla qarət edə bilirlər. Narkotik maddələrin, əxlaqsız filimlərin,

---

*1. Həmin mənbə, s. 309, hədis 23*

*2. Həmin mənbə, s. 312, 313, hədis 1, 2*

*3. "Vəsailuş-şiə", c. 17, s. 306, hədis 11; s. 307, hədis 16*

haram musiqilərin yayılması həmin azğın qüvvələrin maraqlarına xidmət edir. Düşünməyin ki, kozinolar və gecə klubları yalnız qazanc üçün açılır. Bu fəaliyyətlərdə əsas məqsəd insanların siyasi düşüncəsini kütləşdirməkdir.

**Sual:** Bugünki döyüş vasitələri, tank, təyyarə ilə müsabiqə keçirib şərt bağlamaq olarmı?

**Cavab:** Bəli. Bu kimi sahələrdə udmaq üçün şərt bağlamaq caiz sayıla bilər.

**Sual:** Üzgüçülük, qaçış, güləş, futbol kimi yarışlarda şərt bağlamaq, insanların məlumatlılıq səviyyəsini artırmaq üçün şərt bağlayıb Quran müsabiqələri, elmi müsabiqələr keçirmək olarmı?

**Cavab:** Bu kimi sahələrdə şərt bağlamaq olmaz. Amma həmin müsabiqələrdə iştirak etməyən bir şəxs və ya müəssisə müsabiqədə qalib gələnlərə hədiyyə verə bilər.

**Sual:** Şahmat, kart və nərd kimi əslində qumar üçün düzəldilmiş vasitələrin müsabiqəsini keçirmək, şərt bağlamadan onlardan istifadə etmək olarmı?

**Cavab:** Vacib ehtiyata əsasən, hətta əyləncə məqsədi ilə şərt bağlamadan bu vasitələrlə oynamaq caiz deyil. Amma ola bilər ki, bir vaxt qumar aləti sayılan şey sonradan həmin adla tanınmasın. Bu halda şərt bağalamadan həmin alətlərdən istifadə etmək olar.

**Sual:** Sehr-cadu öyrənmək və onu tətbiq etmək olarmı?

**Cavab:** Bu iş haramdır. Amma layiqli insanlar sehri batil etmək, onu gücdən salmaq üçün müəyyən həddə öyrənə bilər.

**Sual:** Gipnoz, gözbağlayıcılıq caizdirmi?

**Cavab:** Əyləncə xatirinə bu işləri görməyin eybi yoxdur. Amma bu işdə məqsəd haqqı batil, batili haqq göstərməkdirsə, ona icazə verilmir.

**Sual:** Süni yuxunun (hipnozun) hökmü nədir?

**Cavab:** Əgər bu iş insanın həyatı üçün təhlükə törətməsə və ya müəyyən xəstəliklərin müalicəsində səmərəli olsa, onu haram saymağa əsas qalmır.

**Sual:** Qadının qız toyunda, qadınlar arasında oxumasının hökmü nədir?

**Cavab:** Əgər oxuduğu batil deyilsə və naməhrəm kişi onun səsini eşitmirsə, eybi yoxdur. Amma vacib ehtiyata əsasən, bu hökm yalnız qız toylarına aiddir və başqa məclislərə şamil olunmur.

**Sual:** Narkotik maddələr istifadə edilən, əxlaqsız filmlər nümayiş olunan, rəqs və günah məclislərində iştirak etməyin hökmü nədir?

**Cavab:** İstənilən bir günah məclisində iştirak etmək haramdır. Yalnız məclisdəkiləri günahdan uzaqlaşdırmaq üçün həmin məclisə qatılmaq olar. Əgər çox böyük günah ehtimalı varsa, bu günahın qarşısını almaq üçün uyğun məclisdə iştirak etmək mümkündür. Əgər bir insan məclisin günah məclisi olduğunu bilməyib ona qatılarsa və sonradan məlum olarsa ki, məclis günah məclisi imiş, bu işin qarşısını ala bilmədiyi təqdirdə oranı tərk etməlidir.

**Sual:** Qeyri-İslami məmləkətlərə müsafirət, orada qalmaq caizdirmi?

**Cavab:** Əgər insan əmin olsa ki, orada onun əqidə və əməli üçün təhlükə yoxdur, qala bilər. Qeyri-İslami məmləkətdə ailə-övladlarının azacağından qorxan şəxs imkan olan kimi etibarlı olan bir yerə köçməlidir.

# İyirmi dördüncü fəsil

## *İctimai rabitələr və ünsiyyət qaydaları*

İnsan ictimai bir varlıqdır, onun həyatının böyük bir hissəsini ətrafdakılarla rabitələr təşkil edir. O öz ictimai rabitələrində başqalarının elm və təcrübəsindən bəhrələnir, öz bilik və təcrübəsini başqalarına öyrədir. Bəli, insan cəmiyyətdən faydalanır, cəmiyyətə fayda verir. Bu səbəbdən də İslam dini insanın ictimailiyini onun guşənişinliyindən üstün tutur, camaat və cümə namazları, Həcc, ehtiyaclılara zəruri haqların ödənməsi, sileyi rəhm (yaxınları yoxlamaq), xəstələrin yoxlanması, mömінin dəfni, dostlarla görüş kimi göstərişlər verir. Bu göstərişlərə əməl edən mömin şəxs daim ətrafla rabitədə olur, tanışlarının vəziyyətindən xəbər tutur. Digər bir tərəfdən cəmiyyət okean tək genişdir. Bu cəmiyyətdə nemət və gözəlliklərlə yanaşı, bir sıra təhlükələr var. Cəmiyyət arasına çıxan insan üçün müəyyən mənfi təsirlər gözlənilir. Bu bəlalardan qorunmaq üçün onun səbəbləri ilə mübarizə aparmaq, eyni zamanda bir qədər kənarda dayanmaq lazımdır. Məhz bu məqamda cəmiyyətin sağlamlığında mühüm rol oynayan iki göstərişə əməl etmək lazım gəlir.

## *İnsanlara ehtiram və onların hüquqlarına riayət olunması*

Bir qrup insan ictimai rabitələr zamanı özünü göstərməyə çalışır, gördüyü yaxşı işləri gözə soxur. Belələri təkəbbürlü rəftarları ilə özlərini yuxarı qaldırmağa, məsxərə, təhqir, qeybət, böhtan vasitəsi ilə ətrafdakıları alçaltmağa çalışırlar. Bəziləri də başqalarının haqqını tapdayıb, zülm yolu ilə onların qazancını əllərindən alırlar. Şübhəsiz ki, bu qəbil rəftarlar əxlaqa ziddir, azğın nəfs istəklərindən, şeytani meyllərdən qaynaqlanır. İnsan öz nəfsi ilə vuruşub bu kimi əməllərdən uzaq qalmalı, insanlara hörmət göstərib onların haqlarını möhtərəm saymalıdır. Bu yönümdə hamının bildiyi hikmətli bir buyuruq var: "Özünə qıymadığını başqalarına qıyma."

İslamın salamlaşmaq, əl tutmaq, qucaqlaşmaq, münasibətlərdə insafı gözləmək kimi göstərişləri səmimi rabitələrin yaradılmasına, zülmün qarşısının alınmasına xidmət edir.

Bəli, müsəlmanlar bir-birləri ilə qardaş kimi rəftar etməli, bir-birinin hüquqlarını və şəxsiyyətini qorumalıdırlar. Onların münasibətlərində əsas meyar ədalət, ehsan, sədaqət, qarşılıqlı hörmət, fədakarlıq, asayişin qorunması, sirr saxlamaq olmalıdır. Müsəlmanlar qeybət, böhtan, həsəd, təkəbbür, macəraçılıq, axtarış aparmaq, yalan, söz gəzdirmək, hiylə, məsxərə, xəyanət kimi çirkin işlərdən çəkinməlidirlər.

Bütün müsəlmanlara vacibdir ki, ətrafdakılarla, xüsusi ilə ata-anaları ilə, tərbiyəçi və ustadlarla, qonşular və yaxınlarla, din böyükləri və alimlərlə, onlara yaxşılıq etmiş istənilən bir şəxslə İslami meyarların əsasında rəftar etsinlər, başqa müsəlmanların problemlərinin aradan qaldırılmasında fəal olsunlar. Xüsusi ilə məhrumlara, zəiflərə, qocalara, müsibət görmüş insanlara diqqətli olmaq lazımdır. İmam Sadiq (ə) buyurur: "İmanlı insanlar bir-birlərinin qardaşı, vahid bir bədən

üzvləri kimidirlər. Bədənin bir hissəsi ağrıdıqda dərd o biri hissələrinə də təsir göstərir.”[1] Sədi necə də gözəl demişdir:

*Bir cana şərikdir bəşər övladı,*
*Bir gövhərdən insanların həyatı.*
*Bədənin bir üzvü ağrıyan zaman,*
*Bütün bədən ağrıyasıdır ondan.*
*Şərik deyiləsənsə elin qəminə,*
*Düzgün deyil insan deyilsin sənə.*[2]

Mömin insan müsəlmanların halına yanmalı, onlara biganə qalmamalıdır. Həzrət Peyğəmbər (s) buyurur: “Hər kəs müsəlmanların işinə əhəmiyyət vermədən sübhü açsa müsəlman deyil.[3]

Maraqlıdır ki, müsəlmanlar qeyri-müsəlmanlara münasibətdə məsuliyyət daşıyırlar və İslam dinində bu münasibətlər qanunlarla tənzimlənir. Müsəlman şəxs qeyri-müsəlmanla bağladığı müqaviləni pozmamalı, vədinə xəyanət etməməli, onu aldatmamalı, ona əskik satmamalı, onun əmanətinə xəyanət etməməli, ona zülmdən çəkinməlidir. İslam nəzərindən hətta qeyri-müsəlman şəxs də insandır və onun insanlıq haqlarına hörmət göstərilməlidir. Həzrət Əli (ə) Malik Əştərə əhdnaməsində yazır: “Öz tabeçiliyində olanlarla yırtıcı sifətlər kimi rəftar etmə, çünki onlar iki qrupdurlar: Ya sənin din qardaşlarındır, ya da yaranışda sənin kimi bir varlıqdırlar.”[4]

---

1. *“Biharul-ənvar”, c. 58, s. 148, hədis 25*
2. *“Gülüstan”, 1-ci bab, padşahların xasiyyəti, s. 61, hekayat 10*
3. *“Vəsailuş-şiə”, c. 16, s. 336, hədis 2*
4. *“Nəhcül-bəlağə”, məktublar bölməsi, məktub 53, s. 326*

## *Salam insanlar arasında dostluq üçün bir yoldur*

Söhbətimizin bu məqamında salam və onun əhəmiyyəti haqqında danışsaq yaxşı olar. Əksər insanlar görüşdükləri vaxt bir-birlərinə məhəbbətlərini bildirir, bir-birlərinə dua edib sağlamlıq arzulayırlar. Bu münasibət bəzən sözdə, bəzən əməldə özünü göstərir. İnsan qarşı tərəfə öz dili, əli ilə və ya başqa bir şəkildə məhəbbətini bildirir. Dostluq əlaqəsini bildirmək üçün müsəlmanlar arasında daha çox müraciət olunan yollardan biri salamlaşmaqdır. “Salamun ələykum” yəni Allah səni salamat etsin. Bu mübarək və pak bir salamdır. Qurani-kərimdə də salam məhəbbəti bildirmə vasitəsi kimi təqdim olunur. Saleh əməl sahibləri behiştdə bir-birlərini salamlayırlar.[1] Salam təkcə müsəlmanlara xas deyil. İslamdan öncəki qövmlər arasında da salamlaşma olmuşdur. Mələklər naməlum qiyafədə həzrət İbrahimin görüşünə gəldikləri vaxt onu salamladılar və həzrət İbrahim də onların salamını aldı.[2]

Bu mövzuda bir neçə hikmətli buyuruğu nəzərdən keçirək:

Həzrət Peyğəmbər (s) buyurur: “Sözə salamla başlayın, salamsız sözə başlayana cavab verməyin.”[3]

İmam Sadiq (ə) buyurur: “Salam verməkdən çəkinən şəxs paxıldır.”[4]

Məsumlardan nəql olunmuş hədislərdə bildirilir ki, yoldan ötən şəxs yolda dayanana, ayaq üstə olan şəxs oturana, süvari piyadaya, qatıra süvar olmuş şəxs ulağa süvar olana, ata süvar olmuş şəxs qatıra süvar olana salam versin.[5] Bəli, bahalı nəqliyyatda əyləşmiş insan salam verməlidir! Aydın olur ki, bu göstərişlər bir növ təkəbbür və lovğalıqla mübarizədir. Bəziləri

---

*1. Bax: Surə 14, “İbrahim”, ayə 23*
*2. Bax: Surə 51, “Zariyat”, ayə 25*
*3. “Vəsailuş-şiə”, c. 12, s. 56, hədis 4*
*4. Həmin mənbə, s. 59, 60, hədis 6*
*5. Həmin mənbə, s. 73, 74, hədis 1-5*

sərvət sahibi olduğundan ona salam verilməsini gözləyir. Təəssüf ki, dövrümüzdə salam itaəti bildirmək vasitəsi olmuşdur. Yoxsullar varlılara, zəiflər güclülərə salam verirlər. İnsanın azadlığını təcəssüm etdirəsi salam bu gün onun özündən varlı və güclülərə mütiliyini izhar vasitəsi olmuşdur.

Həzrət Peyğəmbər (s) uşaqları salamlayardı. Həzrət buyururdu ki, onun qiyamətədək tərk etməyəcək beş işdən biri məhz budur.[1]

Qeyd edək ki, həzrət Peyğəmbər (s) salam verməyi müstəhəb, onun cavabını almağı vacib saymışdır.[2]

## *Xalqın iffətinin qorunması*

İslam fərdi və ictimai qanunlar tənzimləməklə insanları kamilləşdirmək, onları dünya və axirət səadətinə çatdırmaq məqsədi izləyir. İslam baxımından, insan öz paklığını hifz etməli olduğu kimi cəmiyyətin də paklığı üçün çalışmalıdır. Nəticədə, günah, xəyanət, cinayət, fəsad, ayrıseçkilik, zülm-sitəmdən uzaq bir cəmiyyət qurulmalıdır. İslam nəzərincə, kimsə öz azadlığını əsas götürərək cəmiyyətin azadlığını, asayişini, iffətini ayaq altına ala bilməz. Bu səbəbdən də şəriət başqalarının maddi və mənəvi hüquqlarına təcavüz edənlərlə sərt şəkildə davranır. Beləsi həm axirət əzabı ilə qorxudulur, həm də ağır şəkildə cəzalandırılır.

İctimai həyatda hər bir fərdin rəftarı başqa fərdlərin xoşbəxtliyinə təsir göstərir. Aşkar şərabxorluq, qumarbazlıq, əxlaqsızlıq və bu kimi azğınlıqlar cəmiyyətin əxlaqi sütunlarını laxladır. Əxlaqsız həyat tərzi insanı insanlıq məqamından endirib heyvanlıq həddinədək alçaldır. İslam baxımından gizlində günah edən şəxslə aşkarda günah edən şəxs arasında əhəmiyyətli dərəcədə fərq mövcuddur. Əgər birinci şəxs yalnız özünü məhv edirsə, ikinci şəxs öz azğınlığı ilə cəmiyyəti hədələyir. Nəzəri-

*1. Həmin mənbə, s. 62, hədis 1*
*2. Həmin mənbə, s. 58, hədis 3*

nizə çatdıracağımız növbəti göstərişlər. İslamın ictimai mühiti qoruması ilə bağlı hökmlərinin kiçik bir hissəsidir:

a) İslamda naməhrəm qız və oğlanın, qadın və kişinin insanların nəzərindən uzaq, xəlvət bir yerdə qalmasına icazə verilmir. Başqalarına giriş icazəsi olmayan məkanlarda naməhrəmlərin qalması caiz deyil. Həzrət Əli (ə) buyurur: "Nə vaxt bir qadınla bir kişi xəlvətə çəkilərsə orada şeytan üçüncü şəxs olur."[1]

b) İslamda naməhrəmlərin bir-birlərinə göz gəzdirməsi, şəhvətlə baxması caiz deyil. İmam Sadiq (ə) deyir: "İnsanın baxışı şeytanın zəhərli oxlarındandır. Bir çox baxışların sonu uzun-uzadı həsrət və peşimançılıqdır."[2]

c) Qadın İslamın nəzərdə tutduğu həddə örtünməli, öz bədənini və zinətlərini naməhrəmlərə göstərməməlidir. Həzrət Əli (ə) buyurur: "Dünyanın sonu, qiyamət vaxtı dövrlərin ən pisidir və zinətlərini başqalarına göstərən, dindən çıxıb fitnəyə daxil olan, şəhvət və ləzzətə can atan, Allahın haramlarını halal sayan çılpaq qadınlar səhnəyə gələr. Bu qəbil qadınlar əbədi olaraq cəhənnəmdə qalar."[3]

ç) İslamda təhrikedici danışıqlara icazə verilmir. Naməhrəm qadınla kişi bir birləri ilə təbii, adi qaydada danışa bilər. Ehtiraslı, ədalı, fəsada çəkən zarafatlarla müşayiət olunan danışıqlar caiz deyil. Qadın öz həyəcanlı danışıqları ilə şorgöz kişidə günah fikri oyatmamalıdır. Bu göstərişlərdən aydın olur ki, İslam biganə qadın və kişilər arasında şəhvət qüvvəsini alovlandıracaq amillərin qarşısını almaq istəyir. Müqəddəs şəriətdə sağlam, istənilən bir günahdan uzaq həyat üçün fəza nəzərdə tutulur.

Ümid etmək olar ki, bu göstərişləri öyrənib ona əməl edənlər başqalarını da buna təşviq edəcək və nəticədə

---

[1] *"Mustədrəkul-vəsail", c. 14, s. 265, hədis 2*

[2] *"Vəsailuş-şiə", c. 20, s. 190, 191, hədis 1*

[3] *Həmin mənbə, s. 35, hədis 5*

sağlam, “Mədinətun-fazilə” adlanan dəyərli bir cəmiyyət qurulacaq.

**Sual:** Əgər insan qeybət və böhtan vasitəsi ilə bir müsəlmanı hörmətdən salarsa, günahını necə yumalıdır?

**Cavab:** Əgər mümkün olarsa, halallıq almaq lazımdır. Halallıq almaq mümkün olmasa və belə bir addım başqa başqa bir fəsada səbəb olsa, Allahdan həmin şəxs üçün bağışlanma diləmək lazımdır. Əgər qeybət və böhtan səbəbindən həmin şəxsə maddi və mənəvi ziyan dəymişsə, imkan həddində həmin ziyanlar ödənməlidir.

**Sual:** Bir məclisdə möminin qeybəti olunursa, eşidənin vəzifəsi nədir?

**Cavab:** İmkan olan halda mömini müdafiə etmək lazımdır. Əgər müdafiə gücü yoxsa, ən azı həmin məclisi tərk etmək zəruridir.

**Sual:** Bir şəxsin özü və ailəsi ilə bağlı araşdırma aparmaq olarmı?

**Cavab:** Xeyr. İnsanın həyatında onun telefon danışıqlarını dinləmək, məktublarını oxumaq və bu kimi başqa yollarla araşdırma aparmaq haramdır. Həzrət Peyğəmbər (s) buyurur: “Bir şəxsdən icazə almadan onun danışığına qulaq asan insanın qiyamət günü qulağına ərimiş qurğuşun tökülər.”[1]

**Sual:** Bir şəxsin sirrini cəmiyyətə açmağın hökmü nədir?

**Cavab:** İnsanın şəxsi həyatı ilə bağlı araşdırma aparmaq haramdır. Əgər bir şəxsin sirri sizə məlumdursa, onu ifşa etməməlisiniz. Əgər bir müsəlmanın sirrini açmaqla ona maddi və ya mənəvi zərər vurmuş olsanız, həm günaha batmısınız, həm də bu ziyanı ödəməlisiniz.

---

*1. “Biharul-ənvar”, c. 73, s. 340, hədis 8*

**Sual:** İnsanların bir-birlərinin başına və üzünə baxmasının hökmü nədir?

**Cavab:** Bu iş müxtəlif formalarda baş verə bilər:

1. Ləzzət və şəhvət məqsədi ilə kişinin kişi, qadının qadın bədəninə baxması haramdır. Əgər şəhvətsiz olarsa, eybi yoxdur. Amma ayıb yerə baxmaq istənilən bir halda haramdır.

2. Qadının naməhrəm kişinin bədəninə baxması haramdır. Yalnız baş, üz və əl kimi üzvlər istisnadır. Kişilərin adətən açıq saxladığı bədən üzvlərinə ləzzət almaq məqsədi olmadan baxmaq mümkündür.

3. Kişi naməhrəm qadının başına, bədəninə və tükünə hətta ləzzət məqsədi olmadan baxa bilməz.

4. Bacı və qardaş, ata və qız, ana və oğul kimi məhrəm kişi və qadınlar ləzzət məqsədi olmadan bir-birlərinə baxa bilərlər. Amma vacib ehtiyata əsasən adətən örtünən yerlərə baxmamalıdırlar.

**Sual:** Həkimin naməhrəm xəstəyə baxması, ona toxunması caizdirmi?

**Cavab:** Əgər eyni cinsdən olan və ya məhrəm həkimə müraciət etmək mümkün deyilsə və həkim müalicə üçün naməhrəmin bədəninə baxmağa məcburdursa, bunun eybi yoxdur. Zəruri halda toxunmaq da caizdir. Amma yalnız ehtiyac olan həddə bu işi görmək olar.

**Sual:** Qadın naməhrəm kişidən hansı həddə örtünməlidir?

**Cavab:** Qadın naməhrəmlərdən bədənini, başını, saçını örtməlidir. Əgər naməhrəm kişiyə göstərmək məqsədi yoxsa, üzü və əlləri örtməyə bilər. Hər halda üz və əllər örtülsə daha yaxşıdır. Amma ayaqları örtmək vacibdir. Vacib ehtiyata əsasən bədən elə bir şəkildə örtülməlidir ki, onun hündür-alçaqlığı, qabarıq yeri bilinməsin.

**Sual:** Naməhrəm qadın və kişi bir-birlərinin səsini eşidə bilərmi?

**Cavab:** Əgər ləzzət almaq məqsədi yoxsa eşidə bilərlər. Əgər qadının səsi həyəcanlandırıcı olarsa və kişini təhrik edərsə, ehtiyata əsasən onu dinləməmək lazımdır.

**Sual:** Qadın ictimai həyatın müxtəlif sahələrində fəaliyyət göstərə bilərmi?

**Cavab:** Qadın müəyyən şərtlər daxilində ictimai fəaliyyətlə məşğul ola bilər. Bundan ötrü cəmiyyətin iffətini qorumaq, harama düşməmək lazımdır. İctimai fəaliyyətlər ər və övladların hüququnu pozmursa, eybi yoxdur. Bununla belə, Quran və rəvayətlərə əsasən zərurət olmayan hallarda qadının naməhrəm olan cəmiyyətdə görünməməsi daha yaxşıdır.

**Sual:** Qadın elə bir peşə seçə bilərmi ki, həmin peşədə hicaba riayət etmək mümkün olmasın?

**Cavab:** Hicab qadın üçün İslamın zəruri hökmlərindəndir. Qadın elə bir peşə seçməlidir ki, hicabını qoruya bilsin.

# İyirmi beşinci fəsil

## *Yemək-içməyin hökmləri və qaydaları*

Qurani-kərimdə buyurulur: “Ey iman gətirənlər, sizə ruzi etdiyimiz pak qidalardan yeyin və Allaha şükr edin.”[1]

İnsan öz həyatını davam etdirmək üçün qidalanmaya möhtacdır. Amma qidaların kəmiyyət və keyfiyyətinə diqqətli olmaq lazımdır. Allah-taala buyurur: “İnsan öz təamına diqqətli olmalıdır.”[2]

İnsan yemək-içməyə o qədər həvəskar olmamalıdır ki, nə yediyinin fərqinə varmasın. Bu halda nəinki qidalar faydasız olar, hətta insana böyük zərər verər.

Həzrət Peyğəmbər (s) buyurur: “Allaha qarşı öncə altı qiyam vasitəsi olmuşdur: dünyapərəstlik, rəyasətpərəstlik, qarınquluuq, şəhvətpərəstlik, çox yatmaq, rahattələblik.”[3] Rəvayətdə nəql olunur ki, Peyğəmbərdən (s) soruşdular: “İnsanı cəhənnəmə daha çox çəkən nədir?” Həzrət (s) buyurdu: “Qarın və qarının aşağısı (şəhvət).”[4]

*Yaşamaq, zikr üçün yeməli insan,*

---

*1. Surə 2, “Bəqərə”, ayə 172*
*2. Surə 80, “Əbəsə”, ayə 24*
*3. “Biharul-ənvar”, c. 63, s. 313, 314, hədis 1*
*4. Həmin mənbə, s. 314, hədis 5*

Düşünmə yeməkçün yaşamalısan.[1]

## *Qidalanma ilə bağlı qadağalar*

Qidalanma miqdarı insanın ruhuna təsirlidir. Ayrı-ayrı qidalarda fərqli əxlaqi və fiziki təsirlər var. İslam dini bütün bu nöqtələri nəzərə alaraq qidalanma ilə bağlı qadağalar qoyur. Onlardan bəzilərini nəzərdən keçirək:

***1. Çox yemək***

Bir çox xəstəliklərin səbəbi insan bədənində həzm olunmayan yağlı xörəklərdir. Bu qidalar insanın ürəyi, digər bədən üzvləri üçün ağır bir yükdür. Bədəndə yığılmış bu qidalar müxtəlif mikrobların, xəstəliklərin yaranmasına səbəb olur. Bu problemlərdən kənarda qalmaq üçün qidalanmada orta həddi gözləmək, qarın qululuqdan çəkinmək lazımdır. Allah-taala buyurur: "Yeyin və için, amma israf etməyin. Allah israfçıları sevməz."[2]

*Çox yemə ağzından qayıdar geri,*
*Az yemə cisminə olmaz əsəri.*[3]

Bu mövzu ilə bağlı bir neçə hikmətli buyuruğu nəzərdən keçirək:

Həzrət Peyğəmbər (s) buyurur: "Mömin insan bir qarın, münafiq isə yeddi qarın yeyir."[4]

Həzrət Əli (ə) buyurur: "Yalnız ac olanda süfrəyə əyləş. Nə qədər ki iştahan qalıb süfrədən qalx. Qidanı yaxşı çeynə. Yatmazdan qabaq ayaqyoluna get. Deyilənlərə əməl etsən, həkim və dərmana möhtac olmazsan."[5]

---

*1. "Gülüstan", 3-cü bab, qənaətin fəziləti, s. 148, hekayət 5*
*2. Surə 7, "Əraf", ayə 31*
*3. "Gülüstan", 3-cü bab, qənaətin fəziləti, s. 149, hekayət 7*
*4. "Vəsailuş-şiə", c. 24, s. 241, hədis 6*
*5. Həmin mənbə, s. 245, hədis 8*

İmam Baqir (ə) buyurur: "Allahı ən çox qəzəbləndirən dolu qarındır."[1]

İmam Sadiq (ə) buyurur: "İnsan öz həyatını davam etdirmək üçün qidalanmağa məcburdur. Amma qidalanarkən qarının üçdə birini yemək, üçdə birini içmək, üçdə birini nəfəs almaq üçün nəzərdə tutmaq lazımdır. Özünüzü kəsim üçün saxlanılan donuzlar kimi kökəltməyin."[2]

Nəql olunur ki, Harun ər Rəşidin öz məharəti ilə tanınan məsihi bir həkimi vardı. Bir gün həmin həkim İslam alimlərindən birinə dedi: "Mən sizin səmavi kitabda tibblə bağlı bir yazı görməmişəm. Hansı ki, iki elm faydalıdır: din elmi və sağlamlıq elmi." Alim ona belə cavab verir: "Allah-taala bütün tibbi göstərişləri öz kitabının ikidə bir ayəsində belə bəyan edir: "Yeyin və için, israf etməyin." Peyğəmbərimiz (s) də bütün tibbi bir cümlədə xülasələşdirmişdir: "Mədə bütün xəstəliklərin evidir. Pəhriz ən yaxşı dərmandır..." Məsihi həkim deyilənlərə münasibətini belə bildirir: "Sizin Quran və Peyğəmbəriniz (s) Calinus üçün tibbdən bir şey saxlamayıb."[3]

Sədi deyir: "Bir abid gecə 10 mən (ölçü) təam yeyər və səhərədək Quran oxuyardı. Bir hal əhli bu barədə eşidib dedi: "Əgər bir tikə çörək yeyib səhərədək yatsaydı bundan daha yaxşı idi."[4]

### *2. Haram qidalanma*

İnsanın qidaları halal olmalıdır. Haram yolda əldə olunmuş qidalardan çəkinmək lazımdır. Yalnız aclıq və susuzluqdan ölmək təhlükəsi yarandıqda və halal bir şey tapılmadıqda təhlükədən qurtarmaq üçün bir miqdar halal olmayan şey yemək olar. Hər halda həmin şeyin əvəzini sahibinə qaytarmaq lazımdır.

---

[1] *Həmin mənbə, s. 248, hədis 2*

*2. Həmin mənbə, s. 240, hədis 5*

*3. "Məcməul-bəyan", c. 2, s. 413*

*4. "Gülüstan", 2-ci bab, dərvişlərin əxlaqı haqqında, s. 118, hekayət 21*

Bu mövzuda həzrət Peyğəmbərin (s) bir neçə buyuruğunu nəzərdən keçirək:

a) “Bir tikə haram yeyənin 40 gecə namazı, 40 sübh duası qəbul olmaz. Bədənində həmin tikədən yaranan ət cəhənnəm odunda yanmağa layiqdir...”[1]

b) Qidada dörd xüsusiyyət olarsa o kamil qidadır: Halal yolla əldə edilsin, başqaları da ondan bəhrələnsin, qidalanmadan öncə Allahın adı çəkilsin, qidalanmanın sonunda Allaha həmd-səna deyilsin.”[2]

C) Halal qida yeyənin başı üzərində mömin mələk süfrə yığışanadək həmin şəxs üçün bağışlanma diləyər. Haram tikə yeyənə isə göyün və yerin bütün mələkləri lənət yağdırar. Nə qədər ki, həmin tikə ağzındadır, Allah ona mərhəmət nəzərini salmaz...”[3]

***3. Haram və murdar şeylərlə qidalanmaq***

İnsan şəriətdə haram buyurulmuş şeylərdən çəkinməlidir. Yalnız insanın həyatı üçün təhlükə yarandıqda və halal bir şey tapılmadıqda halal olmayan şeylərdən istifadə etmək mümkündür.

Yuxarıdakı üç qadağanın fəlsəfəsi vardır. Həmin qadağalar insanın mənəvi və fiziki durumunu tam nəzərə almaqla tənzimlənmişdir. Bəzi rəvayətlərdə bildirilir ki, leş (qanuni kəsilməmiş heyvan əti) yemək insanı zəiflədir, nəsil davamına mane olur. Ardıcıl şəkildə bu sayağı qidalanan qəfil ölümə düçar olur.[4]

İslamda haram sayılan qidalardan bəzilərini nəzərdən keçirək:

a) Şərab və məstedici içkilər içmək; Həzrət Peyğəmbər (s) buyurur: “Şərab bütün günahların köküdür.” [5] Müxtəlif

---

*1. “Biharul-ənvar”, c. 63, s. 314, 315, hədis 7*
*2. Həmin mənbə, c. 314, hədis 2*
*3. Həmin mənbə, hədis 6*
*4. “Vəsailuş-şiə”, c. 24, s. 100, hədis 1*
*5. Həmin mənbə, c. 25, s. 315, hədis 4*

rəvayətlərdə şərab olan süfrədə əyləşmək qadağan olunur. Həzrət Peyğəmbər (s) buyurur: “Şərab olan süfrədə əyləşən şəxs lənətlənir.”[1]

Əgər ağıllı və büluğ həddinə çatmış bir şəxs öz istəyi ilə bilərəkdən hətta az miqdarda şərab içərsə və onun bu günahı şəri hakimə sübut olunarsa, həmin şəxsə 80 qamçı cəza təyin olunar.

B) İt və donuz kimi murdar heyvanın əti və südü; pələng, aslan, qepard (ov pələngi), qurd, kaftar, çaqqal, tülkü və pişik kimi yırtıcıların, fil, ayı, meymun və dovşan kimi heyvanların, ilan, siçan, kərtənkələ, kimi sürünənlərin, xərçəng, arı, qarışqa, milçək, ağcaqanad, mayböcəyi, yarasa və əqrəb kimi həşəratların yeyilməsi haramdır.

C) Murdarlanmış şeylər və vacib ehtiyata əsasən, insanda nifrət yaradan şeylər;

ç) İnsanın cismi və ruhu üçün zərərli olan şeylərin qəbulu; yalnız həkim zəruri saydığı hallarda müəyyən miqdarda qəbul etmək olar.

## *Qidalanmanın müstəhəb əməlləri*

1. Yeməyə başlamazdan öncə və yeməkdən sonra əlləri yumaq;
2. Yeməkdən öncə “Bismillahir-Rəhmanir-Rəhim” söyləmək, yeməkdən sonra Allaha həmd-səna demək;
3. Sağ əllə yemək və vaxtı uzatmaq;
4. Kiçik tikələr götürmək və yaxşı çeynəmək;
5. Yeməkdən sonra dişləri fırçalamaq;
6. Yeməkdən sonra bir qədər arxası üstə yatmaq və sağ ayağı sol ayağın üzərinə aşırmaq;
7. Günün və gecənin əvvəlində yemək; gündüz və gecə arası yeməkdən çəkinmək.

---

*1. Həmin mənbə, c. 24, s. 232, hədis 1*

## *Qidalanmada məkruh əməllər*

1. Tox halda yemək;
2. Çox yemək;
3. Qaynar xörək yemək;
4. Yemək və ya içkini üfürmək.

## *Su içərkən müstəhəb olan əməllər*

1. Gündüz ayaq üstə su içmək;
2. Suyu soraraq, üç nəfəsə və istəklə içmək;
3. İçməzdən öncə "Bismillahir-Rəhmanir-Rəhim", sonra "Əlhəmdulillah" söyləmək; İmam Hüseyn (ə) və onunköməkçilərinə salam göndərmək, onların qatillərini lənətləmək.

## *Su içərkən məkruh olan əməllər*

1. Yağlı xörəkdən sonra su içmək;
2. Gecə vaxtı ayaq üstə su içmək;
3. Sol əllə su içmək;
4. Kuzə, stəkan və ya istənilən bir qabın sınıq yerindən və qulpu olan yerdən su içmək;

**Sual:** Dəniz heyvanlarından hansıları halal, hansıları haramdır?

**Cavab:** Dəniz heyvanları arasında krevet (meyqu) və pullu balıqlar halaldır. Pullu balığın pulu tökülsə də halal sayılır. Pulsuz balıqlar, xərçəng, balina və qurbağa kimi canlılar haramdır.

**Sual:** Hansı quşların əti halal, hansılarınkı haramdır?

**Cavab:** Caynağı olan qızılquş, kərkəs, şahin kimi quşların əti haramdır. Vacib ehtiyata əsasən, qaranquş, hud-hud kimi quşların ətindən də çəkinmək lazımdır. Amma göyərçin, kəklik, ev toyuğu, ördək, hind toyuğu və müxtəlif sərçələrin əti halaldır.

**Sual:** Uşaqlar murdarlanmış şeydən yeyə bilərmi?

**Cavab:** Xeyr. Uşaqlara zərər verəcəyi təqdirdə onların həmin şeydən yeməsi haramdır. Hətta zərəri olmasa da, vacib ehtiyata əsasən, həmin qidalardan çəkinməlidirlər.

**Sual:** Bir şəxsin murdar şey yediyini görsək ona bir söz deməliyikmi?

**Cavab:** Xeyr. Amma həmin şəxs yediyi şeyin haram olduğunu bilmirsə, onu məlumatlandırmaq lazımdır.

**Sual:** Əgər bir qonaq verilən yeməklərin murdar olduğunu bilsə, başqalarına deməlidirmi?

**Cavab:** Xeyr. Amma deməyəcəyi halda murdarlığın özünə də sirayət edəcəyini görərsə, yeməkdən sonra deyə bilər.

**Sual:** Əgər insanın qidasından bir hissəsini heyvan yeyərsə, onun qalan hissəsini yemək olarmı?

**Cavab:** İt, donuz və kitab əhli olmayan kafirin artığı nəcis və yemək haramdır. Əti haram olan heyvanların artığı pakdır. Amma həmin qidanı yemək məkruhdur.

## *İstifadə olunmuş ədəbiyyatlardan bir hissəsi*


1. Əllamə Məhəmməd Baqir Məclisi, “Biharul-ənvar”
2. Şeyx Sədi, “Bustan”
3. Təbərsi, “Təfsire-Məcməul-bəyan”
4. “Təfsire-nümunə”
5. Ayətullah-üzma Musəvi Ərdəbilinin fətvaları əsasında “İzahlı şəriət məsələləri”
6. Beyhəqi, “Əs-sunənul-kubra”
7. İbn Əbül-Hədid, “Şərhi-nəhcül-bəlağə”
8. Kuleyni, “Əl-kafi”
9. Əlaəddin Əli Muttəqi Hindi, “Kənzul-ummal”
10. Şeyx Sədi, “Gülüstan”
11. Mirza Hüseyn Nuri Təbərsi, “Mustədrəkul-vəsail”
12. Əhməd ibn Hənbəl, “Məsnədi-Əhməd”
13. İbnul-Üxvə, “Məalimul-qurbə”
14. Doktor Seyid Cəfər Şəhidi, “Nəhcül-bəlağə”
15. Məhəmməd ibn Həsən Hürr Amili “Vəsailuş-şiə”

# *Mündəricat*

***Oxuculara*..............................................................5**

***Birinci hissə*..........................................................9**
***Əqidə əsasları və dini inanclar*.................................9**
***Birinci fəsil*.........................................................11**

Dinlə tanışlıq........................................................................ 11
***İkinci fəsil*..........................................................13**

Dinin əsasları (üsuli-din) və dini inancların gücləndirilməsi............ 13

Dini inancların gücləndirilməsi yolları .............................................. 15
***Üçüncü fəsil*.........................................................18**

Allahın varlığı aydın bir həqiqətdir .................................................. 18

Allaha iman fitri tələbdir .................................................................. 19

Allahın inkar edilməsi amilləri ......................................................... 20
***Dördüncü fəsil*.......................................................22**

Allahın sifətləri ................................................................................ 22

1. Allahın sübuti sifətləri və ya camal sifətləri ................................. 22

2. Səlbi sifətlər və ya cəlal sifətləri.................................................... 23

Allah başdan-başa kamil vücuddur.................................................... 23
***Beşinci fəsil*..........................................................27**

Allahın misilsizliyi............................................................................ 27

Birinci yol:......................................................................................... 27

Varlıq aləmində mövcud olan nizam ................................................. 27

İkinci yol:........................................................................................... 29

Peyğəmbərlərin təkallahçılığı və onların yeganə Allaha doğru çağırışı29

Üçüncü yol:........................................................................................ 29

Əqli dəlillər......................................................................................... 29

Yeganə Allaha etiqadın faydaları və tə’sirləri ................................... 30

***Altıncı fəsil......................................................................32***

Allahın ədaləti.......................................................................... 32

Allahın zülmdən uzaqlığının dəlili .................................................. 32

İnsanların fərqli durumu Allahın ədalətsizliyini göstərmir ............... 33

***Yeddinci fəsil ......................................................................36***

Peyğəmbərlik (nübüvvət)................................................................ 36

Peyğəmbərlərin səciyyələri............................................................. 37

Peyğəmbərləri tanımaq yolları......................................................... 38

İlahi peyğəmbərlərin sayı ............................................................... 39

Peyğəmbərlərin məqamı ................................................................. 40

***Səkkizinci fəsil......................................................................42***

İslam peyğəmbəri (s) ..................................................................... 42

İslam Peyğəmbərinin (s) həyatından səhifələr .................................. 44

Həzrət Məhəmmədin (s) peyğəmbərliyini tanımaq yolları ............... 47

***Doqquzuncu fəsil..................................................................50***

Son şəriət ...................................................................................... 50

İslam Peyğəmbəri (s) son peyğəmbərdir.......................................... 50

İslamın ümumi prinsipləri bütün dövrlərlə bağlı suallara cavab verir 52

***Onuncu fəsil ........................................................................54***

Məad və ya qiyamət........................................................................ 54

Məadın dəlilləri............................................................................... 54

a) Hikmət dəlili .............................................................................55

b) Ədalət dəlili ..............................................................................56

Qurani-məciddə məad...................................................................... 57

Məadın inkar olunmasının səbəbləri................................................. 58

Məada etiqadın faydaları və təsirləri................................................. 59

Bərzəx, dünya və axirət arası aləm .................................................. 60

***On birinci fəsil......................................................................61***

İmamət və müsəlmanlara rəhbərlik................................................... 61

İmama ehtiyacın dəlilləri ................................................................. 61

İmamın imtiyazları və xüsusiyyətləri ................................................ 63

İmam Əli (ə) Peyğəmbərin (s) ilk canişinidir ................................... 64

Dini rəhbərlərin həyatından ............................................................. 66

1. İmam Əli (ə) ........................................................................ 66
2. İmam Həsən (ə) ..................................................................... 67
3. İmam Hüseyn (ə) ................................................................... 67
4. İmam Əli ibn Hüseyn (ə) (Zeynülabidin, Səccad) ........................ 68
5. İmam Məhəmməd ibn Əli (ə) ..................................................... 68
(İmam Məhəmməd Baqir) ............................................................. 68
6. İmam Cəfər ibn Məhəmməd (ə) .................................................. 68
(İmam Cəfər Sadiq) .................................................................... 68
7. İmam Musa ibn Cəfər (ə) (imam Kazim) ...................................... 69
8. İmam Əli ibn Musa (ə) (İmam Riza) ............................................ 69
9. İmam Məhəmməd ibn Əli (ə) ..................................................... 70
(İmam Məhəmməd Təqi, Cavad) ................................................... 70
10. İmam Əli ibn Məhəmməd (ə) .................................................... 70
(İmam Əliyyən Nəqi, Hadi) ........................................................... 70
11. İmam Həsən ibn Əli (ə) (İmam Həsən Əskəri) ............................. 71
12. İmam Mehdi (ə.c.) .................................................................. 71

***On ikinci fəsil ........................................................... 72***

Qeybə çəkilmiş imam ..................................................................... 72

Həzrət Mehdinin (əc) zühurunun gözlənilməsi (intizar) .................... 73

İntizarın təsirləri ............................................................................ 74

1. Fərdi özünü tərbiyə ................................................................ 74
2. İctimai həmkarlıq ................................................................... 74
3. Ümidvarlıq ............................................................................ 74

***İkinci hissə ................................................................ 77***

***Əxlaq və batini sifətlərin tarazlığı ................................. 77***

***Birinci fəsil ............................................................... 79***

İnsan xoşbəxtliyində əxlaqın rolu ................................................... 79

Əxlaqi və tərbiyəvi işlərin yeri ........................................................ 80

***İkinci fəsil ................................................................ 83***

Bəzi əxlaqi sifətlər ......................................................................... 83

1. Yalan ......................................................................................... 83

2. Həsəd ........................................................................................ 85

3. Təkəbbür ... 86

4. Yersiz qəzəb ... 87

5. Özününümayiş və riyakarlıq ... 89

6. Başqalarının hörmətdən salınması ... 91

***Üçüncü fəsil ... 95***

Ata-anaya yaxşılıq ... 95

Övladlıq vəzifələrindən nümunələr ... 96

Ana daha çox hörmətə layiqdir ... 98

***Dördüncü fəsil ... 100***

Müəllim və tərbiyəçiyə ehtiram ... 100

Müəllim və tərbiyəçinin haqları ... 101

***Beşinci fəsil ... 103***

Dost və dostluq qaydaları ... 103

Səmimi dostun xüsusiyyətləri ... 104

***Üçüncü hissə ... 109***

***Hökmlər (əhkam) və dini vəzifələr ... 109***

***Birinci fəsil ... 111***

Vəzifələr və dini göstərişləri bilmək ... 111

Vəzifələrin növləri və onların ümumi şərtləri ... 114

***İkinci fəsil ... 117***

Murdarlar (nəcasət) və bulaşıqlıqlar ... 117

1. Sidik və nəcis ... 119
2. Məni (sperma) ... 119
3. Leş (heyvan ölüsü) ... 119
4. Qan ... 120
5. İt və donuz ... 121
6. Kafir ... 121
7. Məstedici mayelər ... 122

***Üçüncü fəsil ... 124***

Pakedicilər ... 124

a) Su ... 124

1. Kürr su ... 125
2. Axar su ... 125

3. Yağış suyu ........................................ 125
4. Quyu suyu ........................................ 125
5. Az su ........................................ 125

b) Torpaq: ........................................ 126

c) Günəş: ........................................ 127

ç) İstihalə: ........................................ 127

d) İntiqal (nəqlolma): ........................................ 128

e) Təbəiyyət (tabeçilik) ........................................ 128

***Dördüncü fəsil ........................................ 129***

Ayaqyolunun hökmləri ........................................ 129

Ayaqyolu ilə bağlı vacib əməllər ........................................ 130

Müstəhəb əməllər ........................................ 131

Məkruhlar ........................................ 132

***Beşinci fəsil ........................................ 134***

Dəstəmaz ruhu işıqlandırır ........................................ 134

Dəstəmazın təsirləri və nəticələri ........................................ 135

Dəstəmazın yerinə yetirilmə qaydası ........................................ 136

Dəstəmazın şərtləri ........................................ 139

Hansı işlərdən qabaq dəstəmaz almaq vacibdir? ........................................ 140

Dəstəmazı batil edən işlər ........................................ 140

***Altıncı fəsil ........................................ 143***

Qüsl cisim və ruhun paklığıdır ........................................ 143

Qüslün yerinə yetirilmə qaydaları ........................................ 143

Qüslün növləri ........................................ 144

Cünub şəxsə haram sayılan işlər ........................................ 144

Cünub şəxsə məkruh olan işlər ........................................ 145

***Yeddinci fəsil ........................................ 149***

Təyəmmüm təvazö və təslim olmaq nişanəsidir ........................................ 149

İnsan nə vaxt təyəmmüm etməlidir? ........................................ 150

Nələrə təyəmmüm etmək olar? ........................................ 151

Təyəmmümün qaydaları ........ 151
***Səkkizinci fəsil........ 153***
Namaz bəndəliyin əzəmətidir ........ 153
Namazın növləri ........ 156
a) Müstəhəb namazlar ........ 157
b) Vacib namazlar ........ 158
***Doqquzuncu fəsil........ 160***
Namazın bəzi şərtləri və müqəddimələri ........ 160
Namaz qılan şəxsin libası ........ 160
Namaz qılanın yeri ilə bağlı şərtlər........ 164
Namaz qılınan yerlə bağlı müstəhəb və məkruh hallar........ 165
Qiblə sıraların vəhdət amilidir ........ 166
***Onuncu fəsil ........ 169***
Nəzmullah - azan və iqamə şüarları........ 169
Azanın mətni........ 170
İqamənin mətni ........ 171
***On birinci fəsil........ 174***
Namazda vacib olanlar ........ 174
Namazın rüknləri ........ 174
1. Niyyət........ 174
2. Qiyam........ 175
3. Təkbirətul-ehram........ 176
4. Rüku ........ 176
5. Səcdələr........ 177
Namazın rükn olmayan vacib əməlləri ........ 180
1. Qiraət........ 180
2. Təşəhhüd ........ 181
3. Salam........ 182
4. Zikr........ 182
5. Tərtib........ 182
6. Movalat ........ 182
***On ikinci fəsil ........ 183***
Namazın tərtibi və tərcüməsi ........ 183
Namazın təqibatı........ 187

***On üçnücü fəsil* .......... *188***

Namazı batil edənlər .......... 188

***On dördüncü fəsil* .......... *193***

Camaat namazı İslami birliyin təcəssümüdür .......... 193

Camaat namazının şərtləri .......... 194

Camaat namazının qılınma qaydası .......... 195

Camaat namazında müstəhəb olanlar .......... 195

Camaat namazında məkruh olanlar .......... 196

***On beşinci fəsil* .......... *199***

Məscid Allaha pərəstiş ocağıdır .......... 199

Məscidin hökmləri .......... 200

***On altıncı fəsil* .......... *203***

Quran əbədi möcüzədir .......... 203

Quranın hökmləri .......... 203

Quranın vacib səcdəli surələri .......... 205

***On yeddinci fəsil* .......... *207***

Oruc təqva və pəhrizkarlıq zəminidir .......... 207

Orucun faydaları və təsirləri .......... 208
a) Tərbiyəvi təsir .......... 208
b) İctimai təsir .......... 209

Pak niyyət orucun əsasıdır .......... 210

Orucun bəzi hökmləri .......... 211

Orucu batil edənlər .......... 211
1. Yemək və içmək .......... 211
2. İstimna .......... 212
3. Allah və məsumların adından yalan söyləmək .......... 212
4. Qatı tozun boğaza çatması .......... 213
5. Başı tam şəkildə suya salmaq .......... 213
6. Sübh azanınadək cənabət, heyz və ya nifas .......... 214
halında qalmaq .......... 214
7. Qusmaq .......... 215

Orucun kəffarəsi .......... 215

Müsafirin orucu .......... 215

Kimlərə oruc tutmaq vacib deyil? ... 216
***On səkkizinci fəsil ... 219***
İslamda maddi məsuliyyətlər, həmdərdlik ... 219
Xüms ... 220
Xümsün xərclənməsi ... 220
Nələrə xüms düşür? ... 221
Malın zəkatı ... 222
Nələrə zəkat düşür? ... 223
Zəkatın sərf olunması ... 223
Fitriyyə ... 224
Fitriyyənin miqdarı ... 224
Fitriyyənin xərclənmə ünvanları ... 224
Fitriyyə ödənməsinin vaxtı ... 225
Müstəhəb sədəqə və Allah yolunda infaq ... 225
Zülmün aradan qaldırılması ("Rədde-məzalim") ... 227
Kəffarələr ... 227
***On doqquzuncu fəsil ... 228***
Həcc böyük İslam konfransıdır ... 228
Həccin təsirləri və yönümləri ... 228
1. Ruhi dəyişiklik, özünütərbiyə ... 228
2. İslam ümmətinin birliyi ... 229
3. İslam maarifinin yayılması ... 229
4. İqtisadi dayaqların möhkəmləndirilməsi ... 230
***İyirminci fəsil ... 232***
Cihad behişt qapılarındandır ... 232
Cihadın növləri ... 233
***İyirmi birinci fəsil ... 236***
Əmr be məruf və nəhy əz munkər (yaxşılığa dəvət və pislikdən çəkindirmək) ictimai bir nəzarətdir ... 236
Əmr be məruf və nəhy əz munkərin şərtləri ... 238
Əmr be məruf və nəhy əz munkərin mərhələləri ... 240

Bir neçə tövsiyə ........ 240

***İyirmi ikinci fəsil ........ 243***

Halal və haram qazanclar ........ 243

İş və zəhmətin əhəmiyyəti ........ 243

Var-dövlətə əsir olmaq bəyənilmir ........ 244

Ticarət, alış-veriş ........ 245

Satıcı və alıcı ilə bağlı şərtlər ........ 246

Batil müamilə ........ 246

Qeyri-şəri qazanclar haqqında ........ 248

1. Oğurluq ........ 249
2. Quldurluq ........ 249
3. Möhtəkirlik ........ 249
4. Əskik satmaq ........ 249
5. Qumar ........ 250
6. Rüşvətxorluq ........ 250
7. Sələmçilik ........ 250

***İyirmi üçüncü fəsil ........ 253***

Əyləncə və istirahət insanın fiziki və mənəvi ehtiyacıdır ........ 253

Bəzi əyləncələr haqqında ........ 254

Musiqi və avaz ........ 256

Haram musiqinin mənfi təsirləri ........ 257

***İyirmi dördüncü fəsil ........ 260***

İctimai rabitələr və ünsiyyət qaydaları ........ 260

İnsanlara ehtiram və onların hüquqlarına riayət olunması ........ 261

Salam insanlar arasında dostluq üçün bir yoldur ........ 263

Xalqın iffətinin qorunması ........ 264

***İyirmi beşinci fəsil ........ 269***

Yemək-içməyin hökmləri və qaydaları ........ 269

Qidalanma ilə bağlı qadağalar ........ 270

1. Çox yemək ........ 270
2. Haram qidalanma ........ 271
3. Haram və murdar şeylərlə qidalanmaq ........ 272

Qidalanmanın müstəhəb əməlləri ........ 273

Qidalanmada məkruh əməllər ........................................................ 274
Su içərkən müstəhəb olan əməllər .................................................. 274
Su içərkən məkruh olan əməllər ..................................................... 274
İstifadə olunmuş ədəbiyyatlardan bir hissəsi .................................. 276
Mündəricat........................................................................................ 277




***Ayətullah əl-üzma***

***Seyid Əbdülkərim Musəvi Ərdəbilinin***

***“İZAHLI ŞƏRİƏT MƏSƏLƏLƏRİ”***

***kitabi yeni nəşr olunmuşdur, dini mağazalardan ala bilərsiz!***

**Website:** www.ardebili.org
**E-mail: mousavi@ardebili.org**